FBT

# Funksionallıq, Əlillik və Sağlamlığın Beynəlxalq Təsnifatı

Ümumdünya Səhiyyə Təşkilatı
Cenevrə

FƏBT

# Funksionallıq, Əlillik və Sağlamlığın Beynəlxalq Təsnifatı

**Ümumdünya Səhiyyə Təşkilatı**
**Cenevrə**

Published by the World Health Organization in 2001
**International Classification of Functioning, Disability and Health**
© World Health Organization 2001

The Director General of the World Health Organization has granted publication rights for an edition in Azeri to the Ministry of Health of Azerbaijan Republic
**Funksionallıq, Əlillik və Sağlamlığın Beynəlxalq Təsnifatı**
© World Health Organization 2008

ÜST-nin kitabxana xidməti, nəşrlərin kataloqlaşdırılması

Funksionallıq, həyat fəaliyyətinin məhdudiyyəti və sağlamlıq beynəlxalq təsnifatı

1. İnsan inkişafı 2. Orqanizmin quruluşu 3. Sağlamlıq statusu
4. Əlilliyin qiymətləndirilməsi 5. Sosial-iqtisadi amillər 6. Səbəb 7. Təsnifat

© World Health Organization, 2001

© Ümumdünya Səhiyyə Təşkilatı, 2008

Müəllif Hüquqları Ümumdünya Konvensiyasının 2 saylı Protokolunun əsasnamələrinə müvafiq olaraq Ümumdünya Səhiyyə Təşkilatının nəşrləri üzərindəki müəllif hüquqları saxlanılır. Bütün hüquqlar qorunur.

Ümumdünya Səhiyyə Təşkilatının Katibliyi tərəfindən istifadə edilmiş adlar və təqdim edilmiş materiallar hər hansı bir ölkənin, ərazinin, şəhərin və ya vilayətin hüquqi statusuna və ya onların hakimiyyətinə, və ya hüdud və ya sərhədlərinin təyin edilməsinə yönəlmiş hər hansı bir fikri özündə əks elətdirmir.

Bəzi təşklitatların və ya məhsul istehlakçılarının adının çəkilməsi onların Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən kitabda qeyd edilməyənlərlə müqayisədə dəstəkləndiyi və ya məsləhət görüldüyü anlamına gəlmir. Səhv və buraxılmalar istisna edilir, patentləşdirilmiş məhsulların adları baş hərflə qeyd edilib.

# Mündəricat


| | |
|---|---|
| Ön söz | 3 |
| FBT-nin məqsədləri | 5 |
| FBT-nin xüsusiyyətləri | 7 |
| FBT tərkibinin təsviri | 10 |
| Funksionallıq və həyat fəaliyyətinin məhdudlaşmasının modeli | 17 |
| FBT-dən istifadə | 20 |
| Orqanizmin funksiyaları | 25 |
| Orqanizmin strukturları | 63 |
| Fəallıq və iştirak | 73 |
| Ətraf mühit amilləri | 106 |
| Əlavələr | 132 |

# 1. Ön söz

Hazırkı nəşr Funksionallıq, sağlamlıq və həyat fəaliyyəti məhdudiyyətinin beynəlxalq təsnifatından (qısaca olaraq FBT[1]) ibarətdir. FBT-nin əsas başlıca məqsədi – sağlamlıq göstəricilərinin və sağlamlıqla bağlı olan göstəricilərin çərçivəsinin təyin edilməsi və vahid standart şəklə salınmış standart dillə təsvirini təmin etməkdir. FBT sağlamlıq və sağlamlıqla bağlı olan rifahın (təhsil və əmək kimi) bir sıra tərkib hissələrinə dəqiqlik gətirir. Beləliklə, FBT-nin tərkibində olan domenlərə[2] sağlamlıq domenləri və ya sağlamlıqla bağlı domenlər kimi baxıla bilər. Bu domenlər orqanizm, fərd və cəmiyyət mövqelərinə istinad edilərək 2 əsas siyahının köməyi ilə təsvir edilmişdir: 1) orqanizmin funksiyası və quruluşu (B - Body), 2) aktivlik (A - Activity) və iştirak (P - Participation)[3]. Təsnifat kimi FBT sağlamlığında müəyyən dəyişiklər baş vermiş fərdin (misal üçün xəstələnmiş və ya sağlamlıq problemi olan fərdin nə etdiyini və ya nə etmək iqtidarında olduğunu göstərir) müxtəlif domenlərini sistematik qruplaşdırır. Funksionallıq orqanizm funksiyalarının müsbət və ya mənfi aspektlərinin, aktivlik və iştirakının əks etdirilməsi üçün ümumi bir termindir. Həyat fəaliyyətinin məhdudiyyəti termini isə bütün pozuntuların, aktivliyin məhdudiyyətinin və iştirak imkanlarının məhdudiyyətini özündə əks etdirir. Bundan əlavə, FBT bütün bu kateqoriyalarla qarşılıqlı əlaqədə olan ətraf mühit amillərinin siyahısını da özündə cəmləmişdir. Bu yolla, istifadəçiyə əməli olaraq fəaliyyət profilini və fərdin həyat fəaliyyətinin müxtəlif domenlər çərçivəsində təsvir etmək imkanı verir.

FBT Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən əsası qoyulmuş müxtəlif sağlamlıq aspektlərinə tətbiq edilə biləcək beynəlxalq təsnifatlar "ailə"-sinə daxildir. ÜST-nın beynəlxalq təsnifat "ailə"-si sağlamlıqla əlaqəli olan (misal üçün tibbi köməyə müraciət üçün funksionallığın və həyat fəaliyyətinin məhdudlaşdırılması diaqnozu) geniş əhatəli informasiyaların kodlaşdırılmasının ümumi qaydalarını təmin edir, sağlamlıqla və səhiyyə ilə əlaqəli problemlərin bütün dünya üzrə elmin bütün sahələrində standartlaşdırılmış ümumi dildən istifadə edilməsinə imkan yaradır.

ÜST-nın beynəlxalq təsnifatlarında sağlamlığın dəyişilməsi (xəstəlik, pozuntu, travma və s.) əvvəlcədən XBT-10[4] kimi təsnif olunub (abbreviatura "Xəstəliklərin beynəlxalq təsnifatı, 10-cu baxış") və onun etioloji quruluşunu təyin edir. Sağlamlığın dəyişilməsi ilə bağlı olan funksionallıq və həyat fəaliyyətinin məhdudiyyəti FBT-da təsnif olunur. Bu yolla XBT-10 və

---

[1] Bu mətn həyat fəaliyyəti və ictimai çatışmamazlıqla məhdudlaşmış pozuntuların beynəlxalq təsnifatının (PBT) yenidən baxışını ifadə edir. İlk dəfə 1980-ci ildə Beynəlxalq Səhiyyə Təşkilatı tərəfindən tədqiqat məqsədi ilə nəşr edilmişdir. Son 5 ildə hər tərəfli sınaq və beynəlxalq konsultasiyalardan sonra hazırlanmış və 22 may 2001-ci ildə ÜST-nın 54-cü sessiyasında təsdiq edilmişdir (qətnamə WHA54.21).

[2] Domen – bir-birilə bağlı olan praktik və əhəmiyyətli toplunun fizioloji funksiyalar, anatomik quruluşlar, fəaliyyət, həyat fəaliyyətinin məsələ və əhatə dairəsi baxımından yığımıdır.

[3] "Pozuntu, həyat fəaliyyətinin məhdudluğu və "ictimai çatışmamazlıq" - Bu terminlər əvvəl istifadə olunmuş terminlərlə əvəz olunur və təsnifatın imkan dairəsini genişləndirərək müsbət aspekti təsvir etməyə imkan yaradır. Bu yeni terminlər "giriş" bölməsində təyin olunub və təsnifatlar bölməsində təfsilatı ilə göstərilib. Qeyd etmək lazımdır ki, daimi gündəlik istifadədə dəyişdikləri üçün onlar xüsusi əhəmiyyətə malikdirlər.

[4] Xəstəliklərin və sağlamlıqla bağlı problemlərin beynəlxalq statistika təsnifatı, X baxılış. Cild 1-3, Cenevrə, ÜST, 1992-94

FBT bir-birini[5] tamamlayır və istifadəçilərə hər iki təsnifatdan birgə istifadə etmək məsləhət görülür. XBT-10-da xəstəlik, pozuntu və digər növ sağlamlıq dəyişiklikləri diaqnozla təmin olunur və FBT-dəki funksionallıq[6] haqqındakı informasiya ilə tamamlanır. Diaqnoza və funksionallığa aid olan birgə informasiya insanların və əhali qruplarının sağlamlığı barəsində daha dolğun və qiymətli məlumat verir ki, bu da qərarların qəbul edilməsində istifadə oluna bilər.

ÜST-nin beynəlxalq təsnifatlar ailəsi əhalinin sağlamlığı məlumatlarını beynəlxalq səviyyədə təsvir edilməsinə, müqayisə aparılmasına imkan verən qiymətli alət xarakterini daşıyır. Sağlamlığın monitorinqi və onun qiymətləndirilməsi məqsədi ilə, həmçinin müxtəlif amillərin ölüm və xəstələnməyə təsirinin əhali qrupları üzrə araşdırılması zamanı ölüm haqqında (XBT-10 müvafiq), həmçinin sağlamlıq göstəriciləri (FBT-na uyğun) haqqında məlumatlar kombinə edilə bilərlər.

FBT "xəstəliklərin nəticəsi" (1980-ci il versiyası) təsnifatından uzaqlaşaraq, "sağlamlığın təşkili" təsnifatına keçmişdir. "Xəstəliklərin nəticəsi" diqqəti xəstəliklərin nə törədə biləcəyinə, və sağlamlıqda son nəticəyə təsir edəcək digər amillərə yönəltdiyi halda "Sağlamlığın təşkili" onun nədən təşkil olunduğu təyin edir. Bu yolla, FBT etioloji nöqteyi-nəzərdən neytral mövqeyə malikdir, bu səbəbdən tədqiqatçı əlaqələrin səbəb-nəticəsini qəbul olunmuş elmi üsullardan istifadə vasitəsi ilə nəticə çıxarda bilmə imkanına malikdir. Bu yanaşma sağlamlıq determinantı və risk faktorları əsasında yanaşmadan fərqlənir. Determinant və risk faktorunun tədqiqatı üçün FBT fərdin yaşadığı vəziyyəti əks etdirən ətraf mühit faktorlarının siyahısını özündə cəmləşdirir.

[5] XBT-10 və FBT-nin qismən üst-üstə düşməsi ehtimalını nəzərə almaq lazımdır. Hər iki təsnifat orqanizm sistemlərindən başlayır. Pozuntu orqanizmin əsasən "Xəstəlik prosesi"-nin tərkib hissəsi olan quruluş və funksiyalarına aiddir, bu səbəbdən XBT-10-da aid olunur. Buna baxmayaraq, XBT-10 pozuntunu (əlamət və simptomlar şəklində) "xəstəliyi" yaradan səbəb kimi və ya bəzən tibbi köməyə müraciət səbəbi kimi konstellyasiya hissəsi şəklində istifadə etdiyi halda, FBT onlardan sağlamlığın dəyişilməsi ilə bağlı orqanizmin funksiya və quruluşu problemi kimi istifadə edir.

[6] İki eyni xəstəlikli fərdin müxtəlif cür fəaliyyət səviyyəsi ola bilər, və iki eyni fəaliyyət səviyyəli fərdin eyni cür sağlamlıq dəyişikliyinə malik olması vacib deyil. Deməli, təsnifatların birgə istifadəsi tibbi məqsəd baxımından informasiya keyfiyyətini yüksəltmiş olur. FBT tibbi məqsəd üçün adi diaqnostik prosedurların istifadəsini istisna eləmir. Digər hallarda FBT sərbəst müstəqil surətdə istifadə oluna bilər.

## 2. FBT-nin məqsədləri

FBT – müxtəlif fənn və sahələrdə işlənmək üçün hazırlanmış çoxməqsədli təsnifatdır. Onun xüsusi məqsədləri aşağıdakı kimi təyin olunur:

- sağlamlıq və sağlamlıqla bağlı göstəricilərin, müdaxilə nəticələrini və onları təyin edən faktorları anlayıb və öyrədilməsi üçün elmi əsasını təmin etmək;
- həyat fəaliyyətində məhdudiyyət olan insanlar daxil olmaqla səhiyyə işçiləri, tədqiqatçılar, adminstratorlar və cəmiyyət arasında qarşılıqlı anlaşmanı yaxşılaşdırmaq məqsədi ilə sağlamlıq və sağlamlıqla bağlı göstəriciləri təsvir etmək üçün ümumi dil tərtib etmək ;
- müxtəlif ölkələrdə, səhiyyə sahələrində, qulluqda və müxtəlif zaman çərçivəsində məlumatı müqayisəli etmək;
- sağlamlıq haqda məlumat sistemi üçün sistemləşdirilmiş kodlaşdırma sxemini təmin etmək .

Bu məqsədlərin qarşılıqlı əlaqəli olmağının hədəfləri FBT istifadəsinin zərurəti, səhiyyə ilə idarəetmədə onun keyfiyyətinə nəzarət və müxtəlif mədəniyyətlərdə effektivliyinə qiymət verilməklə müxtəlif istehlakçılar tərəfindən istifadə olunmaq, çox əhəmiyyətli və praktik sistem yaratmaqdır.

### 2.1. FBT istifadəsi

1980-ci ildə sınaq versiya kimi nəşr olunan vaxtdan PBT müxtəlif məqsədlər üçün istifadə olunmuşdur, məsələn:

- informasiya yığımı və toplanması üçün statistik vasitə kimi (məsələn, geniş yayılmış tədqiqatlar, epidemioloji monitorinq və ya informasiya sistemləri yaradılan zaman);
- müdaxilə nəticələrinə, həyat və ya ətraf mühit faktorlarının keyfiyyətinə qiymət vermək üçün tədqiqat vasitəsi kimi;
- tələbatların qiymətləndirilməsi, terapiya variantlarının müqayisəsi, işə yararlılığı, reabilitasiyası və müdaxilə nəticələrinə qiymət verilməsi üçün klinik alət kimi;
- sosial müdafiə, kompensasiya sistemləri, onların siyasəti və realizasiyasına tədbirlərinin planlaşdırılması üçün sosial siyasət vasitəsi kimi;
- tədris planlarının hazırlanması, təbliğat aparılması və ictimai aksiyaların keçirilməsi üçün tədris vasitəsi kimi.

FBT, şübhəsiz sağlamlıq və sağlamlıqla bağlı bütün halların təsnifatı olduğu üçün o, sığorta, sosial müdafiə, işlə təmin etmə, təhsil, iqtisadiyyat, ictimai siyasət, qanunvericilik, gigiyena kimi sahələrdə də istifadə olunur. O, BMT- yə, ona istinad edilən və “Həyat fəaliyyətləri məhdud olan

şəxslər üçün bərabər imkanlar yaradılması üzrə satandart qaydalar ”[7] realizə olunan sosial təsnifatlardan biri kimi qəbul edilib. Belliklə FBT insan hüquqları, eləcə də milli qanunvericilik üzrə qəbul olunan beynəlxalq sənədlərin reallaşdırılması üçün əlverişli vasitədir.

FBT-nin istifadəsinin faydalı olacağı geniş tətbiq sahələri var, məsələn: sosial müdafiə, səhiyyə idarəçiliyinin qiymətləndirilməsi, yerli, milli və beynəlxalq səviyyələrdə əhali qruplarında epidemioloji tədqiqatlar. FBT fərdin sağlamlığının qorunması, o cümlədən profilaktika, sağlamlığın gücləndirilməsi, sosial maneələrin aradan götürülməsi və ya azaldılması, sosial dəstək və vəziyyətini yüngülləşdirici amillərlə təmin edilməsi yolu ilə iştirak dərəcəsinin artırılması səviyyəsində tətbiq edilə bilən informasiyanın konseptual strukturunu təqdim edir. O, həmçinin səhiyyənin qiymətləndirilməsi və siyasətin formalaşdırılması üçün səhiyyə sistemlərinin öyrənilməsi zamanı da tətbiq edilə bilər.

[7] Həyat fəaliyyətləri məhdud olan şəxslər üçün bərabər imkanların yaradılması üzrə standart qaydalar. 20 dekabr 1993-cü ildə BMT-nin Baş assambleyasının 48-ci sessiyasında təsdiq edilib (qətnamə 48/96). Nyu York, BMT ictimai informasiya departamenti, 1994.

## 3. FBT-nin xüsusiyyətləri

Təsnifatda, təsnif etmə obyekti dəqiq müəyyən olunmalıdır: onun konsepsiyası (ümumi yanaşma), ölçü çərçivəsi və vahidi, quruculuğu və bu elementlərin struktur cəhətdən qarşılıqlı əlaqəsi. Sonrakı bölmələr FBT-nin əsas xüsusiyyətlərini açıqlayırlar.

### 3.1. FBT-yə ümumi yanaşmalar (konsepsiyalar)

FBT onları sağlamlıq domeni və sağlamlıqla bağlı domen[8] termini ilə təsvir edərək insanın sağlamlığının bütün aspektlərini və sağlamlığa aid rifah təşkil edən bəzilərini daxil edir. Təsnifat sağlamlığın geniş anlaşılması çərçivəsində qalaraq sağlamlıqla bağlı olmayan məsələn, sosial-iqtisadi faktorlarla müəyyən olunan hadisələrə aid edilmir. Deməli, insanlar real ətraf mühitdə məsələlərin həlli zamanı irq mənsubiyyətinə, cinsinə, dininə və digər ictimai-iqtisadi səbəblərə görə məhdudiyyətlərə rast gələ bilərlər, ancaq bu FBT-də təsnif olunan sağlamlıqla bağlı iştirak məhdudiyyətinə aid olmayacaq.

FBT-nin ancaq həyat fəaliyyəti məhdud olan şəxslərə aid olması yanlış fikri geniş yayılmışdır. Əslində o, bütün insanlara aiddir. Sağlamlıq və sağlamlıqla bağlı göstəricilər sağlamlığın bütün dəyişilməsi hallarında FBT-nin köməyi ilə təsvir oluna bilər. Başqa sözlə FBT-nin istifadə sahələri geniş və hərtərflidir[9].

### 3.2. FBT çərçivələri

FBT insan fəaliyyətindən və onun məhdudiyyətlərindən çıxış edərək vəziyyətlərin təsvirini verir və həmçinin həmin informasiyanın sistemləşdirilməsi üçün karkas rolunu oynayır. O, informasiyanı bir-biri ilə əlaqəli və asan başa düşülən formada sıralayır.

FBT-də informasiya iki hissədə sistemləşdirilib. I hissə həyat qabiliyətinin fəaliyyətini və məhdudiyyətini daxil edir, o zaman II hissə kontekst faktorlarını əhatə edir. Hər bir hissə iki tərkibdən ibarətdir:

1. Həyat qabiliyyətinin fəaliyyətinin və məhdudiyyətinin tərkibi

**Orqanizmi** təşkil edən iki təsnifata malikdir: biri orqanizm sistemini funksiyası, digəri isə orqanizm strukturu üçün. Hər iki təsnifatda bölmələr orqanizm sistemləri ilə uyğunluqda yaradılıblar.

**Fəallıq və iştirak** təşkil edən fərdi və ictimai mövqedə fəaliyyət aspektlərini təyin edən tam domen dairəsini əhatə edir.

---

[8] Sağlamlıq domenlərinə nümunə kimi görmə, eşitmə, yerimə, bilik əldə etmə, yadda saxlama, sağlamlıqla əlaqədar domenlərə nümunə kimi isə yer dəyişmə, təhsil, sosial münasibətlər və s. göstərmək olar.

[9] Bickenbach JE, Chatterji S, Badley EM, Üstün TB. Models of disablement, universalism and the ICIDH, *Social Science and Medicine*, 1999, 48:1173-1187

2. Kontekst faktorlarının tərkib hissəsi:

Ətraf faktorların siyahısı - bu kontekst faktorlarının ilk tərkib hissəsidir. Ətraf faktorlar həyat qabiliyyətinin fəaliyyətini və məhdudiyyətini təşkil edənlərə təsir göstərir və aşağıdakı prinsiplərə uyğun sistemləşibdir: individi bilavasitə əhatə edəndən ümumi əhatə edənə qədər.

Şəxsi faktorlar konteksti təşkil edən faktorlardır, ancaq onlar FBT də onlarla bağlı böyük ictimai və mədəni üsullar üzündən təsnif edilməmişdir.

Birinci hissədə həyat qabiliyyətinin fəaliyyəti və məhdudiyyəti iki növdə ifadə olunur. Bir tərəfdən onlar problemləri göstərə bilər (məsələn, *həyat fəaliyyətinin məhdudlaşması* ümumi termini ilə təyin olunan fəallığın məhdudiyyəti və ya iştirak mümkünlüyünün məhdudiyyəti); digər tərəfdən *fəaliyyət* ümumi termini ilə təyin olunan sağlamlıq və ya sağlamlıqla bağlı vəziyyətlərin problemsiz (yəni neytral) aspektini əks etdirir.

Həyat qabiliyyətinin fəaliyyətini və məhdudiyyətini təşkil edənlər dörd ayrıca, ancaq qarşılıqlı əlaqəli parametrlər vasitəsi ilə açılır. Parametrlərin müəyyən olunması təyin edicilərin istifadəsi ilə həyata keçirilir. Orqanizmin funksiya və strukturu fizioloji sistemlərin və anatomik strukturların dəyişilməsi kimi təqdim oluna bilər. Fəallıq və iştirak təşkiledicilər üçün iki parametr: potensial bacarıq (kapasitet) və realizasiya təqdim olunur.

İndividin həyat fəaliyyətinin işləməsi və məhdudiyyəti sağlamlığın müxtəlif dəyişiklikləri (xəstəlik, pozulma, zədə) və kontekst faktorları arasında dinamik qarşılıqlı əlaqə[10] kimi təqdim olunur. Yuxarıda göstərilənlər kimi kontekst faktorları şəxsi (fərdi) və eləcə də ətraf mühit faktorlarını daxil edir. FBT təsnifatın ayrılmaz hissəsini təşkil edən ətraf mühit faktorlarının ətraflı siyahısından ibarətdir. Ətraf mühit faktorları bütün həyat fəaliyyətinin işlənməsi və məhdudiyyətini təşkil edənlərlə qarşılıqlı əlaqədədir. "Ətraf mühit faktorları"-nın əsas parametrləri kimi fiziki və ictimai mühitin xüsusiyyətlərini yüngül və ya maneə törədən qarşılıqlı əlaqəsi şəklində çıxış edir.

### 3.3. Təsnifat vahidi

FBT müxtəlif sağlamlıq göstəricilərini və ya sağlamlıqla bağlı göstəricilərini təsnif edir. Ona görə də təsnifat vahidi sağlamlıq domeni və sağlamlıqla bağlı domenin hər birisinin daxilində dərəcə hesab edilir. Onu xüsusilə qeyd etmək lazımdır ki, FBT-də fərdlər təsnifat vahidləri sayılmırlar, yəni FBT insanları təsnif etmir, ancaq sağlamlıq domeni və sağlamlıqla bağlı domen toplanması köməyi ilə fərdin vəziyyətini təsvir edir. Bundan başqa təsvir həmişə ətraf və şəxsi faktorlar kontekstində verilir.

[10] Bu qarşılıqlı əlaqəyə istifadəçidən asılı olaraq *proses* və ya *nəticə* kimi baxmaq olar.

## 3.4. FBT təqdim edilməsi

İstifadəçilərinin marağı ilə FBT müxtəlif detallaşdırma səviyyəsi ilə iki versiyada təqdim edilib:

Bu nəşrdə olan FBT-nin tam versiyasının təsnifatı dörd detallaşdırma səviyyəsində təmin edilir. Bu dörd səviyyə versiyası təsnifatın ikinci səviyyəsini bütün domenlərini daxil edən sistemdə birləşə bilərlər. İki dərəcəli sistem eləcədə FBT-nin qısa versiyası şəklində mümkündür.

## 4. FBT tərkibinin təsviri

TƏRİFLƏR[11]

Sağlamlıq kontekstində:

**Orqanizmin funksiyası** – bu orqanizmin fizioloji funksiyalarıdır (psixiki funksiyalar da daxil olmaqla)

**Orqanizmin quruluşu** – bu orqanizmin anatomik hissələridir (orqanlar, ətraflar və onların komponentləri)

**Pozuntu** – bu funksiya və quruluşlarda baş verən problemlərdir (zəruri kənara çıxma, itki kimi)

**Aktivik** – fərd tərəfindən hərəkətlərin və ya vəzifələrin yerinə yetirilməsidir.

**İştirak** – bu fərdin həyat şəraitinə cəlb olunmasıdır.

**Aktivliyin məhdudluğu –** bu aktivliyin yerinə yetirilməsində fərdin keçirdiyi çətinlikdir.

**İştirak imkanlarının məhdudluğu** – bu fərdin həyat şəraitinə düşdüyündə keçirtdiyi çətinliklər.

**Ətraf mühit amilləri** insanların yaşadığı və vaxt keçirtdiyi, ünsiyyətdə olduğu fiziki və ictimai şəraiti yaradır

Bu anlayışların təsviri 1-ci cədvəldə verilib; xüsusi terminologiya vasitəsi ilə onlar təfsilatlı 5.1 bölməsində əks olunmuşdur. Cədvəldə qeyd edildiyi kimi:

- FBT 2 hissəyə malikdir, onlarında hər biri öz növbəsində 2 yerə bölünür:

  Hissə 1. Həyat fəaliyyətinin işləmə və məhdudluğu
  - (a) orqanizmin funksiya və quruluşu
  - (b) aktivlik və iştirak

Hissə 2. Kontekst faktorlar
- (c) ətraf mühit faktoru
- (d) şəxsi faktorlar

- Hər bir tərkib hissə həm müsbət həm də neqativ terminlərlə əks oluna bilər

- Hər bir tərkib hissə müxtəlif domenlərdən ibarətdir. Hər bir domen isə təsnifat vahidi olan kateqoriyadan ibarətdir. Sağlamlığın göstəriciləri və fərdin sağlamlığı ilə bağlı göstəricilər uyğun kateqoriya kodu seçimi vasitəsi ilə bu kateqoriyada fəaliyyətin (həyat fəaliyyətinin məhdudiyyətləri) səviyyə və həcmini müəyyən edən və ya ətraf mühit faktorunun yüngünləşdirici faktor və ya baryer kimi hansı həcmində çıxış etməsinin rəqəm kodları olan təriflərin əlavə edilməsi ilə qeyd olunmalıdırlar.

---

[11] Həmçinin bax: Əlavə 1. “Taksonomik və terminoloji məsələlər”

**Cədvəl 1. FBT xülasəsi**

| | **Hissə1: Fəaliyyət və həyat fəaliyyətinin məhdudiyyəti** | | **Hissə 2. Kontekst faktorlar** | |
|---|---|---|---|---|
| Tərkibi | Orqanizmin funksiya və strukturları | Aktivlik və iştirak | Ətraf mühit faktorları | Şəxsi faktorlar |
| Domenlər | Orqanizm funksiyaları və orqanizm strukturları | Həyat fəaliyyəti sahələri (məsələn, hərəkətlər) | Fəaliyyət və həyat fəaliyyətinin məhdudiyyətinə xarici təsir | Fəaliyyət və həyat fəaliyyətinin məhdudiyyətinə daxili təsir |
| Parametrlər | Orqanizm funksiyalarının (fizioloji) dəyişilməsi<br><br>Orqanizm strukturlarının (anatomik) dəyişilməsi | Potensial bacarıq Məsələnin standart həyat vəziyyətlərində həlli Realizasiya Məsələnin real həyat vəziyyətlərində həlli | Münasibət və qurucu dünyanı fiziki və sosial ətrafın yüngülləşdirici və ya çətinləşdirici təsiri. | Şəxsiyyət xüsusiyyətlərinin təsiri |
| Pozitiv aspekt | Funksional və struktur bütövlük | Aktivlik İştirak | Yüngülləşdirici faktorlar | İstifadə edilməyib |
| | Fəaliyyət | | | |
| Neqativ asekt | Pozulma | Aktivliyin məhdudiyyəti İştirak mümkünlüyünün məhdudiyyti | Maneə törədən faktorlar/ baryerlər | İstifadə edilmyib |
| | Həyat fəaliyyətinin məhdudiyyəti. | | | |

## 4.1. Orqanizm və pozuntuların funksiya və strukturları

***Tərif:*** ***Orqanizmin funksiyaları*** *- Orqanizm sistemlərinin fizioloji funksiyalarıdır (ruhi funksiyalar daxil edilməklə).*
***Orqanizm strukturları*** *- orqanizmin, orqan, ətraflar və onların komponentləri kimi, anatomik hissələridir.*
***Pozuntular*** *– əhəmiyyətli normadan kənara çıxma və ya itki kimi funksiya və strukturlarda yaranan problemlərdir.*

1) Orqanizm funksiyaları və orqanizm strukturları paralel istifadə üçün işlənib hazırlanmış iki müxtəlif seksiyalarda təsnif edilirlər. Məsələn orqanizm funksiyaları özündə “görmə funksiyası ” kimi insanın əsas hissiyyat və ya funksiyalarını daxil edir, onların struktur korrelyatı isə “göz və onunla bağlı strukturlar” şəklindədir.

2) “Orqanizm” termini insan orqanizminin tam vahid formasını ifadə edir: Buradan belə alınır ki, o beyin və onun funksiyalarını özündə cəmləşdirir. Ağıl (və ya psixiki) funksiyalar bu cəhətdən orqanizm funksiyalarının kateqoriyalarına aid edilir.

3) Orqanizm funksiyaları və orqanizm strukturları orqanizm sistemləri üzrə təsnif olunurlar. Bu səbəbdən orqanizm strukturlarına orqan[12] kimi baxılmır.

4) Strukturların pozulması özündə anomaliya, qüsur, itki və ya orqanizm strukturlarında başqa əhəmiyyətli normadan kənarlaşmalar yarada bilər. Pozuntu konseptual olaraq toxuma, hüceyrə, subhüceyrə və ya molekullar səviyyəsində bioloji biliklərə uyğun gəlir. Buna baxmayaraq, praktiklik nöqteyi-nəzərindən bu səviyyələr siyahıya[13] daxil edilməyib. Pozuntuların bioloji əsasları təsnifatda aparıcı rol oynayır və əlavə olaraq təsnifatın hüceyrə və ya molekulyar səviyyəyə qədər genişlənməsi nəzərdə tutulur. Təsnifatla iş zamanı tibb işçilərinə onu yadda saxlamaq lazımdır ki, pozuntu və onun əsasını təşkil edən patologiya - eyni bir şey deyil, pozuntular onun təzahürləridir.

5) Pozulmalar orqanizmin və onun funksiyalarının biotibbi statusunun müəyyən ümumi qəbul olunmuş geniş yayılmış standartlarından kənara çıxmaları təsvir edir, onları təşkil edənlərin dəqiqliyi əsasən fiziki və ruhi fəaliyyəti bu standartlarla uyğun qiymətləndirən mütəxəssislər tərəfindən həyata keçirilir.

6) Pozulmalar qısa müddətli və ya daimi; inkişaf edən, yenidən inkişaf edən və ya stabil; dəyişkən və ya aramsız ola bilər. Geniş yayılmış normadan kənara çıxma əhəmiyyətsiz və ya kəskin ola bilər. Bu xüsusiyyətlər bundan sonra bölmədən nöqtəsindən sonra yerləşən müəyyənləşdirici kod şəklində təqdim olunacaq.

7) Pozulmalar etiologiyadan və ya onların necə inkişaf etməsindən asılı deyillər; məsələn, görmə fəaliyyətin və ya ətrafların itirilməsi genetik anomaliya və ya zədə nəticəsi ola bilər. Pozulmanın mövcudluğunun mütləq səbəbi var. Halbuki səbəb, ondan sonrakı pozulmaları anlatmaq üçün kifayət olmaya bilər. Analoji olaraq, pozulmaların mövcudluğu həmişə orqanizmin funksional və ya struktur pozulmasını göstərir. O, hər hansı bir xəstəliyin, pozulmanın və ya fizioloji vəziyyətin nəticəsi ola bilər.

8) Pozulmalar sağlamlıqda dəyişkənliyinin bir hissəsi və ya dəyişikliyin üzə çıxması ola bilər, ancaq bunlar xəstəliyin dəqiq əlamətləri sayılmır və fərdin xəstə olması hesab edilmir.

---

[12] Orqan dəyişiklik səviyyəsi 1980-cı ildə PBT-də qeyd edilməsinə baxmayaraq, “orqan” sözü təyinedici kimi işlədilmir. Göz və qulaq ənənəvi olaraq orqan hesab edilirlər; bununla belə onların sərhədlərini müəyyən etmək çətindir; oxşar vəziyyət ətraflara və daxili orqanlara da aiddir. FBT orqanizmə aid vahid hissəni və ya tərkib elementini bildirən “orqan” terminini “orqanizmin strukturu” termini ilə əvəz edib.

[13] Beləliklə, FBT-nin tam versiyasının istifadəsi zamanı kodlaşdırılan “pozulma” hiss edilən və ya görülən olmalıdır, belə ki, digər şəxslər və ya fərdin özü tərəfindən bilavasitə müşahidə və ya müşahidənin nəticəsi kimi aşkar edilməlidir.

9) Xəstəlik və məyusluqdan geniş və miqyaslı pozulmalar: məsələn, ətrafların itirilməsi xəstəlik deyil, orqanizmin strukturunun pozulmasıdır.

10) Bir pozulma başqa bir pozulmaya gətirib çıxara bilər; məsələn, əzələ gücünün itirilməsi hərəkət funksiyalarını məhdudlaşdıra bilər. Ürək funksiyasının nəfəs funksiyasına dəyişilməsinə aidiyyəti var, qavramada qabiliyyətində pozğunluq dərrakənin pozulması funksiyası ilə bağlı ola bilər.

11) Görünür ki, orqanizmin funksiyası və strukturlarını təşkil edən bəzi kateqoriyaları hissə-hissə XBT-10 kateqoriyaları ilə uyğun gəlir (bura əsasən simptom və əlamətlərə aiddir). Bununla belə hər iki təsnifatın məqsədləri müxtəlifdir. Xəstəlik və xidmət üçün müraciəti qeydiyyata götürərkən FBT simptomları orqanizm funksiyalarının bir hissəsi kimi göstərildiyi zaman XBT-10 xüsusi bölmələrdə simptomları təsnif edir, budakı pasiyentlərin tələbatının profilaktikası və ya müəyyən edilməsi üçün istifadə oluna bilər. FBT-nin orqanizmin funksiya və strukturların təsnifatından fəallıq və iştirak kateqoriyalarla uyğun istifadəsini nəzərdə tutulması daha vacibdir.

12) Pozulmalar müəyyən identifikasiya kriteriyalarının yəni kənar dərəcəli uyğunluqda olan və ya mövcud olmayan kriteriyaların istifadəsi ilə uyğun kateqoriyalarda təsnif edilir. Bu kriteriyalar orqanizmin funksiya və strukturu üçün eynidir. Bunlar aşağıdakılardır: a) itki və ya mövcud olmamaq; b) azaldılma; c) əlavə edilmə və ya artıqlıq; d) pozulma. Pozulmalar olan zaman, FBT-nin ümumi təyinin istifadəsi ilə kəskinlik dərəcəsi qiymətləndirilə bilər.

13) Havanın keyfiyyəti və tənəffüs, işıq və görmə qabiliyyəti, səs və eşimə, yayındırıcı qıcıqlanmalar və diqqət, torpağın relyefi və tarazlıq, atmosfer temperaturu və bədən temperaturunun idarə olunması qarşılıqlı əlaqədar olduğu kimi ətraf mühit faktorları da orqanizmin funksiyaları ilə qarşılıqlı əlaqədə olur.

### 4.2. Aktivlik və iştirak / üzvi aktivliklər və iştirak mümkünlüyünün məhdudlaşdırılması.

***Təriflər: Aktivlik** – fərdin məsələni və ya hərəkəti yerinə yetirməsidir.*
***İştirak** – fərdin həyat vəziyyətinə cəlb edilməsidir.*
*Aktivlikdə məhdudiyyət – fərdin aktivliklərin həyata keçirilməsində hiss edəcəyi çətinliklərdir.*
*İştirak imkanında məhdudiyyət – həyat şəraitinə cəlb olunma zamanı fərdin hiss edəcəyi problemdir.*

1) Tərkib üçün domenlər: aktivlik və iştirak həyatın bütün sahələrini əhatə edən bir siyahıda verilib (baxış tədris, görmə qabiliyyətindən istifadə təcrübələrindən şəxsiyyətlər arası qarşılıqlı əlaqə və ya əmək məşğuliyyət kimi daha mürəkkəb sahələrə qədər). Tərkib aktivliyi (a) və ya iştirakı (p) təyin etmək üçün istifadə olunduğu kimi, o və digəri birgə istifadə oluna bilər. Bu tərkib domenləri iki təyinedici ilə təsnif edilir: realladırmaq və potensial bacarıq (kapasitet). Buna görə alınan informasiya tərcümə olunmur (bax: cədvəl 2).

**Cədvəl 2. Aktivlik və iştirak: məlumat paneli.**

| Domenlər | | Təyinedicilər | |
|---|---|---|---|
| | | Reallaşdırma | Potensial bacarıq |
| d1 | Biliklərin əldə eilməsi və tətbiqi | | |
| d2 | Ümumi məsələlər və tələblər | | |
| d3 | Ünsiyyət | | |
| d4 | Hərəkətlilik (mobillik) | | |
| d5 | Özünə xidmət | | |
| d6 | Məişət həyatı | | |
| d7 | Şəxsiyyətlər arasında qarşılıqlı əlaqə və ünsiyyət | | |
| d8 | Əsas həyat sahələri | | |
| d9 | Birgə cəmiyyətdə həyat, ictimai və vətəndaş həyatı | | |

2) Reallaşdırmanın təyini, fərdin real ətraf mühit şəraitində nə etməsini təyin edir. real ətraf mühit sosial kontekst daxil etdiyi üçün reallaşdırma insanın yaşadığı aktual şəraitdə "həyati vəziyyət cəlb edilmə" və ya "həyat təcrübəsi" kimi anlaşılır[14]. Bu şəraitlər ətraf faktorları - "Ətraf mühit faktorları" təşkilinin istifadəsi ilə kodlaşdırılmalı olan fiziki, ictimai mühitin, ünsiyyəti və quruculuq dünyasının bütün aspektlərini daxil edir.

3) Potensial bacarıq (kapasitet) təyini fərdin hər hansı bir məsələ və ya hərəkətin öhdəsindən gəlməsi və ya həll etmək bacarığını təyin edir. Bu parametr fərdin bu domendə və bu an əldə edəcəyi fəaliyyətin ən yüksək dərəcəsini əks etdirmək üçün təyin olunub. Fərdin bacarığının qiymətləndirilməsi üçün, onun bacarığına müxtəlif ətrafların bərabər olmayan təsirini neytrallaşdırmaq üçün "standart" ətrafın olması vacibdir. Belə standart ətraf aşağıdakılarda ola bilər: a) adətən potensial bacarığın testləşdirilməsi; baş verən aktual ətraf; və ya b) bu mümkün olmayan halda belə, eyni təsir göstərən ətraf hesab edilir. Bu cür ətraf "tipik" və ya "standart" ətraf adlandırıla bilər. Beləliklə, potensial bacarıq fərdin müəyyən şəraitində bacarığını əks etdirir. Bu müəyyən olunmuş şəraitlər müxtəlif ölkə və insanlar üçün bir birindən fərqlənməməlidirlər, bu da ki, Beynəlxalq müsabiqələr keçirməyə imkan yaradacaq. Ətraf mühit şəraitinin tipik və ya standart xüsusiyyətləri təsnifatda təqdim olunan ətraf mühit faktorlarında kodlaşdırıla bilər. Potensial bacarıq və reallaşdırma arasında fərqlilik real tipik ətraf mühit faktorlarının müxtəlif təsirini əks etdirir və bununla da fərdin daha çox reallaşması məqsədilə bu ətraf mühit dəyişkənliklərin istiqamətini göstərir.

4) Potensial bacarığın və reallaşdırmanın hər iki təyinedicilərі gələcəkdə köməkçi vasitələr və kənar yardım hesabından, eləcədə onlarsız istifadə oluna bilər. Halbuki köməkçi vasitələr və

---

[14] "İştirak" anlamı cəlb edilmə fikrinə daxildir. "Cəlb edilmə" anlamının bəzi təqdim edilmiş variantları "iştirak etmək", "qoşulma" və ya "həyat sferalarında məşğulluq", "ehtiyatlara əlyetərliyin olması və ya əldə edilməsi" kimi səslənir. Cədvəl 2-nin informasiya paneli çərçivələrində iştirakın yeganə və mümkün indikatoru reallaşdırma göstəricisidir. Bu, iştirak avtomatik olaraq reallaşdırmaya bərabərdir demək deyil. Cəlb edilmə fikri subyektiv cəlb edilmə anlamından fərqləndirilməlidir. Cəlb edilməni ayrıca kodlaşdırmaq istəyənlər Əlavə 2-dəki kodlaşdırma üzrə rəhbərlikdən istifadə etməlidirlər.

kənar yardım pozulmaları aradan qaldırmır, onlar bəzi domenlərdə fəaliyyətin məhdudlaşdırılmasını aradan qaldırırlar. Belə olan halda kodlaşdırma daha çox faydalı olacaq, çünki fərdin köməkçi vasitələrsiz fəaliyyəti nə qədər məhdud olduğunu müəyyənləşdirməyə imkan yaradacaq (kodlaşdırma üzrə rəhbərlik, əlavə 2 bax).

5) Bu domenlərdə mürəkkəblik və problemlər, fərdin verilən domenə aid funksiyaların yerinə yetirilməsi üsullarında keyfiyyət və ya miqdar çatışmamazlıqları olduğu halda büruzə verilir. Məhdudiyyətlər və ya mümkünlüyün məhdudiyyətləri ümumi qəbul olunmuş geniş yayılmış standartlarla müqayisədə qiymətləndirilirlər. Fərdin potensial bacarığı və ya reallaşdırılması standart və ya normalar – sağlamlığın analoji dəyişkənsizliyi fərdin fəaliyyəti ilə (xəstəlik, pozulmalar və ya zədə və s.) müqayisə edilir. Məhdudiyyətlər mümkün məhdudiyyətlərlə gözlənilən məhdudiyyətlər arasında uyğunsuzluğu göstərir. Gözlənilən reallaşma sağlamlığında spesifik dəyişiklik olmayan insanlara aid olan geniş yayılmış normalara uyğun gəlir. Potensial bacarığın təyinedicisi üçün ətraf mühitə necə təsir etmək haqqında nəticə çıxartmaq mümkün olan həmən normadan istifadə olunur.

6) Reallaşdırma problemləri hətta fərdə pozulmalar olmadıqda bilavasitə ətraf mühitdən yarana bilər. Məsələn, simptomsuz və xəstəliksiz infeksiya – İİÇV müsbət reaksiyalı və ya işləmək üçün kifayət qədər potensial bacarığı olan və pozulma əlamətlərsiz hər hansı bir xəstəliyə genetik meylli fərdə xidmət göstərilməsindən imtina edilə bilər, o, iskriminasiyaya məruz qala bilər və ya özünü anormal hiss edə bilər.

7) “Aktivlik və iştirak” təşkil edən domenlər əsasında “aktivlik” və “iştirakı” ayırmaq çox çətindir. Domenlər əsasında “fərdi” və “ictimai” arasında differensasiya müxtəlif ölkələrdə nəzəriyyəçilər və praktiklər arasında variasiyalar və müxtəlif yanaşmalar yaradaraq mümkünsüz olmuşdur. Buna görə də FBT-də faydalanan az istəyi ilə əlavə 3-də anlaşdırılan aktivlik və iştirakın differensasiyası üçün istifadə edəcəyi bir siyahı göstərilir. Bu məsələnin həlli üçün dörd əsas yanaşma var:

   a) Bir domenləri aktivlik kimi digərlərini iştirak kimi təyin etmək, bu zaman onlar uyğun gəlməyəcəklər;
   b) Hamısını a) variantındakı kimi etmək, ancaq domenlərin hissə - hissə uyğunluğu olduqda.
   c) Bütün detallaşdırılmış domenlər : aktivlik kimi təyin etmək, geniş kateqoriyaları isə iştirak kimi adlandırmaq;
   d) cBütün domenləri aktivlik və iştirak kimi eyni zaman istifadə etmək.

## 4.3. Kontekst faktorlar

Kontekst faktorlar – fərd yaşayan tam şəraiti təsvir edir. Onlar, sağlamlığında dəyişiklik olan fərdə, sağlamlıq göstəricilərinə və bu fərdin sağlamlığı ilə bağlı göstəricilərə təsir edən ətraf mühit və şəxsi faktorları daxil edirlər.

*Ətraf mühit faktorları* – insanlar yaşayan və öz vaxtlarını keçirtdikləri fiziki və ictimai şəraiti, münasibət və quruculuq mühitini yaradırlar. Bu faktorlar fərdin münasibətdə zahiri hesab edilirlər

və fərdin cəmiyyətdə reallaşmasına, fərdin potensial bacarığına və ya fərdin orqanizminin funksiya və strukturuna müsbət və mənfi təsir göstərə bilər.

1) Ətraf mühit faktorları təsnifatda elə formada təqdim olunub ki, diqqəti iki müxtəlif səviyyədə cəmləmək olsun;

   a) *Fərdin* – ev şəraitini, iş yerini, məktəbi əhatə edən fərdin bilavasitə ətrafını bu dərəcə fərdin toqquşduğu ətraf mühitin fiziki material xüsusiyyətlərini, həmçinin başqa insanlarla yəni ailədə, tanışlarla, yaşıdlarla kənar şəxslərlə bilavasitə əlaqəni daxil edir.
   b) *Cəmiyyətin* – cəmiyyətə, mədəniyyət sahələrində, insanlara təsir edən formal, qeyri formal ictimai strukturlar, idarə, ümumi quruculuq və sistemlər. Bu dərəcə əməyə ad təşkilat və müəssisələr, cəmiyyətdə fəaliyyət, hökumət idarələri, nəqliyyat və rabitə əlaqələr; özəl ictimai strukturlar, o, cümlədən qanun, qətnamə, rəsmi və qeyri-rəsmi qaydalar əlaqə və ideologiyalar daxil edir.

2) Ətraf mühit faktorları aşağıdakı təşkil edənlərlə qarşılıqlı əlaqədədir: orqanizmi unksiyası və strukturu, akivlik və iştirak. Hər bir təşkil edən üçün bu qarşılıqlı əlaqənin mahiyyəti və dərəcəsi gələcəkdə aparılan elmi tədqiqatlarda hazırlana bilər. Həyat fəaliyyətinin məhdudiyyəti fərdin sağlamlığının dəyişilməsi, şəxsi faktorlar və fərdin yaşadığı şəraiti əks etdirən xaric faktorlar arasında mürəkkəb qarşılıqlı əlaqə nəticəsi kimi xarakterizə olunur. Bu qarşılıqlı əlaqə nəticəsində müxtəlif ətraf mühit faktorları sağlamlığında müəyyən dəyişikli olan eyni fərdə müxtəlif təsir göstərə bilər. Baryerlərlə dolu və yumuşaldıcı faktorlarsız ətraf mühit fərdin reallaşması mümkünlüyünü məhdudlaşdıracaq, yumşaldıcı faktorlarla ətraf mühit isə əksinə bu reallaşmaya köməklik göstərəcək. Cəmiyyət maneələr (məsələn, əlçatmaz binalar) yaratdığına görə və ya yüngülləşdirici faktorlarla (məsələn, köməkçi vasitələrə əl çatmazlıq) təmin etməsi nəticəsində fərdin həyatda reallaşmasını ləngidə bilər.

*Şəxsi faktorlar* - fərdin, sağlamlığı və ya sağlamlıq göstəricilərinin dəyişilən bir hissəsi olmayan xüsusiyyətindən ibarət olan fərdin onunla yaşadığı və mövcud olduğu fərdi xüsusiyyətlərdir. Onlar, cinsi, irqi, yaşı, sağlamlığın dəyişilməsini, möhkəmliyi, həyat tərzini, adətləri, tərbiyəni, ictimai ətrafı, təhsili, peşəni, keçmiş və indiki həyat təcrübəsini (keçmişdəki və hal-hazırda olan şəraitlər) şəxsiyət və xarakter formsını, meyyilliyi və bəzisinin və ya hamısının hər hansı bir səviyyədə həyat fəaliyyətinin məhdudiyyətinə təsir göstərən başqa xüsusiyyətlər daxil edə bilər. FBT-da şəxsi faktorlar təsnif olunmurlar. Buna baxmayaraq onlar, müxtəlif müdaxilələrin son nəticəsinə təsir edə biləcək o, əməyi qeyd etmək üçün şəkil 1-in sxeminə daxil ediliblər.

# 5. Funksionallıq və həyat fəaliyyətinin məhdudlaşmasının modeli

## 5.1. Funksionallıq və həyat fəaliyyətinin məhdudlaşması prossesi.

Təsnifat kimi FBT funksionallıq və həyat fəaliyyətinin məhdudlaşması "prossesini" modelləşdirmir. Ancaq o, müxtəlif parametr və domenləri əks etdirən vəsaitləri təqdim edərək bu prosseslərin təsvir edilməsi üçün istifadə oluna bilər. FBT qarşılıqlı əlaqədə olan və inkişaf edən prosses kimi funksionallıq və həyat fəaliyyətinin məhdudlaşması təsnifatına çox məqsədli yanaşmaları təmin edir. O, bu prosseslərin modelini yaratmaq və müxtəlif aspektlərini öyrənmək işləyən istifadəçiləri tikinti blokları ilə təmin edir. Bu mənada, FBT dil kimi müzakirə oluna bilər: onun köməyi ilə yaranan mətnlər istifadəçilərindən, onların yaradıcılığından və elmi istiqamətindən asılıdır. Müxtəlif komponentlərin qarşılıqlı əlaqəsini başa düşmək üçün şəkil 1-də[15] təqdim olunan diaqram faydalı ola bilər.

**Şəkil 1. FBT təşkil edicilər arasında qarşılıqlı əlaqə**




Bu diaqramda fərdin xüsusi domendə fəaliyyəti sağlamlığında dəyişiklik və kontekst faktorları (ətraf mühit və şəxsi faktorlar) arasında qarşılıqlı əlaqə və ya mürəkkəb münasibətlər kimi təqdim olunur. Bu elementlər arasında dinamik qarşılıqlı əlaqə var: bir element səviyyəsində müdaxilə etmə başqasını və başqa elementləri potensial olaraq dəyişə bilər. Bu qarşılıqlı əlaqələr

[15] FBT funksionallıq və həyat fəaliyyəti məhdudiyyətinin tərkib hissələri arasındakı qarşılıqlı əlaqənin təsvirində 1980-cı il PBT-dən hiss olunacaq dərəcədə fərqlənir. Qeyd etmək lazımdır ki, çoxkomponentli modeldə qarşılıqlı əlaqələrin mürəkkəbliyi nəticəsində hər hansı bir diaqram çox ehtimal ki, vəziyyəti natamam və təhrifə meylli əks etdirəcək. Hazırki model çox saylı qarşılıqlı əlaqəni təsvir etmək üçün istifadə edilib. Proseslərin digər vacib tərəflərini göstərən başqa təsvirlər də həmçinin mümkündür. Müxtəlif komponentlər və tərkib hissələri arasındakı qarşılıqlı əlaqələrin interpretasiyası həmçinin dəyişə bilər (məsələn, ətraf mühit amillərinin orqanizm funksiyalarına təsiri, şübhəsiz, onların iştiraka olan təsirindən fərqlənir).

xüsusidirlər və hər zaman bir birinə bitərəf deyillər. Qarşılıqlı əlaqə iki istiqamətdə ifadə olunur; həyat fəaliyyətinə məhdudiyyət olduğu halda hətta özü özündən sağlamlıqda dəyişikliyi modelləşdirir. Potensial bacarığın bir və ya daha çox pozulmalar nəticəsində azalması və ya reallaşdırma mümkünlüyünə məhdudiyyət potensial bacarığın bir və daha çox domenlərdə azalması nəticəsində olmağı haqda nəticə faydalı və əsaslandırılmış ola bilər. Ancaq bu parametrlər üzrə məlumatları bir birindən asılı olmayaraq yığmaq və gələcəkdə onlar arasında təsadüf və səbəbi olan əlaqələri müəyyənləşdirmək vacibdir. Sağlamlığı bütün təşkil edənlərin istifadəsi ilə təsvir etmək məqsədə uyğundur. Məsələn, fərd aşağıdakıları bacarır:

- potensial bacarıq azalmadan pozulmanın olması (məsələn, yaramazlıq edərək eybəcər şəklə düşmə fərdin potensial bacarığına təsir etmir) ;
- aydın pozuntular olmadan reallaşma problemləri və ya potensial bacarığının azalması ola bilər (məs. çox xəstəliklərlə bağlı gündəlik fəaliyyət də aşağı realizasiya);
- pozuntularsız və potensial bacarıq aşağı düşmədən reallaşdırma problemləri ola bilər (məsələn, İİÇV - infeksiyasına müsbət reaksiyası olan fərd, sağalmış ruhi xəstə şəxsi münasibətlərdə və ya iş yerində damğalanmaqla və ya diskriminasiya ilə qarşılaşır);
- kənardan köməklik olmadan potensial bacarığın azalması və real ətraf mühitdə reallaşma problemini hiss etməyə bilər (məsələn, hərəkət etdikdə məhdudiyyəti olan fərd cəmiyyət tərəfindən hərəkət etmək üçün köməkçi texniki vasitə ilə təmin oluna bilər);
- əks istiqamətdə təsiri hiss etmək (məsələn, ətrafların hərəkətsizliyi əzələ atofobiyasını əmələ gətirə bilər; xeyriyyə cəmiyyətində olma ictimai biliklərin itirilməsinə gətirə bilər).

Əlavə 4-də göstərilən misallar təşkil edənlər arasında mümkün qarşılıqlı təsiri təsvir edirlər.

Şəkil 1-in sxemi, kontekst faktorları, yəni bu proseslərdə ətraf mühit faktorları və ya şəxsi faktorlar, oynayan rolu nümayiş etdirirlər. Bu faktorlar sağlamlığında dəyişiklik olan fərdlə qarşılıqlı əlaqədə olur və fərdi fəaliyyətin dərəcə və səviyyəsini müəyyən edir. Ətraf mühit faktorları fərdə aid xarici (zahiri) olurlar (məs., cəmiyyət münasibəti, memarlıq xüsusiyyətləri, mühafizə sistemi), və onlar ətraf mühit faktorları təsnifatında sistemləşmişlər. Digər tərəfdən, şəxsi faktorların FBT-nin hazırkı versiyasında təsnifatı yoxdur. İstifadəçiyə lazım olduqda, onların qiyməti onun öz istəyindən asılıdır. Onlar cinsi, irqi, yaşı, sağlamlığın başqa vəziyyətlərini, möhkəmliyi, həyat tərzini, vərdişləri, tərbiyəni, ictimai şərti, təhsili, peşəni, keçmiş və gələcək təcrübəni (keçmiş həyat hadisələrini və eyni zamanda mövcud olan hadisələri), ümumi davranış modelini və xarakter formasını, fərdi psixoloji keyfiyyətlər və hər hansı səviyyədə həyat fəaliyyətinin məhdudiyyətlərində rolu olan bütün və ya onlardan hər hansının digər xüsusiyyətlərini daxil edir.

## 5.2. Tibbi və sosial model

Həyat fəaliyyətinin məhdudiyyətləri və fəaliyyət anlamaq və anlatmaq üçün bir çox konseptual modellər[16] təqdim olunub. Bu “tibbi modelin” “ictimai modelə ” qarşı polemikasında əks olunub. *Tibbi model* həyat fəaliyyətinin məhdudiyyətlərini, mütəxəssislərin apardığı fərdi müalicə şəklində tibbi yardım tələb edən xəstəlik, travma və ya sağlamlıqda başqa dəyişikliklərlə bilavasitə əmələ gələn personal problem kimi qiymətləndirir. Həyat fəaliyyətinin məhdudiyyətlərinə nəzarət fərdin müalicə məqsədi və ya uyğunlaşması və davranışının dəyişməsidir. Tibbi yardım vəziyyətdən əsas çıxış kimi qiymətləndirilir, siyasət sahəsində isə prinsipial reaksiya səhiyyənin dəyişməsi və islahatıdır. Başqa tərəfdən, həyat fəaliyyətinin məhdudiyyətlərinin *ictimai modeli* məsələyə ictimai problem kimi yanaşır və əsas etibarı ilə fərdin cəmiyyətə tam inteqrasiyası məsələsi kimi. Həyat fəaliyyətinin məhdudiyyətləri – fərdin atributu deyil, ictimai ətrafla formalaşan şəraitin kompleks uyğunluğudur. Bunun nəticəsi olaraq vəziyyətin idarə edilməsi sosial həllini tələb edir, və bir çox məsələlərdə cəmiyyətin, ictimai həyatın bütün sahələrində həyat fəaliyyəti məhdudiyyətli şəxslərin yararlı iştirakı üçün vacib olan, ətraf mühitdə dəyişiklik aparmaq üçün, kollektiv məsuliyyətini nəzərdə tutur. Buna görə də bu pozisiyanın və ya ideologiyanın nəticəsi siyasi səviyyədə insan hüquqları məsələsi olan, sosial dəyişikliklər olacaqlar. Bu modelə uyğun olaraq həyat fəaliyyətinin məhdudiyyətləri siyasi məna alırlar.

FBT bu iki zidd modellərin inteqrasiyasına əsaslanır. Fəaliyyətin müxtəlif tərəflərinin birləşməsi üçün biopsixisosial yanaşmadan istifadə olunur. Ona görə də FBT, bioloji, şəxsi və ictimai pozisiyadan sağlamlığın müxtəlif tərəflərinə razılaşdırılmış nəzər nöqtəsini təmin etmək üçün, sintezə çatmağa çalışır[17].

[16] “Model” termini burada konstruksiya və ya paraqdiqma anlamını verir və bu terminin buradakı istifadəsi əvvəlki bölmələrdəkindən fərqlənir.
[17] Həmçinin bax: Əlavə 5. “FBT və həyat fəaliyyəti məhdudiyyətli şəxslər”

## 6. FBT-dən istifadə

FBT – insan fəaliyyətinin və onun həyat fəaliyyətinin məhdudiyyətlərin təsnifatıdır. O, sistemli şəkildə sağlamlıq domenlərini və sağlmlıqla bağlı domenləri qruplaşdırır. Sonradan, hər təşkil etmiş domenlərin daxilində onların ümumi xüsusiyyətlərinə (törəmə, tip və ya oxşarlıq kimi) əsasən qruplaşırlar və mənasına görə sıralanırlar. Təsnifat bir sıra prinsiplərlə uyğun tərtib olunub (bax əlavə 1.). Bu prinsiplər dərəcələrin qarşılıqlı əlaqəsinə və təsnifatın ierarxiyasına (dərəcə qaydası) aid edilirlər. Bundan başqa FBT-nin bəzi kateqoriyaları iyerarxiya qaydasında deyil, onun şaxələrinin bərabər üzvləri kimi tabe olmadan düzülüb.

Aşağıda təsnifatın istifadəsinə aid olan struktur əlamətləri sadalanıb.

1) FBT sağlamlığın "hamı tərəfindən işlədilən" təriflərinə zidd olaraq sağlamlıq domenlərinin və sağlamlıqla bağlı domenlərin standart iş təriflərini verir. Bu təriflər hər domenin ayrılmaz xüsusiyyətlərini təsfir edir (məsələn keyfiyət, xüsusiyyət və qarşılıqlı əlaqə) və hər domenə nə daxil edildiyi və ya xaric edildiyi haqda informasiyanı daxil edir. Təriflər qiymətləndirmə üçün ənənəvi istifadə olunan qeyd olunan bəndləri var, onun üçün də onlar sorgu vərəqəsinə kköçürülə bilərlər. digər tərəfdən, mövcud qiymət metodikaların nəticələri FBT terminlərində kodlaşdırıla bilər. Məsələn, "görmə funksiyası" müxtlif məsafədən forma və konturu götürmə funksiyalarının terminləri ilə müəyyən olunur, buna görə də görmə qabiliyyətinin bildirilməsi yüngül, mülayim, bu parametrlərə aid kəskin və heç kimi kodlaşdırıla bilər.

2) FBT hərfi – rəqəm sistemindən istifadə edir: b, s, d, e hərifləri, orqanizmin funksiyası (b) və strukturu (s), aktivlik və iştirak (d) və ətraf mühit faktorları (e) hərfi ilə təyin etmək üçün istifadə olunurlar. Bu həriflərdən sonra, ardınca ikinci dərəcənin (iki sonrakı rəqəmlər), üçüncü və dördüncü dərəcələrin qeydləri gələn (hər biri bir rəqəmlə), bir hissənin rəqəmindən (bir rəqəm) başlayan rəqəm kodu gəlir .

3) FBT kateqoriyaları elə formada qruplaşıblar ki, ümumi kateqoriyalar özündə daha detallaşdırılmış yaxın yarı kateqoriyalar daxil edirlər (məsələn, surətlə hərəkət edənlərə aid olan aktivlik və iştirak təşkil edən 4-cü bölmə ayrı-ayrı kateqoriyalar daxil edir: ayaq üstü və oturaqlı vəziyyəti, yerişi, yükün daşınmasını və s.) Qısa (yığılmış) versiya iki dərəcəni əhatə edir, halbuki tam (detallaşdırılmış) versiya dörd dərəcəyə qədər genişlənib. Qısa və tam versiyaların kodları bir birinə aid uyğun gəlirlər, və qısa versiya tam versiyadan hazırlana bilər.

4) Hər hansı bir fərdin hər bir dərəcədə kod siyahısı ola bilər. Onlar sərbəst və ya qarşılıqlı əlaqədə ola bilər.

5) FBT kodları ancaq sağlamlığın dərəcəsini (məsələn, problemin bilinməsi) qeyd edən *təyinedici* olduğu halda tamamlanmış vəziyyəti əldə edirlər. Təyinedicilər bölücü nöqtədən sonra bir, iki və ya çox miqdarda rəqəmlərlə kodlaşdırılırlar. Hər hansı bir kodun istifadəsi

bir təyinedicinin də istifadəsi ilə müşahidə olunmalıdır. Kodlar təyinedicilərsiz istifadə olunduqda öz mənalarını itirirlər.

6) Orqanizmin funksiya və strukturunun birinci müəyyən təyinedicisi . aktivlik və iştirak üçün reallaşdırma və potensial bacarıq təyinediciləri, o cümlədən ətraf mühit faktorları üçün birinci təyinedici təqdim olunan təşkiledicilərdə problemin kəskinliyinin dərəcəsini əks edirlər.

7) FBT-də təsnifatı verilən bütün üç təşkil edicilər (orqanizmin funksiya və strukturları, aktivlik və iştirak və ətraf mühit faktorları) bir şkala vasitəsi ilə ölçülür. Təşkiledicidən asılı olaraq, problemin mövcudluğu pozulma, məhdudiyyət və ya mümkünlüyün məhdudiyyəti, maneəni ifadə edər. Təsnifatın uyğun domeninə aşağıda mötərizədə göstərilən uyğun təyinedici sözlər seçilməlidir (xxx işarəsi ikinci dərəcə domenin kodu yerinə göstərilir).

| | | |
|---|---|---|
| xxx.0 problem YOXDUR | (heç bir, mövcud deyil, cüzidir, ... ) | 0-4 % |
| xxx.1 YÜNGÜL problemlər | (əhəmiyyətsiz, zəif,...) | 5-24% |
| xxx.2 MÜLAYIM problemlər | (orta, əhəmiyyətli, ...) | 25-49 % |
| xxx.3 AĞIR problemlər | (yüksək, intensiv, ...) | 50-95% |
| xxx.4 ABSOLYUT problemlər | (tam, ....) | 96-100% |
| xxx.8 təyin edilməyib | | |
| xxx.9 tətbiq edilməyib | | |

Bu miqdarca mənaların təyin edilməsi universal olmalıdır və qiymət metodikalarının tədqiqat aparılan zaman işlənib hazırlanmağa ehtiyac var. Faiz əhəmiyyətinin geniş diapazonu pozulma, məhduqiyyət və ya baryerlərin (maneələrin) dərəcəsinin miqdarca ölcülməsi üçün dərəcələrə bölünmüş qiymət metodikası və ya başqa standartlar mümkün olduğu hallar üçün verilib. Məsələn, o hallarad ki, nə vaxt "problemin olmaması" və ya "absolyut problemlər" təyin edilir, kodlaşdırma zamanı səhfə yol verilməsi ancaq 5% həcmində mümkündür. "Mülayim problemlər" vaxt xüsusiyyətlərinin yarısını təşkiledir, və ya absolyut çətinliklərin orta şkalasına çatırlar. Hər hansı bir domenlərdə təyin edilən faiz əhəmiyyətləri yekun geniş yayılmış standartlarla müqayisədə nəzəri cəlb edənlərdə (persentillərdə) təqdim olunmalıdırlar .

8) Ətraf mühit faktorları hallarında birinci təyinedici ətraf mühitin pozitiv təsirlərinin, yəni yüngülləşdiriliş faktorların və ya neqativ təsirlərin, yəni maneələrin təyin edilməsi və ölçüsu üçün istifadə oluna bilər. Bu və digəri üçün bir şkala 0-4 istifadə oluna bilər, yüngülləşdirici faktorlar qeyd olunduqda onluq kəsirin nöqtəsi (+) üstəgəl işarələri ilə əvəz edilir: misal üçün, e110+2. Ətraf mühit faktorları kodlaşa bilər: a) hər təşkil edənə aid ayrı ayrılıqda, və ya b) ayrı təşkil edənlə əlaqədən kənar tamlıqla. Birinci variant üstünlük təşkil edir, çünki təsir və əlamətləri daha dəqiq eyniləşdirilir.

9) Ayrı-ayrı bəndlərin müxtəlif istifadəçilərlə kodlaşdırma prossesində başqa növ informasiyanın əlavə edilməsi vacib və faydalı olmalıdır. Bir çox potensial əlverişli əlavə təriflər var. Cədvəl 3 hər təşkil edən üçün təriflər detallarını təsvir və şərh edir, o cümlədən əlavə təriflər yaratmaq üzrə açıqlama verir.

10) Sağlamlıq domenlərinin və sağlamlıqla bağlı domenlərin təsfiri konkret tarixə aiddir, yəni bu görüntünün bir anda fiksasiyasıdır. Ancaq, onların vaxtlı çox istifadəsi prossesin vaxtlı və mahiyyətinə görə çevrilməsi traektoriyasını xarakterizə etmək imkanını verir.

**s76009 Onurğanın dəqiqləşdirilməmiş strukturu**

**s7601 Gövdə əzələləri**

**s7602 Gövdə bağları və fassiyaları**

**s7608 Gövdənin digər dəqiqləşdirilmiş strukturu**

**s7609 Gövdənin dəqiqləşdirilməmiş strukturu**

### s770 Hərəkətlə bağlı əlavə sümük-əzələ strukturları

**s7700 Sümüklər**

**s7701 Oynaqlar**

**s7702 Əzələlər**

**s7703 Dəqiqləşdirilməmiş xarici oynaq bağları, fassiyaları, xarici əzələ aponevrozları, qişalar, arakəsmələr, kisəciklər**

**s7708 Hərəkətlə bağlı digər dəqiqləşdirilmiş əlavə sümük-əzələ strukturları**

**s7709 Hərəkətlə bağlı dəqiqləşdirilməmiş əlavə sümük-əzələ strukturları**

### s798 Hərəkətlə bağlı digər dəqiqləşdirilmiş strukturlar

### s799 Hərəkətlə bağlı dəqiqləşdirilməmiş strukturlar

## BÖLMƏ 8. DƏRİ VƏ ONA AİD STRUKTURLAR

### s810 Dəri örtüyünün strukturu

**s8100 Baş və boyun nahiyəsinin dərisi**

**s8101 Çiyin qurşağının dərisi**

**s8102 Yuxarı ətrafın dərisi**

**s8103 Çanaq nahiyəsinin dərisi**

**s8104 Aşağı ətrafın dərisi**

**s8105 Gövdə və belin dərisi**

**s8108 Dəri örtüyünün digər dəqiqləşdirilmiş strukturu**

**s8109 Dəri örtüyünün dəqiqləşdirilməmiş strukturu**

### s820 Dəri vəzlərinin strukturu

**s8200 Tər vəzləri**

**s8201 Piy vəzləri**

**s8208 Dəri vəzlərinin digər dəqiqləşdirilmiş strukturu**

**s8209 Dəri vəzlərinin dəqiqləşdirilməmiş strukturu**

## s830 Dırnaqların strukturu

**s8300 Əl barmaqlarının dırnaqları**

**s8301 Ayaq barmaqlarının dırnaqları**

**s8308 Dırnaqların digər dəqiqləşdirilmiş strukturu**

**s8309 Dırnaqların dəqiqləşdirilməmiş strukturu**

## s840 Saçların strukturu

## s898 Dəri və ona aid digər dəqiqləşdirilmiş strukturlar

## s899 Dəri və ona aid dəqiqləşdirilməmiş strukturlar

# FƏALLIQ VƏ İŞTİRAK

## BÖLMƏ 1. BİLİKLƏRİN ƏLDƏ OLUNMASI VƏ TƏTBİQİ

Bu bölmə biliklərin əldə olunmasına və tətbiqinə, təfəkkürə, problerin həllinə və qərarların qəbul edilməsinə həsr olunmuşdur.

### HİSSİYYAT ORQANLARINDAN MƏQSƏDYÖNLÜ İSTİFADƏ (d110-d129)

**d110 Görmə qabiliyyətindən istifadə**

Vizual stimulların mənasının dərk olunması məqsədi ilə görmə qabiliyyətindən istifadə, məsələn, idman yarışlarının və ya uşaq oyunlarının müşahidə olunması.

**d115 Eşitmə qabiliyyətindən istifadə**

Səs stimullarının mənasının dərk olunması məqsədi ilə eşitmə qabiliyyətindən istifadə, məsələn, radionun, musiqinin və ya mühazirənin dinlənilməsi.

**d120 Digər hisslərdən məqsədyönlü istifadə**

Digər stimulların mənasının dərk olunması məqsədi ilə digər əsas hisslərdən istifadə, məsələn, predmetlərin strukturunun lamisə vasitəsi ilə hiss olunması, konfet dadının və ya gül-çiçək ətrinin hiss olunması.

**d120 Hissiyyat orqanlarından məqsədyönlü istifadə, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş istifadə qaydaları**

### BİLİKLƏRİN ƏLDƏ OLUNMASI ZAMANI ƏSAS VƏRDİŞLƏR (d130 – d159)

**d130 Təqlid**

Biliklərin əldə olunmasının əsas komponenti kimi, bənzətmə və ya yamsılama, məsələn, jestlərin, səslərin və ya əlifba hərflərinin təqlidi.

**d135 Təkrarlama**

Biliklərin əldə olunmasının əsas komponenti kimi, müəyyən ardıcıllıqla təkrarlama, məsələn, onluqlarla sayma və ya ucadan şeir oxunuşu.

**d140 Mütaliə vərdişlərinin mənimsənilməsi**

Yazı dilində düzgün və səlis mütaliə (o cümlədən, Brayl yazısı ilə mütaliə) vərdişlərinin inkişafı, məsələn, hərflərin və əlifbanın tanınması, düzgün tələffüz etməklə ucadan mütaliə, sözlərin və ifadələrin başa düşülməsi.

### d145 Yazı vərdişlərinin mənimsənilməsi

Nitq səslərinin, sözlərin və ifadələrin mənasının çatdırılması məqsədi ilə həmin səslərin, sözlərin və ifadələrin əks etdirilməsi üçün istifadə olunan rəmzlərin (simvolların) təkrarlanması vərdişlərinin inkişafı (o cümlədən, Brayl dilində yazılmış yazı), məsələn, hərflərin aydın yazılışı və qrammatikadan düzgün istifadə.

### d150 Hesablama vərdişlərinin mənimsənilməsi

Rəqəmlərlə manipulyasiya, sadə və mürəkkəb riyazi əməliyyatların aparılması vərdişlərinin inkişafı, məsələn, riyazi toplama və çıxma işarələrindən istifadə və problemlərin həlli zamanı düzgün riyazi əməliyyatların tətbiqi.

### d155 Təcrübi vərdişlərin qazanılması

Müstəqil seçim edilməsi və müəyyən vərdişlərin inkişaf etdirilməsi məqsədi ilə bir sıra əməliyyatların və ya tapşırıqların yerinə yetirilməsi (məsələn, şahmat oyunu və ya əmək alətlərindən istifadə) üçün zəruri olan başlanğıc və kompleks vərdişlərin inkişafı.

*Daxil edilib: başlanğıc və kompleks vərdişlərin qazanılması*

**d1550 Başlanğıc vərdişlərin qazanılması**

Elementar, məqsədyönlü əməliyyatların yerinə yetirilməsi qabiliyyətinin inkişafı, məsələn, çəngəl-bıçaqla, karandaşla və ya adi bir alətlə davranma qaydalarının öyrədilməsi.

**d1551 Kompleks vərdişlərin qazanılması**

Futbol oyunu və ya inşaat alətlərindən istifadə kimi fəaliyyət sahələrində mövcud qaydalara riayət olunması, müəyyən hərəkətlərin ardıcıllığının qorunub saxlanması və onların koordinasiya edilməsi məqsədi ilə mürəkkəb əməliyyatlar məcmusunun yerinə yetirilməsi qabiliyyətinin inkişaf etdirilməsi.

**d1558 Vərdişlərin qazanılması, digər dəqiqləşdirilmiş**

**d1559 Vərdişlərin qazanılması, dəqiqləşdirilməmiş**

### d159 Biliklərin əldə olunması zamanı başlanğıc vərdişlər, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş vərdişlər

## BİLİKLƏRİN TƏTBİQİ (d160-d179)

### d160 Diqqətin cəmləşdirilməsi

Diqqətin məqsədyönlü şəkildə səciyyəvi stimullarda cəmləşdirilməsi, məsələn, səs-küylü şəraitdə fikrin toplanması.

### d163 Təfəkkür

İdeyaların, konsepsiyaların və ya obrazların məqsədyönlü və ya qeyri-məqsədyönlü şəkildə təsnif edilməsi və istifadə olunması, məsələn, bədii obrazın yaradılması, teoremin isbatı, ideyaların irəli sürülməsi, beyin həmləsi, meditasiya, düşüncə, spekulyativ və reflektor təfəkkür.

*Çıxarılıb: problemlərin həlli (d175); qərarların qəbul edilməsi (d177)*

## d166 Mütaliə

Ümumi biliklərin və xüsusi məlumatların əldə olıunması məqsədi ilə yazı materialının (məsələn, kitabların, təlimatların və ya qəzetlərin, o cümlədən Brayl dilində buraxılmış materialların) dərk olunması və təfsiri.

*Çıxarılıb: mütaliə vərdişlərinin mənimsənilməsi (d140)*

## d170 Yazı

Məlumatların ötürülməsi məqsədi ilə dil rəmzlərinin (simvollarının) təkrarlanması və istiafdəsi, məsələn, hadisələrin təsviri və ya məktubun şərhi.

*Çıxarılıb: yazı vərdişlərinin mənimsənilməsi (d145)*

## d172 Hesablama

Sözlərlə şərh olunan problemlərin həll olunması üçün riyazi prinsiplərin tətbiqi ilə hesablamaların aparılması və nəticələrin qeydə alınması və ya əks etdirilməsi, məsələn, üç toplananın cəminin hesablanması və ya bir rəqəmin digərinə bölünməsinin nəticəsinin alınması.

*Çıxarılıb: hesablama vərdişlərinin mənimsənilməsi (d150)*

## d175 Problemlərin həlli

Sualları və ya vəziyyətləri eyniləşdirməklə və ya təhlil etməklə onların cavabının və ya həlli yollarının axtarılması, variantların və qərarların işlənib hazırlanması, qərarların mümkün nəticələrinin qiymətləndirilməsi və qəbul olunmuş qərarın icrası, məsələn, iki insan arasındakı ziddiyyətlərin həlli.

*Daxil edilib: sadə problemlərin həlli, mürəkkəb problemlərin həlli*

*Çıxarılıb: təfəkkür (d163); qərarların qəbul edilməsi (d177)*

**d1750 Sadə problemlərin həlli**

Tərkibində vahid aspekt və ya sual dayanan sadə problemi eyniləşdirməklə və ya təhlil etməklə onun həllinin axtarılması, qərarların işlənib hazırlanması, qərarların mümkün nəticələrinin qiymətləndirilməsi və qəbul olunmuş qərarın icrası.

**d1751 Mürəkkəb problemlərin həlli**

Tərkibində bir-biri ilə qarşılıqlı əlaqədə olan çoxsaylı aspekt və ya bir neçə əlaqəli problem dayanan mürəkkəb problemi eyniləşdirməklə və ya təhlil etməklə onun həllinin axtarılması, qərarların işlənib hazırlanması, qərarların mümkün nəticələrinin qiymətləndirilməsi və qəbul olunmuş qərarın icrası.

**d1758 Problemlərin həlli, dəqiqləşdirilmiş digər həll**

**d1759 Problemlərin həlli, dəqiqləşdirilməmiş həll**

## d177 Qərarların qəbulu

Variantlar arasından seçim edilməsi, seçimin həyata keçirilməsi və edilmiş seçimin nəticələrinin qiymətləndirilməsi, məsələn, müəyyən məqsədlərin seçilməsi və qarşıya qoyulması, yaxud yerinə yetirilməli olan bir neçə tapşırıqdan birinin həyata keçirilməsi.

*Çıxarılıb: təfəkkür (d163); problemlərin həlli (d175)*

**d179 Biliklərin tətbiqi, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş biliklər**

**d198 Biliklərin əldə olunması və tətbiqi, digər dəqiqləşdirilmiş biliklər**

**d199 Biliklərin əldə olunması və tətbiqi, dəqiqləşdirilməmiş biliklər**

# BÖLMƏ 2. ÜMUMİ VƏZİFƏLƏR VƏ TƏLƏBLƏR

Bu bölmə ayrı-ayrı və çoxplanlı vəzifələrin yerinə yetirilməsinin ümumi aspektlərinə, nizam qaydalarının təşkilinə və stressin aradan qaldırılmasına həsr olunur. Bu amillər, müxtəlif şəraitdə vəzifələrin yerinə yetirilməsinin xüsusiyyətlərinin dəqiqləşdirilməsi üçün daha dəqiq vəzifə və ya əməllərlə birlikdə istifadə oluna bilər.

**d210 Ayrı-ayrı vəzifələrin yerinə yetirilməsi**

Vəzifələrin yerinə yetirilməsinin əqli və fiziki komponentləri ilə əlaqədar olan sadə, mürəkkəb və koordinasiya olunmuş əməliyyatların həyata keçirilməsi, məsələn, vəzifənin irəli sürülməsi, vəzifələrin yerinə yetirilməsi üçün vaxtın, yerin və maddi ehtiyatların təşkili, vəzifənin yerinə yetirilməsinin stimullaşdırılması, vəzifənin sonadək yerinə yetirilməsi və vəzifənin yerinə yetirilməsindən boyun qaçırılmaması.

*Daxil edilib: sadə və ya mürəkkəb vəzifələrin yerinə yetirilməsi, ayrı-ayrı vəzifələrin müstəqil və ya qrup şəklində yerinə yetirilməsi.*

*Çıxarılıb: təcrübi vərdişlərin qazanılması (d155); problemlərin həll olunması (d175); qərarların qəbul edilməsi (d177); çoxplanlı vəzifələrin yerinə yetirilməsi (d220).*

**d2100 Sadə vəzifənin yerinə yetirilməsi**

Sadə vəzifənin yerinə yetirilməsi üçün zəruri olan vaxtın və yerin hazırlanması, başlanması və təşkili, sadə təkkomponentli vəzifənin yerinə yetirilməsi, məsələn, kitab mütaliəsi, məktub yazılması və ya çarpayının yığışdırılması.

**d2101 Mürəkkəb vəzifənin yerinə yetirilməsi**

Mürəkkəb vəzifənin yerinə yetirilməsi üçün zəruri olan vaxtın və yerin hazırlanması, başlanması və təşkili, ardıcıl surətdə və ya eyni zamanda yerinə yetirilə bilən mürəkkəb çoxkomponentli vəzifənin yerinə yetirilməsi, məsələn, evdə mebelin düzülməsi və ya məktəb tapşırığının həll edilməsi.

**d2102 Ayrı-ayrı vəzifələrin müstəqil surətdə yerinə yetirilməsi**

Sadə və ya mürəkkəb vəzifələrin yerinə yetirilməsi üçün zəruri olan vaxtın və yerin hazırlanması, başlanması və təşkili, vəzifənin müstəqil surətdə və başqalarının köməyi olmadan təşkil edilməsi və yerinə yetirilməsi.

**d2103 Ayrı-ayrı vəzifələrin qrup şəklində yerinə yetirilməsi**

Sadə və ya mürəkkəb vəzifələrin yerinə yetirilməsi üçün zəruri olan vaxtın və yerin hazırlanması, başlanması və təşkili, vəzifənin bütünlüklə və ya bəzi aspektlərinin yerinə yetirilməsinə cəlb olunmuş digər insanlarla birlikdə həmin vəzifənin təşkil edilməsi və yerinə yetirilməsi.

**d2108 Ayrı-ayrı vəzifələrin yerinə yetirilməsi, digər dəqiqləşdirilmiş vəzifələr**

**d2109 Ayrı-ayrı vəzifələrin yerinə yetirilməsi, dəqiqləşdirilməmiş vəzifələr**

## d220 Çoxplanlı vəzifələrin yerinə yetirilməsi

Çoxplanlı, çoxtərkibli və mürəkkəb vəzifələrin bir hissəsi olan sadə, mürəkkəb və koordinasiya edilmiş əməllərin ardıcıl surətdə və ya eyni zamanda yerinə yetirilməsi.

*Daxil edilib: çoxplanlı vəzifələrin yerinə yetirilməsi, çoxplanlı vəzifələrin tamamlanması, çoxplanlı vəzifələrin müstəqil surətdə və ya qrup halında yerinə yetirilməsi.*

*Çıxarılıb: təcrübi vərdişlərin qazanılması (d155); problemlərin həll olunması (d175); qərarların qəbul edilməsi (d177); ayrı-ayrı vəzifələrin yerinə yetirilməsi (d210) .*

**d2200 Çoxplanlı vəzifələrin yerinə yetirilməsi**

Bir neçə vəzifənin yerinə yetirilməsi üçün zəruri olan vaxtın və yerin hazırlanması, başlanması və təşkili, ardıcıl surətdə və ya eyni zamanda bir neçə vəzifənin yerinə yetirilməsi.

**d2201 Çoxplanlı vəzifələrin tamamlanması**

Bir neçə vəzifənin ardıcıl surətdə və ya eyni zamanda tamamlanması.

**d2202 Çoxplanlı vəzifələrin müstəqil surətdə yerinə yetirilməsi**

Çoxplanlı vəzifələrin yerinə yetirilməsi üçün zəruri olan vaxtın və yerin hazırlanması, başlanması və təşkili, bir neçə vəzifənin müstəqil surətdə və başqalarının köməyi olmadan təşkil edilməsi və yerinə yetirilməsi.

**d2203 Çoxplanlı vəzifələrin qrup şəklində yerinə yetirilməsi**

Çoxplanlı vəzifələrin yerinə yetirilməsi üçün zəruri olan vaxtın və yerin hazırlanması, başlanması və təşkili, bir neçə vəzifənin bütünlüklə və ya bəzi aspektlərinin yerinə yetirilməsinə cəlb olunmuş digər insanlarla birlikdə həmin vəzifənin təşkil edilməsi və yerinə yetirilməsi.

**d2208 Çoxplanlı vəzifələrin yerinə yetirilməsi, digər dəqiqləşdirilmiş vəzifələr**

**d2209 Çoxplanlı vəzifələrin yerinə yetirilməsi, dəqiqləşdirilməmiş vəzifələr**

## d230 Gündəlik nizam qaydalarının yerinə yetirilməsi

Gündəlik nizam qaydalarının və ya öhdəliklərin planlaşdırılması, təşkili və yerinə yetirilməsi üçün sadə, mürəkkəb və koordinasiya edilmiş əməllərin ardıcıl surətdə və ya eyni zamanda yerinə yetirilməsi, məsələn, gün ərzində ayrı-ayrı vəzifələrin planlaşdırılması və vaxtın bölüşüdrülməsi.

*Daxil edilib: gündəlik nizam qaydalarının təşkili və icrası; öz fəalliğının səviyyəsinin idarə olunması.*

*Çıxarılıb: çoxplanlı vəzifələrin yerinə yetirilməsi (d220) .*

**d2301 Gündəlik nizam qaydalarının təşkili**

Gündəlik nizam qaydalarının və ya öhdəliklərin planlaşdırılması və təşkili üçün sadə, mürəkkəb və koordinasiya edilmiş əməllərin yerinə yetirilməsi.

**d2301 Gündəlik nizam qaydalarının icrası**

Gündəlik nizam qaydalarının və ya öhdəliklərin icrası üçün sadə, mürəkkəb və koordinasiya edilmiş əməllərin yerinə yetirilməsi.

**d2303 Öz fəallığının səviyyəsinin idarə olunması**

Gündəlik nizam qaydalarının və ya öhdəliklərin tələblərindən asılı olaraq, qüvvənin, vaxtın və enerji sərfiyyatının bölüşdürülməsi.

**d2308 Gündəlik nizam qaydalarının icrası, digər dəqiqləşdirilmiş icra qaydaları**

**d2309 Gündəlik nizam qaydalarının icrası, dəqiqləşdirilməmiş icra qaydaları**

### d240 Stressin və digər psixoloji gərginliklərin aradan qaldırılması

Böyük məsuliyyət tələb edən, stresslə və ya böhran vəziyyəti ilə əlaqədar olan vəzifələrin icrası zamanı yaranan psixoloji gərginliklərin uğurla idarə olunması və nəzarətdə saxlanılması məqsədi ilə sadə, mürəkkəb və koordinasiya olunmuş əməliyyatların həyata keçirilməsi, məsələn, intensiv hərəkət şəraitində nəqliyyatın idarə olunması və ya bir qrup uşağa nəzarət edilməsi.

*Daxil edilib: məsuliyyət; stressin və böhran vəziyyətinin aradan qaldırılması.*

**d2400 Məsuliyyət**

Öhdəliklərin zəruriliyini dərk edərək onların lazımi qaydada yerinə yetirilməsi üçün sadə, mürəkkəb və koordinasiya olunmuş əməliyyatların həyata keçirilməsi.

**d2401 Stressin aradan qaldırılması**

Vəzifənin icrası ilə əlaqədar olan gərginliyin, böhran vəziyyətinin və stressin aradan qaldırılması üçün sadə, mürəkkəb və koordinasiya olunmuş əməliyyatların həyata keçirilməsi.

**d2402 Böhran vəziyyətinin aradan qaldırılması**

Böhran vəziyyətlərində, yaxud ciddi təhlükə və ya çətinliklər dövründə həlledici, dönüş məqamlarının aradan qaldırılması üçün sadə, mürəkkəb və koordinasiya olunmuş əməliyyatların həyata keçirilməsi.

**d2408 Stressin və digər psixoloji gərginliklərin öhdəsindən gəlmək qabiliyyəti, digər dəqiqləşdirilmiş qabiliyyətlər**

**d2409 Stressin və digər psixoloji gərginliklərin öhdəsindən gəlmək qabiliyyəti, dəqiqləşdirilməmiş qabiliyyətlər**

### d298 Ümumi vəzifələr və tələblər, digər dəqiqləşdirilmiş

### d 299 Ümumi vəzifələr və tələblər, dəqiqləşdirilməmiş

# BÖLMƏ 3. ÜNSİYYƏT

Bu bölmədə dil, işarə və rəmzlər vasitəsi ilə ünsiyyətin ümumi və səciyyəvi elementləri, o cümlədən məlumatların dərk olunması və şərh edilməsi, söhbətin davam etdirilməsi, rabitə vasitələrindən və ünsiyyət texnikalarından istifadə üsulları nəzərdən keçirilir.

## ÜNSİYYƏT ZAMANI MƏLUMATLARIN DƏRK OLUNMASI (d310 – d329)

### d310 Ünsiyyət zamanı şifahi məlumatların dərk olunması

Şifahi nitq məlumatlarının birbaşa və nəzərdə tutulan mənalarının aydınlaşdırılması, məsələn, ifadənin faktın təsdiqi və ya idiomatik ifadə olmasının başa düşülməsi.

### d310 Ünsiyyət zamanı şifahi məlumatların dərk olunması

Şifahi nitq məlumatlarının birbaşa və nəzərdə tutulan mənalarının aydınlaşdırılması, məsələn, ifadənin faktın təsdiqi və ya idiomatik ifadə olmasının başa düşülməsi.

**d3150 Ünsiyyət zamanı jestlərin və cismani hərəkətlərin dərk olunması**

Mimika və jestlər vasitəsi ilə ötürülən mənaların, eləcə də bədənin vəziyyətinin və cismani dilin digər formalarının mənasının aydınlaşdırılması.

**d3151 Ünsiyyət zamanı məlum işarələrin və rəmzlərin dərk olunması**

Ümumi qəbul olunmuş işarə və rəmzlərin, məsələn, yol işarələrinin, xəbərdaredici rəmzlərin, musiqi işarələrinin və ya elm aləmində qəbul olunmuş və tanıdıcı işarələrin mənasının aydınlaşdırılması.

**d3152 Ünsiyyət zamanı rəsmlərin və fotoşəkillərin dərk olunması**

Şəkillərdə (məsələn, rəsmlərdə, sxemlərdə, qrafik təsvirlərdə), qrafiklərdə, diaqramlarda və foloşəkillərdə əks etdirilən mənaların aydınlaşdırılması, məsələn, boy diaqramındakı artan xəttin uşağın boy atmasını bildirməsinin dərk olunması.

**d3158 Qeyri-verbal ünsiyyət zamanı məlumatların dərk olunması, digər dəqiqləşdirilmiş**

**d3159 Qeyri-verbal ünsiyyət zamanı məlumatların dərk olunması, dəqiqləşdirilməmiş**

## d320 Ünsiyyət zamanı məlumatların rəsmi rəmzlər dilində dərk olunması

Rəsmi rəmzlər dilində çatdırılan məlumatlarda birbaşa və nəzərdə tutulan mənalarının aydınlaşdırılması.

## d325 Ünsiyyət zamanı yazılı məlumatların dərk olunması

Yazılı məlumatların (o cümlədən, Brayl dilində yazıların) birbaşa və nəzərdə tutulan mənalarının aydınlaşdırılması, məsələn, gündəlik qəzetlərdəki siyasətin müşahidəsi və ya əhdi-ətiq və əhdi-cədid kimi kitabların başa düşülməsi.

## d329 Ünsiyyət zamanı məlumatların dərk olunması, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş

# ÜNSİYYƏT – MƏLUMATLARIN TƏRTİB OLUNMASI VƏ ŞƏRH EDİLMƏSİ (d330-d349)

## d330 Nitq

Sözlərin, kəlmələrin və şifahi nitqin daha uzun ifadələrinin tələffüz olunması, birbaşa və nəzərdə tutulan mənalarda sadə və mürəkkəb məlumatların yaradılması, məsələn, fakt haqqında şifahi məlumat və ya nəqletmə.

## d335 Məlumatların qeyri-verbal formada tərtib olunması və şərh edilməsi

Məlumatların ötürülməsi üçün jestlərdən, rəmzlərdən və rəsmlərdən istifadə, məsələn, kiminləsə razılaşmadıqda başı bulama, faktın və ya mürəkkəb bir ideyanın əks etdirilməsi üçün diaqramın çəkilməsi və ya qurulması.

*Daxil edilib: jestetmə, işarəvermə, rəmzgöstərmə, rəsm və fotoşəkillərin köməyi ilə məlumatların ötürülməsi.*

**d3350 Məlumatların cismani dil vasitəsi ilə tərtib olunması və şərh edilməsi**

Məlumatın bədən hərəkəti, mimika (təbəssüm, qaşqabaq, üz-gözü turşutma), jestlər və bədənin vəziyyəti (məsələn, yaxınlığın təzahürü kimi qucaqlama) vasitəsi ilə ötürülməsi.

**d3351 Məlumatların işarə və rəmzlər vasitəsi ilə tərtib olunması və şərh edilməsi**

Məlumatın işarə və rəmzlər (təsvirlər, surdotərcümə, elmi rəmzlər) və rəmzlər sistemi vasitəsi ilə ötürülməsi, məsələn, melodiya yazmaq üçün musiqi savadından istifadə olunması.

**d3352 Məlumatların işarə və rəmzlər vasitəsi ilə tərtib olunması və şərh edilməsi**

Məlumatın rəsmlər, boya yazıları, eskiz və diaqramlar, şəkil və fotolar vasitəsi ilə ötürülməsi, məsələn, obyektin yerləşdiyi yeri göstərmək üçün ərazinin sxeminin tərtib olunması.

**d3358 Məlumatların qeyri-verbal formada tərtib olunması və şərh edilməsi, digər dəqiqləşdirilmiş**

**d3359 Məlumatların qeyri-verbal formada tərtib olunması və şərh edilməsi, dəqiqləşdirilməmiş**

### d340 Məlumatların rəsmi rəmzlər dilində tərtib olunması və şərh edilməsi

Məlumatların birbaşa və nəzərdə tutulan mənalarda rəsmi rəmzlər dilində çatdırılması.

### d345 Yazılı məlumatlar

Məlumatların birbaşa və nəzərdə tutulan mənalarda məktub vasitəsi ilə çatdırılması, məsələn, dosta məktub yazılması.

### d349 Məlumatların tərtib olunması və şərh edilməsi, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş tərtibat və şərhlər

## RABİTƏ VASİTƏLƏRİNDƏN VƏ ÜNSİYYƏT TEXNİKALARINDAN İSTİFADƏ ETMƏKLƏ SÖHBƏT VƏ ÜNSİYYƏT (d350-d369)

### d350 Söhbət

Şifahi və ya yazılı dil, işarə və ya digər vasitələrlə rəsmi və ya təsadüfi şəraitdə bir və ya çoxlu sayda tanış və ya yad insanlarla fikir və ideya mübadiləsinin başlanması, aparılması və tamamlanması.

*Daxil edilib: söhbətin başlanması, aparılması və tamamlanması, bir və ya çoxlu sayda insanlarla söhbət.*

**d3500 Söhbətin başlanması**

Dialoqun və ya ünsiyyətin başlanması, məsələn, özünütəqdim, başqalarının ümumi qəbul olunmuş qaydada salamlanması, mövzunun təklif olunması və ya suallar verilməsi.

**d3501 Söhbətin davam etdirilməsi**

Mövzuya fikir əlavə edilməsi, yeni mövzunun təklif olunması və ya əvvəlki mövzuya qayıdılması, eləcə də söhbət və ya yazışma zamanı mövzudan yayınma yolu ilə dialoqun və ünsiyyətin davam etdirilməsi və müəyyən məcrada aparılması.

**d3502 Söhbətin başa çatdırılması**

Ümumi qəbul olunmuş ifadələrdən istifadə etməklə dialoqun və ya ünsiyyətin başa çatdırılması, mövzunun müzakirəsinin sonadək davam etdirilməsi.

**d3503 Bir nəfərlə söhbət**

Bir nəfərlə dialoqun və ya ünsiyyətin başlanması, davam etdirilməsi, aparılması və ya tamamlanması, məsələn, dostla havanın müzakirə olunması.

**d3504 Bir neçə nəfərlə söhbət**

Bir neçə nəfərlə dialoqun və ya ünsiyyətin başlanması, davam etdirilməsi, aparılması və ya tamamlanması, məsələn, qrup halında aparılan müzakirənin başlanması və bu müzakirədə iştirak.

**d3508 Söhbət, digər dəqiqləşdirilmiş söhbət formaları**

**d3509 Söhbət, dəqiqləşdirilməmiş söhbət formaları**

## d355 Müzakirə

Müsahibin lehinə və ya əleyhinə rəy yürütməklə mövzunun başlanması, davam etdirilməsi və başa çatdırılması, yaxud şifahi və ya yazılı dil, işarələr və ya digər bir dil vasitəsi ilə rəsmi və ya təsadüfi şəraitdə bir və ya çoxlu sayda tanış və ya yad insanlarla mükalimələrin aparılması.

*Daxil edilib: Bir və ya bir neçə nəfərlə müzakirə*

**d3550 Bir nəfərlə müzakirə**

Bir nəfərlə mübahisə və ya müzakirənin başlanması, aparılması, davam etdirilməsi və başa çatdırılması.

**d3551 Bir neçə nəfərlə müzakirə**

Bir neçə nəfərlə mübahisə və ya müzakirənin başlanması, aparılması, davam etdirilməsi və başa çatdırılması.

**d3558 Müzakirə, digər dəqiqləşdirilmiş müzakirə formaları**

**d3559 Müzakirə, dəqiqləşdirilməmiş müzakirə formaları**

## d360 Rabitə vasitələrindən və ünsiyyət texnikalarından istifadə

Ünsiyyət məqsədi ilə qurğu, texnika və digər vasitələrdən istifadə, məsələn, telefon vasitəsi ilə dostla söhbət.

*Daxil edilib: Telekommunikasiya qurğularından, yazı makinalarından və ünsiyyət texnikalarından istifadə.*

**d3600 Telekommunikasiya qurğularından istifadə**

Rabitə vasitələri qismində teelfonlardan və digər qurğulardan, məsələn, faks və ya tekekslərdən istifadə.

**d3601 Yazı maşınlarından istifadə**

Ünsiyyət vasitələri qismində yazı üçün nəzərdə tutulmuş maşınlardan, məsələn, yazı makinalarından, kompüterlərdən və Brayl dilində yazan makinalardan istifadə.

**d3602 Ünsiyyət texnikalarından istifadə**

Xüsusi ünsiyyət texnikalarından istifadə, məsələn, dodaq hərəkətlərindən oxuma.

**d3608 Rabtə vasitələrindən və ünsiyyət texnikalarından istifadə, digər dəqiqləşdirilmiş**

**d3609 Rabitə vasitələrindən və ünsiyyət texnikalarından istifadə, dəqiqləşdirilməmiş**

## d369 Rabitə vasitələrindən və ünsiyyət texnikalarından istifadə etməklə söhbət və ünsiyyət, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş

## d398 Ünsiyyət, digər dəqiqləşdirilmiş

**d399 Ünsiyyət, dəqiqləşdirilməmiş**

# BÖLMƏ 4. HƏRƏKƏT

Bu bölmə bədənin vəziyyətinin dəyişilməsi və ya bir yerdən digərinə keçid vasitəsi ilə hərəkətə; obyektlərin daşınmasına, yerdəyişməsinə və ya manipulyasiyasına; yerişə, qaçışa, maneələrin dəf edilməsinə və müxtəlif nəqliyyat növlərindən istifadə edilməsinə həsr olunmuşdur.

## BƏDƏNİN VƏZİYYƏTİNİN DƏYİŞİLMƏSİ VƏ SAXLANMASI (d410 - d429)

### d410 Bədənin vəziyyətinin dəyişilməsi

Bədənin vəziyyətinin alınması və dəyişilməsi və bir yerdən başqasına keçid, məsələn, çarpayıya uzanmaq üçün kreslodan qalxma, çöməlmiş və ya dizüstü vəziyyətdə əyləşmə və ya qalxma.

*Daxil edilib: Uzanan, çöməlmiş və ya dizüstü, ayaqüstü və ya oturaq vəziyyətlərin alınması, əyilmə və ağırlıq qüvvəsinin yerdəyşlməsi.*

*Çıxarılıb: Bədənin yerdəyişməsi (d420)*

**d4100 Uzanılı vəziyyətdə bədənin vəziyyətinin dəyişilməsi**

Uzanılı vəziyyətin alınması və qalxma, bədənin üfüqi vəziyyətdən digər vəziyyətə, məsələn, oturaq və ya ayaqüstü vəziyyətə keçidi.

*Daxil edilib: üzüqoylu uzanma*

**d4101 Çöməlmiş vəziyyətdə bədənin vəziyyətinin dəyişilməsi**

Dizlərin çox büküldüyü alçaq oturaq vəziyyətdən qalxma və bədən vəziyyətinin alınması, yaxud çöməlmiş vəziyyətdən hər hansı digər vəziyyətə, məsələn, ayaqüstü vəziyyətə keçid.

**d4102 Dizüstü vəziyyətdə bədənin vəziyyətinin dəyişilməsi**

Bədənin bükülmüş dizlərə dayaqlandığı vəziyyətin (məsələn, dua oxuyarkən alınan vəziyyətin) alınması və həmin vəziyyətdən qalxma, yaxud dizüstü vəziyyətdən hər hansı digər vəziyyətə, məsələn, ayaqüstü vəziyyətə keçid.

**d4103 Oturaq vəziyyətdə bədənin vəziyyətinin dəyişilməsi**

Oturaq vəziyyətin alınması və həmin vəziyyətdən qalxma, eləcə də oturaq vəziyyətdən hər hansı digər vəziyyətə, məsələn, ayaqüstü və ya uzanılı vəziyyətə keçid.

*Daxil edilib: Ayaqları bükməklə, yaxud ayağı ayağın üzərinə aşırmaqla, eləcə də yerə dayaqlanmaqla və ya dayaqlanmamaqla oturaq vəziyyətin alınması.*

**d4104 Ayaqüstü vəziyyətdə bədənin vəziyyətinin dəyişilməsi**

Ayaqüstü vəziyyətin alınması və ayaqüstü vəziyyətdən hər hansı digər vəziyyətə, məzələn, oturaq və ya uzanılı vəziyyətə keçid.

**d4105 Əyilmə**

Obyektə doğru əyildikdə olduğu kimi, gövdənin aşağıya və ya yanlara əyilməsi.

**d4106 Bədənin ağırlıq mərkəzinin dəyişilməsi**

Bədən kütləsinin bir vəziyyətdən digərinə - ayaqüstü, oturaq və ya uzanılı vəziyyətə keçidi, məsələn, şaquli vəziyyətdə ağırlığın bir ayaqadn digər ayağa keçirilməsi.

*Çıxarılıb: bədənin yerdəyişməsi (d420); yeriş (d450)*

**d4108 Bədənin vəziyyətinin dəyişilməsi, digər dəqiqləşdirilmiş**

**d4109 Bədənin vəziyyətinin dəyişilməsi, dəqiqləşdirilməmiş**

## d415 Bədənin vəziyyətinin saxlanması

Tələb olunduğu qədər zəruri vəziyyətdə qalma, məsələn, iş yerində və ya məktəbdə oturaq və ya ayaqüstü vəziyyətdə qalma.

*Daxil edilib: Uzanılı, çöməlmiş, dizüstü, ayaqüstü və ya oturaq vəziyyətdə qalma.*

**d4150 Uzanılı vəziyyətdə qalma**

Tələb olunan vaxt ərzində uzanılı vəziyyətdə qalma, məsələn, çarpayıda uzanaraq qalma.

*Daxil edilib: Üzüqoylu, arxası üstə və ya böyrü üstə uzanaraq qalma*

**d4151 Çöməlmiş vəziyyətdə qalma**

Tələb olunan vaxt ərzində çöməlmiş vəziyyətdə qalma, məsələn, kreslosuz, döşəmədə oturaraq qalma.

**d4152 Dizüstü vəziyyətdə qalma**

Tələb olunan vaxt ərzində bədəni bükülmüş ayaqların dizlərinə dayamaqla dizüstü vəziyyətdə (məsələn, məsciddə və ya kilsədə dua edərkən alınan vəziyyətdə) qalma.

**d4153 Oturaq vəziyyətdə qalma**

Tələb olunan vaxt ərzində oturacaqda və ya döşəmədə oturaq vəziyyətdə (məsələn, parta və ya masa arxasında oturaq vəziyyətdə) qalma.

*Daxil edilib: Ayaqları bir yerdə qoymaqla, yaxud ayağı ayağın üzərinə aşırmaqla, eləcə də yerə dayaqlanmaqla və ya dayaqlanmamaqla oturaq vəziyyətdə qalma.*

**d4154 Ayaqüstü vəziyyətdə qalma**

Tələb olunan vaxt ərzində ayaqüstü vəziyyətdə (məsələn, növbədə dayanarkən ayaqüstü vəziyyətdə) qalma.

*Daxil edilib: Maili, sürüşkən və ya bərk müstəvidə ayaqüstü vəziyyətdə qalma.*

**d4158 Bədənin vəziyyətinin saxlanması, dəqiqləşdirilmiş digər vəziyyət**

**d4159 Bədənin vəziyyətinin saxlanması, dəqiqləşdirilməmiş vəziyyət**

## d420 Bədənin yerdəyişməsi

Bədənin vəziyyətini dəyişmədən bir səthdən digərinə yerdəyişmə, məsələn, skamya boyunca və ya çarpayıdan stula yerdəyişmə.

*Daxil edilib: Oturaq və ya uzanılı vəziyyətdən yerdəyişmə*

*Çıxarılıb: Bədən vəziyyətinin dəyişilməsi (d410)*

**d4200 Oturaq vəziyyətdən bədənin yerdəyişməsi**

Oturaq vəziyyətdə eyni və ya müxtəlif səviyyələrdə olan bir yerdən digərinə, məsələn, stuldan çarpayıya keçid.

*Daxil edilib: Stuldan digər oturaq yerə, məsələn, yelləncək kreslodan avtomobil oturacağına keçid.*
*Çıxarılıb: Bədən vəziyyətinin dəyişilməsi (d410)*

**d4201 Uzanılı vəziyyətdən bədənin yerdəyişməsi**

Uzanılı vəziyyətdə eyni və ya müxtəlif səviyyələrdə olan bir yerdən digərinə, məsələn, bir çarpayıdan digərinə keçid.

*Çıxarılıb: Bədən vəziyyətinin dəyişilməsi (d410)*

**d4208 Bədənin yerdəyişməsi, digər dəqiqləşdirilmiş yerdəyişmə**

**d4209 Bədənin yerdəyişməsi, dəqiqləşdirilməmiş yerdəyişmə**

### d429 Bədənin vəziyyətinin dəyişilməsi və saxlanması, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş vəziyyətlər

## OBYEKTLƏRİN DAŞINMASI, YERDƏYİŞMƏSİ VƏ MANİPULYASİYASI (d430-d449)

### d430 Obyektlərin qaldırılması və daşınması

Obyektin qaldırılması və hər hansı bir əşyanın bir yerdən digərinə qoyulması, məsələn, fincanın qaldırılıması və ya uşağın bir otaqdan digərinə aparılması.

*Daxil edilib: Qolların, çiyinlərin, ayaqların və belin köməyi ilə obyektin qaldırılması, daşınması və yerləşdirilməsi.*

**d4300 Qaldırma**

Obyektin daha alçaq səviyyədən daha yüksək səviyyəyə daşınması üçün qaldırılması, məsələn, masanın üzərindən stəkanın qaldırılması.

**d4301 Biləklərin köməyi ilə daşıma**

Biləklərin köməyi ilə obyektin qaldırılması və daşınması, məsələn, su stəkanının və ya çamadanın daşınması.

**d4302 Qolların köməyi ilə daşıma**

Bütünklüklə qolların köməyi ilə obyektin qaldırılması və daşınması, məsələn, uşağın daşınması.

**d4303 Çiyinlər, ayaqlar və bel üzərində daşıma**

Obyektin qaldırılaraq çiyinlər, ayaqlar və bel üzərində daşınması, məsələn, böyük bir kisənin daşınması.

**d4304 Başın üstündə daşıma**

Obyektin qaldırılaraq başın üstündə daşınması, məsələn, su qabının başın üstünə qoyulub daşınması.

**d4305 Obyektlərin yerə salınması**

Obyektin hər hansı səth üzərinə və ya yerə qoyulması, məsələn, su qabının yerə qoyulması üçün biləklərdən və ya bədənin digər üzvlərindən istifadə olunması.

**d4308 Obyektlərin qaldırılması və daşınması, digər dəqiqləşdirilmiş qaydalar**

**d4309 Obyektlərin qaldırılması və daşınması, dəqiqləşdirilməmiş qaydalar**

### d435 Obyektlərin ayaqların köməyi ilə daşınması

Obyektlərin ayaqların və ayaq pəncələrinin köməyi ilə daşınması məqsədi ilə koordinasiyalı hərəkətlərin icrası, məsələn, topa ayaqla zərbə və ya velosiped pedallarının fırladılması.

*Daxil edilib: ayaqlarla itələmə; ayaqla zərbə*

**d4350 Ayaqlarla itələmə**

Obyekti yerindən tərpətmək məqsədi ilə ayaq və pəncə ilə təzyiq göstərilməsi, məsələn, stulun ayaqla yerindən tərpədilməsi.

**d4351 Ayaqla zərbə**

Hər hansı əşyanı tullamaq məqsədi ilə ayaqlardan və pəncələrdən istifadə, məsələn, ayaqla topa zərbə.

**d4358 Obyektlərin ayaqla yerdəyişməsi, digər dəqiqləşdirilmiş**

**d4359 Obyektlərin ayaqla yerdəyişməsi, dəqiqləşdirilməmiş**

## d440 Biləklərin dəqiq hərəkətlərindən istifadə

Əl biləklərinin obyektlərlə koordinasiyalı hərəkətlərinin yerinə yetirilməsi, obyektləri biləklərin, barmaqların və əlin baş barmağının köməyi ilə tutmaq, manipulyasiya etmək və buraxmaq qabiliyyəti, məsələn, masanın üzərindən qəpiyin göütrülməsi, telefon nömrəsinin yığılması və ya qələmin düyməsinin basılması.

*Daxil edilib: götürmə, tutma, manipulyasiya və buraxma*

*Çıxarılıb: obyektlərin qaldırılması və daşınması (d430)*

**d4400 Götürmə**

Kiçik ölçülü obyektin bilək və ya barmaqlarla qaldırılması və ya götürülməsi, məsələn, masanın üzərindən karandaşın götürülməsi.

**d4401 Tutma**

Hər hansı əşyanı tutub-saxlamaq üçün bir və ya hər iki biləkdən istifadə, məsələn, alətin və ya qapı dəstəyinin tutulması.

**d4402 Manipulyasiya**

Hər hansı əşya ilə zəruri əməliyyatların aparılması üçün bilək və ya barmaqlardan istifadə olunması, məsələn, qəpiklə və ya kiçik ölçülü digər obyektlərlə davranış.

**d4403 Buraxma**

Hər hansı əşyanın yerə düşməsi və ya vəziyyətini dəyişməsi üçün bilək və barmaqlardan istifadə etməklə buraxılması, məsələn, paltarın soyunulması.

**d4408 Biləklərin dəqiq hərəkətlərindən istifadə, digər dəqiqləşdirilmiş**

**d4409 Biləklərin dəqiq hərəkətlərindən istifadə, dəqiqləşdirilməmiş**

## d445 Biləkdən və əldən istifadə

Bilək və əllərdən istifadə etməklə obyektlərin daşınması və ya manipulyasiyası zamanı koordinasiyalı hərəkətlərinin yerinə yetirilməsi, məsələn, qapı dəstəyinin fırladılması, əşyaların atılıb-tutulması.

*Daxil edilib: obyektlərin özünə doğru çəkilməsi və itələnməsi; əllərin irəliyə uzadılması; buləklərin və ya əllərin fırladılması və ya bükülməsi; tullama; tutma*

*Çıxarılıb: biləyin dəqiq hərəkətlərindən istifadə (d440)*

**d4450 Özünə doğru çəkmə**

Obyekti özünə doğru çəkmək, yaxud bir yerdən başqa yerə keçirmək üçün barmaqlardan, biləklərdən və qollardan istifadə, məsələn, qapının bağlanması.

**d4451 İtələmə**

Obyekti özündən uzaqlaşdırmaq, yaxud bir yerdən başqa yerə keçirmək üçün barmaqlardan, biləklərdən və qollardan istifadə, məsələn, heyvanların özündən uzaqlaşdırılması.

**d4452 Dartma**

Hər hansı əşyaya toxunmaq və ya tutmaq üçün biləklərdən və qollardan istifadə, məsələn, masanın və ya partanın üzərindən kitaba doğru əl uzatma.

**d4453 Biləklərlə və ya əllərlə fırlatma və ya əymə**

Obyekti fırlatmaq, çevirmək və ya əymək üçün barmaqlardan, biləklərdən və əllərdən istifadə (alətlərdən və ya qab-qacaqdan istifadə zamanı tələb olunan qaydada).

**d4454 Tullama**

Hər hansı əşyanı götürərək onu müəyyən qüvvə ilə atmaq üçün barmaqlardan, biləklərdən və əllərdən istifadə, məsələn, topu tullama.

**d4455 Tutma**

Hərəkət edən obyekti dayandırmaq və saxlamaq məqsədi ilə tutmaq üçün barmaqlardan, biləklərdən və əllərdən istifadə, məsələn, topu tutma. .

**d4458 Biləkdən və əldən istifadə, digər dəqiqləşdirilmiş**

**d4409 Biləkdən və əldən istifadə, dəqiqləşdirilməmiş**

## d449 Obyektlərin daşinması, yerdəyişməsi və manipulyasiyası, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş

## YERİŞ VƏ HƏRƏKƏT (d450-d469)

## d450 Yeriş

Səth üzərində piyada, addımbaaddım, ayağın birinin daim səthə toxunması ilə müşaiyət olunan hərəkət, məsələn, gəzinti, yaxud irəliyə / arxaya / yana yeriş.

*Daxil edilib: Qısa və ya uzun məsafələrə yeriş; müxtəlif səthlər üzərində yeriş; maneələr ətrafında yeriş.*

*Çıxarılıb: bədənin yerdəyişməsi (d420), yerişdən fərqli hərəkətlərlə yerdəyişmə (d455)*

**d4500 Qısa məsafələrə yeriş**

Bir kilometrdən az məsafələrə, məsələn, otaqda, dəhlizdə, bina daxilində və ya binadan kənarda qısa məsafələrdə yeriş.

**d4501 Uzun məsafələrə yeriş**

Bir kilometrdən artıq məsafələrə, məsələn, kəndin və ya şəhərin bir hissəsinə, kəndlər arasında və ya açıq ərazilərdə yeriş.

**d4502 Müxtəlif səthlər üzərində yeriş**

Maili, nahamar və ya mütəhərrik səthlər, məsələn, ot, çınqıl, buz və ya qar üzərində, yaxud da gəmi göyərtəsində, qatarda və ya digər nəqliyyatda yeriş.

**d4503 Maneələr ətrafında yeriş**

Mütəhərrik və hərəkətsiz obyektlərin ətrafında, yaxud insanlar, heyvanlar və nəqliyyat vasitələri arasında, məsələn, bazarda və ya mağazada, küçə hərəkəti şəraitində və ya insanların toplaşdığı digər yerlərdə yeriş.

**d4508 Yeriş, digər dəqiqləşdirilmiş**

**d4509 Yeriş, dəqiqləşdirilməmiş**

## d455 Yerişdən fərqli hərəkətlərlə yerdəyişmə

Bir yerdən digərinə yerişdən fərqli hərəkətlərlə yerdəyişmə, məsələn, qayalara dırmaşma, küçə boyunca qaçış, yerində atılıb-düşmə, qaçıb getmə və ya maneələr ətrafında qaçış.

*Daxil edilib: Sürünmə, madeələrin dəf olunması, sürətli və ləng qaçış, tullanış, üzmə.*

*Çıxarılıb: Bədən vəziyyətinin dəyişilməsi (d410); yeriş (d450)*

**d4550 Sürünmə**

Biləklərdən, qollardan və istifadə etməklə üfüqi vəziyyətdə bir yerdən digərinə keçid.

**d4551 Maneələrin dəf olunması**

Pillələr, qayalar, asma nərdivanlar, səddlər və ya digər obyektlər və ya səthlər üzərində, yuxarıya və ya aşağıya doğru hərəkət.

**d4552 Qaçış**

Hər iki ayağın səthə toxunmamasının mümkün olduğu halda sürətli addımlarla hərəkət.

**d4553 Tullanış**

Ayaqları kəskin şəkildə büküb-açaraq bədənin yerdən cəld qoparılması ilə hərəkət, məsələn, bir ayaq üstundə atılıb-düşmə, sıçrayış, suya tullanma və baş vurma.

**d4558 Yerişdən fərqli hərəkətlərlə yerdəyişmə, digər dəqiqləşdirilmiş**

**d4559 Yerişdən fərqli hərəkətlərlə yerdəyişmə, dəqiqləşdirilməmiş**

## d460 Müxtəlif yerlərdə hərəkət

Müxtəlif yerlərdə və situasiyalarda yeriş və yerdəyişmə, məsələn, mənzildə otaqdan otağa, bina daxilində, yaxud şəhər küçəsi boyunca yeriş.

*Daxil edilib: Öz mənzilinin və digərbinaların ərazisində hərəkət etmə, sürünmə və ya maneələrin dəf edilməsi; öz evindən və digər binalardan kənarda yeriş və hərəkət.*

**d4600 Mənzil ərazisində hərəkət**

Evin içində və öz evinin ətrafında, otağın daxilində, otaqdan otağa və öz mənzilinin ətrafında yeriş və hərəkət.

*Daxil edilib: mərtəbədən mərtəbəyə, eyvana, daxili həyətdə, giriş yolunda və ya bağçada hərəkət.*

**d4601 Digər binaların ərazisində hərəkət**

Öz mənzilinə aidiyyəti olmayan binaların ərazisində yeriş və hərəkət, özgə mənzilinin, digər şəxsi və ictimai binaların, icma binaralının və onlara bitişik ərazilərin ətrafında hərəkət.

*Daxil edilib: binaların bütün hissələrində və onlara bitişik ərazilərdə, mərtəbələrdə, eləcə də şəxsi və ictimai binaların daxilində, xaricində və ətrafında hərəkət.*

**d4602 Öz evindən və digər binalardan kənarda hərəkət**

Şəxsi və ictimai nəqliyyatdan istifadə etmədən evin və digər binaların xaricində, bilavasitə onların yaxınlığında və ya məsafədə hərəkət, məsələn, şəhərdə və ya kənddə qısa və uzun məsafələrə hərəkət.

*Daxil edilib: Nəqliyyatdan istifadə etmədən şəhər ətrafındakı, şəhərdəki, kənddəki küçələrdə; yaşayış məntəqələri arasında və daha uzun məsafələrdə yeriş və hərəkət.*

**d4608 Müxtəlif yerlərdə hərəkət, digər dəqiqləşdirilmiş**

**d4609 Müxtəlif yerlərdə hərəkət, dəqiqləşdirilməmiş**

## d465 Texniki vasitələrdən istifadə etməklə hərəkət

Hərəkəti asanlaşdırmaq və ya xüsusi üsulla hərəkət etmək üçün nəzərdə tutulmuş xüsusi vasitələrdən istifadə etməklə bir yerdən digərinə, istənilən səth üzərində və istənilən yerdə hərəkət, məsələn, konkilərlə, xizəklərlə, akvalanqla hərəkət, eləcə də əlil arabasında və ya süni ayaqlarla hərəkət.

*Çıxarılıb: bədənin yerdəyişməsi (d420), yeriş (d450); yerişdən fərqli hərəkətlərlə yerdəyişmə (d455); sərnişin nəqliyyatından istifadə (d470); nəqliyyatın idarə olunması (d475).*

**d469 Yeriş, hərəkət və onlara aid olan fəallıq, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş**

## NƏQLİYYATDAN İSTİFADƏ ETMƏKLƏ HƏRƏKƏT (d470-d489)

### d470 Nəqliyyat vasitəsindən istifadə

Avtomobildə, pikapda, marşrut taksisində, rikşada, heyvan qoşqulu nəqliyyat növlərində, şəxsi və ya ictimai taksidə, avtobusda, qatarda, tramvayda, metroda, su nəqliyyatında və ya təyyarədə, sərnişin qismində hərəkət etmək üçün nəqliyyatdan istifadə.

*Daxil edilib: Hərəkətverici qüvvəsi insan olan nəqliyyatdan, mühərrikli şəxsi nəqliyyatdan və ictimai nəqliyyatdan istifadə.*

*Çıxarılıb: texniki vasitələrdən istifadə etməklə hərəkət (d465); nəqliyyatdan istifadə (d475).*

**d4700 Hərəkətverici qüvvəsi insan olan nəqliyyatdan istifadə**

Bir və ya bir neçə nəfər tərəfindən hərəkətə gətirilən mühərriksiz nəqliyyatda, məsələn, rikşada və ya qayıqda sərnişin qismində hərəkət.

**d4701 Mühərrikli şəxsi nəqliyyatdan istifadə**

Mühərrikli şəxsi yerüstü, dəniz və ya hava nəqliyyatdında, məsələn, taksidə, şəxsi təyyarədə və ya gəmidə sərnişin qismində hərəkət.

**d4702 Mühərrikli ictimai nəqliyyatdan istifadə**

Mühərrikli ictiami yerüstü, dəniz və ya hava nəqliyyatdında, məsələn, avtobusda, qatarda, metroda və ya təyyarədə sərnişin qismində hərəkət.

**d4708 Nəqliyyat vasitəsindən istifadə, digər dəqiqləşdirilmiş istifadə qaydaları**

**d4709 Nəqliyyat vasitəsindən istifadə, dəqiqləşdirilməmiş istifadə qaydaları**

### d475 Nəqliyyatın idarə olunması

Lazımi istiqamətdə hərəkət etmək məqsədi ilə istənilən növ mexaniki və heyvan qoşqulu nəqliyyatın, məsələn, avtomobilin, velosipedin və ya qayığın, yaxud da heyvan qoşqusunun idarə olunması.

*Daxil edilib: Hərəkətverici qüvvəsi insan olan nəqliyyatın, mühərrikli nəqliyyatın və heyvan qoşqusunun idarə olunması.*

*Çıxarılıb: texniki vasitələrdən istifadə etməklə hərəkət (d465); sərnişin nəqliyyatından istifadə (d470).*

**d4750 Hərəkətverici qüvvəsi insan olan nəqliyyatın idarə olunması**

Hərəkətverici qüvvəsi insan olan nəqliyyatın, məsələn, iki- və üçtəkərli velosipedin idarə olunması.

**d4751 Mühərrikli nəqliyyatın idarə olunması**

Mühərrikli nəqliyyatın, məsələn, avtomobilin, motosiklin, motorlu qayığın və ya təyyarənin idarə olunması.

**d4752 Heyvan qoşqusunun idarə olunması.**

Heyvan qoşulmuş nəqliyyatın, məsələn, arabanın və ya ekipajın idarə olunması.

**d4758 Nəqliyyatın idarə olunması, digər dəqiqləşdirilmiş idarəetmə qaydaları.**

**d4759 Nəqliyyatın idarə olunması, dəqiqləşdirilməmiş idarəetmə qaydaları.**

### d480 Minik heyvanını sürmə

Minik heyvanına (məsələn, ata, kələ, dəvəyə və ya filə) minərək sürmə.

*Çıxarılıb: nəqliyyatın idarə olunması (d475); istirahət və asudə vaxt (d920)*

**d489 Nəqliyyatdan istifadə etməklə hərəkət, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş**

**d498 Hərəkət, digər dəqiqləşdirilmiş**

**d499 Hərəkət, dəqiqləşdirilməmiş**

# BÖLMƏ 5. ÖZÜNƏXİDMƏT

Bu bölmə özünə qayğı göstərilməsi, öz bədəninin və bədən hissələrinin yuyulması və silinməsi, geyinmə, qida və içki qəbulu, öz səhhətinin qayğısına qalma kimi məsələlərə həsr olunmuşdur.

## d510 Yuyunma

Sudan, eləcə də müvafiq təmizləmə, silinmə və qurulanma materiallarından və ya üsullarından istifadə etməklə bədənin və bədən hissələrinin yuyulması və qurulanması, məsələn, vannada çimmə, duş qəbul edilməsi, əllərin, ayaqların, üzün və saçların yuyulması, məhrəba ilə silinmə.

*Daxil edilib: Bədənin və bədən hissələrinin yuyulması və qurulanması.*

*Çıxarılıb: Bədən hissələrinə qulluq (d520); fizioloji fəaliyyət (d530).*

**d5100 Bədən hissələrinin yuyulması**

Bədən hissələrinin təmizlənməsi, məsələn, əllərin, ayaqların, üzün və saçların yuyulması, dişlərin və dırnaqların təmizlənməsi üçün sudan, sabundan və digər maddələrdən istifadə.

**d5101 Bədənin tam yuyulması**

Bədənin tam yuyulması üçün sudan, sabundan və digər maddələrdən istifadə, məsələn, vanna və ya duş qəbulu.

**d5102 Silinmə və qurulanma**

Bədən hissələrinin və ya bütünlüklə bədənin silinməsi və qurulanması üçün məhrəbadan və ya digər vasitələrdən istifadə, məsələn, yuyunmadan sonra silinmə.

**d5108 Yuyunma, digər dəqiqləşdirilmiş**

**d5109 Yuyunma, dəqiqləşdirilməmiş**

## d520 Bədən hissələrinə qulluq

Bədən hissələrinə, xüsusilə dəriyə, üzə, dişlərə, saçlara, dırnaqlara və cinsiyyət üzvlərinə, yuyunub-qurulanmadan daha artıq qulluq tələb edən qayğı göstərilməsi.

*Daxil edilib: Dəriyə, ağız boşluğuna, saçlara, əl və ayaq dırnaqlarına qulluq.*

*Çıxarılıb: Bədən hissələrinə qulluq (d520); fizioloji fəaliyyət (d530).*

**d5200 Dəriyə qulluq**

Dəri səthinə və dərinin nəmliyinə qayğı, məsələn, döyənəklərin və buynuzlaşmanın aradan qaldırılması, nəmləndirici losyonlardan və ya kosmetik vasitələrdən istifadə.

**d5201 Ağız boşluğuna qulluq**

Ağız boşluğunun gigiyenasına qayğı, məsələn, dişlərin və diş aralıqlarının təmizlənməsi, diş protezlərinə və ya ortezlərinə qulluq.

**d5202 Saçlara qulluq**

Saçlara və üzdəki tüklərə qulluq, məsələn, darama, təmizləmə, səliqəyə salma,, burma, təraş və qırxma.

**d5203 Əl barmaqlarına qulluq**

Əl barmaqlarının təmizlənməsi, tutulması və cilalanması.

**d5204 Ayaq barmaqlarına qulluq**

Ayaq barmaqlarının təmizlənməsi, tutulması və cilalanması.

**d5208 Bədən hissələrinə qulluq, digər dəqiqləşdirilmiş**

**d5209 Bədən hissələrinə qulluq, dəqiqləşdirilməmiş**

## d530 Fizioloji fəaliyyət

Menstruasiya, sidik və nəcis ifrazı zamanı fizioloji fəaliyyətə hazırlıq və onun həyata keçirilməsi və sonrakı gigiyenik tədbirlərin icrası.

*Daxil edilib: Sidik və nəcis ifrazının tənzimlənməsi, menstruasiya ilə əlaqədar tədbirlər.*

*Çıxarılıb: Yuyunma (d510); bədən hissələrinə qulluq (d520)*

**d5300 Sidik ifrazının tənzimlənməsi**

Sidik ifrazının koordinasıyası və idarə olunması, məsələn, fəaliyyət ehtiyacı haqqında xəbərdarlıq, müvafiq vəziyyətin alınması, sidik ifrazı üçün lazımi yerin tapılması, sidik ifrazından əvvəl və sonra paltarla davranış, sidik ifrazından sonra gigiyenik tədbirlərin görülməsi.

**d5301 Nəcis ifrazının tənzimlənməsi**

Nəcis ifrazının koordinasıyası və idarə olunması, məsələn, fəaliyyət ehtiyacı haqqında xəbərdarlıq, müvafiq vəziyyətin alınması, nəcis ifrazı üçün lazımi yerin tapılması, nəcis ifrazından əvvəl və sonra paltarla davranış, nəcis ifrazından sonra gigiyenik tədbirlərin görülməsi.

**d5302 Menstruasiya ilə əlaqədar tədbirlər**

Menstruasiya zamanı zəruri tədbirlərin koordinasıyası, hazırlanması və həyata keçirilməsi, məsələn, menstruasiyadan vaxtından qabaq xəbər tutma, gigiyenik dəsmallardan və salfetlərdən istifadə.

**d5308 Fizioloji fəaliyyət, digər dəqiqləşdirilmiş**

**d5309 Fizioloji fəaliyyət, dəqiqləşdirilməmiş**

## d540 Geyinmə

Müəyyən ardıcıllıqla geyinmə və soyunma zamanı, iqlim şəraitinə müvafiq surətdə və sosial tələblərə riayət etməklə bir-biri ilə əlaqəli hərəkətlərin icrası, məsələn, köynəyin, yubkanın, bluzkanın, şalvarın, alt paltarın, sarinin, kimononun, qalstukun, şlyapanın, əlcəklərin, tuflinin, çəkmənin, səndəlin və başmağın geyilməsi, ölçüsünin yoxlanılması və soyunulması.

*Daxil edilib: Aşağı ətraflara geyinmə və soyunma, taxma və ya çıxarma, müvafiq paltarın seçilməsi.*

**d5400 Paltarın geyilməsi**

Paltarın geyilməsi zamanı koordinasiyalı hərəkətlərin icrası, məsələn, başa, bədənin aşağı və yuxarı hissələrinə, qollara və çiyinlərə geyinmə, əlcəklərin və baş geyiminin geyilməsi.

**d5401 Paltarın soyunulması**

Paltarın soyunulması zamanı koordinasiyalı hərəkətlərin icrası, məsələn, başdan, bədənin aşağı və yuxarı hissələrindən, qollardan və çiyinlərdən soyunma, əlcəklərin və baş geyiminin soyunulması.

**d5402 Aşağı ətraflara geyinmə və ya soyunma**

Corabların və ayaqqabıların geyilməsi zamanı koordinasiyalı hərəkətlərin icrası.

**d5403 Aşağı ətraflardan soyunma**

Corabların və ayaqqabıların soyunulması zamanı koordinasiyalı hərəkətlərin icrası.

**d5404 Müvafiq paltarın seçilməsi**

Paltar seçərkən mühitin və mədəni amillərin aşkar və gizli qaydalarına riayət olunması, iqlim şəraitinə müvafiq surətdə geyinmə.

**d5408 Geyinmə, digər dəqiqləşdirilmiş qaydalar**

**d5409 Geyinmə, dəqiqləşdirilməmiş qaydalar**

## d550 Qida qəbulu

Hazırlanmış qidanın qəbulu, ağıza yaxınlaşdırılması, onun mədəni cəhətdən yolverilən qaydada qəbul olunması zamanı koordinasiyalı hərəkətlərin və tələblərin yerinə yetirilməsi, məsələn, qidanın hissələrə bölünməsi və doğranması, butulka və bankaların açılması, süfrə ləvazimatlarından istifadə, ziyafət və ya nahar zamanı qida qəbulu.

*Çıxarılıb: içki (d560)*

## d550 İçki

İçkilərin qəbulu, onların ağıza yaxınlaşdırılması, mədəni cəhətdən yolverilən qaydada qəbul olunması, məsələn, mayenin içmək üçün qarışdırılması və ya süzülməsi, butulka və bankaların açılması, saman çöpü vasitəsi ilə içki, krandan və ya kiçik fəvvarədən axan suyun içilməsi, əmizdirmə.

*Çıxarılıb: qida qəbulu (d550)*

## d570 Səhhətin qayğısına qalınması

Öz fiziki rahatlığının təmin olunması, sağlamlığın, fiziki və əqli rifahın qayğısına qalınması, məsələn, balanslaşdırılmış qida rasionunun, müvafiq fiziki fəallıq səviyyəsinin, isti və ya sərin şəraitin qorunub saxlanması, sağlamlıq üçün zərərli amillərdən qaçma, təhlükəsiz cinsi əlaqə qaydaalrına riayət olunması, o cümlədən, qoruyuculardan istifadə, immunlaşdırma, mütəmadi olaraq tibbi müayinədən keçmə.

*Daxil edilib: fiziki rahatlığın təmin olunması; pəhriz və sağlam həyat tərzinin qorunub saxlanması; sağlamlığın qorunması.*

**d5700 Fiziki rahatlığın təmin olunması**

Müvafiq ehtiyacin duyulmasını və özünün rahat, kifayət qədər işıqlı şəraitinin təmin olunmasını, istidən və soyuqdan qorunmasını nəzərdə tutan özünəqayğı.

**d5701 Pəhriz və sağlam həyat tərzinin qorunub saxlanması**

Zəruri ərzaq məhsullarının seçilməsinə və qəbuluna, eləcə də fiziki formanın qorunub saxlanmasına ehtiyac duyulmasını nəzərdə tutan özünəqayğı.

**d5702 Sağlamlığın qorunub saxlanması**

Risk amilinə təsir göstərməklə və profilaktik tədbirlər həyata keçirməklə öz sağlamlığının qorunması üçün tələb olunan amillərə ehtiyac duyulmasını nəzərdə tutan özünəqayğı, məsələn, peşəkar tibbi yardım üçün müraciət edilməsi, tibbi məsləhət və tövsiyyələrə riayət olunması, zədələrdən, yoluxucu xəstəliklərdən, narkotik maddələrdən və cinsi yolla yoluxdurulan xəstəliklərdən qorunma.

### d598 Səhhətin qayğısına qalınması, digər dəqiqləşdirilmiş

### d599 Səhhətin qayğısına qalınması, dəqiqləşdirilməmiş

# BÖLMƏ 6. MƏİŞƏT HƏYATI

Bu bölmə məişət və gündəlik fəaliyyətlə məşğul olunmasına və bunula əlaqədar olan vəzifələrə həsr edilmişdir. Həyatın məişət sahələrinə mənzilin, ərzağın, geyimin və digər tələbatların tapılması və təmin olunması; mənzilin təmizlənməsi və təmiri, şəxsi və digər ev əmlakına qayğı və başqalarına kömək daxildir.

## İLKİN ZƏRURƏT PREDMETLƏRİNİN ƏLDƏ OLUNMASI (d610-d629)

### d610 Mənzilin əldə olunması

Evin, mənzilin və ya digər yaşayış sahəsinin alınması, icarəsi, mebellə təchiz olunması və abadlaşdırılması.

*Daxil edilib: mənzilin alınması, icarəsi və mebellə təchiz olunması*

*Çıxarılıb: mal və xidmətlərin əldə olunması (d620); şəxsi əmlaka qayğı (d650)*

**d6100 Mənzilin alınması**

Evin, mənzilin və ya digər yaşayış sahəsinin öz mülkiyyətinə alınması.

**d6101 Mənzilin alınması**

Başqa bir şəxsə məxsus olan evin, mənzilin və ya digər yaşayış sahəsinin ödəniş müqabilində öz mülkiyyətinə alınması.

**d6102 Mənzilin abadlaşdırılması**

Mənzilin mebellə, ləvazimatlarla və digər avadanlıqlarla təchiz olunması və abadlaşdırılması, interyerin yaradılması.

**d6108 Mənzilin əldə olunması, digər dəqiqləşdirilmiş**

Ətraf mühit amillərinin dərəcəsini bildirən neqativ və pozitiv şkalalı təyinedici asannlaşdırıcı və yaxud baryer kimi. Aşağıda göstərildiyi kimi bölmə nöqtəsi baryerlərə işarə edir, onun (+) işarəsinə əvəz edilməsi isə asanlaşdırıcı amillərə işarə edir (amil sahəsi).

| | |
|---|---|
| xxx. 0 YOXDUR baryer YOXDUR | xxx. 0 YOXDUR baryer YOXDUR |
| xxx. 1 ƏHƏMİYYƏTSİZ baryerlər | xxx. 1 ƏHƏMİYYƏTSİZ amillər sahəsi |
| xxx. 2 MÜLAYİM baryerlər | xxx. 2 MÜLAYİM amillər sahəsi |
| xxx. 3 İFADƏ EDİLMİŞ baryerlər | xxx. 3 İFADƏ EDİLMİŞ amillər sahəsi |
| xxx. 4 MÜTLƏQ baryerlər | xxx. 4 MÜTLƏQ amillər sahəsi |
| xxx. 8 müəyyən edilməyən baryer | xxx. 8 müəyyən edilməyən amillər sahəsi |
| xxx. 9 münasib deyil | xxx. 9 münasib deyil |

# Əlavə 3

## Fəallıq və iştirak etmə nomenklaturasından istifadə variantları

«Fəallıq və iştirak» terminlərin tərkib hissəsi müxtəlif fəaliyyətlərin və həyat dairələrinin işarə olunması üçün domenlərin bitərəf siyahısından ibarətdir. Hər bir domen bir-bir ümumi səviyyələrdən başlayaraq detallaşdırılmış səviyyələrə qədər bir-bir düzülmüş müxtəlif səviyyələr kateqoriyalarından ibarətdir (məsələn, 4-cü bölüm domeni – *Mobillik* (Hərəkətlilik, dəyişkənlik) d450 *Yerimə* və onun daxilində daha detallaşdırılmış bənddən, d4500 *Qısa məsafələrə yerimə* kimi kateqoriyalardan ibarətdir). Fəallıq və iştirak etmə domenlərin nomenklaturası həm individ səviyyəsində, həm də cəmiyyət səviyyəsində kodlaşdırılması mümkün olan fəaliyyətin tam dairəsini əhatə edir.

Girişdə qeyd olunduğu kimi, «fəallıq» və «iştirak etmək» kimi spesifik anlayışları işarə etmək üçün bu siyahı müxtəlif yolla istifadə oluna bilər. FBT-da bu anlayışlar aşağıdakı şəkildə müəyyən olunub:

Sağlamlıq kontekstində:

**Fəallıq** – individ tərəfindən hərəkət və vəzifələrinin yerinə yetirilməsidir.

**İştirak** – individin gündəlik həyat hadisələrinə cəlb olunmasıdır.

Sadalanan domenlər terminlərində (A) fəallıq və (P) iştirak etmə arasında münasibətlərin strukturlaşdırılması üçün dörd alternativ üsul var.

**(1) Fəallıq domenləri və iştirak domenləri topluları bir-biri ilə uyğun gəlmir (üst-üstə düşmür)**

Kateqoriyaların müəyyən olunmuş toplusu yalnız fəallıq, yəni invidin yerinə yetirdiyi vəzifələr və hərəkətlər kimi, digər topluisə – yalnız iştirak, yəni individin gündəlik həyat hadisələrinə cəlb olunması kimi koqdlaşdırılır. Bu səbəbdən, iki toplu bir-birinə münasibətdə istisna təşkil edir.

Bu variantda həm fəallıq kateqoriyaları, həm iştirak kateqoriyaları toplularının məzmunu istifadəçi tərəfindən müəyyən olunur. Kateqoriyalardan hər birisi hər hansı bir digərinin deyil, məhz ya fəallıq bəndi, ya da iştirak bəndi olur. Məsələn, domenləri aşağıdakı şəkildə bölmək olar:

| | | | |
|---|---|---|---|
| a1 | Öyrətmə və biliklərin tətbiqi | | |
| a2 | Ümumi vəzifələr və tələblər | | |
| a3 | Ünsiyyət | | |
| a4 | Sürətlə hərəkət etmə qabiliyyəti | | |
| | | p5 | Özünəxidmət |
| | | p6 | Məişət həyatı |
| | | p7 | Şəxsiyyətlərarası qarşılıqlı əlaqə |
| | | p8 | Həyatın əsas sahələri |
| | | p9 | Cəmiyyətlərdə həyat, ictimai və mülki həyat |

Bu strukturun kodlaşdırılması

*kateqoriyanın* **a** *kodu.* $\mathbf{q}_p$ $\mathbf{q}_c$ (**fəallıq** bəndi hesab edilən kateqoriya)

*kateqoriyanın* **p** *kodu.* $\mathbf{q}_p$ $\mathbf{q}_c$ (**iştirak** bəndi hesab edilən kateqoriya)

Burada $\mathbf{q}_p$ = özünü təsdiqləmə təyinedicisi və $\mathbf{q}_c$ = potensial qabiliyyət təyinedicisidir. Təsdiqləmə təyinedicisi istifadə olunduqda, kateqoriya özünün fəallıq və ya iştirak bəndi kimi işarə olunmasından asılı olmayaraq, o, özünü təsdiqləmə parametrinin terminlərində təfsir edilir; potensial qabiliyyət təyinedicisi istifadə olunduqda, kateqoriyanın fəallıq və ya iştirak bəndi kimi işarəsə olunmasından asılı olmayaraq kateqoriya potensial qabiliyyət terminlərində təfsir edilir.

Beləliklə, 1 saylı variant hər hansı təkrar və ya səhv olmadan tam məlumat panellə təmin edir.

**(2) Fəallıq domenləri toplusu və iştirak domenləri toplusu arasında cüzi təsadüf:**

Bu alternativdə kateqoriyaların bir hissəsi eyni zamanda fəallıq və iştirak kimi şərh edilə bilər, yəni eyni kateqoriya individ (individin yerinə yetirdiyi vəzifə və ya hərəkət kimi) və cəmiyyət (gündəlik həyat hadisələrinə cəlb olunma) mövqeyindən təsvir edilə bilər.

Məsələn:

| | | | |
|---|---|---|---|
| a1 | Biliklərin əldə edilməsi və tətbiqi | | |
| a2 | Ümumi vəzifələr və tələblər | | |
| a3 | Ünsiyyət | p3 | Ünsiyyət |
| a4 | Hərəkət etmə qabiliyyəti | p4 | Hərəkət etmə qabiliyyəti |
| a5 | Özünəxidmət | p5 | Özünəxidmət |
| a6 | Məişət həyatı | p6 | Məişət həyatı |
| | | p7 | Şəxsiyyətlərarası qarşılıqlı əlaqələr |
| | | p8 | Həyatın əsas sahələri |
| | | p9 | Cəmiyyətdə həyat, ictimai və mülki həyat |

*Hazırkı strukturun kodlaşdırılması*

Bu halda kateqoriyaların kodlaşdırılmasında məhdudiyyətlər var.

Üst-üstə düşən kateqoriyalar eyni təyinediciyə nisbətdə müxtəlif məna daşıya bilməz (həm birinci özünü təsdiqləmə təyinedicisi, həm də ikinci potensial qabiliyyət təyinedicisi üçün), məsələn:

| | | |
|---|---|---|
| a *kateqoriyası.* 1_ | və ya | a *kateqoriyası.* _1 |
| p *kateqoriyası.* 1_ | | p *kateqoriyası.* _2 |

Bu seçimi edən istifadəçi güman edir ki, kodlar əgər onlar iştirakda deyil, məhz fəallıqda və əksinə kodlaşdırılıbsa, üst-üstə düşən kateqoriyalarda müxtəlif məna daşıya bilər. Lakin məlumat panelinə müvafiq təyinedici sütunu üçün bir kod daxil edilməlidir.

**(3) Domenlərdə təsadüfi hallar mövcud olduqda və ya olmadıqda detallaşdırılmış fəallıq kateqoriyaları və geniş iştirak kateqoriyaları**

Müəyyən fəallıq və iştirak kateqoriyaları təriflərinin itsifadəsinə dair digər yanaşma domen daxilində iştirakı daha ümumi və geniş anlayışlara gətirib çıxarır (məsələn, bölmə başlıqları kimi birinci səviyyə kateqoriyaları) və daha detallaşdırılmış (ətraflı şərh olunmuş) kateqoriyaları fəallığa aid edir (məsələn, üçüncü və ya dördüncü səviyyəli kateqoriyaları). Bu yanaşma bəzi və ya bütün domenlərdə kateqoriyaları geniş və ya dar mənadan asılı olaraq bölür. İstifadəçi bəzi domenləri tamamilə (bütün detallaşma səviyyələrində) fəallığa və ya iştiraka aid edilən domenləri kimi hesaba ala bilər.

Məsələn, d4550 Sürünmə fəallıq kimi, halbuki d455 Yerimədən fərqlənən üsullarla hərəkət etmə kimi qiymətləndirilə bilər.

Bu üsulun iki mövcud tətbiqi yolu mövcuddur: a) kateqoriyaların üst-üstə düşməsi müşahidə olunmur, yəni bənd fəallığa aid olursa, bu iştirak deyil; b) üst-üstə düşmə müşahidə oluna bilər, ona görə ki, bəzi istifadəçilər bütün siyahını fəallıq kimi, yalnız geniş mənaya malik olan başlıqları isə iştirak kimi, istifadə edə bilər.

*Hazırkı strukturun kodlaşdırılması*

Variant 1 və ya variant 2-yə oxşar.

**(4) Bütün domenlərin həm fəallıq həm də iştirak üçün istifadəsi, domenlərin tam üst-üstə düşməsi**

Bu variantda fəallıq və iştirak etmə siyahısının hər domeni həm fəallıq, həm də iştirak kimi qiymətləndirilə bilər. Hər kateqoriya şəxsi fəaliyyət (fəallıq) və ictimai fəaliyyət (iştirak) kimi izah edilə bilər.

Məsələn, d 330 *Nitq* həm fəallıq, həm də iştirak kimi nəzərə alına bilər. Səs tellərini itirmiş insana köməkçi olan qurğu vasitəsilə danışa bilər. *Potensial qabiliyyət və **özünü təsdiqləmə*** təyinedicilərin istifadəsi zamanı əldə olunmuş fikirlərə müvafiq olaraq bu şəxs aşağıdakı çətinliklərdən əziyyət çəkir:

*Birinci təyinedici*
Özünü təsdiqetmə prosesində orta çətinliklər
(ehtimal ki, stress və ya digər insanların münasibəti
kimi kontekst faktorları səbəbindən). → 2

*İkinci təyinedici*
Köməkçi qurğu olamadan potensial qabiliyyətin
çox aşağı düşməsi → 3

*Üçüncü təyinedici*
Köməkçi qurğu vasitəsilə birgə potensial qabiliyyətin
cüzi aşağı düşməsi → 1

FBT məlumat panelinə müvafiq olaraq, bu şəxsin vəziyyəti aşağıdakı şəkildə kodlaşdırılır:

d330.231

(4) varianta müvafiq olaraq aşağıdakı kodlaşdırılma da istifadə oluna bilər:

a330.241
p330.2

4 saylı variantda özünü təsdiqləmə təyinedicisi və potensial qabiliyyət təyinedicisi istifadə olunduqda FBT-nin məlumat panelinin bir özəyində yerləşdirməsi üçün iki göstərici mövcuddur: biri fəallıq üçün, o biri isə iştirak üçün. Bu göstəricilər eyni mənanı ifadə edirsə, onda ziddiyyətlər deyil, həddən artıq çoxluq müşahidə edilir. Lakin eyni məna ifadə etməyən göstəriciləri müşahidə etdikdə, rəsmi ÜST kodlaşdırılması üslubu mövcud olduğundan istifadəçilər məlumat panelinin kodlaşdırılması üçün həlletmə alqoritmini işləyib hazırlamalıdırlar:

$q_p$ $q_c$ kateqoriyası d

Bu çoxluğun aradan qaldırılmasının mümkün üsulları arasında potensial qabiliyyət təyinedicisi fəallıq kimi, özünü təsdiqləmə təyinedicisi isə iştirak kimi nəzərə alına bilər.

Digər imkan «gündəlik həyat hadisələrinə cəlb edilmə»ni əhatə edəcək iştirak üçün əlavə təyinedicilərin işlənib hazırlanmasından ibarətdir.

Gözlənilir ki, FBT istifadə olunduqça və empirik məlumat toplanıldıqça yuxarıda qeyd olunan variantlardan hansının təsnifat istifadəçiləri üçün daha üstün olması bəlli olacaq. Empirik tədqiqatlar «fəallıq» və «iştirak» anlayışların istifadəsinə daha çox aydınlıq gətirəcək. Bu anlayışların müxtəlif şərtlərdə, müxtəlif ölkələrdə və müxtəlif məqsədlər üçün necə istifadə olunması haqqında məlumat bu sxemin sonrakı yenidən baxılması üçün ümumiləşdirilə bilər.

# Əlavə 4

## Misallar

Aşağıda FBT konsepsiyalarının müxtəlif şəraitlərdə tətbiqini əkas etdirən misallar verilib. Onlar istifadəçilərin təsnifatın və onun parametrlərinin əsas konsepsiyalarının istifadə üsullarını və təyinatını anlaması üçün kömək etmək məqsədilə nəzərədə tutulub. Əlavə məlumatı təlimatlardan (dərsliklərdən) və ÜST kurslarından əldə etmək olar.

**Potensial qabiliyyətin məhdudiyyətinə və özünü təsdiqləmə problemlərinə gətirib çıxarmayan pozulma:**

Uşaq dırnaqsız anadan olub. Bu anadangəlmə anomaliya strukturun (quruluşun) pozulmasından irəli gəlir və uşağın əlinin funksiyasına və yaxud uşağın bu əllə nəsə edə bilmək qabiliyyətinə heç bir təsir göstərmir; beləliklə, uşağın potensial qabiliyyəti aşağı düşmür. Analoji olaraq, özünün cəmiyyətdə yerini tapmaq problemləri olmaya bilər – məsələn, başqa uşaqlarla oynadığı zaman əgər onu acıqlandırmırlarsa və yaxud bu anomaliya səbəbindən oyundan xaric etmirlərsə. Ona görə də, uşaqda potensial qabiliyyətin aşağı düşməsi halı və yaxud özünün reallaşdırılması problemləri müşahidə olunmur.

**Potensial qabiliyyətin aşağı düşməsinə gətirib çıxarmayan, lakin özünü təsdiqləmə problemlərini əmələ gətirən pozuntular:**

Diabet xəstəliyindən əziyyət çəkən uşaqda funksiya pozuntuları mövcuddur: mədəaltı vəzin insulin ifrazetmə funksiyası adekvat deyil. Diabet medikamentoz üsulla, xüsusilə də insulin vasitəsilə nəzarət edilə bilər. Orqanizmin funksiyaları (insulinin səviyyəsi) idarə olunduğu zaman pozuntularla əlaqədar olan potensial qabiliyyətin aşağı düşməsi müşahidə olunmur. Lakin diabetli uşaq şəkərin istifadəsindən məhdudlaşdırılmağa məcbur olduğu üçün, çox guman ki, yoldaşları və yaxud tanışları ilə birlikdə qida qəbul etdiyi zaman cəmiyyətdə özünün reallaşdırılması problemləri ilə üzləşə bilər. Uyğun olan qidanın azlığı əngəl yaradacaq. Buna görə, əgər uşağın müvafiq məhsullarla təmin olunmasına zəmanət verən addımlar atılmasa, potensial qabiliyyətin məhdudiyyətləri olmadığına baxmayaraq uşağın onu əhatə edən real mühitdə cəmiyyətin həyatına cəlb olunması aşağı düşəcək.

Digər bir misal – hal-əhvalı ilə əlaqədar başqa şikayətlər olmadıqda üzündə vitiliqo olan individ. Bu kosmetik problem potensial qabiliyyətin aşağı düşməsinə səbəb olmur. Lakin individ vitiliqo səhvən cüzam kimi qiymətləndirilə bilən və bu səbəbdən yoluxucu xəstəlik hesab edilən yerdə yaşaya bilər. Buna görə də, individi həqiqətən əhatə edən ətraf mühitdə bu neqativ münasibət şəxsiyyətlərarası qarşılıqlı fəaliyyətdə əhəmiyyətli özünü təsdiqləmə problemlərinə gətirib çıxardan maneələr yaradacaq.

**Potensial qabiliyyətin aşağı düşməsinə gətirib çıxardan, şəraitdən asılı olaraq reallaşdırılma problemləri ilə müşayiət edilən və edilməyən pozuntular:**

Əqli inkişafdan mühüm dərəcədə geri qalma əqli bir pozuntudur. O, müxtəlif kateqoriyalarda individin potensial qabiliyyətinin müəyyən dərəcədə aşağı düşməsinə səbəb ola bilər. Lakin, ətraf mühitin faktorları həyatın müxtəlif domenlərində individin özünün reallaşdırılma dolğunluğuna təsir edə bilər. Məsələn, bu cür əqli pozuntusu olan uşaq ümumi populyasiya üçün çox da yüksək tələbləri olmayan ətraf mühitdə kiçik sıxıntı keçirə bilərdi, harada ki, uşaqdan sadə, təkrar olunan məsələlərin həyata keçirməsi tələb olunur. Belə bir ətraf mühitdə, müxtəlif həyat şəraitlərində uşaq özünü yaxşı reallaşdırır.

Rəqabətin və yüksək təlabatlar ətraf mühitində böyüyən belə bir uşaq isə əvvəlki uşaqla müqayisədə həyat müxtəlif vəziyyətlərində özünün reallaşdırılmasında daha çoxlu sayda problemlərlə üzləşə bilərdi.

Bu misal nəzərə alınmalı iki aspektə diqqət yetirir. Birinci aspekt – real mühitə uyğun olmalı individin fəaliyyəti müqayisə edilən populyasiya norması və yaxud standartdır. İkinci aspekt - ətraf mühit faktorlarının mövcud olması və yaxud olmamasıdır ki, bu da fəaliyyətə yüngülləşdirici və yaxud ləngidici təsir göstərə bilər.

**Potensial qabiliyyətin aşağı düşməsinə gətirib çıxartmayan, lakin reallaşdırılma problemlərini əmələ gətirən əvvəl baş vermiş pozuntu:**

Kəskin psixozdan sonra müalicə olunmuş, lakin ruhi xəstə damğasını almış individ insanların onların ətrafında mövcud olan neqativ münasibətlərə görə məşğulluq domenlərində və yaxud şəxsiyyətlərarası qarşılıqlı əlaqələrin reallaşdırılmasında problemlərlə üzləşə bilər. Bu səbəbdən onun məşğulluq prosesinə və ictimai həyata cəlb olunması ləngiyir.

**Oxşar reallaşdırılma problemlərin meydana gəlməsinə gətirib çıxaran potensial qabiliyyətin fərqlənən pozuntuları və zəifləmələri:**

İndivid (kvadriplegiya) (məsələn, əl klaviaturası ilə təchiz olunmuş kompüterdən istifadə) iş şəratləri ilə üyğunlaşmayan aşkar pozuntular səbəbindən işə qəbul edilməyə bilər. İş yeri xüsusən individin özünü reallaşdırılmasını yüngülləşdirmək üçün uyğunlaşdırılmayıb (məsələn, əl klaviaturasını əvəz etməyə imkan verən səsin təyin edilməsi proqram təminatı).

Cüzi ifadə olunmuş kvadriplegiya ilə başqa bir individ işlə bağlı vəzifələrin yerinə yetirilməsi üçün potensial qabiliyyətin sahibi ola bilər, lakin işlə təmin ola bilməz, çünki məhdudlaşdırılmış həyat fəaliyyəti olan şəxslərin işə qəbul faizi (kvotası) artıq üstələnib.

Çarxlı kreslodan istifadə etməklə düzələn (əlilliyi aradan götürülən) - fəallıq məhdudiyyəti olan, tələb olunan işin yerinə yetirilməsi üçün qabiliyyətinə malik olan, lakin iş yerin çarxlı kreslo üzərində hərəkət etmək üçün əlverişli olmadığından üçüncü individ işə qəbul edilə bilməz.

Nəhayət, çarxlı kreslodan istifadə edən individ işə qəbul edilə bilər, işin yerinə yetirilməsi və verilən şəraitdə onun öhdəsindən gəlmək üçün potensial 279 qabiliyyətə malikdir. Buna baxmayaraq, bu individ kolleqaları ilə şəxsiyyətlər arası qarşılıqlı fəaliyyət domenlərində özünü təsdiqetmə problemləri ilə qarşılaşa bilər, çünki iş fasiləsi zamanı istirahət yerlərinə daxil ola bilmir. Hal-hazırdakı vəziyyətdə iş yerində özünü cəmiyyətdə özünü təsdiq edə bilmək problemin bu cür daxil olunmaya şərait yaratmaqla qarşısını almaq olar.

Hər dörd individ sağlamlıqda baş verən dəyişikliklərlə və yaxud pozuntularla əlaqədə olan ətraf mühitin müxtəlif faktorları səbəbindən əmək məşğulluğu domenində özünü təsdiq etmə problemlərlə qarşılaşırlar. Birinci individ üçün iş yerinin uyğun olmaması və bəlkə də, mənfi münasibət kimi ətraf mühitin maneələri mövcuddur. İkinci individ həyat fəaliyyəti məhdudlaşdırılmış şəxslərin əmək fəaliyyətinə mənfi münasibətlə qarşılaşır. Üçüncü şəxs insan tərəfindən yaradılan ətraf mühitin əlverişli olmaması faktı ilə üzləşir, və sonuncu şəxs həyat fəaliyyətin ümumiyyətlə məhdudlaşdırılmasına qarşı neqativ münasibətlə rastlaşır.

**Potensial qabiliyyəti aşağı salmadan özünü təsdiqləmədə aşkar problemlər yarada biləcək şübhəli pozuntular:**

İndivid QİÇS xəstəliyindən əziyyət çəkən xəstələrlə işləmişdi. Bu individ sağlamdır, lakin vaxtaşırı HİV-yoluxma müayinəsindən keçməlidir. Onun potensial qabiliyyəti məhdud deyil. Buna baxmayaraq onu tanıyan insanlar onun virusla yoluxmuş olduğunu ehtimal edərək qorxur və buna görə ondan qaçırlar. Bu, sosial qarşılıqlı əlaqələr sahəsində, cəmiyyətdə, ictimai, mülki həyatda insanın özünü təsdiqləməsi prosesində mühüm problemlərin meydana gəlməsinə səbəb olur. Onun onu əhatə edən insanlar arasında müəyyən olunmuş qaydalar və mənfi münasibətlər səbəbindən onun cəlb olunması məhduddur.

**Hal-hazırda FBT-da təsnif edilməmiş, lakin özünü təsdiqləmə ilə bağlı problemləri ortaya çıxaran pozuntular:**

Qadının anası süd vəzisində olan xərçəngdən vəfat etmişdir. Bu qadın 45 yaşında könüllü olaraq skrininq (ekran) müayinəsindən keçmişdir və burada onun süd vəzisində xərçəngə genetik meyllilik aşkara çıxarılmışdı. Orqanizmin funksiyasında, strukturunda, potensial qabiliyyətində problemlərin olmamasına baxmayaraq, sığorta şirkəti onun süd vəzisindəki xərçəng riskinin yuksək olmasına görə onu sığortalamaqdan imtina edi. Sığorta şirkətinin siyasətinə görə domendə öz sağlamlığının qayğısına qalmasına cəlb olunması məhdudlaşdırılmışdır.

## *Əlavə misallar*

10 yaşlı oğlan «kəkələmə» diaqnozu ilə loqopedə göndərilmişdir. Müayinə zamanı dil dolaşması, inter- və intra-verbal tezləşmə, nitq ritmində problemlər (pozuntu) aşkar olunmuşdu. Məktəbdə də həmçinin ucadan oxuyarkən və danışıq zamanı problemlər müəyyən olunmuşdu (potensial qabiliyyətin enməsi). Qrup halda diskussiyalarda müzakirələr üçün heç bir təşəbbüs göstərmir, baxmayaraq o, bunu istəyirdi (domendə özünü təsdiqləmə problemi: «Çox sayda insanlarla

söhbət»). İctimai mühitdə qəbul olunmuş normalara və söhbətlərin aparılması praktikasına görə bu oğlanın söhbətə cəlb edilməsi məhduddur.

40 yaşlı qadın boyun nahiyəsindən aldığı travmadan dörd ay sonra boynunda olan ağrılardan, güclü baş ağrılardan, başgicəllənmədən, əzələ qüvəsinin zəifləməsindən və narahatlıqdan (pozuntusundan) şikayət edir. Onun gəzmək, yemək hazırlamaq, ev işləri ilə məşğul olmaq, kompüterdə işləmək və maşın idarə etmək qabiliyyəti məhdudlaşmışdır (potensial qabiliyyətin enməsi). Həkim məsləhətindən sonra birgə qərara alınmışdır ki, problemlər azalmayınca (yəni əmək məşğulliyəti domendə özünü təsdiqləmə problemləri) o, tam iş rejimi olan əvvəlki iş yerinə qayıtmaq məsələsi ilə bağlı gözləsin. Əgər məşğulluq siyasəti ona aman verərək onu faktiki olaraq əhatə edən ətraf mühitdə iş saatlarını dəyişmək və ona evdə işləməyə imkan verirsə, onda onun məşğulluq sahəsinə cəlb olunması yaxşılaşacaq.

# Əlavə 5

## FBT və məhdudlaşdırılmış həyat fəaliyyəti ilə olan şəxslər

FBT-yə yenidən baxılma prosesi məhdudlaşdırılmış həyat fəaliyyəti ilə olan şəxsləri və onların təşkilatlarını bu fəaliyyətdə iştirak etməyə cəlb etməklə ən əvvəldən çox qazanıb. Xüsusilə, FBT-də əks edildiyi kimi, yenidən baxılma prosesi Əlillərin Beynəlxalq Təşkilatı tərəfindən zənginləşdirilmişdir.

ÜST fəaliyyət və həyat fəaliyyətinin məhdudlaşdırılması təsnifatına yenidən baxılma prosesində məhdudlaşdırılmış həyat fəaliyyəti ilə olan şəxslərin və onların təşkilatlarının tam qiymətli iştirak etməsinin mühümlüyünü etiraf edir. Təsnifat kimi FBT bir çox elmi, kliniki, idarə etmə sahələrində və sosial siyasətdə həyat fəaliyyətinin məhdudlaşdırılmalarının həm tədqiqi, həm də qiymətləndirilməsi üçün əsas olacaq. Mühüm məsələlərdən biri odur ki, FBT məhdudlaşdırılmış həyat fəaliyyəti ilə olan şəxslərin mənafeyinə toxunmaq vasitəsi kimi istifadə olunmasın (Əlavə 6-nın etik tövsiyyələrinə bax).

O cümlədən, ÜST etiraf edir ki, ən yaxşı niyyətlərə baxmayaraq, təsnifatda istifadə edilən terminlər ləkə və ya damğa kimi qiymətləndirilə bilər. Bu şübhələrə görə və ingilis dilində eyni zamanda alçaldıcı məna daşımasına görə «sosial çatışmazlıq» terminini leksikondan tamamilə çıxarmağa və tərkib hissənin adı kimi «həyat fəaliyyətinin məhdudlaşdırırlması» terminindən istifadə etməməyə, bu termini yalnız ümumiləşdirici termin kimi istifadə etməyə qərara alınmışdır.

Lakin çətin bir məsələ qalır: bir qədər funksional məhdudiyyətlərlə və ya imkanlarının məhdudlaşması ilə üzləşən individlərə daha yaxşı necə müraciət etmək olar? FBT «həyat fəaliyyətinin» məhdudlaşdırılması terminini insanlar və onların fiziki və sosial mühiti arasında olan qarşılıqlı təsirin nəticəsi kimi çoxölçülü hadisənin işarə edilməsi üçün istifadə edir. Bir sıra səbəblər üzündən, bu məsələ individlərin qarşısında durarkən, bəziləri «məhdudlaşdırılmış həyat fəaliyyəti ilə olan şəxslər» terminindən, başqaları isə «əlillər» terminindən istifadə etməyi üstün tutur. Bu cür müxtəlif yanaşmalar nöqteyi-nəzərindən ÜST, elə FBT kimi, bir yanaşmaya digərini üstün tutmaq təcrübəsinə riayət etmir. Bunun əvəzinə ÜST «insanlar özünü istədiyi kimi adlandırmaq hüququna malikdir» prinsipini təsdiqləyir.

Bundan başqa, onu da qeyd etmək lazımdır ki, FBT ümumiyyətlə insanları təsnif etmir. İnsanların fərdi həyati vəziyyətlərin və ətraf mühitin təsirinin kontekst şəraitində onların sağlamlığının səciyyəvi xüsusiyyətlərinin təsnifatıdır. O, həyat fəaliyyətinın məhdudlaşdırılmasına gətirib çıxaran sağlamlıq və kontekst amillərinin səciyyəvi xüsusiyyətlərinin qarşılıqlı təsiridir. Həmin məhdudlaşdırmalar yarandıqda, individə dair yalnız pozuntular, fəallığın məhdudlaşdırılması və ya iştirak etmə imkanının məhdudlaşdırılması ilə bağlı terminlərlə məhdudlaşmaq və ya onu belə terminlərlə səjiyyələndirmək lazım deyil. Məsələn, «əqli cəhətdən geri qalmış insan» terminin əvəzinə təsnifat «təlim vərdişlərində problemi olan insan» ifadəsindən istifadə edir. FBT, insanın

sağlamlığında dəyişikliyinə və ya həyat fəaliyyətinin məhdudlaşdırılmasına işarə edən terminlərdən istifadə etmənin qarşısını almağa imkan verir və daima, müsbət olmasa da, neytral və konkret dildən istifadə edir.

Daha sonra, insanlara müntəzəmli olaraq damğaların qoyulması ilə bağlı əmələ gələn haqlı təlaşı azaltmaq üçün hörmətdən salınmadan, stiqmatizasiyadan və artıq şərhlərdən xilas olmağa imkan verən FBT-də kateqoriyaların ifadə edilməsi üsulu neytraldır. Eyni zamanda bu cür yanaşma «terminlətin hamarlaması» kimi qeyd edilə bilən problemi ortaya çıxardır. Sağlamlığın dəyişilməsinin mənfi əlamətləri və başqa insanların buna reaksiyası vəziyyəti (halı) təyin edən terminlərdən asılı deyil. Həyat fəaliyyətinin məhdudiyyətləri nə cür adlandırılmasına baxmayaraq onlar damğalardan asılı olmayaraq mövcuddurlar. Məsələ yalnız dilin problemində deyil, əsasən, başqa individlərin və cəmiyyətin həyat fəaliyyətinin məhdudiyyətlərinə qarşı münasibətdədir. Və nə vacibdir – terminlərin və təsnifatın düzgün başa düşülməsi və istifadəsi.

ÜST həyat fəaliyyəti məhdudiyyətli insanların təsnifatdan və qiymətləndirmədən fayda almasını və onların hüquqlarından məhrum olmamasını və yaxud hüquq bərabərliyinin pozulmamasını təmin etmək üçün cəhdlərin atılmasına davam edəcək.

İstərdik ümid edək ki, həyat fəaliyyəti məhdudlaşdırılmış şəxslər bilavasitə özləri FBT-nin bütün sektorlarında onun inkişafı və istifadəsinə əmək sərf edirlər. Həyat fəaliyyəti məhdudlaşdırılmış insanlar alim, menecer və siyasətçilər kimi FBT-nin təsnifatına əsaslandırılmış protokol və alətlərin işlənib-hazırlanmasına köməklik edəcəklər. Bu təsnifat sübutlara əsasən həmçinin potensial cəhətdən möhkəm müdafiə aləti kimi çıxış edir. O, vəziyyətə təsir etmək üçün etibarlı və tutuşdurula bilən məlumatlarla təmin edir. Həmin, yəni həyat fəaliyyəti məhdudiyyətləri məhz ətraf mühit manelərinin, necə ki, sağlamlıqda baş verən dəyişikliklər və ya pozuntular səbəbindən olması mövqenin siyasi qəbulu əvvəlcə tədqiqat planlarında əks olunmalı və sonradan əsaslanmış və etibarlı sübutlar tapmalıdır. Bu sübutlar həyat fəaliyyəti məhdudlaşdırılmış inrsanlar üçün bütün dünyada mühüm sosial dəyişikliklərə gətirib çıxara bilər.

Həyat fəaliyyəti məhdudlaşdırılmış şəxslərin müdafiəsi FBT istifadəsi zamanı gücləndirilə bilər. Belə ki, müdafiənin birinci məqsədi işin istiqamətini müəyyən etməkdən ibarətdir ki, bu da fəaliyyəti məhdudlaşdırılmış şəxslərin iştirakının səviyyəsini yaxşılaşdıra bilər, FBT həyat fəaliyyətinin məhdudlaşdırılmasının başlıca probleminin daxil olduğu eyniləşdirmədə kömək edə bilər: maneələr və ya yüngülləşdirən faktorların olmaması daxil olmaqla ətraf mühitdə, individin özünün potensial qabiliyyətinin aşağı salmasında və adı çəkilən faktor kombinasiyalarında. Bu aydınlaşdırmanın vasitəsilə uyğun müdaxilələr və onların iştirak səviyyəsinə təsirinin effektliyi nəzarət oluna və ölçülə bilər. Beləliklə, gözlənilən konkret nəticələr və məhdudlaşdırılmış həyat fəaliyyətli şəxslərin müdafiəsi məqsədləri əldə oluna bilər.

# Əlavə 6

## FBT-dan istifadə üçün etik tövsiyyələr

İstənilən elmi aləti yanlış olaraq və pis fikirlə istəfadə etmək olar. Belə bir təsnifat sisteminin heç bir zaman insanların ziyanına istifadə olunmaması haqqında düşünmək sadəlöhvlük olardı. Əlavə 5-də izah olunduğu kimi, lap əvvəldən FBT-ın yenidən müzakirə edilməsi gedişinə həyat fəaliyyətinə məhdudiyyətlər qoyulmuş şəxslər və onların hüquq mühafizə təşkilatları qoşulmuşdur. Bu, terminologiyanın, FBT-in məzmunu və strukturunun dəyişməsinə gətirib çıxartdı. Bu əlavədə FBT-ın istifadəsi zamanı bəzi əsas etik tövsiyyələr izah edilir. Aşkardır ki, heç bir tövsiyyələr toplusu təsnifatın yaxud da elmi alətin bütün düzgün istifadə edilməməsi növlərini, habelə tövsiyyələrin özünün düzgün istifadə edilməməsi haqqında xəbərdarlıq etməsini qabaqcadaq görə bilməz. Bu sənəd istisna deyil. Ümid etmək olar ki, sonuncu əlavələrə diqqət FBT-ın hörmətsiz istifadəsi və həyat fəaliyyətinə məhdudiyyət qoyulmuş insanların ziyanına istifadə olunması riskini azaldacaq.

## Hörmət və etibarlılıq

1) FBT həmişə insanların şəxsiyyəti dəyərlərinə və individlərin sərbəstliyinə (müstəqilliyinə) hörmət qoyaraq istifadə olunmalıdır.

2) FBT heç bir zaman həyat fəaliyyətinin məhdudlaşdırılmasının yalnız bir və yaxud bir neçə kateqoriyaları dilində insanın eyniləşdirilməsi yarlıkı və ya digər üsul kimi istifadə olunmamalıdır.

3) Kliniki təcrübədə FBT-dan həmişə tam məlumat əldə olunmaqla, əməkdaşlıqla və fəaliyyət səviyyəsi təsnif ediləcək individlərin razılığı olaraq istifadə olunmalıdır. Əgər onların potensial dərk etmə qabiliyyətinin məhdudiyyətləri buna mane törədirsə, fəal iştiraka onların şəxsi nümayəndələri cəlb edilməlidir.

4) FBT-ın istifadəsi zamanı kodlaşdırılmış məlumat şəxsi məlumat və istifadə olunacaq formaya müvafiq olan etibarlılıq qaydalarının hamı tərəfindən tanınmış mövzusu kimi nəzərə alınmalıdır.

## FBT-nın kliniki istifadəsi

5) Əgər bu mümkündürsə, həkim individə və yaxud onun nümayəndəsinə FBT-ın istifadəsi məqsədini izah etməli və onun fəaliyyət səviyyəsinin təsnif edilməsi üçün FBT-ın istifadəsi münasibliyi haqqında soruşmalıdır.

6) Əgər bu mümkündürsə, fəaliyyət səviyyəsi təsnif edilən individ (və yaxud onun nümayəndəsi) prosesdə iştirak etmək, xüsusən də, tətbiq olunan kateqoriyanın və müəyən edilən qiymətin uyğunluğunu iddia etmək və yaxud da təsdiqləmək imkanına malik olmalıdır.

7) Təsnif edilən çatışmamazlığın yaranması səbəbindən asılı olmayaraq, məsələn, individin səhhətinin dəyişməsi nəticəsində yaxud individin yaşadığı təbii və ya sosial əhatə nəticəsində FBT insanın yalnız xeyrinə istifadə olunmalıdır.

## FBT məlumatlarının sosial istifadəsi

8) FBT-ın məlumatı həmçinin əməkdaşlıqda da maksimal geniş miqyaslarda istifadə olunmalıdır, belə ki, onların öz hayıtını seçmək və tənzimləmək imkanı artırılsın.

9) FBT-in məlumatları elə istifadə olunmalıdır ki, sosial siyasətin inkişaf etməsi və siyasi dəyişiklər individlərin iştirak etmə imkanının möhkəmlənməsinə və dəstəklənməsinə gətirib çıxarsın.

10) FBT və onun köməyi ilə əldə olunmuş bütün məlumat müəyyən olunmuş qaydaların sıxışdırılması və ya başqa yolla ayrı-ayrı individlərin və qrup şəxslərin müavinat üçün qanuni hüquqlarının məhdudlaşdırılması üçün tətbiq olunmamalıdır.

11) FBT-da eyni qaydada təsnif edilmiş individlər yenə də bir çox xüsusiyyətlərlə fərqlənə bilərlər. FBT-ın təsnifatına aid olan qanun və qaydalar vəziyyətlərin olan oxşarlıqdan çox oxşarlığını nəzərə almamalı və fəaliyyət səviyyəsi təsnif edilən şəxslərin bir şəxsiyyət kimi baxılmasına zəmanət verməlidir.

# Əlavə 7

## Yenidən baxılma prosesinin nəticələri

### PBT-nin təkamülü:

1972-ci ildə ÜST xəstəliklərin nəticələri ilə bağlı ilkin sxemi tərtib etdi. Bir neçə aydan sonra daha münasib yanaşmalar təklif olundu. Bu təklif iki mühüm prinsiplərə əsaslanırdı: pozuntular və onların əhəmiyyətliliyi arasındakı fərqin yəni, onların funksional və sosial nəticələrinin müəyyənləşdirilməsinin zəruriliyinə, eləcə də hesablamanın müxtəlif sahələrində bu müxtəlif aspektlərin və ya məlumat oxlarının ayrı-ayrı təsnifatına. Mahiyyət etibarı ilə, bu cür yanaşma müəyyən olunmuş sayda müxtəlif, eləcə də oxşar təsnifatları özündə birləşdirdi. Belə yanaşma XBT ənənəvi yanaşmasına zidd gəldi, belə ki, oxların (etiologiya, anatomiya, patologiya və s.) çoxu hesablamanın yalnız bir ümumi sahəsini tutan iyerarxiya sistemi ilə birləşmişdi. Bu yanaşmaların XBT strukturları əsasında qoyulmuş prinsiplərlə müqayisə edilə bilən sxem şəklində uyğunlaşdırılmasının mümkünlüyü tədqiq olunmuşdur. Eyni zamanda xəstəliklərin nəticələri ilə bağlı qəbul olunmuş terminologiyaların sistemləşdirilməsi üzrə ilkin cəhdlər həyata keçirilmişdir. Bu təkliflər 1973-cü ildə qeyri-rəsmi surətdə yayılmağa başladı, lakin qruplardan, əsasən reabilitasiya üzrə ixtisaslaşmış qruplardan əlavə kömək tələb olunurdu.

Pozuntuların və sosial çatışmazlıqların ayrılmış təsnifatları 1974-cü ildə yayılmaqda və müzakirə olunmaqda davam edirdi. Fikirlər müqayisə edilir və müəyyən təkliflər qəbul olunurdu. Onlar 1975-ci ilin oktyabrında beynəlxalq konferensiyanın xəstəliklərin beynəlxalq təsnifatı üzrə doqquzuncu müzakirəsində baxılmasına verilmişdi. Təsnifatı nəzərdən keçirtdikdən sonra konferensiya onun ilkin təcrübələri üçün nəşr etdirilməsini məsləhət gördü. 1976-cı il mayın 26-da Ümumdünya Səhiyyə Təşkilatı Məclisi bu məsləhətlərə diqqət yetirmiş və WHA 29.35 qətnaməsini qəbul etmişdi. Bu qətnamədə pozuntuların və sosial çatışmazlıqların xəstəliklərin beynəlxalq təsnifatının ayrılmaz hissəsi kimi deyil, əlavə şəklində ilkin təcrübələr üçün nəşr olunması təsdiq edilmişdi. Son nəticədə PBT ilk dəfə olaraq1980-ci ildə nəşr olunmuşdur. 1993-cü ildə o, əlavə müqəddimə ilə yenidən nəşr olunmuşdur.

### PBT yenidən baxılmasının ilk addımları:

PBT yenidən baxılma prosesinə 1993-cü ildə başlamaq qərara alındı. Yenidən baxılan və müvəqqəti olaraq PBT-2 adlanan versiyada növbəti boşluqları doldurmaq nəzərdə tutulurdu:

- o, müxtəlif ölkələrdə, səhiyyəyə aid olan bölmələrdə və fənnlərdə bir çox məqsədlərə qulluq etməlidir;
- praktiki tətbiqdə o, kifayət qədər sadə, sağlamlıqda baş verən dəyişikliklərin nəticələrinin təsviri mənə cəhətdən dolğun olmalıdır;

- o, praktik cəhətdən faydalı, yəni səhiyyənin ehtiyaclarını müəyyən etməli və müdaxilə edən proqramları düzəltməlidir (məsələn, xəstəlik haqqında xəbərdarlıq, reabilitasiya və sosial həllər);

- o, yalnız xəstəlik/pozulma göstəricilərinin şərhini deyil, məhdudlaşdırılmış həyat fəaliyyətinin əmələ gəlməsi prosesi kimi sağlamlıqda baş verən dəyişikliklərin nəticələri daxil olan proseslərin məntiqi şərhini verməlidir;

- o, mədəni fərqləri qəbul etməlidir (səhiyyənin fərqli mədəniyyətində və sistemlərində köçürülə bilən və istifadə oluna bilən olmalıdır).

- o, ÜST təsnifatı fəsiləsinə əlavə kimi istifadə olunmalıdır.

İlkin olaraq Fransa əməkdaşlıq mərkəzi pozuntu bölməsi üzrə, əsasən də dil, nitq və həssas qavrama bölməsi üzrə təkliflərin hazırlanması tapşırığını aldı. Holland əməkdaşlıq mərkəzinə məhdudlaşdırılmış həyat fəaliyyəti və hərəkət aspektlərinə aid olan təsnifat bölmələrinə yenidən baxılması, eləcə də ədəbiyyat xülasəsinin hazırlanması təklif olundu. Həmin vaxt Şimali-Amerika əməkdaşlıq mərkəzi sosial çatışmazlıqlara aid olan bölmələri işləyib hazırlayırdı. Əlavə olaraq hər iki əməkdaşlıq edən qruplara psixoloji və uşaq sağlamlığın bölməsi üzrə təkliflərin irəli sürülməsi tapşırılmışdı. 1996-cı ildə Cenevrədə PBT ikinci layihəsinin yenidən baxılması ilə bağlı görüşdə müəyyən olunmuş proqres qeyd edilmişdi, alfa layihə nəzərdən keçirilmiş, müxtəlif təkliflər nəzərə alınmış və başlanğıc ilkin təcrübələr həyata keçirilmişdir. 1996-cı il görüşdə qərara alınmışdır ki, bütün əməkdaşlıq mərkəzləri və işçi qrupları ikinci layihəyə onlar tərəfindən əvvəllər tərtib olunmuş ayrı-ayrı sahələrdə deyil, tam baxış keçirəcəklər. 1997-ci ildə alfa-layihə əməkdaşlıq mərkəzləri və işçi qrupları arasında yayılmışdı, şərh və təkliflər ÜST mənzil qərargahında toplanmışdır. Şərh toplusunu yüngülləşdirmək üçün yenidən baxılma ilə bağlı əsas məsələlərin siyahısı da yayılırdı.

Yenidən baxılma prosesində növbəti mövqelər müzakirə olunmuşdu.

- Təsnifatın üç yerə bölünməsi, yəni, pozuntu, həyat fəaliyyətinin məhdudlaşdırılması və sosial çatışmazlıq yararlı hesab olundu və məsləhət görüldü ki, o, dəyişdirilməz qalsın. Kontekst və ətraf mühit faktorlarının daxil olduğu məsələləri araşdırmaq zərurəti ortaya çıxdı, baxmayaraq təkliflərin çoxu nəzəri inkişafın və təcrübi testləşmənin mərhələlərində qalırdı.

- Müzakirə mövzusu pozuntunun, məhdudlaşdırılmış həyat fəaliyyətinin və sosial çatışmazlığın qarşılıqlı əlaqəsi, eləcə də onlar arasındakı qarşılıqlı əlaqələrin adekvatlığı məsələləri idi. Tənqidi fikirlərin çoxusunda PBT 1980-cı il əsasında qoyulmuş səbəbiyyat modeli göstərilirdi. Müvəqqəti dəyişikliklərin və pozuntulardan məhdudlaşdırılmış həyat fəaliyyətinə və sosial çatışmazlığa doğru prosesin birtərəfli istiqamətdə olmaması nəzərə çarpırdı. Yenidən baxış bu qarşılıqlı əlaqələrin alternativ qrafik təsəvvürünü təklif etdi.

- PBT 1980-cı il istifadəsində çətinliklərə rast gəlinirdi. Güman edilirdi ki, onun istifadəsi üçün sadələşdirmə aparmaq lazımdır: yenidən baxılma detallaşdırmadan çox sadələşdirməyə yönəldilmişdir.

- Kontekst faktorlar (xarici – ətraf mühüt faktorları/daxili – şəxsi faktorlar) sosial çatışmazlığın formalaşdırılması prosesinin əsas təşkil edicisi hesab olunur (PBT 1980-cı il-də qeyd olunduğu kimi). Onları PBT çərçivəsində əlavə sistemlər kimi inkişaf etdirmək lazım idi. Bununla belə, ətraf mühitin sosial və fiziki faktoru və onların pozulma, məhdudlaşdırılmış həyat fəaliyyəti və sosial çatışmazlığı ilə əlaqəsi mədəniyyət ənənələri ilə sıx bağlı olduğundan, onlar PBT daxilində ayrıca səviyyə kimi olmamalı idilər. Buna baxmayaraq, ətraf mühitin təsnifatı amili milli vəziyyətləri təhlil edərkən və qərarların milli səviyyədə tərtib edilməsində faydalı ola bilərdi.

- Pozuntular əsas bioloji mexanizmlərin öyrənilməsində müəyyən olunmuş nailiyyətləri əks etdirməlidir.

- Təsnifatın yenidən baxılmasının başlıca məqsədlərindən biri onun müxtəlif mədəniyyətlər üçün tətbiq edilə bilən və universal olmasıdır.

- Təlim və təqdim üçün materialların yaradılması da yenidən baxılma prosesinin əsas məqsədlərindən biri idi.

## PBT–2 beta-1 və beta-2 layihəsi:

1997-ci ilin mart ayında əvvəlki illərədə toplanmış təklifləri cəmləşdirən Beta-1 təsnifat layihəsi yaradılıb. Bu layihəni yenidən baxılmaya həsr olunmuş 1997-ci ilin aprel ayında keçirilən müşavirədə müzakirə etdilər. Ona müşavirənin qərarlarını 1997-ci ilin iyun ayında daxil edildikdən sonra PBT–2 beta-1 laythəsi ilkin sınaqlar üçün nəşr olunub. 1999-cu ilin yanvar və aprel ayları arasında Beta-1 yerli təbii şəraitlə əlaqədar olan sınaqlar zamanı əldə olunan ümumiləşdirilmiş məlumatlara və cəvəb nəticələrinə əsaslanan Beta-2 layihəsi yazılıb. Tədqiqatların nəticələrini özünə daxil edən bu layihə PBT–2-yə həsr olunmuş 1999-cu il aprel ayında Londonda keçirilən illik müşavirədə təqdim olunub və müzakirə edilmişdir. müşavirənin qərarlarını özünə daxil etdikdən sonra 1999-cu il iyul ayında Beta-2 layihənin sayı artırılmışdır və ilkin təcrübələr üçün buraxılmışdır.

## İlkin sınaqlar

Beta-1 layihəsinin ilkin sınaqları 1997-ci il iyun ayından 1998-ci il dekabr ayına qədər keçirilirdilər, Beta-2 layihəsinin sınaqları isə – 1999-cu il iyul ayından 2000-ci il sertyabr ayına qədər.

İlkin sınaqlar zamanı müxtəlif sahələrdə, eyni zamanda tibbi sığortalanma, sosial müdafiə, əmək, təhsil və, Xəstəliklərin beynəlxalq təsnifatından, Qulluğa (baxıma) dair təsnifatdan, Təhsil

standartlarının beynəlxalq təsnifatından – ISCED istifadə edərək sağlamlıqda baş verin dəyişikliklərinin təsnifatına müraciət edən digər sahələri daxil etməklə bərabər ÜST-na üzv olan ölkələrin geniş iştirakı qeydə alınıb. Sınaqların məqsədi istifadədə olan təriflərin aydınlaşdırılması yolu ilə ümumi fikrə (konsensusa) gəlmək idi. İlkin sınaqlar davam edən inkişaf, konsultasiya, əks əlaqə, təkmilləşdirmə və yoxlama prosesinin əsasını təşkil etdilər.

İlkin sınaqlar Beta-1 və Beta-2 tərkib hissəsi kimi aşağıdakı tədqiqatlar aparılıb:

- tərcümə və dilçilik qiymətləndirilməsi;
- vəziyyətlərin qiymətləndirilməsi;
- konfranslarda ümumi fikrə gəlmək üçün və fərdi şəkildə qoyulmuş əsas suallara cavabların verilməsi;
- təşkilatlarla və ayrı-ayrı şəxslərlə əks əlaqə;
- fakultativ (könüllü) sınanqlar;
- təsnifatın imkanları və qiymətləndirilmə zamanı alınan məlumatların etibarlılığı (sınaq zamanı və yaxud təklif edilmiş nümunələr üzərində);
- başqaları, yəni müəyyən maraqları olan qrupların tədqiqatları.

Tədqiqatlar çoxsəviyyəli problemlərə və müxtəlif mədəniyyətlərdə olan problemlərə yönəldilmişdir. Nəticələri ayrı-ayrılıqda məruzə edilən ilkin sınaqlara 50-dən artıq ölkə və 1800-dən çox ekspert cəlb edilmişdir.

## PBT-2 ilkin layihə

Beta-2-nin ilkin sınaqları zamanı alınan məlumatlara əsaslanaraq və ÜST-nın qiymətləndirmə və təsnifat üzrə ekspertlər komitəsinin və əməkdaşlıq mərkəzləri arasında keçirilən konsultasiyaların vasitəsilə 2000-ci ilin oktabr ayında ilkin layihə PBT-2 tərtib edilmişdir. Bu layihə 2000-ci ilin noyabr ayında keçirilən təftiş müşavirəsində təqdim olunmuşdur. Müşavirənin təkliflərinə əməl edərək ilkin layihə PBT-2 (dekabr 2000-ci il) 2001-ci ilin yanvar ayında ÜST-nın İcraiyyə Komitəsinin baxılmasına verilmişdir. PBT-2 sonuncu variantı (versiyası) 2001-ci ilin may ayında Ümumdünya Səhiyyə Təşkilatının 54-cü Məclisində baxılıb və təsdiq edilmişdir.

## Sonuncu variantın təsdiqlənməsi

Fəaliyyətin, həyat fəaliyyətin və sağlamlığın məhdudiyyətlərinin beynəlxalq təsnifatı adlanan sonuncu variantın müzakirələrindən sonra Ümumdünya Səhiyyə Məclisi 22 may 2001-ci il tarixli WHA54.21 qətnaməsi ilə yeni təsnifatı təsdiqlədi. WHA54.21 qətnaməsi bu cür səslənir:

Ümumdünya Səhiyyə Məclisinin əlli dördüncü sessiyası,

1. Pozuntuların beynəlxalq təsnifatının ikinci nəşrini, Fəaliyyətin beynəlxalq təsnifatı adı altında əmək qabiliyyətinin və sosial çatışmazlığın (PBT) aşağı düşməsini, daha sonra FBT ixtisarı ilə qeyd edilən həyat fəaliyyətinin və sağlamlığın məhdudiyyətlərini TƏSDİQ EDİR;

2. Üzv dövlətlərdə xüsusi şəraiti və, xüsusilə, gələcəkdə baş verə biləcək yenidən baxılmaları nəzərə almaqla üzv dövlətləri öz tədqiqatlarında FBT-dən müvafiq qaydada istifadə etməyə ÇAĞIRIR;

3. Baş direktora üzv-dövlətlərə onların xahişilə FBT-nin istifadəsində köməyin təmin etməsini TƏKLİF EDİR.

# Əlavə 8

## FBT-ın gələcək istiqamətləri

FBT-ın istifadə olunması bir çox dərəcədə onun praktiki faydadan: effektivliyin istehlak qiymətinə əsaslanan göstəricilər vasitəsilə səhiyyə xidmətləri vəziyyətinin ölçən cihazı kimi xidmət edə bildiyi əhatə genişliyindən; tələbatların, planlaşdırma və tədqiqat mənbələrinin dəqiqləşdirilməsi üçün mədəniyyətlərarası beynəlxadq tutuşdurmaların aparılması üçün tətbiq olduğu dərəcədən asılıdır. FBT birbaşa siyasət vasitəsi deyil. Lakin onun istifadə olunması səhiyyə istiqamətinin müəyyən edilməsi, bütün insanlar üçün eyni imkanların təmin edilməsi və həyat fəaliyyətinin məhdudlaşdırılması səbəbindən hüquq bərabərliyinin pozulmasına qarşı mübarizənin dəstəklənməsi üçün kömək edən məlumatla təmin edərək siyasətin müəyyən olunması üçün müsbət əmək həsr edir.

### FBT-ın variantları

İstehlakçıların müxtəlif tələbatları nəzərə alınmaqla FBT bir çox format və variantlarda təqdim olunacaq.

***Baş təsnifat***

Ayrı-ayrı istehlakçıların tələbatlarının ödənilməsi üçün FBT-ın iki hissələri və onların tərkib hissələri, detallaşdırmanın müxtəlif səviyyələrilə iki variantda (versiyada) verillib:

Birinci variant (versiya) - *tam (detallaşdırılmış) variantdır (versiyadır),* təsnifatın bütün səviyyələrini daxil edir və hər bir tərkib hissənin 9999 kateqoriyalarına yol verir. Təcrübədə onların daha az miqdarı istifadə olunur. Yekun məlumat tələb olunduqda tam variantın (versiyanın) kateqoriyaları qısa bir kateqoriyaya toplanmalıdır.

İkinci variant (versiya) – qısa (ixtisar edilmiş) variantdır (versiyadı), bütün tərkib hissələr və domenlər üçün iki kateqoriya səviyyələrini verir. Həmçinin bu terminlərin tərifləri, əlavələr və istisnalar da verilir.

***Xüsusi uyğunlaşmalar:***

a) Kliniki istifadə üçün versiyalar FBT-ın müxtəlif tətbiqi kliniki sahələrdə (məsələn, peşə patologiya) istifadəsindən asılı olacaq. Onlar daha da dolğun məlumatı təqdim edərək, qiymətləndirmə və kliniki təsvirlər üzrə təlimat vəzifəsini daşımaqla kodlaşdırma və terminologiyanın əsas cildinə əsaslanacaq. Onlar həmçinin xüsusi sahələr (bərpa etmə, ruhi sağlamlıq) üçün yenidən dəyişdirilə bilər.

b) Kliniki versiyalara oxşar tədqiqat versiyalar xüsusi tədqiqat tələbatları ödəyəcək və dəyişiklərin qiymətləndirilməsi üçün dəqiq iş tərifləri verəcək.

## Gələcəkdə iş

FBT üçün istifadənin və tələbatların ödənilməsinin müxtəlif variantlarının sonrakı işlənib-hazırlanması mümkündür. Qeyd etmək lazımdır ki, ÜST və onun əməkdaşlıq mərkəzləri bu tələbatları ödəmək üçün əlavə işləri görürlər.

FBT bütün onun istifadə edənlərinə məxsusdur. Bu, beynəlxalq əsasda qəbul olunmuş vahid bir sənəddir. O, həyat fəaliyyətinin məhdudlaşdırılması və fəaliyyət kimi hadisələrə dair daha çox məlumt əldə etmək və geniş beynəlxalq konsensusuna nail olmaq üçün xidmət edir. Müxtəlif milli və beynəlxalq cəmiyyətlər tərəfindən tanınmasını əldə etmək üçün ÜST onun istifadəçilər tərəfindən rahat və Beynəlxalq Standartlaşdırma Təşkilatının əsasını təşkil edən standartlaşdırma prosesləri ilə tutuşdurula bilən bütün cəhdləri atacaq.

FBT-nın mümkün olan gələcək istifadə və tətbiqi istiqamətlərini aşağıdakı şəkildə cəmləşdirmək olar:

- FBT-nin milli verilənlər bazalarının inkişafı üçün dövlətlər səviyyəsində istifadə irəliləyişi;
- Beynəlxalq verilənlər bankının beynəlxalq müqayisələrinin yerinə yetirilməsi üçün əsas kimi yaradılması;
- Sosial ödəmələr və müavinətlər üçün istifadə edilə biləcək alqoritmlərin müəyyən edilməsi;
- Ailə üzvlərinin fəaliyyətinin və həyat fəaliyyəti məhdudiyyətlərinin öyrənilməsi (məsələn, digər şəxslərin səhhətinin dəyişməsi səbəbindən üçüncü şəxslərin həyat fəaliyyəti məhdudiyyətinin öyrənilməsi);
- Şəxsiyyət amillərinin tərkib hissələrinin (elementlərinin) işlənib-hazırlanması;
- Tədqiqat məqsədləri üçün kateqoriyaların dəqiq qüvvədə olan təriflərinin işlənib-hazırlanması;
- Eyniləşdirilmə və ölçmələr üçün qiymətləndirmə üsullarının işlənib-hazırlanması;[22]
- kompüter vasitələrinin və qeydiyyat formalarının təcrübi tətbiqinin təmin olunması;

[22] FBT-lə bağlı qiymətləndirmə üsullar ÜST-lə ayrı-ayrı mədəniyyətlərin tətbiq olunması nəzərə alınmaqla işlənib-hazırlanır. Onların testi möhkəmliyə və yararlığa görə aparılır. Qiymətləndirmə üsullar üç formadan ibarət olacaq: qısa versiya skrininqlər /təsadüfi məqsədlər üçün, təcrübəçilərlə gündəlik istifadə üçün versiya və ətraflı tədqiqatlar üçün tam versiya. Onların istifadəsi ÜST sistemi vasitəsilə sadə olacaq.

- həyat keyfiyyəti və subyektiv rifah ölçməsi konsepsiyası ilə əlaqələrin qurulması[23];
- müalicə və digər müdaxilələrin müqayisəsi üzrə tədqiqatlar;
- sağlamlığın müxtəlif dəyişmələrinin müqayisəsi üçün elmi tədqiqatlarda tətbiq etmə;
- FBT-ın istifadəsi üzrə dərsliklərin işlənib hazırlanması;
- dünya üzrə FBT-ın tədris və soraq mərkəzlərinin yaradılması;
- standartlaşdırılmış və həqiqi mühitin təsviri zamanı tələb olunan detallaşdırmaya nail olmaq üçün ətraf mühit faktorlarının sonrakı tədqiqi.

[23] Həyat keyfiyyəti ilə əlaqə: həyat keyfiyyəti və həyat fəaliyyətinin məhdudiyyətlərini əks etdirən strukturlar arasında konseptual müqayisənin olması vacibdir. Lakin həyat fəaliyyəti insanların öz sağlamlıqlarını və onun pozulmasının nəticələrini səciyyələndirir; ona görə bu «subyektiv rifah» konstruksiyasıdır. Digər tərəfdən, xəstəlik / həyat fəaliyyətinin məhdüdiyyəti kontsruksiyası individlərin obyektiv və xarici xüsusiyyətlərinə aiddir.

# Əlavə 9

## Məlumat sistemləri və ya sağlamlığın tədqiqi üçün ideal və minimal məlumat toplumunun, FBT-ın ehtimal edilən tələbləri

| **Bədən funksiyaları və strukturları** | **Bölmə və kod** | | **Təsnifat blokları və kateqoriyaları** |
|---|---|---|---|
| Görmə qabiliyyəti | 2 | b210-b220 | Görmə qabiliyyəti və onunla bağlı funksiyalar |
| Eşitmə qabiliyyəti | 2 | b230-b240 | Eşitmə qabiliyyəti və vestibulyar funksiyalar |
| Nitq | 3 | b310-b340 | Səs və nitq funksiyaları |
| Həzm etmə | 5 | b510-b535 | Həzm etmə sisteminin funksiyaları |
| Ekskretor funksiyalar | 6 | b610-b630 | Sidik ifrazatı funksiyaları |
| Fertillik | 6 | b640-b670 | Cinsi və reproduktiv funksiyalar |
| Cinsi fəallıq | 6 | b640 | Cinsi funksiyalar |
| Dəri və eybəcərlik | 8 | b810-830 | Dəri və ona aid olan strukturlar |
| Tənəffüs | 4 | b440-b460 | Tənəffüs sisteminin funksiyaları |
| Ağrı | 2 | b280 | Ağrı |
| Affekt* | 1 | b152-b180 | Xüsusi əqli funksiyalar |
| Yuxu | 1 | b134 | Qlobal əqli funksiyalar |
| Fəallıq | 1 | b130 | Qlobal əqli funksiyalar |
| Hiss etmə* | 1 | b140, b144, b164 | Diqqət, yaddaş və yüksək səviyyəli əqli funksiyalar |
| Fəallıq və iştirak | | | |
| Ünsiyyət | 3 | d310-d345 | Ünsiyyət zamanı məlumatın mənimsənilməsi və düzəldilməsi |
| Sürətlə hərəkət etmə qabiliyyəti* | 4 | d450-d465 | Yerimə və hərəkət etmə |
| Çəldlik | 4 | d430-d445 | Obyektlərin daşınması, yerdəyişməsi və manipulsyasiya edilməsi |
| Özünəxidmət* | 5 | d510-d570 | Özünəxidmət |
| Adi fəaliyyət* | 6 və 8 | | Məişət həyatı; Həyatın əsas sahələri |
| Şəxsiyyətlərarası qarşılıqlı münasibətlər | 7 | d370-d770 | Xüsusi şəxsiyyətlərarası qarşılıqlı münasibətlər |
| İctimai fəaliyyət | 9 | D910-d930 | Cəmiyyətdə həyat, ictimai və vətəndaş həyata |

* Minimal toplu üçün təklif olunub

# Əlavə 10

## Minnətdarlıq

FBT-nin yaranması dünyanın müxtəlif hissələrindən olan çox sayda insanların sərf etdikləri qüvvə və enerjilərin əsasında beynəlxalq əməkdaşlığı və geniş dəstəyi sayəsində mümkün olmuşdur. Burada hamıya ayrı-ayrılıqda təşəkkür etməyin çətin olduğunu nəzərə alaraq, aşağıda aparıcı mərkəzlər, təşkilatlar və bir sıra iştirakçılar göstərilib.

**FBT-nin hazırlanmasında ÜST ilə əməkdaşlıq etmiş mərkəzlər**

| | |
|---|---|
| Avstraliya | Australian Institute of Health and Welfare, GPO Box 570, Canberra ACT 2601, Australia. Contact: Ros Madden. |
| Böyük Britaniya | National Health System Information Authority, Coding and Classification, Woodgate, Loughborough, Leics LE112TG, United Kingdom. Contacts: Ann Harding, Jane Millar. |
| Kanada | Canadian Institute for Health Information, 377 Dalhousie Street, Suite 200, Ottawa, Ontario KIN9N8, Canada. Contact: Helen Whittome. |
| Hollandiya | National Institute for Public Health and the Environment, Department of Public Health Forecasting, Antonie van Leeuwenhoeklaan 9, P.O. Box 1, 3720 BA Bilthoven, The Netherlands. Contacts: Willem M. Hirs, Marijke W. de Kleijn-de Vrankrijker. |
| Şimal dövlətləri | Department of Public Health and Caring Sciences, Uppsala Science Park, SE 75185 Uppsala, Sweden. Contact: Björn Smedby. |
| ABŞ | National Center for Health Statistics, Room 1100, 6525 Belcrest Road, Hyattsville MD 20782, USA. Contact: Paul J. Placek. |
| Fransa | Centre Technique National d'Etudes et de Recherches sur les Handicaps et les Inadaptations (CTNERHI), 236 bis, rue de Tolbiac, 75013 Paris, France. Contact: Marc Maudinet. |
| Yaponiya | Japan College of Social Work, 3-1-30 Takeoka, Kiyose-city, Tokyo 204-8555, Japan. Contact: Hisao Sato. |

**İşçi qruplar**

International Task Force on Mental Health and Addictive, Behavioural, Cognitive, and Developmental Aspects of ICIDH, Chair: Cille Kennedy, Office of Disability, Aging and Long-Term Care Policy, Office of the Assistant Secretary for Planning and Evaluation, Department of Health and Human Services, 200 Independence Avenue, SW, Room 424E, Washington, DC 20201, USA. Co-Chair: Karen Ritchie.

Children and Youth Task Force, Chair: Rune J. Simeonsson, Professor of Education, Frank Porter Graham Child Development Center, CB # 8185, University of North Carolina, Chapel Hill, NC 27599-8185, USA. Co-Chair: Matilde Leonardi.

Environmental Factors Task Force, Chair: Rachel Hurst, 11 Belgrave Road, London SW1V 1RB, England. Co-Chair: Janice Miller.

## Birgə iştirakçılar

La Red de Habla Hispana en Discapacidades (The Spanish Network). Coordinator : José Luis Vázquez-Barquero, Unidad de Investigacion en Psiquiatria Clinical y Social Hospital Universitario "Marques de Valdecilla", Avda. Valdecilla s/n, Santander 39008, Spain.

*Şəxsi faktorlar* - fərdin, sağlamlığı və ya sağlamlıq göstəricilərinin dəyişilən bir hissəsi olmayan xüsusiyyətindən ibarət olan fərdin onunla yaşadığı və mövcud olduğu fərdi xüsusiyyətlərdir. Onlar, cinsi, irqi, yaşı, sağlamlığın dəyişilməsini, möhkəmliyi, həyat tərzini, adətləri, tərbiyəni, ictimai ətrafı, təhsili, peşəni, keçmiş və indiki həyat təcrübəsini (keçmişdəki və hal-hazırda olan şəraitlər) şəxsiyət və xarakter formsını, meyyilliyi və bəzisinin və ya hamısının hər hansı bir səviyyədə həyat fəaliyyətinin məhdudiyyətinə təsir göstərən başqa xüsusiyyətlər daxil edə bilər. FBT-da şəxsi faktorlar təsnif olunmurlar. Buna baxmayaraq onlar, müxtəlif müdaxilələrin son nəticəsinə təsir edə biləcək o, əməyi qeyd etmək üçün şəkil 1-in sxeminə daxil ediliblər.

# 5. Funksionallıq və həyat fəaliyyətinin məhdudlaşmasının modeli

## 5.1. Funksionallıq və həyat fəaliyyətinin məhdudlaşması prossesi.

Təsnifat kimi FBT funksionallıq və həyat fəaliyyətinin məhdudlaşması "prossesini" modelləşdirmir. Ancaq o, müxtəlif parametr və domenləri əks etdirən vəsaitləri təqdim edərək bu prosseslərin təsvir edilməsi üçün istifadə oluna bilər. FBT qarşılıqlı əlaqədə olan və inkişaf edən prosses kimi funksionallıq və həyat fəaliyyətinin məhdudlaşması təsnifatına çox məqsədli yanaşmaları təmin edir. O, bu prosseslərin modelini yaratmaq və müxtəlif aspektlərini öyrənmək işləyən istifadəçiləri tikinti blokları ilə təmin edir. Bu mənada, FBT dil kimi müzakirə oluna bilər: onun köməyi ilə yaranan mətnlər istifadəçilərindən, onların yaradıcılığından və elmi istiqamətindən asılıdır. Müxtəlif komponentlərin qarşılıqlı əlaqəsini başa düşmək üçün şəkil 1-də[15] təqdim olunan diaqram faydalı ola bilər.

**Şəkil 1. FBT təşkil edicilər arasında qarşılıqlı əlaqə**




Bu diaqramda fərdin xüsusi domendə fəaliyyəti sağlamlığında dəyişiklik və kontekst faktorları (ətraf mühit və şəxsi faktorlar) arasında qarşılıqlı əlaqə və ya mürəkkəb münasibətlər kimi təqdim olunur. Bu elementlər arasında dinamik qarşılıqlı əlaqə var: bir element səviyyəsində müdaxilə etmə başqasını və başqa elementləri potensial olaraq dəyişə bilər. Bu qarşılıqlı əlaqələr

[15] FBT funksionallıq və həyat fəaliyyəti məhdudiyyətinin tərkib hissələri arasındakı qarşılıqlı əlaqənin təsvirində 1980-cı il PBT-dən hiss olunacaq dərəcədə fərqlənir. Qeyd etmək lazımdır ki, çoxkomponentli modeldə qarşılıqlı əlaqələrin mürəkkəbliyi nəticəsində hər hansı bir diaqram çox ehtimal ki, vəziyyəti natamam və təhrifə meylli əks etdirəcək. Hazırki model çox saylı qarşılıqlı əlaqəni təsvir etmək üçün istifadə edilib. Proseslərin digər vacib tərəflərini göstərən başqa təsvirlər də həmçinin mümkündür. Müxtəlif komponentlər və tərkib hissələri arasındakı qarşılıqlı əlaqələrin interpretasiyası həmçinin dəyişə bilər (məsələn, ətraf mühit amillərinin orqanizm funksiyalarına təsiri, şübhəsiz, onların iştiraka olan təsirindən fərqlənir).

xüsusidirlər və hər zaman bir birinə bitərəf deyillər. Qarşılıqlı əlaqə iki istiqamətdə ifadə olunur; həyat fəaliyyətinə məhdudiyyət olduğu halda hətta özü özündən sağlamlıqda dəyişikliyi modelləşdirir. Potensial bacarığın bir və ya daha çox pozulmalar nəticəsində azalması və ya reallaşdırma mümkünlüyünə məhdudiyyət potensial bacarığın bir və daha çox domenlərdə azalması nəticəsində olmağı haqda nəticə faydalı və əsaslandırılmış ola bilər. Ancaq bu parametrlər üzrə məlumatları bir birindən asılı olmayaraq yığmaq və gələcəkdə onlar arasında təsadüf və səbəbi olan əlaqələri müəyyənləşdirmək vacibdir. Sağlamlığı bütün təşkil edənlərin istifadəsi ilə təsvir etmək məqsədə uyğundur. Məsələn, fərd aşağıdakıları bacarır:

- potensial bacarıq azalmadan pozulmanın olması (məsələn, yaramazlıq edərək eybəcər şəklə düşmə fərdin potensial bacarığına təsir etmir) ;
- aydın pozuntular olmadan reallaşma problemləri və ya potensial bacarığının azalması ola bilər (məs. çox xəstəliklərlə bağlı gündəlik fəaliyyət də aşağı realizasiya);
- pozuntularsız və potensial bacarıq aşağı düşmədən reallaşdırma problemləri ola bilər (məsələn, İİÇV - infeksiyasına müsbət reaksiyası olan fərd, sağalmış ruhi xəstə şəxsi münasibətlərdə və ya iş yerində damğalanmaqla və ya diskriminasiya ilə qarşılaşır);
- kənardan köməklik olmadan potensial bacarığın azalması və real ətraf mühitdə reallaşma problemini hiss etməyə bilər (məsələn, hərəkət etdikdə məhdudiyyəti olan fərd cəmiyyət tərəfindən hərəkət etmək üçün köməkçi texniki vasitə ilə təmin oluna bilər);
- əks istiqamətdə təsiri hiss etmək (məsələn, ətrafların hərəkətsizliyi əzələ atofobiyasını əmələ gətirə bilər; xeyriyyə cəmiyyətində olma ictimai biliklərin itirilməsinə gətirə bilər).

Əlavə 4-də göstərilən misallar təşkil edənlər arasında mümkün qarşılıqlı təsiri təsvir edirlər.

Şəkil 1-in sxemi, kontekst faktorları, yəni bu proseslərdə ətraf mühit faktorları və ya şəxsi faktorlar, oynayan rolu nümayiş etdirirlər. Bu faktorlar sağlamlığında dəyişiklik olan fərdlə qarşılıqlı əlaqədə olur və fərdi fəaliyyətin dərəcə və səviyyəsini müəyyən edir. Ətraf mühit faktorları fərdə aid xarici (zahiri) olurlar (məs., cəmiyyət münasibəti, memarlıq xüsusiyyətləri, mühafizə sistemi), və onlar ətraf mühit faktorları təsnifatında sistemləşmişlər. Digər tərəfdən, şəxsi faktorların FBT-nin hazırkı versiyasında təsnifatı yoxdur. İstifadəçiyə lazım olduqda, onların qiyməti onun öz istəyindən asılıdır. Onlar cinsi, irqi, yaşı, sağlamlığın başqa vəziyyətlərini, möhkəmliyi, həyat tərzini, vərdişləri, tərbiyəni, ictimai şərti, təhsili, peşəni, keçmiş və gələcək təcrübəni (keçmiş həyat hadisələrini və eyni zamanda mövcud olan hadisələri), ümumi davranış modelini və xarakter formasını, fərdi psixoloji keyfiyyətlər və hər hansı səviyyədə həyat fəaliyyətinin məhdudiyyətlərində rolu olan bütün və ya onlardan hər hansının digər xüsusiyyətlərini daxil edir.

## 5.2. Tibbi və sosial model

Həyat fəaliyyətinin məhdudiyyətləri və fəaliyyət anlamaq və anlatmaq üçün bir çox konseptual modellər[16] təqdim olunub. Bu "tibbi modelin" "ictimai modelə " qarşı polemikasında əks olunub. *Tibbi model* həyat fəaliyyətinin məhdudiyyətlərini, mütəxəssislərin apardığı fərdi müalicə şəklində tibbi yardım tələb edən xəstəlik, travma və ya sağlamlıqda başqa dəyişikliklərlə bilavasitə əmələ gələn personal problem kimi qiymətləndirir. Həyat fəaliyyətinin məhdudiyyətlərinə nəzarət fərdin müalicə məqsədi və ya uyğunlaşması və davranışının dəyişməsidir. Tibbi yardım vəziyyətdən əsas çıxış kimi qiymətləndirilir, siyasət sahəsində isə prinsipial reaksiya səhiyyənin dəyişməsi və islahatıdır. Başqa tərəfdən, həyat fəaliyyətinin məhdudiyyətlərinin *ictimai modeli* məsələyə ictimai problem kimi yanaşır və əsas etibarı ilə fərdin cəmiyyətə tam inteqrasiyası məsələsi kimi. Həyat fəaliyyətinin məhdudiyyətləri – fərdin atributu deyil, ictimai ətrafla formalaşan şəraitin kompleks uyğunluğudur. Bunun nəticəsi olaraq vəziyyətin idarə edilməsi sosial həllini tələb edir, və bir çox məsələlərdə cəmiyyətin, ictimai həyatın bütün sahələrində həyat fəaliyyəti məhdudiyyətli şəxslərin yararlı iştirakı üçün vacib olan, ətraf mühitdə dəyişiklik aparmaq üçün, kollektiv məsuliyyətini nəzərdə tutur. Buna görə də bu pozisiyanın və ya ideologiyanın nəticəsi siyasi səviyyədə insan hüquqları məsələsi olan, sosial dəyişikliklər olacaqlar. Bu modelə uyğun olaraq həyat fəaliyyətinin məhdudiyyətləri siyasi məna alırlar.

FBT bu iki zidd modellərin inteqrasiyasına əsaslanır. Fəaliyyətin müxtəlif tərəflərinin birləşməsi üçün biopsixisosial yanaşmadan istifadə olunur. Ona görə də FBT, bioloji, şəxsi və ictimai pozisiyadan sağlamlığın müxtəlif tərəflərinə razılaşdırılmış nəzər nöqtəsini təmin etmək üçün, sintezə çatmağa çalışır[17].

---

[16] "Model" termini burada konstruksiya və ya paraqdiqma anlamını verir və bu terminin buradakı istifadəsi əvvəlki bölmələrdəkindən fərqlənir.

[17] Həmçinin bax: Əlavə 5. "FBT və həyat fəaliyyəti məhdudiyyətli şəxslər"

## 6. FBT-dən istifadə

FBT – insan fəaliyyətinin və onun həyat fəaliyyətinin məhdudiyyətlərin təsnifatıdır. O, sistemli şəkildə sağlamlıq domenlərini və sağlmlıqla bağlı domenləri qruplaşdırır. Sonradan, hər təşkil etmiş domenlərin daxilində onların ümumi xüsusiyyətlərinə (törəmə, tip və ya oxşarlıq kimi) əsasən qruplaşırlar və mənasına görə sıralanırlar. Təsnifat bir sıra prinsiplərlə uyğun tərtib olunub (bax əlavə 1.). Bu prinsiplər dərəcələrin qarşılıqlı əlaqəsinə və təsnifatın ierarxiyasına (dərəcə qaydası) aid edilirlər. Bundan başqa FBT-nin bəzi kateqoriyaları iyerarxiya qaydasında deyil, onun şaxələrinin bərabər üzvləri kimi tabe olmadan düzülüb.

Aşağıda təsnifatın istifadəsinə aid olan struktur əlamətləri sadalanıb.

1) FBT sağlamlığın "hamı tərəfindən işlədilən" təriflərinə zidd olaraq sağlamlıq domenlərinin və sağlamlıqla bağlı domenlərin standart iş təriflərini verir. Bu təriflər hər domenin ayrılmaz xüsusiyyətlərini təsfir edir (məsələn keyfiyət, xüsusiyyət və qarşılıqlı əlaqə) və hər domenə nə daxil edildiyi və ya xaric edildiyi haqda informasiyanı daxil edir. Təriflər qiymətləndirmə üçün ənənəvi istifadə olunan qeyd olunan bəndləri var, onun üçün də onlar sorgu vərəqəsinə kköçürülə bilərlər. digər tərəfdən, mövcud qiymət metodikaların nəticələri FBT terminlərində kodlaşdırıla bilər. Məsələn, "görmə funksiyası" müxtlif məsafədən forma və konturu götürmə funksiyalarının terminləri ilə müəyyən olunur, buna görə də görmə qabiliyyətinin bildirilməsi yüngül, mülayim, bu parametrlərə aid kəskin və heç kimi kodlaşdırıla bilər.

2) FBT hərfi – rəqəm sistemindən istifadə edir: b, s, d, e hərifləri, orqanizmin funksiyası (b) və strukturu (s), aktivlik və iştirak (d) və ətraf mühit faktorları (e) hərfi ilə təyin etmək üçün istifadə olunurlar. Bu həriflərdən sonra, ardınca ikinci dərəcənin (iki sonrakı rəqəmlər), üçüncü və dördüncü dərəcələrin qeydləri gələn (hər biri bir rəqəmlə), bir hissənin rəqəmindən (bir rəqəm) başlayan rəqəm kodu gəlir .

3) FBT kateqoriyaları elə formada qruplaşıblar ki, ümumi kateqoriyalar özündə daha detallaşdırılmış yaxın yarı kateqoriyalar daxil edirlər (məsələn, surətlə hərəkət edənlərə aid olan aktivlik və iştirak təşkil edən 4-cü bölmə ayrı-ayrı kateqoriyalar daxil edir: ayaq üstü və oturaqlı vəziyyəti, yerişi, yükün daşınmasını və s.) Qısa (yığılmış) versiya iki dərəcəni əhatə edir, halbuki tam (detallaşdırılmış) versiya dörd dərəcəyə qədər genişlənib. Qısa və tam versiyaların kodları bir birinə aid uyğun gəlirlər, və qısa versiya tam versiyadan hazırlana bilər.

4) Hər hansı bir fərdin hər bir dərəcədə kod siyahısı ola bilər. Onlar sərbəst və ya qarşılıqlı əlaqədə ola bilər.

5) FBT kodları ancaq sağlamlığın dərəcəsini (məsələn, problemin bilinməsi) qeyd edən *təyinedici* olduğu halda tamamlanmış vəziyyəti əldə edirlər. Təyinedicilər bölücü nöqtədən sonra bir, iki və ya çox miqdarda rəqəmlərlə kodlaşdırılırlar. Hər hansı bir kodun istifadəsi

bir təyinedicinin də istifadəsi ilə müşahidə olunmalıdır. Kodlar təyinedicilərsiz istifadə olunduqda öz mənalarını itirirlər.

6) Orqanizmin funksiya və strukturunun birinci müəyyən təyinedicisi . aktivlik və iştirak üçün reallaşdırma və potensial bacarıq təyinediciləri, o cümlədən ətraf mühit faktorları üçün birinci təyinedici təqdim olunan təşkiledicilərdə problemin kəskinliyinin dərəcəsini əks edirlər.

7) FBT-də təsnifatı verilən bütün üç təşkil edicilər (orqanizmin funksiya və strukturları, aktivlik və iştirak və ətraf mühit faktorları) bir şkala vasitəsi ilə ölçülür. Təşkiledicidən asılı olaraq, problemin mövcudluğu pozulma, məhdudiyyət və ya mümkünlüyün məhdudiyyəti, maneəni ifadə edər. Təsnifatın uyğun domeninə aşağıda mötərizədə göstərilən uyğun təyinedici sözlər seçilməlidir (xxx işarəsi ikinci dərəcə domenin kodu yerinə göstərilir).

| | | |
|---|---|---|
| xxx.0 problem YOXDUR | (heç bir, mövcud deyil, cüzidir, ... ) | 0-4 % |
| xxx.1 YÜNGÜL problemlər | (əhəmiyyətsiz, zəif,...) | 5-24% |
| xxx.2 MÜLAYIM problemlər | (orta, əhəmiyyətli, ...) | 25-49 % |
| xxx.3 AĞIR problemlər | (yüksək, intensiv, ...) | 50-95% |
| xxx.4 ABSOLYUT problemlər | (tam, ....) | 96-100% |
| xxx.8 təyin edilməyib | | |
| xxx.9 tətbiq edilməyib | | |

Bu miqdarca mənaların təyin edilməsi universal olmalıdır və qiymət metodikalarının tədqiqat aparılan zaman işlənib hazırlanmağa ehtiyac var. Faiz əhəmiyyətinin geniş diapazonu pozulma, məhduqiyyət və ya baryerlərin (maneələrin) dərəcəsinin miqdarca ölcülməsi üçün dərəcələrə bölünmüş qiymət metodikası və ya başqa standartlar mümkün olduğu hallar üçün verilib. Məsələn, o hallarad ki, nə vaxt "problemin olmaması" və ya "absolyut problemlər" təyin edilir, kodlaşdırma zamanı səhfə yol verilməsi ancaq 5% həcmində mümkündür. "Mülayim problemlər" vaxt xüsusiyyətlərinin yarısını təşkiledir, və ya absolyut çətinliklərin orta şkalasına çatırlar. Hər hansı bir domenlərdə təyin edilən faiz əhəmiyyətləri yekun geniş yayılmış standartlarla müqayisədə nəzəri cəlb edənlərdə (persentillərdə) təqdim olunmalıdırlar .

8) Ətraf mühit faktorları hallarında birinci təyinedici ətraf mühitin pozitiv təsirlərinin, yəni yüngülləşdiriliş faktorların və ya neqativ təsirlərin, yəni maneələrin təyin edilməsi və ölçüsu üçün istifadə oluna bilər. Bu və digəri üçün bir şkala 0-4 istifadə oluna bilər, yüngülləşdirici faktorlar qeyd olunduqda onluq kəsirin nöqtəsi (+) üstəgəl işarələri ilə əvəz edilir: misal üçün, e110+2. Ətraf mühit faktorları kodlaşa bilər: a) hər təşkil edənə aid ayrı ayrılıqda, və ya b) ayrı təşkil edənlə əlaqədən kənar tamlıqla. Birinci variant üstünlük təşkil edir, çünki təsir və əlamətləri daha dəqiq eyniləşdirilir.

9) Ayrı-ayrı bəndlərin müxtəlif istifadəçilərlə kodlaşdırma prossesində başqa növ informasiyanın əlavə edilməsi vacib və faydalı olmalıdır. Bir çox potensial əlverişli əlavə təriflər var. Cədvəl 3 hər təşkil edən üçün təriflər detallarını təsvir və şərh edir, o cümlədən əlavə təriflər yaratmaq üzrə açıqlama verir.

10) Sağlamlıq domenlərinin və sağlamlıqla bağlı domenlərin təsfiri konkret tarixə aiddir, yəni bu görüntünün bir anda fiksasiyasıdır. Ancaq, onların vaxtlı çox istifadəsi prossesin vaxtlı və mahiyyətinə görə çevrilməsi traektoriyasını xarakterizə etmək imkanını verir.

11) FBT-də fərdin sağlamlığının göstəriciləri və sağlamlıqla bağlı göstəriciləri təsnifatın iki hissəsinə daxil edilən yenidən qruplaşan kodlarla təqdim olunub. Fərd üçün kodların maksimal sayı birinci səviyyədə 34-də çata bilər (məsələn, 8-orqanizm funksiyaları, 8-orqanizm strukturları, 9 –realizasiya, 9- potensial bacarıq). Anoloji olaraq fərdi iki dərəcədə qiymətləndirdikdə kodların sayı 1424 təşkil edir. FBT istifadə olunan real həyatda vəziyyəti detallaşdırmanın ikinci (üç rəqəm) səviyəsinə qədər adekvat qiymətləndirmək üçün 3-dən 18 qədər kod lazım olacaq. Adətən 2-ci dərəcəli təsnifat epidimioloji monitorinqdə və müdaxilənin effektivliyin qiymətləndirilməsində istifadə olunduqda, 4-cü dərəcəli daha ətraflı versiya xüsusi tədqiqatlarda (məsələn, reabilitasiyanın effektivliyinin öyrənilməsində qeriatriyada ), istifadə olunur.

Kodların istifadəsi üzrə sonrakı rekomendasiyalar Əlavə 2-də təqdim olunub. İstifadəçilərə təkidlə ÜST strukturlarından və onlarla əməkdaşlıq edən mərkəzlərin yaradılmış şəbəkəsindən təsnifatdan istifadə biliklərini əldə etmək məsləhət görülür.

**Cədvəl 3. Təyinedicilər**

| Təyinedicilər | Birinci təyinedici | İkinci təyinedici |
|---|---|---|
| **Orqanizmin funksiyaları (b)** | Həcmi və pozulmanın kəskinliyini təyinetmək üçün neqativ şkala ilə ümumi təyinedici<br><br>Misal: b168.3 nitqin spesifik əqli funksiyasının ağır pozulmasını göstərir. | Yoxdur |
| **Orqanizmin strukturu (s)** | Pozulmanın həcmini və kəskinliyini təyin etmək üçün neqativ şkala ilə ümumi təyinedici.<br><br>Misal: s730.3 yuxarı ətraf strukturunun ağır pozulmasını təyin edir. | Orqanizmin uğun strukturunu dəyişiklik xüsusiyyətinin təyin edilməsi üçün istifadə olunur:<br>0 struktur dəyişiklik yoxdur<br>1 tam yoxluq<br>2 hissə hissə yoxluq<br>3 əlavə hissə<br>4 abberrant pozulmalar<br>5 tamlığın pozulması<br>6 pozisiyanın dəyişkənliyi<br>7 mayenin saxlanılması ilə strukturun keyfiyət dəyişkənliyi<br>8 müəyyən olunmayıb<br>9 tətbiq edilməyib<br><br>Misal: s730.32 yuxarı ətrafın hissə hissə yoxluğunu təyin edir. |
| **Aktivlik və iştirak (d)** | Realizasiya<br>Ümumi təyinedici<br>Ətraf mühitin real şəraitində fərdin problemləri.<br><br>Misal: d5101.1 Fərdə, onun real ətraf şəraitində əlçatan köməkçi avadanlığın istifadəsi ilə bütün bədənin yuyulduğu halda orta çətinliklər təyin edir. | Potensial bacarıq<br>(kapasitet)<br>Ümumi təyinedici<br>Köməksiz azalma<br><br>Misal: d5101. bütün bədənin yuyulduğu halda orta çətinliklər təyin edir və orta çətinliklər kənar şəxslərin köməkliyi və ya köməkçi avadanlıqların olmadığı halda yaranır. |
| **Ətraf mühit faktorları (e)** | Baryerlər və ya yünkülləşdirici faktorların kəskinliyini dərəcəsini təyin edən neqtiv və pozitiv şkalalarla ümumi təyinedici.<br><br>Misal: e130.2 verilən məmulatlar tədris üçün orta baryer olmasını təyin edir. Əksinə, e130+2 verilən məmulatların tədris üçün orta yüngülləşdirici baryer olmasını təyin edəcək. | Yoxdur. |

## Beynəlxalq istifadə üçün FBT-nin səhiyyə Ümümdünya asambleyasının 54-cü sessiyasında təsdiq edilib.

Qətnamə WHA54/21 aşağıdakı kimi səslənir:

Səhiyyənin Ümumdünya asambleyasının əlli dördüncü sessiyası

1. Sonradan qısaca FBT kimi təyin edilən fəaliyyət, həyat fəaliyyətinin və sağlamlığın məhdudiyyətinin Beynəlxalq təsnifatı adı altında pozulmaların, əmək qabiliyyətiinin azalması və ictimai çatışmamazlıq Beynəlxalq təsnifatın ikinci nəşrini BƏYƏNİR.

2. Üzv dövlətləri FBT-ni öz tədqiqatlarında, epidemioloji nəzarətdə və hesabat işlərində uzv-dövlətlərdə xüsusi vəiyyətlərini nəzərə almaqla və xüsusəndə gələcəkdə təkrar baxılmasını mümkünlüyünü nəzərə alaraq, uyğun tərzdə istifadə etməyə ÇAĞIRIR.

3. Baş direktora FBT-ından istifadə zamanı üzv dövlətlərə onların xahişi ilə yardım göstərilməsini təmin etməyi TƏKLİF EDİR.

# ORQANİZMİN FUNKSİYALARI

## BÖLMƏ 1. ƏQLİ FUNKSİYALAR

Bu bölmədə beynin funksiyaları sadalanır: şüur, güc, məqsəd kimi qlobal əqli funksiyalar və yaddaş, dil və hesablama kimi spesifik əqli funksiyalar.

### QLOBAL ƏQLİ FUNKSİYALAR (b110-b139)

#### b110 Şüurun funksiyaları

Oyaq vəziyyətdə məntiqlilik və arasıkəsilməzlik də daxil olmaqla diqqət və anlama kimi ümumi əqli funksiyalar.

*Daxil edilib: məntiqlilik funksiyaları, arasıkəsilməzlik və şüurun xüsusiyyətləri, şüurun itməsi, koma, vegetativ vəziyyət, fuqalar, trans vəziyyəti, tabelik vəziyyəti, preparatla idrakın dəyişdirlməsi, deliriy, stupor.*

*Çıxarılıb: oriyentasiyalaşma funksiyaları (b114); iradi və sövqedici funksiyalar (b130); yuxu funksiyaları (b134).*

**b1100 Şüurun məntiqliliyi**

Əqli funksiyaların pozulması zamanı yaranan şüur pozğunluğu, stupor və ya koma.

**b1101 Şüurun fasiləsizliyi**

Sayıqlıq vəziyyəti, həyəcan və dərk etməyə kömək edən əqli funksiyalar, fuqa, trans və digər bu kimi vəziyyətlərə səbəb olan pozğunluqlar.

**b1102 Şüurun xasiyyətləri**

Əqli funksiyaların pozulması sayıqlıq xarakterinin dəyişməsinə, həyəcan və sayıqlama vəziyyəti və ya dərmanlarla vəziyyətin nəzarətin itməsinə səbəb olur.

**b1108 Şüurun funksiyaları, digər dəqiqləşdirilmiş**

**b1109 Şüurun funksiyaları, dəqiqləşdirilməmiş**

#### b114 Oriyentasiyalaşma funksiyaları

Özünü dərk etmə, vaxtında ətraf mühitə özünə və başqalarına münasibəti müəyyən etmə ümumi əqli funksiyalar.

*Daxil edilib: vaxtında, yerində və şəxsdə oriyentasiyalaşma funksiyaları, özünə və digərlərinə münasibətdə oriyentasiyalaşma funksiyaları, vaxtında, yerində, şəxsiyyətində oriyentasiyasını itirmə.*

*Çıxarılıb: şüur funksiyaları (b110); diqqət funksiyaları (b140); yaddaş funksiyaları (b144).*

**b1140 Vaxtında oriyentasiyalaşma**

Həftənin günləri, ayın tarixləri, aylar və illərin dərk edilməsi ilə bağlı şüurun funksiyaları.

**b1141 Yerində oriyentasiyalaşma**

Məsələn, bilavasitə öz mühitində, şəhərində və ya ölkəsində yeri dərk etmə kimi əqli funksiyalar**.**

**b1142 Şəxsiyyətin oriyentasiyalaşması**

Öz aralarında, bu kimi səmimi şəraitdə özünü ayrı şəxsiyyət kimi dərk etmə əqli funksiyalar.

**b11420 Öz şəxsiyyətində oriyentasiyalaşma**

Özünü şəxsiyyət kimi dərk etmə əqli funksiyası.

**b11421 Digər şəxsiyyətlərdə oriyentasiyalaşma**

Səmimi mühitdə digər şəxsləri başa düşmə əqli funksiyası.

**b11428 Şəxsiyyətdə oriyentasilaşma, digər dəqiqləşdirilmiş**

**b11429 Şəxsiyyətdə oriyentasiyalaşma dəqiqləşdirilməmiş**

**b1148 Oriyentasiyalaşma funksiyaları, digər dəqiqləşdirilmiş**

**b1149 Oriyentasiyalaşma funksiyaları, dəqiqləşdirilməmiş**

## b117 İntellektual funksiyalar

Bütün idraki funksiyalar və həyat boyu onların inkişafı da daxil olmaqla, başa düşmək və müxtəlif əqli funksiyaları konstruktiv birləşdirmək üçün tələb olunan ümumi əqli funksiyalar.

*Daxil edilib: intellektual inkişaf funksiyaları, intellektual gecikmələr, əqli gecikmələr, demensiya*

*Çıxarılıb: yaddaş funksiyaları (b144); təfəkkür funksiyaları (b160); yüksək səviyyəli idrak funksiyaları (b164).*

## b122 Qlobal psixo-sosial funksiyalar

Müəyyən mənalarda, müəyyən məqsədlə uyğun sosial qarşılıqlı əlaqənin yaradılması üçün zəruri olan şəxslərarası vərdişlərin formalaşmasına gətirib çıxaran, anlama və müxtəlif əqli funksiyaları konstruktiv birləşdirmək üçün tələb olunan ümumi əqli funksiyalar və onların həyat boyu inkişafı.

*Daxil edilib: autizmdə olan pozğunluq kimi.*

## b126 Temperament və şəxsi funksiyalar

Fərdi digərlərindən fərqləndirən əqli xarakteristikalar yığımı da daxil olmaqla, spesifik üsulla vəziyyətə münasibət, şəxsin konstitusiya qabiliyyəti ümumi əqli funksiyaları.

*Daxil edilib: ekstraversiya, intraversiya, kompromis, vicdan, psixi və emosional sabitlik, səmimilik, optimistlik, yenilik axtarışı, əminlik, prinsipiallıq funksiyaları.*

*Çıxarılıb: intellektual funksiyalar (b117); iradi və sövqedici funksiyalar (b130); psixomotor funksiyalar (b147); hiss-həyəcan funksiyaları (b152).*

**b1260 Ekstraversiya**

Səmimilik, aşkarlıq, ünsiyyət kimi keyfiyyətlərə qarşı cəsarətsizlik, utancaqlıq, təmkinlilik kimi şəxsi qabiliyyət əqli funksiyaları.

**b1261 Kompromis**

Əməkdaşlıq, mehribanlıq və çeviklik kimi keyfiyyətlərə qarşı bədxahlıq, müxalifət və itaətsizlik kimi şəxsi qabiliyyət əqli funksiyaları.

**b1262 Vicdanlılıq**

Əməksevərlik, çalışqanlıq, metodiklik və dürüstlük kimi şəxsi qabiliyyət əqli funksiyalarına qarşı tənbəllik, etibarsızlıq və məsuliyyətsizlik kimi əqli qabiliyyət funksiyaları.

**b1263 Psixi möhkəmlik**

Müvazinət, möhkəmlik və sakitlik kimi şəxsi qabiliyyət əqli funksiyaları; əksinə əsəbilik, nigaranlıq, qərarsızlıq və şıltaqlıq.

**b1264 Təcrübə üçün həvəs**

Maraq dairəsini məhdudlaşdırma, diqqətsizlik və marağını itirmə kimi keyfiyyətlərin əksinə maraq, təxəyyül, biliyə maraq və geniş maraq dairəsi çərçivəsində təcrübə toplamağa səy göstərmə kimi şəxsi qabiliyyət əqli funksiyaları.

**b1265 Optimistlik**

Məyusluq, pis əhval ruhiyyə və ümidsizlik kimi keyfiyyətlərin əksinə gümrahlıq, ruh yüksəkliyi kimi şəxsi qabiliyyət əqli funksiyaları.

**b1266 Əminlik**

Cəsarətsizlik, qorxu, özünü alçaltma kimi keyfiyyətlərin əksinə özünə inam, cəsarət və mətanət kimi şəxsi qabiliyyət əqli funksiyaları.

**b1267 Sadiqlik**

Yalan və cəmiyyətə zidd kimi keyfiyyələrin əksinə ümid etdiyi prinsiplər və hərəkətlərinə sadiq qalmaq kimi şəxsi qabiliyyət əqli funksiyaları.

**b1268 Teıperament və şəxsi funksiyalar, digər dəqiqləşdirilmiş**

**b1269 Teıperament və şəxsi funksiyalar, dəqiqləşdirilməmiş**

## b130 İradi və sövqedici funksiyalar

Adətən fərdi müəyyən olumuş tələbatları və ümumi məqsədləri təmin etməyə vadar edən fizioloji və psixoloji mexanizmlərin ümimi əqli funksiyaları.

*Daxil edilib: iradə qüvvəsi, motivasiya, iştah, arzu qüvvəsi (sui –istifadə edilə bilən cisimlər də daxil olmaqla), impulsiv meyllərə nəzarət funksiyaları.*

*Çıxarılıb: şüur funksiyaları (b110), temperament və şəxsi funksiyalar (b126), yuxu funksiyaları (b134), psixomotor funksiyalar (b147), emosional funksiyalar (b152)*

**b1300 İradi dərəcə**

Qüvvə və dözümlülüyə cavab verən əqli funksiyalar.

**b1301 Motivasiya**

Hərəkətə meylə cavab verən əqli funksiyalar; dərk edilmiş və ya dərk edilməməmiş cəhd.

**b1302 İştah**

Təbii olaraq arzu və ya istəyə, xüsusilə də təkrarən və təbii olaraq yemək və ya içmək arzusuna cavab verən əqli funksiyalar.

**b1303 Arzu qüvvəsi**

Sui-istifadə edilə bilməsi də daxil olmaqla, substansiyaların dərhal işlədilməsinə vadar edən əqli funksiyalar.

**b1304 İmpulsiv meyllərə nəzarət**

Ani intensiv meyllərin qarşısını alan və onları nizamlayan əqli funksiyalar.

**b1308 İradi və sövqedici funksiyalar, digər dəqiqləşdirilmiş**

**b1309 İradi və sövqedici funksiyalar, dəqiqləşdirilməmiş**

## b134 Yuxu funksiyaları

Xarakterik fiziki dəyişikliklərlə müşayət olunan, bilavasitə ətraf mühitin dövri, dönən və seçmə, fiziki və əqli uzaqlaşdırma ümumi əqli funksiyaları.

*Daxil edilib: yuxu kəmiyyət funksiyaları, yuxulama, yuxunun xasiyyət və davamlılığı; yuxu dövründə olan funksiyalar, məsələn yuxusuzluğun, hipersomniya və narkolepsiyanın inkişafı.*

*Çıxarılıb: şüur funksiyaları (b110), iradi və sövqedici funksiyalar (b130), diqqət funksiyaları (b140), psixomotor funksiyalar (b147)*

**b1340 Yuxunun kəmiyyəti**

Gündüz vaxtı və gündəlik yuxu halında keçirilən vaxta şərait yaradan əqli funksiyalar.

**b1341 Yuxunun başlanğıcı**

Ayıqlıq və yuxu arasındakı keçidə şərait yaradan əqli funksiyaları.

**b1342 Yuxunun davamlılığı**

Yuxu vəziyyətində saxlanılan əqli funksiyalar.

**b1343 Yuxunun xasiyyəti**

Optimal fiziki və əqli dincəlmə və zəifləməyə aparan təbii yuxuya şərait yaradan əqli funksiyalar.

**b1344 Yuxu dövründə olan funksiyalar**

Yuxu zamanı gözlərin iti hərəkətini (yuxugörmə ilə əlqədar olaraq) və gözlərin asta hərəkətini (ənənəvi yuxu konsepsiyalarının xarakterizə etdiyi aşağı fizioloji və psixi fəaliyyət vaxtı) müəyyən edən əqli funksiyalar.

**b1348 Yuxunun funksiyaları, digər dəqiqləşdirilmiş**

**b1349 Yuxunun funksiyaları, dəqiqləşdirilməmiş**

## b139 Qlobal əqli funksiyalar, digər tam və dəqiqləşdirilməmiş

## SPESİFİK ƏQLİ FUNKSİYALAR (b140-b189)

## b140 Diqqət funksiyaları

Tələb olunan müddət ərzində daxili həyəcan və ya xarici amillərdə spesifik əqli dalğınlıq funksiyaları.

*Daxil edilib: diqqətin saxlanması funksiyaları, diqqətin dəyişməsi, diqqətin paylanması, diqqəti ayırmaq bacarığı, diqqətin toplanması, dalğınlıq.*

*Çıxarılıb: əqli funksiyalar (b110), iradi və sövqedici funksiyalar (b130), yuxu funksiyaları (b134), yaddaş funksiyaları (b144), psixomotor funksiyalar (b147), qavrama funksiyaları (b156)*

**b1400 Diqqətin davamlılığı**

Tələb olunan müddətdə diqqətin toplanmasına şərait yaradan əqli funksiyalar.

**b1401 Diqqətin keçməsi**

Diqqətin konsentrasiyasının bir qıcıqlandırıcıdan digərinə keçməsinə şərait yaradan əqli funksiyalar.

**b1402 Diqqətin paylanması**

Iki və ya daha çox qıcıqlandırıcıda eyni zamanda fokusa yığılmağa imkan verən əqli funksiyalar.

**b1403 Diqqətin cəmlənməsi**

Iki və daha çox insana eyni qıcıqlandırıcıda diqqətini cəmləməyə imkan verən əqli funksiyalar, məsələn uşaq və tərbiyəçi, hər ikisinin diqqəti oyuncaqda cəmlənir.

**b1408 Diqqətin funksiyaları, digər dəqiqləşdirilmiş**

**b1409 Diqqətin funksiyaları, dəqiqləşdirilməmiş**

## b144 Yaddaşın funksiyaları

Qeydiyyat, məlumatın saxlanması və lazım gələrsə onun bərpa olunması spesifik əqli funksiyaları.

*Daxil edilib: uzunmüddətli və qısamüddətli yaddaş funksiyaları, ani, yaxın və təxirə salınmış yaddaş, yada salma müddəti, yaddaşda saxlanılmışların yada salınması, təkrarlanma və öyrənmədə istifadə olunan funksiyalar, məsələn: nominal, selektiv və dissosiativ amneziyanın yaranması məsuliyyəti.*

*Çıxarılıb: şüur funksiyaları (b110), oriyentasiyalaşma funksiyaları (b114), intellektual funksiyalar (b117), diqqət funksiyaları (b140), qavrama funksiyaları (b156), təfəkkür funksiyaları (b160), yüksək səviyyəli idraki funksiyalar (b164), əqli nitq funksiyaları (b167), hesablama funksiyaları (b172)*

**b1440 Qısamüddətli yaddaş**

Yaddaşa keçənin saxlanması təxminən 30 saniyə ərzində olur, bundan sonra uzunmüddətli yaddaşda möhkəmlənməməsinə səbəb olan dövri əqli funksiyalar.

**b1441 Uzunmüddətli yaddaş**

Qısamüddətli yaddaşdan daxil olan məlumatın uzun müddət yadda saxlanması üçün yadda saxlama sistemi əqli funksiyaları, keçmiş hadisələr haqqında avtobioqrafik yaddaş və dilin və faktların semantik yaddaşı.

**b1442 Yaddaşda olanların yada salınması**

Uzunmüddətli yaddaşda saxlanılmış məlumatın yada salınmasının spesifik əqli funksiyaları və onun yada salınması.

**b1448 Yaddaş funksiyaları, digər dəqiqləşdirilmiş**

**b1449 Yaddaş funksiyaları dəqiqləşdirilməmiş**

## b147 Psixomotor funksiyalar

Orqanizm səviyyəsində eyni zamanda hərəkəti nəzarətin və psixi fəaliyyətin spesifik əqli funksiyaları.

*Daxil edilib: psixomotor nəzarət funksiyası , məsələn: psixomotor dayandırma, həyəcan və hərəkətə gətirmə, posturizasiya, katatoniya, neqativizm, ambivalentlik, exopraksiya və exolaliya, psixomotor funksiyaların xasiyyətləri*

*Çıxarılıb: əqli funksiyalar (b110), oriyentasiyalaşma funksiyaları (b114), intellektual funksiyalar (b117), iradi və sövqedici funksiyalar (b130), diqqət funksiyaları (b140), əqli nitq funksiyaları (b167), ardıcıl mürəkkəb hərəkətlərin yerinə yetirilməsində əqli funksiyalar (b176)*

**b1470 Psixomotor nəzarət.**

Hərəkətin motor və psixi komponentlərini tənzimləyən əqli funksiyalar, yəni cavabın surəti və ya vaxtı, məsələn, onun nəzarəti itdikdə psixomotor ləngimə (hərəkət və nitq ləngiməsi; əl-qol hərəkəti və qeyri-iradi hərəkətlər) və ya psixomotor oyanma (adətən qeyri-səmərəli

olan həddən artıq hərəkət və ya idrak fəaliyyəti və çox vaxt ayağın baş barmağının atması, əllərin əyilməsi, həyəcan və ya narahatlıq ilə ifadə olunan daxili gərginliyə cavab kimi olur) yaranır.

**b1471 Psixomotor funksiyaların xüsusiyyətləri**

Qeyri-verbal hərəkətin və əlin və gözün və ya yerişin koordinasiyası kimi onun subkomponentlərin lazimi ardıcıllığını və müəyyən xüsusiyyətlərini təmin edən əqli funksiyalar.

**b1478 Psixomotor funksiyalar, digər dəqiqləşdirilmiş**

**b1479 Psixomotor funksiyalar, dəqiqləşdirilməmiş**

## b152 Emosiya funksiyaları

Təfəkkür proseslərinin hissi və affektiv komponentlərinə aid olan spesifik əqli funksiyalar.

*Daxil edilib: emosiyaların adekvatlıq funksiyaları, emosiyaların tənzimləməsi və diapazonu; affekt; qüssə, xoşbəxtlik, sevgi, qorxu, qəzəb, nifrət, gərginlik, narahatlıq, sevinc, kədər; emosiyaların dəyişkənliyi; affektin aradan qaldırılması.*

*Çıxarılıb: temperament və şəxsi funksiyalar (b126); iradi və vadaredici funksiyalar (b130).*

**b1520 Emosiya adekvatlığı**

Hissiyatın uyğunluğunu və ya vəziyyətin affektini təmin edən əqli funksiyalar, məsələn, yaxşı xəbərlər aldıqda sevinc.

**b1521 Emosiyaların tənzimləməsi**

Həyəcan və affektin ifadəsini nəzarət edən əqli funksiyalar.

**b1522 Emosiya diapazonu**

Sevgi, nifrət, əndişə, qüssə, sevinc, qorxu və qəzəb kimi keçirilmiş affekr və hisslərin bütün spektrini təmin edən əqli funksiyalar.

**b1528 Emosiya funksiyaları, digər dəqiqləşdirilmiş**

**b1529 Emosiya funksiyaları, dəqiqləşdirilməmiş**

## b156 Qavrama funksiyaları

Sensor stimulların tanıma və interpretasiya spesifik əqli funksiyaları.

*Daxil edilib: eşitmə, görmə, iybilmə, dad hissi, taktil və məkani qavrama funksiyaları, məsələn, hallyusinasiya və ya illüziyalar.*

*Çıxarılıb: şüur funksiyaları (b110); oriyentasiya funksiyaları (b114); diqqət funksiyaları (b140); yaddaş funksiyaları (b144); nitqin əqli funksiyaları (b167); görmə və onunla bağlı funksiyalar (b210-b229); eşitmə və vestibulyar funksiyalar (b230-b249); əlavə sensor funksiyalar (b250-b279).*

**b1560 Eşitmə qavraması**

Səs, ton, onların ucalığı və digər akustik qıcıqlandırıcıların tanınmasına cəlb edilmiş əqli funksiyalar.

**b1561 Görmə qavraması**

Forma, ölçü, rəng və digər görmə qıcıqlandırıcıların tanınmasına cəlb edilmiş əqli funksiyalar.

**b1562 İylərin qavraması**

İy çalarlarının tanınmasına cəlb edilmiş əqli funksiyalar.

**b1563 Dadın qavraması**

Dil ilə hiss olunan şirin, turş, duzlu və acı dadların tanınmasına cəlb edilmiş əqli funksiyalar.

**b1564 Taktil qavrama**

Toxunma ilə hiss olunan nahamar və ya hamar kimi səthin tanınmasına cəlb edilmiş əqli funksiyalar.

**b1565 Vizual məkani qavrama**

Xarici mühitdə və ya bir-birinə nisbətən olan obyektlərin yerləşməsinin tanınmasına cəlb edilmiş əqli funksiyalar.

**b1568 Qavrama funksiyaları, digər dəqiqləşdirilmiş**

**b1569 Qavrama funksiyaları, dəqiqləşdirilməmiş**

## b160 Təfəkkür funksiyaları

Təfəkkür prosesləri ilə bağlı spesifik əqli funksiyalar.

*Daxil edilib: temp, forma, nəzarət və düşüncənin mahiyyəti funksiyaları; müəyyən məqsədə yönəldilmiş təfəkkür, məqsədə yönəldilməmiş düşüncənin məntiqi funksiyaları, məsələn, düşüncənin üstün olması, xəyalın gücü, təfəkkür bloku, düşüncənin rabitəsizliyi, dolgunluq, yanılma, sarışan ideya və kompulsiv təfəkkür.*

*Çıxarılıb: İntellektual funksiyalar (b117); yaddaşın funksiyaları (b144); psixomotor funksiyalar (b147); qavrama funksiyaları (b156); yüksək səviyyəli idrak funksiyaları (b164); nitqin əqli funksiyaları (b167); hesablama funksiyaları (b172).*

**b1600 Təfəkkür ritmi**

Təfəkkür prosesin sürətini idarə edən əqli funksiyalar.

**b1601 Təfəkkür forması**

Təfəkkür prosesini, onun rabitəliyini və məntiqliyini təşkil edən əqli funksiyalar.

*Daxil edilib: təfəkkür, səthi və dolğunluq ardıcıllığının pozulmaları.*

**b1602 Təfəkkürün mahiyyəti**

İdeyaların tərkib hissəsi olan təfəkkür prosesində iştirak edən və anlayışla düzələn əqli funksiyalar.

*Daxil edilib: illüziya, dəyərli ideyalar və somatizasiya şəklində pozulmalar.*

**b1603 Təfəkkürün nəzarət edilməsi**

Şəxsiyyət ilə dərk olunan təfəkkürün idrak nəzarətini təmin edən əqli funksiyalar.

*Daxil edilib: təfəkkür saqqızı, sarışan ideya, radioyayım və əlavə təfəkkür şəklində pozulmalar.*

**b1608 Təfəkkür funksiyaları, digər dəqiqləşdirilmiş**

**b1609 Təfəkkür funksiyaları, dəqiqləşdirilməmiş**

## b164 Yüksək səviyyəli idrak funksiyaları

Xüsusən beynin alın paylarından asılı olan, mürəkkəb məqsədəuyğun hərəkət daxil olmaqla spesifik əqli funksiyalar, məsələn, qərarların qəbul edilməsi, abstraklaşdırma, planlaşdırma və düşünülmüş fikirin həyata keçirilməsi, təfəkkürün, müəyyən şəraitlərdə adekvat hərəkətin seçilməsi ustalığı; icra funksiyaları adlanan.

*Daxil edilib: abstraklaşdırma təfəkkürün təşkili funksiyaları, zamanın idarə olunması, anlama və mülahizə, konsepsiya, qəti surətin, idrak ustalığın formalaşması.*

*Çıxarılıb: yaddaşın funksiyaları (b144); təfəkkür funksiyalar (b160); nitqin əqli funksiyaları (b167); hesablama funksiyaları (b172).*

**b1640 Abstraktlaşdırma**

Konkret reallıq, spesifik əşya və ya şəraitdən fərqlənən ayrılmış xüsusiyyət və ya xarakteristikanın ümumi ideyaların yaradılmasının əqli funksiyaları.

**b1641 Təşkil etmə və planlaşdırma**

Hissələrin bütövlükdə koordinasiyası və sistemləşdirməsi əqli funksiyaları; praktiki yerinə yetirilmə və təsir üsulun yaradılmasına cəlb edilmiş əqli funksiyalar.

**b1642 Zamanın idarə olunması**

Hadisələrin və aktivliyin qeydi ilə vaxt ehitiyatın bölüşdürülməsinin xronoloji ardıcıllıqda hadisələrin bölüşdürülməsinin əqli funksiyaları.

**b1643 İdrak ustalığı**

Xüsusən problemlərin həll olunmasına cəlb edilmiş əqli mexanizmlərin strategiyası va ya keçirilməsinin dəyişdirilməsinin əqli funksiyaları.

**b1644 Ağıllılıq**

Özün və öz hərəkətin dərk etmə və anlama əqli funksiyaları.

**b1645 Müzakirə**

Məsələn, fikirin formalaşmasında iştirak edən müxtəlif variant və onların arasındakı fərqləri qiymətləndirmək üçün əqli funksiyalar.

**b1646 Problemlərin həll olunması**

Qərar şəklində eyniləşdirmə, təhlil və rabitəsiz və ya zidd olan məlumatların birləşdirməsi əqli funksiyaları.

**b1648 Yüksək səviyyəli idrak funksiyaları, digər dəqiqləşdirilmiş**

**b1649 Yüksək səviyyəli idrak funksiyaları, dəqiqləşdirilməmiş**

## b167 Nitqin əqli funksiyaları

Nişan, işarə və dilin digər komponentlərinin tanınması və istifadə edilməsinin spesifik əqli funksiyaları.

*Daxil edilib: şifahi, yazı nitqin və ya nişanların dili tipli dilin digər formalarının qavrama və oxunulması funksiyaları; şifahi, yazı nitqi və ya dilin digər formaları şəklində ifadə etmə funksiyaları; dilin, nitqin və yazının inteqral funksiyaları, məsələn, qavramanın, ifadənin afaziyasına, Brok, Vernike və keçirici afaziyaya gətirən məsuliyyətli olanlar.*

*Çıxarılıb: diqqət funksiyaları (b140); yaddaşın funksiyaları (b144); qavrama funksiyaları (b156); təfəkkür funksiyalar (b160); yüksək səviyyəli idrak funksiyaları (b164); hesablama funksiyaları (b172); mürəkkəb hərəkətlərin yerinə yetirilməsi üzrə əqli funksiyalar (b176); FƏSİL 2 Sensor funksiyalar və ağrı; FƏSİL 3 Səs və nitq funksiyaları.*

**b1670 Dil qavraması**

Danışıq, yazı va ya digər formada xəbərlərin dekodlaşdırılması spesifik əqli funksiyalar.

**b16700 Danışıq dilin qavraması**

Xəbərlərin mənasını başa düşmək üçün danışıqda onların dekodlaşdırmasının əqli funksiyaları.

**b16701 Yazı dilin qavraması**

Xəbərlərin mənasını başa düşmək üçün onların dekodlaşdırmasının əqli funksiyaları.

**b16702 Nişan dilin qavraması**

Xəbərlərin mənasını anlamaq üçün onların əl və ya digər hərəkətlərin köməyi ilə göstərilən nişan dilində onların dekodlaşdırmasının əqli funksiyaları.

**b16708 Dilin qavraması, digər dəqiqləşdirilmiş**

**b16709 Dilin qavraması, dəqiqləşdirilməmiş**

**b1671 Dil vasitəsilə ifadə**

Danışıq, yazı, siqnal və digər dildə məna daşıyan xəbərlərin ötürülməsi üçün lazım olan spesifik əqli funksiyalar.

**b16710 Danışıq dili vasitəsilə ifadə etmə**

Şifahi dil vasitəsilə məna daşıyan xəbərlərin ötürülməsi üçün lazım olan əqli funksiyalar.

**b16711 Yazı dili vasitəsilə ifadə etmə**

Yazı vasitəsilə məna daşıyan xəbərlərin ötürülməsi üçün lazım olan əqli funksiyalar.

**b16712 Nişan dili vasitəsilə ifadə etmə**

Əl və ya digər hərəkətlərin köməyi ilə nişan dili vasitəsilə məna daşıyan xəbərlərin ötürülməsi üçün lazım olan əqli funksuyalar.

**b16718 Dil vasitəsilə ifadə etmə, digər dəqiqləşdirilmiş**

**b16719 Dil vasitəsilə ifadə etmə, dəqiqləşdirilməmiş**

**b1672 Dilin integrativ funksiyaları**

Danışıq, yazı va ya digər dildə xəbərlərin tərtib olunmasında qrammatik struktur və mənanı bir cərgəyə düzən, semantik və simvolik məna verən əqli funksiyalar.

**b1678 Dilin əqli funksuyaları, digər dəqiqləşdirilmiş**

**b1679 Dilin əqli funksuyaları, dəqiqləşdirilməmiş**

## b172 Hesablama funksiyaları

Riyazi simvol və proseslər ilə təyin etmə, approksimasiya və manipulyasiya spesifik əqli funksiyalar.

*Daxil edilib: toplama, çıxma və digər sadə riyazi hesablamalar funksiyaları; mürəkkəb riyazi əməllərin funksiyaları.*

*Çıxarılıb: diqqət funksiyaları (b140); yaddaş funksiyaları (b144); təfəkkür funksiyaları (b160); yüksək səviyyəli idrak funksiyaları (b164); nitqin əqli funksiyaları (b167).*

**b1720 Sadə hesablama**

Toplama, çıxma, vurma və bölmə kimi hesablama əqli funksiyaları.

**b1721 Mürəkkəb hesablamalar**

Hesab əmsalları ilə şifahi problemlərin köçürülməsi, riyazi formulalar və hesab əmsalları və ədədlərlə olan digər mürəkkəb manipulyasiyaların əqli funksiyaları.

**b1728 Hesablama funksiyaları, dəqiqləşdirilmiş**

**b1729 Hesablama funksiyaları, dəqiqləşdirilməmiş**

**b176 Ardıcıl gələn mürəkkəb əmsalların əqli funksiyaları**

Mürəkkəb, müəyyən məqsədə yönəldilmiş ardıcıl və uzlaşdırılmış spesifik əqli funksiyalar.

*Daxil edilib: alqoritm, ideomotorika, odevaniya, okulomotorika və nitq apraksiyasının formalaşmasındakı kimi pozulmalar.*

*Çıxarılıb: psixomotor funksiyalar (b147); qüksək səviyyəli idrak funksiyaları (b164); fəsil 7. Sinir-əzələ, skelet və hərəki funksiyalar.*

**b180 Özünü hiss etmə və vaxtın hiss edilməsi funksiyaları**

Özünün, öz bədəninin, öz real əhatəsi və vaxtında vəziyyətinın eyniləşdirməsinə aid spesifik əqli funksiyalar.

*Daxil edilib: özünü hiss etmə, bədənin surəti, vaxtın hiss olunması.*

**b1800 Özünü hiss etmə**

Özünün və öz real əhatəsindəki vəziyyətinın eyniləşdirməsinin spesifik əqli funksiyaları.

*Daxil edilib: depersonalizasiya və derealizasiya kimi pozulmalar.*

**b1801 Bədənin surəti**

Bədənin surətinin təsəvvürünə və dərk edilməsinə aid olan spesifik əqli funksiyalar.

*Daxil edilib: fantom sonluq və artıq köklük və ya arıqlıq hissi kimi pozulmalar.*

**b1802 Vaxtın hiss olunması**

Vaxtın davamlılıq və gedişinin subyektiv hiss olunması spesifik əqli funksiyaları.

*Daxil edilib: heç vaxt rast gəlinməmiş və ya daha rast gəlinmiş hislərin pozulmaları.*

**b1808 Özünü hiss etmə və vaxtın hiss edilməsi funksiyaları, digər dəqiqləşdirilmiş**

**b1809 Özünü hiss etmə və vaxtın hiss edilməsi funksiyaları, dəqiqləşdirilməmiş**

**b198 Əqli funksiyalar, digər dəqiqləşdirilmiş**

**b199 Əqli funksiyalar, dəqiqləşdirilməmiş**

## BÖLMƏ 2. HİSSİYAT FUNKSİYALARI VƏ AĞRI

Bu fəsildə hissiyat orqanların funksiyaları sadalanıb: görmə, eşitmə, dadbilmə və s., həmçinin ağrının hiss edilməsi.

### GÖRMƏ VƏ ONUNLA BAĞLI FUNKSİYALAR (b210-b229)

**b210 Görmə funksiyaları**

İşığın hiss olunmasına, həmçinin vizual stimulların forması, ölçüsü, konturu və rənginə aid sensor funksiyalar.

*Daxil edilib: görmə itiliyi funksiyaları; görmə sahəsi funksiyaları; görmə xüsusiyyətləri; işıq və rəngin, uzaq və yaxım görmə itiliyinin hiss olunması funksiyaları, monokulyar və binokulyar görmə; panoram görmə; yaxındangörmə, uzaqdangörmə, astiqmatizm, gemianopiya, daltonizm,*

*tunnel görmə, mərkəzi və periferik skotoma, diplopiya, gecə korluğu və işığa öyrəşmənin pozulması.*

*Çıxarılıb: qavrama funksiyaları (b156)*

**b2100 Görmə itiliyi funksiyaları**

İstər uzaqda, istərsə də yaxında, nəinki binokulyar, hətta monokulyar görmənin forma və konturlarının hiss olunması görmə funksiyaları.

**b21000 Binokulyar uzaq görmə itiliyi**

İki gözün istifadə edilməsində gözdən uzaqlaşdırılmış obyektlərin ölçü, forması və konturlarının hiss olunmasının görmə funksiyaları.

**b21001 Monokulyar uzaq görmə itiliyi**

Ayrıca sol və ya sağ gözünün istifadəsində gözdən uzaqlaşdırılmış obyektlərin ölçü, forması və konturlarının hiss olunmasının görmə funksiyaları.

**b21002 Yaxında binokulyar görmənin itiliyi**

Ayrıca sol və ya sağ gözünün istifadəsində gözdən uzaqlaşdırılmış obyektlərin ölçü, forması və konturlarının hiss olunmasının görmə funksiyaları.

**b21003 Yaxında monokulyar görmənin itiliyi**

Ayrıca sol və ya sağ gözünün istifadəsində gözdən uzaqlaşdırılmış obyektlərin ölçü, forması və konturlarının hiss olunmasının görmə funksiyaları.

**b21008 Görmə itiliyi funksiyaları, digər dəqiqləşdirilmiş**

**b21009 Görmə itiliyi funksiyaları, dəqiqləşdirilməmiş**

**b2101 Görmə sahəsi funksiyaları**

Baxışın fiksasiyasında görünən sahənin ölçüsünə aid görmə funksiyaları.

*Daxil edilib: skotoma, tunel görmə, anopsiya kimi pozulmalar.*

**b2102 Görmə xüsusiyyətləri**

İşıq hissiyatı, rəng görmə, kontrastlıq və təsvirin bütövlükdə xüsusiyyətindən ibarət görmə funksiyaları.

**b21020 İşığın hiss edilməsi**

Minimal işıqlıq (işıq minimumu) və işıqlığın intensivliyinin minimal fərqinin (işıq ayrılması) hiss olunmasının görmə funksiyaları.

*Daxil edilib: qaranlığa adaptasiya funksiyaları, gecə korluğu (işığa zəif hissiyat) və işıqdan qorxma (işığa yüksək hissiyatlıq) kimi pozulmalar.*

**b21021 Rəngin hiss olunması**

Rənglərin seçilməsi və tutuşdurulması görmə funksiyaları.

**b21022 Kontrast hissiyat**

Rənglərin seçilməsi və tutuşdurulması görmə funksiyaları.

**b21023 Görmə təsvirinin xüsusiyyətləri**

Təsvirin xüsusiyyətini təyin edən görmə funksiyaları.

*Daxil edilib: rəng çalarların qavrama funksiyaları, təsvirin xüsusiyyətərinin pozulması (yellətmə və ya torla çəkilmə), təhrif edilmə və göz qarşısında ulduz və ya milçəklərin əmələ gəlməsi.*

**b21028 Görmə xüsusiyyəti, digər dəqiqləşdirilmiş**

**b21029 Görmə xüsusiyyəti, dəqiqləşdirilməmiş**

**b2108 Görmə funksiyaları, digər dəqiqləşdirilmiş**

**b2109 Görmə funksiyaları, dəqiqləşdirilməmiş**

## b215 Gözə bitişik olan strukturların funksiyaları

Görmə funksiyasının həyata keçməsinə səbəb olan gözün strukturlarının və gözün ətrafındakı funksiyalar.

*Daxil edilib: gözün, göz qapağının daxili əzələlərinin, gözün xarici əzələlərinin funksiyaları, gözün sərbəst və reflektor hərəkətləri və fiksasiya, göz yaşı vəziləri, akkomodasiya, papillyar refleks daxil olmaqla; nistaqm, kseroftalmiya və ptoz kimi pozulmalar.*

*Çıxarılıb: görmə funksiyaları (b210); BÖLMƏ 7. Sinir-əzələ, skelet və hərəkət funksiyaları*

**b2150 Gözün daxili əzələlərinin funksiyaları**

Göz bəbəyi və göz büllurunun forması və ölçüsünə uyğunlaşdırılan qüzehi qişanın əzələləri kimi daxili gözün əzələlərinin funksiyaları.

*Daxil edilib: akkomodasiya funksiyaları, göz bəbəyi refleksi*

**b2151 Göz qapağının funksiyaları**

Qoruyucu refleks kimi göz qapağının funksiyaları.

**b2152 Gözün xarici əzələlərinin funksiyaları**

Müxtəlif istiqamətlərə baxmaq, görmə sahəsindəki hərəkət edən obyekti izləmək, hərəkət edən məqsədi tutmaq, sərt hərəkətləri və gözün fiksasiyası etmək üçün istifadə olunan əzələ funksiyaları.

*Daxil edilib: nistaqm, gözün uzlaşdırılmış hərəkətləri*

**b2153 Göz yaşı vəzilərin funksiyaları**

Göz yaşı vəziləri və kanallarının funksiyaları.

**b2158 Gözə bitişən strukturların funksiyaları, digər dəqiqləşdirilmiş**

**b2159 Gözə bitişən strukturları funksiyaları, dəqiqləşdirilməmiş**

## b220 Göz və ona bitişik olan strukturlar ilə bağlı olan hisslər

Yorğunluq, quruluq, göz sayrışması və onunla bağlı hisslər.

*Daxil edilib: gözarxası təzyiq, gözdə yad cismin olması, göz gərginliyi, gözdə yanma hissi; gözün qıcıqlandırılması*

*Çıxarılıb: ağrı hissi (b280)*

## b229 Görmə və onunla bağlı funksiyalar, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş

# EŞİTMƏ VƏ VESTİBULYAR FUNKSİYALAR (b230-b249)

## b230 Eşitmə funksiyaları

Səsin, onun yerinin, mənbəyinin, ucalığının və səsin xüsusiyyətinin hiss olunmasina aid olan sensor funksiyalar.

*Daxil edilib: səsin qavraması va tanınması, səs mənbəyinin lokalizasiyası və onun yerləşdiyi yerinin tərəfləri, nitqin tanınması funksiyaları; karlıq, eşitmənin kəskinləşməsi, eşitmənin itməsi kimi pozulmalar.*

*Çıxarılıb: qavrama funksiyaları (b156) və nitqin əqli funksiyaları (b167).*

**b2300 Səsin qavraması**

Səsin hiss olunmasının sensor funksiyaları.

**b2301 Səslərin tanınması**

Səsin tutmasına aid, fonun ayrılması və binaural sintez, bölünməsi və uyğunlaşdırma daxil olmaqla, sensor funksiyalar.

**b2302 Səs mənbəyinin lokalizasiyası**

Səs mənbəyinin lokalizasiyasının təyin edilməsinə aid sensor funksiyalar.

**b2303 Səsin lateralizasiyası**

Soldan sağa səs mənbəyinin tərəflərinin təyin edilməsinə aid sensor funksiyalar.

**b2304 Nitqin tanınması**

Danışıq dili və onun digər dillər ilə fərqləndirilməsinin təyin edilməsinə aid sensor funksiyalar.

**b2308 Eşitmə funksiyaları, digər dəqiqləşdirilmiş**

**b2309 Eşitmə funksiyaları, dəqiqləşdirilməmiş**

## b235 Vestibulyar funksiyalar

Vəziyyət (mövqe), tarazlıq və hərəkətə aid daxili qulağın sensor funksiyaları.

*Daxil edilib: bədənin vəziyyətinin funksiyaları və onun vəziyyətinin hiss olunması; bədənin tarazlığı funksiyası, həmçinin hərəkət zamanı*

*Çıxarılıb: Eşitmə və vestibulyar funksiya ilə bağlı hisslər (b240)*

**b2350 Məkan vəziyyətin vestibulyar funksiyaları**

Bədənin vəziyyətinin hissiyatına aid daxili qulağın sensor funksiyaları.

**b2351 Tarazlığın vestibulyar funksiyaları**

Bədənin tarazlığının saxlanılmasına aid daxili qulağın sensor funksiyaları.

**b2352 Hərəkət vestibulyar funksiyaları**

İstiqamət və sürət daxil olmaqla, bəd hərəkətlərinə aid daxili qulağın sensor funksiyaları.

**b2358 Vestibulyar funksiyalar, digər dəqiqləşdirilmiş**

**b2359 Vestibulyar funksiyalar, digər dəqiqləşdirilməmiş**

## b240 Eşitmə və vestibulyar funksiya ilə bağlı hisslər

Başgicəllənmə, yıxılma və qulaqda səs hissi.

*Daxil edilib: qulaqda səs, qulaqda qıcıqlandırma, qulaqda təzyiq hissləri; başgicəllənmə ilə bağlı ürək bulanması.*

*Çıxarılıb: vestibulyar funksiyalar (b235); ağrı hissi (b280).*

**b2400 Qulaqda səs və ya səs-küy**

Qulaqda zəiftezlikli səs-küy, vıyıltı və ya səs hissi

**b2401 Başgicəllənmə**

Başda və ya əhatədə olan əşyaların fırlanma hissi, hərlənmə, yellənmə və ya yıxılma hissi

**b2402 Yıxılma hissi**

Dayağın itirmə və yıxılma hissi

**b2403 Başgicəllənmə ilə bağlı ürək bullanma**

Başgicəllənmə səbəbindən qusmağın gəlməsi hissi

**b2404 Qulaqda qıcıqlandırma**

Qaşınma hissi və ya qulaqa digər oxşar hiss

**b2405 Qulaqda təzyiq**

Qulaqda təzyiqin hiss olunması

**b2408 Eşitmə və vestibulyar funksiyalar ilə bağlı hisslər, digər dəqiqləşdirilmiş**

**b2409 Eşitmə və vestibulyar funksiyalar ilə bağlı hisslər, dəqiqləşdirilməmiş**

Əl biləklərinin obyektlərlə koordinasiyalı hərəkətlərinin yerinə yetirilməsi, obyektləri biləklərin, barmaqların və əlin baş barmağının köməyi ilə tutmaq, manipulyasiya etmək və buraxmaq qabiliyyəti, məsələn, masanın üzərindən qəpiyin göütrülməsi, telefon nömrəsinin yığılması və ya qələmin düyməsinin basılması.

*Daxil edilib: götürmə, tutma, manipulyasiya və buraxma*

*Çıxarılıb: obyektlərin qaldırılması və daşınması (d430)*

**d4400 Götürmə**

Kiçik ölçülü obyektin bilək və ya barmaqlarla qaldırılması və ya götürülməsi, məsələn, masanın üzərindən karandaşın götürülməsi.

**d4401 Tutma**

Hər hansı əşyanı tutub-saxlamaq üçün bir və ya hər iki biləkdən istifadə, məsələn, alətin və ya qapı dəstəyinin tutulması.

**d4402 Manipulyasiya**

Hər hansı əşya ilə zəruri əməliyyatların aparılması üçün bilək və ya barmaqlardan istifadə olunması, məsələn, qəpiklə və ya kiçik ölçülü digər obyektlərlə davranış.

**d4403 Buraxma**

Hər hansı əşyanın yerə düşməsi və ya vəziyyətini dəyişməsi üçün bilək və barmaqlardan istifadə etməklə buraxılması, məsələn, paltarın soyunulması.

**d4408 Biləklərin dəqiq hərəkətlərindən istifadə, digər dəqiqləşdirilmiş**

**d4409 Biləklərin dəqiq hərəkətlərindən istifadə, dəqiqləşdirilməmiş**

## d445 Biləkdən və əldən istifadə

Bilək və əllərdən istifadə etməklə obyektlərin daşınması və ya manipulyasiyası zamanı koordinasiyalı hərəkətlərinin yerinə yetirilməsi, məsələn, qapı dəstəyinin fırladılması, əşyaların atılıb-tutulması.

*Daxil edilib: obyektlərin özünə doğru çəkilməsi və itələnməsi; əllərin irəliyə uzadılması; buləklərin və ya əllərin fırladılması və ya bükülməsi; tullama; tutma*

*Çıxarılıb: biləyin dəqiq hərəkətlərindən istifadə (d440)*

**d4450 Özünə doğru çəkmə**

Obyekti özünə doğru çəkmək, yaxud bir yerdən başqa yerə keçirmək üçün barmaqlardan, biləklərdən və qollardan istifadə, məsələn, qapının bağlanması.

**d4451 İtələmə**

Obyekti özündən uzaqlaşdırmaq, yaxud bir yerdən başqa yerə keçirmək üçün barmaqlardan, biləklərdən və qollardan istifadə, məsələn, heyvanların özündən uzaqlaşdırılması.

**d4452 Dartma**

Hər hansı əşyaya toxunmaq və ya tutmaq üçün biləklərdən və qollardan istifadə, məsələn, masanın və ya partanın üzərindən kitaba doğru əl uzatma.

**d4453 Biləklərlə və ya əllərlə fırlatma və ya əymə**

Obyekti fırlatmaq, çevirmək və ya əymək üçün barmaqlardan, biləklərdən və əllərdən istifadə (alətlərdən və ya qab-qacaqdan istifadə zamanı tələb olunan qaydada).

**d4454 Tullama**

Hər hansı əşyanı götürərək onu müəyyən qüvvə ilə atmaq üçün barmaqlardan, biləklərdən və əllərdən istifadə, məsələn, topu tullama.

**d4455 Tutma**

Hərəkət edən obyekti dayandırmaq və saxlamaq məqsədi ilə tutmaq üçün barmaqlardan, biləklərdən və əllərdən istifadə, məsələn, topu tutma. .

**d4458 Biləkdən və əldən istifadə, digər dəqiqləşdirilmiş**

**d4409 Biləkdən və əldən istifadə, dəqiqləşdirilməmiş**

## d449 Obyektlərin daşinması, yerdəyişməsi və manipulyasiyası, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş

## YERİŞ VƏ HƏRƏKƏT (d450-d469)

## d450 Yeriş

Səth üzərində piyada, addımbaaddım, ayağın birinin daim səthə toxunması ilə müşaiyət olunan hərəkət, məsələn, gəzinti, yaxud irəliyə / arxaya / yana yeriş.

*Daxil edilib: Qısa və ya uzun məsafələrə yeriş; müxtəlif səthlər üzərində yeriş; maneələr ətrafında yeriş.*

*Çıxarılıb: bədənin yerdəyişməsi (d420), yerişdən fərqli hərəkətlərlə yerdəyişmə (d455)*

**d4500 Qısa məsafələrə yeriş**

Bir kilometrdən az məsafələrə, məsələn, otaqda, dəhlizdə, bina daxilində və ya binadan kənarda qısa məsafələrdə yeriş.

**d4501 Uzun məsafələrə yeriş**

Bir kilometrdən artıq məsafələrə, məsələn, kəndin və ya şəhərin bir hissəsinə, kəndlər arasında və ya açıq ərazilərdə yeriş.

**d4502 Müxtəlif səthlər üzərində yeriş**

Maili, nahamar və ya mütəhərrik səthlər, məsələn, ot, çınqıl, buz və ya qar üzərində, yaxud da gəmi göyərtəsində, qatarda və ya digər nəqliyyatda yeriş.

**d4503 Maneələr ətrafında yeriş**

Mütəhərrik və hərəkətsiz obyektlərin ətrafında, yaxud insanlar, heyvanlar və nəqliyyat vasitələri arasında, məsələn, bazarda və ya mağazada, küçə hərəkəti şəraitində və ya insanların toplaşdığı digər yerlərdə yeriş.

**d4508 Yeriş, digər dəqiqləşdirilmiş**

**d4509 Yeriş, dəqiqləşdirilməmiş**

## d455 Yerişdən fərqli hərəkətlərlə yerdəyişmə

Bir yerdən digərinə yerişdən fərqli hərəkətlərlə yerdəyişmə, məsələn, qayalara dırmaşma, küçə boyunca qaçış, yerində atılıb-düşmə, qaçıb getmə və ya maneələr ətrafında qaçış.

*Daxil edilib: Sürünmə, madeələrin dəf olunması, sürətli və ləng qaçış, tullanış, üzmə.*

*Çıxarılıb: Bədən vəziyyətinin dəyişilməsi (d410); yeriş (d450)*

**d4550 Sürünmə**

Biləklərdən, qollardan və istifadə etməklə üfüqi vəziyyətdə bir yerdən digərinə keçid.

**d4551 Maneələrin dəf olunması**

Pillələr, qayalar, asma nərdivanlar, səddlər və ya digər obyektlər və ya səthlər üzərində, yuxarıya və ya aşağıya doğru hərəkət.

**d4552 Qaçış**

Hər iki ayağın səthə toxunmamasının mümkün olduğu halda sürətli addımlarla hərəkət.

**d4553 Tullanış**

Ayaqları kəskin şəkildə bükūb-açaraq bədənin yerdən cəld qoparılması ilə hərəkət, məsələn, bir ayaq üstündə atılıb-düşmə, sıçrayış, suya tullanma və baş vurma.

**d4558 Yerişdən fərqli hərəkətlərlə yerdəyişmə, digər dəqiqləşdirilmiş**

**d4559 Yerişdən fərqli hərəkətlərlə yerdəyişmə, dəqiqləşdirilməmiş**

## d460 Müxtəlif yerlərdə hərəkət

Müxtəlif yerlərdə və situasiyalarda yeriş və yerdəyişmə, məsələn, mənzildə otaqdan otağa, bina daxilində, yaxud şəhər küçəsi boyunca yeriş.

*Daxil edilib: Öz mənzilinin və digərbinaların ərazisində hərəkət etmə, sürünmə və ya maneələrin dəf edilməsi; öz evindən və digər binalardan kənarda yeriş və hərəkət.*

**d4600 Mənzil ərazisində hərəkət**

Evin içində və öz evinin ətrafında, otağın daxilində, otaqdan otağa və öz mənzilinin ətrafında yeriş və hərəkət.

*Daxil edilib: mərtəbədən mərtəbəyə, eyvana, daxili həyətdə, giriş yolunda və ya bağçada hərəkət.*

**d4601 Digər binaların ərazisində hərəkət**

Öz mənzilinə aidiyyəti olmayan binaların ərazisində yeriş və hərəkət, özgə mənzilinin, digər şəxsi və ictimai binaların, icma binaralının və onlara bitişik ərazilərin ətrafında hərəkət.

*Daxil edilib: binaların bütün hissələrində və onlara bitişik ərazilərdə, mərtəbələrdə, eləcə də şəxsi və ictimai binaların daxilində, xaricində və ətrafında hərəkət.*

**d4602 Öz evindən və digər binalardan kənarda hərəkət**

Şəxsi və ictimai nəqliyyatdan istifadə etmədən evin və digər binaların xaricində, bilavasitə onların yaxınlığında və ya məsafədə hərəkət, məsələn, şəhərdə və ya kənddə qısa və uzun məsafələrə hərəkət.

*Daxil edilib: Nəqliyyatdan istifadə etmədən şəhər ətrafındakı, şəhərdəki, kənddəki küçələrdə; yaşayış məntəqələri arasında və daha uzun məsafələrdə yeriş və hərəkət.*

**d4608 Müxtəlif yerlərdə hərəkət, digər dəqiqləşdirilmiş**

**d4609 Müxtəlif yerlərdə hərəkət, dəqiqləşdirilməmiş**

## d465 Texniki vasitələrdən istifadə etməklə hərəkət

Hərəkəti asanlaşdırmaq və ya xüsusi üsulla hərəkət etmək üçün nəzərdə tutulmuş xüsusi vasitələrdən istifadə etməklə bir yerdən digərinə, istənilən səth üzərində və istənilən yerdə hərəkət, məsələn, konkilərlə, xizəklərlə, akvalanqla hərəkət, eləcə də əlil arabasında və ya süni ayaqlarla hərəkət.

*Çıxarılıb: bədənin yerdəyişməsi (d420), yeriş (d450); yerişdən fərqli hərəkətlərlə yerdəyişmə (d455); sərnişin nəqliyyatından istifadə (d470); nəqliyyatın idarə olunması (d475).*

**d469 Yeriş, hərəkət və onlara aid olan fəallıq, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş**

## NƏQLİYYATDAN İSTİFADƏ ETMƏKLƏ HƏRƏKƏT (d470-d489)

### d470 Nəqliyyat vasitəsindən istifadə

Avtomobildə, pikapda, marşrut taksisində, rikşada, heyvan qoşqulu nəqliyyat növlərində, şəxsi və ya ictimai taksidə, avtobusda, qatarda, tramvayda, metroda, su nəqliyyatında və ya təyyarədə, sərnişin qismində hərəkət etmək üçün nəqliyyatdan istifadə.

*Daxil edilib: Hərəkətverici qüvvəsi insan olan nəqliyyatdan, mühərrikli şəxsi nəqliyyatdan və ictimai nəqliyyatdan istifadə.*

*Çıxarılıb: texniki vasitələrdən istifadə etməklə hərəkət (d465); nəqliyyatdan istifadə (d475).*

**d4700 Hərəkətverici qüvvəsi insan olan nəqliyyatdan istifadə**

Bir və ya bir neçə nəfər tərəfindən hərəkətə gətirilən mühərriksiz nəqliyyatda, məsələn, rikşada və ya qayıqda sərnişin qismində hərəkət.

**d4701 Mühərrikli şəxsi nəqliyyatdan istifadə**

Mühərrikli şəxsi yerüstü, dəniz və ya hava nəqliyyatdında, məsələn, taksidə, şəxsi təyyarədə və ya gəmidə sərnişin qismində hərəkət.

**d4702 Mühərrikli ictimai nəqliyyatdan istifadə**

Mühərrikli ictiami yerüstü, dəniz və ya hava nəqliyyatdında, məsələn, avtobusda, qatarda, metroda və ya təyyarədə sərnişin qismində hərəkət.

**d4708 Nəqliyyat vasitəsindən istifadə, digər dəqiqləşdirilmiş istifadə qaydaları**

**d4709 Nəqliyyat vasitəsindən istifadə, dəqiqləşdirilməmiş istifadə qaydaları**

### d475 Nəqliyyatın idarə olunması

Lazımi istiqamətdə hərəkət etmək məqsədi ilə istənilən növ mexaniki və heyvan qoşqulu nəqliyyatın, məsələn, avtomobilin, velosipedin və ya qayığın, yaxud da heyvan qoşqusunun idarə olunması.

*Daxil edilib: Hərəkətverici qüvvəsi insan olan nəqliyyatın, mühərrikli nəqliyyatın və heyvan qoşqusunun idarə olunması.*

*Çıxarılıb: texniki vasitələrdən istifadə etməklə hərəkət (d465); sərnişin nəqliyyatından istifadə (d470).*

**d4750 Hərəkətverici qüvvəsi insan olan nəqliyyatın idarə olunması**

Hərəkətverici qüvvəsi insan olan nəqliyyatın, məsələn, iki- və üçtəkərli velosipedin idarə olunması.

**d4751 Mühərrikli nəqliyyatın idarə olunması**

Mühərrikli nəqliyyatın, məsələn, avtomobilin, motosiklin, motorlu qayığın və ya təyyarənin idarə olunması.

**d4752 Heyvan qoşqusunun idarə olunması.**

Heyvan qoşulmuş nəqliyyatın, məsələn, arabanın və ya ekipajın idarə olunması.

**d4758 Nəqliyyatın idarə olunması, digər dəqiqləşdirilmiş idarəetmə qaydaları.**

**d4759 Nəqliyyatın idarə olunması, dəqiqləşdirilməmiş idarəetmə qaydaları.**

### d480 Minik heyvanını sürmə

Minik heyvanına (məsələn, ata, kələ, dəvəyə və ya filə) minərək sürmə.

*Çıxarılıb: nəqliyyatın idarə olunması (d475); istirahət və asudə vaxt (d920)*

**d489 Nəqliyyatdan istifadə etməklə hərəkət, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş**

**d498 Hərəkət, digər dəqiqləşdirilmiş**

**d499 Hərəkət, dəqiqləşdirilməmiş**

# BÖLMƏ 5. ÖZÜNƏXİDMƏT

Bu bölmə özünə qayğı göstərilməsi, öz bədəninin və bədən hissələrinin yuyulması və silinməsi, geyinmə, qida və içki qəbulu, öz səhhətinin qayğısına qalma kimi məsələlərə həsr olunmuşdur.

## d510 Yuyunma

Sudan, eləcə də müvafiq təmizləmə, silinmə və qurulanma materiallarından və ya üsullarından istifadə etməklə bədənin və bədən hissələrinin yuyulması və qurulanması, məsələn, vannada çimmə, duş qəbul edilməsi, əllərin, ayaqların, üzün və saçların yuyulması, məhrəba ilə silinmə.

*Daxil edilib: Bədənin və bədən hissələrinin yuyulması və qurulanması.*

*Çıxarılıb: Bədən hissələrinə qulluq (d520); fizioloji fəaliyyət (d530).*

**d5100 Bədən hissələrinin yuyulması**

Bədən hissələrinin təmizlənməsi, məsələn, əllərin, ayaqların, üzün və saçların yuyulması, dişlərin və dırnaqların təmizlənməsi üçün sudan, sabundan və digər maddələrdən istifadə.

**d5101 Bədənin tam yuyulması**

Bədənin tam yuyulması üçün sudan, sabundan və digər maddələrdən istifadə, məsələn, vanna və ya duş qəbulu.

**d5102 Silinmə və qurulanma**

Bədən hissələrinin və ya bütünlüklə bədənin silinməsi və qurulanması üçün məhrəbadan və ya digər vasitələrdən istifadə, məsələn, yuyunmadan sonra silinmə.

**d5108 Yuyunma, digər dəqiqləşdirilmiş**

**d5109 Yuyunma, dəqiqləşdirilməmiş**

## d520 Bədən hissələrinə qulluq

Bədən hissələrinə, xüsusilə dəriyə, üzə, dişlərə, saçlara, dırnaqlara və cinsiyyət üzvlərinə, yuyunub-qurulanmadan daha artıq qulluq tələb edən qayğı göstərilməsi.

*Daxil edilib: Dəriyə, ağız boşluğuna, saçlara, əl və ayaq dırnaqlarına qulluq.*

*Çıxarılıb: Bədən hissələrinə qulluq (d520); fizioloji fəaliyyət (d530).*

**d5200 Dəriyə qulluq**

Dəri səthinə və dərinin nəmliyinə qayğı, məsələn, döyənəklərin və buynuzlaşmanın aradan qaldırılması, nəmləndirici losyonlardan və ya kosmetik vasitələrdən istifadə.

**d5201 Ağız boşluğuna qulluq**

Ağız boşluğunun gigiyenasına qayğı, məsələn, dişlərin və diş aralıqlarının təmizlənməsi, diş protezlərinə və ya ortezlərinə qulluq.

**d5202 Saçlara qulluq**

Saçlara və üzdəki tüklərə qulluq, məsələn, darama, təmizləmə, səliqəyə salma,, burma, təraş və qırxma.

**d5203 Əl barmaqlarına qulluq**

Əl barmaqlarının təmizlənməsi, tutulması və cilalanması.

**d5204 Ayaq barmaqlarına qulluq**

Ayaq barmaqlarının təmizlənməsi, tutulması və cilalanması.

**d5208 Bədən hissələrinə qulluq, digər dəqiqləşdirilmiş**

**d5209 Bədən hissələrinə qulluq, dəqiqləşdirilməmiş**

## d530 Fizioloji fəaliyyət

Menstruasiya, sidik və nəcis ifrazı zamanı fizioloji fəaliyyətə hazırlıq və onun həyata keçirilməsi və sonrakı gigiyenik tədbirlərin icrası.

*Daxil edilib: Sidik və nəcis ifrazının tənzimlənməsi, menstruasiya ilə əlaqədar tədbirlər.*

*Çıxarılıb: Yuyunma (d510); bədən hissələrinə qulluq (d520)*

**d5300 Sidik ifrazının tənzimlənməsi**

Sidik ifrazının koordinasıyası və idarə olunması, məsələn, fəaliyyət ehtiyacı haqqında xəbərdarlıq, müvafiq vəziyyətin alınması, sidik ifrazı üçün lazımi yerin tapılması, sidik ifrazından əvvəl və sonra paltarla davranış, sidik ifrazından sonra gigiyenik tədbirlərin görülməsi.

**d5301 Nəcis ifrazının tənzimlənməsi**

Nəcis ifrazının koordinasıyası və idarə olunması, məsələn, fəaliyyət ehtiyacı haqqında xəbərdarlıq, müvafiq vəziyyətin alınması, nəcis ifrazı üçün lazımi yerin tapılması, nəcis ifrazından əvvəl və sonra paltarla davranış, nəcis ifrazından sonra gigiyenik tədbirlərin görülməsi.

**d5302 Menstruasiya ilə əlaqədar tədbirlər**

Menstruasiya zamanı zəruri tədbirlərin koordinasıyası, hazırlanması və həyata keçirilməsi, məsələn, menstruasiyadan vaxtından qabaq xəbər tutma, gigiyenik dəsmallardan və salfetlərdən istifadə.

**d5308 Fizioloji fəaliyyət, digər dəqiqləşdirilmiş**

**d5309 Fizioloji fəaliyyət, dəqiqləşdirilməmiş**

## d540 Geyinmə

Müəyyən ardıcıllıqla geyinmə və soyunma zamanı, iqlim şəraitinə müvafiq surətdə və sosial tələblərə riayət etməklə bir-biri ilə əlaqəli hərəkətlərin icrası, məsələn, köynəyin, yubkanın, bluzkanın, şalvarın, alt paltarın, sarinin, kimononun, qalstukun, şlyapanın, əlcəklərin, tuflinin, çəkmənin, səndəlin və başmağın geyilməsi, ölçüsünün yoxlanılması və soyunulması.

*Daxil edilib: Aşağı ətraflara geyinmə və soyunma, taxma və ya çıxarma, müvafiq paltarın seçilməsi.*

**d5400 Paltarın geyilməsi**

Paltarın geyilməsi zamanı koordinasiyalı hərəkətlərin icrası, məsələn, başa, bədənin aşağı və yuxarı hissələrinə, qollara və çiyinlərə geyinmə, əlcəklərin və baş geyiminin geyilməsi.

**d5401 Paltarın soyunulması**

Paltarın soyunulması zamanı koordinasiyalı hərəkətlərin icrası, məsələn, başdan, bədənin aşağı və yuxarı hissələrindən, qollardan və çiyinlərdən soyunma, əlcəklərin və baş geyiminin soyunulması.

**d5402 Aşağı ətraflara geyinmə və ya soyunma**

Corabların və ayaqqabıların geyilməsi zamanı koordinasiyalı hərəkətlərin icrası.

**d5403 Aşağı ətraflardan soyunma**

Corabların və ayaqqabıların soyunulması zamanı koordinasiyalı hərəkətlərin icrası.

**d5404 Müvafiq paltarın seçilməsi**

Paltar seçərkən mühitin və mədəni amillərin aşkar və gizli qaydalarına riayət olunması, iqlim şəraitinə müvafiq surətdə geyinmə.

**d5408 Geyinmə, digər dəqiqləşdirilmiş qaydalar**

**d5409 Geyinmə, dəqiqləşdirilməmiş qaydalar**

## d550 Qida qəbulu

Hazırlanmış qidanın qəbulu, ağıza yaxınlaşdırılması, onun mədəni cəhətdən yolverilən qaydada qəbul olunması zamanı koordinasiyalı hərəkətlərin və tələblərin yerinə yetirilməsi, məsələn, qidanın hissələrə bölünməsi və doğranması, butulka və bankaların açılması, süfrə ləvazimatlarından istifadə, ziyafət və ya nahar zamanı qida qəbulu.

*Çıxarılıb: içki (d560)*

## d550 İçki

İçkilərin qəbulu, onların ağıza yaxınlaşdırılması, mədəni cəhətdən yolverilən qaydada qəbul olunması, məsələn, mayenin içmək üçün qarışdırılması və ya süzülməsi, butulka və bankaların açılması, saman çöpü vasitəsi ilə içki, krandan və ya kiçik fəvvarədən axan suyun içilməsi, əmizdirmə.

*Çıxarılıb: qida qəbulu (d550)*

## d570 Səhhətin qayğısına qalınması

Öz fiziki rahatlığının təmin olunması, sağlamlığın, fiziki və əqli rifahın qayğısına qalınması, məsələn, balanslaşdırılmış qida rasionunun, müvafiq fiziki fəallıq səviyyəsinin, isti və ya sərin şəraitin qorunub saxlanması, sağlamlıq üçün zərərli amillərdən qaçma, təhlükəsiz cinsi əlaqə qaydaalrına riayət olunması, o cümlədən, qoruyuculardan istifadə, immunlaşdırma, mütəmadi olaraq tibbi müayinədən keçmə.

*Daxil edilib: fiziki rahatlığın təmin olunması; pəhriz və sağlam həyat tərzinin qorunub saxlanması; sağlamlığın qorunması.*

**d5700 Fiziki rahatlığın təmin olunması**

Müvafiq ehtiyacin duyulmasını və özünün rahat, kifayət qədər işıqlı şəraitinin təmin olunmasını, istidən və soyuqdan qorunmasını nəzərdə tutan özünəqayğı.

**d5701 Pəhriz və sağlam həyat tərzinin qorunub saxlanması**

Zəruri ərzaq məhsullarının seçilməsinə və qəbuluna, eləcə də fiziki formanın qorunub saxlanmasına ehtiyac duyulmasını nəzərdə tutan özünəqayğı.

**d5702 Sağlamlığın qorunub saxlanması**

Risk amilinə təsir göstərməklə və profilaktik tədbirlər həyata keçirməklə öz sağlamlığının qorunması üçün tələb olunan amillərə ehtiyac duyulmasını nəzərdə tutan özünəqayğı, məsələn, peşəkar tibbi yardım üçün müraciət edilməsi, tibbi məsləhət və tövsiyyələrə riayət olunması, zədələrdən, yoluxucu xəstəliklərdən, narkotik maddələrdən və cinsi yolla yoluxdurulan xəstəliklərdən qorunma.

**d598 Səhhətin qayğısına qalınması, digər dəqiqləşdirilmiş**

**d599 Səhhətin qayğısına qalınması, dəqiqləşdirilməmiş**

# BÖLMƏ 6. MƏİŞƏT HƏYATI

Bu bölmə məişət və gündəlik fəaliyyətlə məşğul olunmasına və bunula əlaqədar olan vəzifələrə həsr edilmişdir. Həyatın məişət sahələrinə mənzilin, ərzağın, geyimin və digər tələbatların tapılması və təmin olunması; mənzilin təmizlənməsi və təmiri, şəxsi və digər ev əmlakına qayğı və başqalarına kömək daxildir.

## İLKİN ZƏRURƏT PREDMETLƏRİNİN ƏLDƏ OLUNMASI (d610-d629)

**d610 Mənzilin əldə olunması**

Evin, mənzilin və ya digər yaşayış sahəsinin alınması, icarəsi, mebellə təchiz olunması və abadlaşdırılması.

*Daxil edilib: mənzilin alınması, icarəsi və mebellə təchiz olunması*

*Çıxarılıb: mal və xidmətlərin əldə olunması (d620); şəxsi əmlaka qayğı (d650)*

**d6100 Mənzilin alınması**

Evin, mənzilin və ya digər yaşayış sahəsinin öz mülkiyyətinə alınması.

**d6101 Mənzilin alınması**

Başqa bir şəxsə məxsus olan evin, mənzilin və ya digər yaşayış sahəsinin ödəniş müqabilində öz mülkiyyətinə alınması.

**d6102 Mənzilin abadlaşdırılması**

Mənzilin mebellə, ləvazimatlarla və digər avadanlıqlarla təchiz olunması və abadlaşdırılması, interyerin yaradılması.

**d6108 Mənzilin əldə olunması, digər dəqiqləşdirilmiş**

**d6109 Mənzilin əldə olunması, dəqiqləşdirilməmiş**

**d620 Mal və xidmətlərin əldə olunması**

Gündəlik tələbat mallarının və xidmətlərinin seçilməsi, təmin olunması və nəql edilməsi, məsələn, ərzaq və içki məhsullarının, geyim əşyalarının, təmizləyici vasitələrin, yanacağın, təsərrüfat mallarının, mətbəx avadanlıqlarının, məişət cihazlarının və alətlərinin seçilməsi, təmin olunması, nəql edilməsi və saxlanılması; özünün kommunal və digər məişət xidmətləri ilə təmin olunması.

*Daxil edilib: mağazadan alış-veriş edilməsi və gündəlik tələbat malları ilə təminat.*

*Çıxarılıb: mənzilin əldə olunması (d610)*

**d6200 Alış-veriş etmə**

Ödəniş müqabilində gündəlik tələbat mallarının və xidmətlərinin əldə olunması (o cümlədən, alış-veriş prosesinə nəzarət olunması), məsələn, mağazada və ya bazarda ərzaq və içki məhsullarının, geyim əşyalarının, təmizləyici vasitələrin və ya ev əmlakının alınması, tələb olunan malların keyfiyyətinin və qiymətlərinin müqayisə edilməsi, alınan malların və xidmətlərin haqqının ödənilməsi, malların nəql olunması.

**d6201 Gündəlik tələbat malları ilə təminat**

Ödəniş aparılmadan gündəlik tələbat mallarının və xidmətlərinin təmin olunması (o cümlədən, alış-veriş prosesinə nəzarət olunması), məsələn, meyvə-tərəvəz məhsulunun yığımı, su və yanacaq tədarükü.

**d6208 Mal və xidmətlərin əldə olunması, digər dəqiqləşdirilmiş**

**d6209 Mal və xidmətlərin əldə olunması, dəqiqləşdirilməmiş**

## d629 Ilkin zərurət predmetlərinin əldə olunması, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş

## EV TƏSƏRRÜFATININ APARILMASI (d630-d649)

## d630 Qidanın hazırlanması

Özü və başqaları üçün sadə və mürəkkəb xörəklərin planlaşdırılması, hazırlanmasının təşkili, hazırlanması və süfrəyə düzülməsi, məsələn, menyunun tərtib olunması, qida üçün yararlı ərzaq və içki məhsullarının seçilməsi; yemək hazırlamaq üçün komponentlərin bir-biri ilə əlaqələndirilməsi, soyuq və isti yeməklərin hazırlanması, süfrənin açılması.

*Daxil edilib: sadə və mürəkkəb xörəklərin hazırlanması.*

*Çıxarılıb: qidanın qəbulu (d550); içki (d560); malların və xidmətlərin əldə olunması (d620); ev işlərinin görülməsi (d640); şəxsi əmlaka qayğı (d650); başqalarına qayğı (d660).*

**d6300 Sadə yeməklərin hazırlanması**

Hazırlanmasına və süfrəyə düzülməsinə sadə vərdişlər tələb olunan, azsayli komponentlərə malik yeməklərin planlaşdırılması, hazırlanması və süfrəyə düzülməsi, məsələn, məzələrin, sadə yeməklərin hazırlanması, eləcə də ərzağın emalı zamanı doğrama, qarışdırma, qaynatma və qızdırma üsullarından istifadə olunması, məsələn, düyünün və ya kartofun hazırlanması.

**d6301 Mürəkkəb yeməklərin hazırlanması**

Hazırlanmasına və süfrəyə düzülməsinə mürəkkəb vərdişlər tələb olunan, çoxsayli komponentlərə malik yeməklərin planlaşdırılması, hazırlanması və süfrəyə düzülməsi, məsələn, bir neçə yemək növündən ibarət nahar hazırlanması, eləcə də ərzağın emalı zamanı müxtəlif üsullardan istifadə olunması, məsələn, dərinin çıxarılması, dilimlərlə doğrama, çalma, qarışdırma, yeməyin vəziyyətə və mədəni amillərə müvafiq surətdə süfrəyə gətirilməsi və düzülməsi.

*Çıxarılıb: məişət cihazlarından istifadə (d6403)*

**d6308 Qidanın hazırlanması, digər dəqiqləşdirilmiş qaydalar**

**d6309 Qidanın hazırlanması, dəqiqləşdirilməmiş qaydalar**

## d640 Ev işlərinin görülməsi

Ev təsərrüfatının aparılması, o cümlədən mənzilin təmizlənməsi, camaşırın yulması, məişət ləvazimatlarından istifadə, ərzağın saxlanması və zibilin atılması, məsələn, döşəmənin, divarların və digər səthlərin yuyulub-təmizlənməsi; zibilin toplanması və atılması; otaqların, ayaqyolunun və köməkçi sahələrin təmizlənməsi; camaşırın toplanması, yuyulması, qurudulması və ütülənməsi; ayaqqabının təmizlənməsi; süpürgədən, fırçadan, tozsorandan, paltaryuyan maşından, quruduculardan və ütüdən istifadə.

*Daxil edilib: paltarın və camaşırın yuyulması və qurudulması; mətbəzin təmizlənməsi və qabların yuyulması, evin yaşayış hissəsinin təmizlənməsi, məişət cihazlarından istifadə, gündəlik istifadə olunan əşyaların saxlanması, zibilin yığışdırılması.*

*Çıxarılıb: mənzilin əldə olunması (d610); malların və xidmətlərin əldə olunması (d620); qidanın hazırlanması (d630); şəxsi əmlaka qayğı (d650); başqalarına qayğı (d660).*

**d6400 Paltarın və camaşırın yuyulması və qurudulması**

Paltarın və camaşırın əllə yuyulması və qurumaq üçün açıq havada asılması.

**d6401 Mətbəxin təmizlənməsi və qabların yuyulması**

Yemək hazırlandıqdan sonra təmizlik işləri, məsələn, qabların, qazanların, dibçəklərin, süfrə ləvazimatlarının, mətbəz masasının, eləcə də mətbəxdə və yemək otağında döşəmənin təmizlənməsi.

**d6402 Yaşayış hissəsinin təmizlənməsi**

Evin yaşayış hissəsinin təmizlənməsi, məsələn, səliqə-səhman işləri, tozun silinməsi, döşəmənin, pəncərələrin və divarların silinib-süpürülməsi və yuyulması, hamamın və ayaqyolunun yığışdırılması, mebelin təmizlənməsi.

**d6403 Məişət cihazlarından istifadə**

Bütün növ məişət cihazlarından, məsələn, paltaryuyan maşınlardan, quruduculardan, ütülərdən, tozsoranlardan, qabyuyan maşınlardan istifadə.

**d6404 Gündəlik istifadə olunan əşyaların saxlanılması**

Ərzaq və içki məhsullarının, geyim əşyalarının, eləcə də gündəlik istifadə olunan məişət əşyalarının saxlanması; ərzağın konservləşdirmə, duzaqoyma və ya buzlaşdırma vasitəsi ilə tədarükü, ərzağın təzə halda və heyvanlardan uzaqda saxlanması.

**d6405 Zibilin yığışdırılması**

Məişət zibilinin yığışdırılması, məsələn, evin ətrafından zibilin yığılması, zibil borusundan istifadə; zibilin yandırılması.

**d6408 Ev işlərinin görülməsi, digər dəqiqləşdirilmiş**

**d6409 Ev işlərinin görülməsi, dəqiqləşdirilməmiş**

## d649 Ev işlərinin görülməsi, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş

## EV ƏMLAKINA QAYĞI VƏ BAŞQALARINA KÖMƏK (d650-d669)

## d650 Ev əmlakına qayğı

Ev əmlakının və digər şəxsi əmlakın, o cümlədən evin özünün və evdəki əşyaların, geyim əşyalarının, nəqliyyat vasitələrini və köməkçi qurğuların lazımi vəziyyətdə saxlanması və təmiri, bitkilərə və heyvanlara qayğı, məsələn, otaqlarda divarların rənglənməsi və ya divar kağızlarının yapışdırılması, mebelin quraşdırılması, evdə çilingər işlərinin görülməsi, nəqliyyat vasitələrinin lazımi vəziyyətdə saxlanması, bitkilərin suvarılması, ev heyvanlarının yedizdirilməsi və onlara qayğı göstərilməsi.

*Daxil edilib: geyim əşyalarının tikilməsi və təmiri; mənzilin, şəraitin, məişət cihazlarının qorunub saxlanması; nəqliyyat vasitələrinin işlək vəziyyətdə saxlanması; köməkçi qurğuların işlək vəziyyətdə saxlanması; ev və çöl bitkilərinə, heyvanlara qayğı.*

*Çıxarılıb: mənzilin əldə olunması (d610); malların və xidmətlərin əldə olunması (d620); ev işlərinin görülməsi (d640); başqalarına qayğı (d660); ödənişli iş (d850)*

**d6500 Geyim əşyalarının tikilməsi və təmiri**

Geyim əşyalarının hazırlanması və təmiri, məsələn, geyim əşyalarının tikilməsi, hazırlanması və təmiri; düymələrin və ilgəklərin təkrarən bərkidilməsi; geyim əşyalarının üütlənməsi, ayaqqabının təmizlənməsi və təmiri.

*Çıxarılıb: məişət əşyalarından istifadə (d6403)*

**d6501 Mənzil şəraitinin səliqəli saxlanması**

Mənzilin təmiri və səliqəli saxlanması, onun xarici və daxili görkəminin yaxşılaşdırılması, məsələn, ləvazimatların və mebelin rənglənməsi və təmiri, təmir üçün tələb olunan alətlərdən istifadə.

**d6502 Məişət texnikasının işlək vəziyyətdə saxlanması**

Yemək hazırlanması, camaşıryuma, təmizləmə və təmir işləri üçün nəzərdə tutulmuş məişət texnikasının işlək vəziyyətdə saxlanması, məsələn, ləvazimatların sazlanması və təmiri və paltaryuyan maşına qulluq.

**d6503 Nəqliyyatın işlək vəziyyətdə saxlanması**

Şəxsi mühərrikli və mühərriksiz nəqliyyatın, o cümlədən, velosipedin, arabanın, avtomobilin və qayığın işlək vəziyyətdə saxlanması.

**d6504 Köməkçi qurğuların işlək vəziyyətdə saxlanması**

Köməkçi qurğuların, məsələn, protezlərin, ortezlərin, eləcə də təsərrüfatın aparılması və özünəxidmət üçün nəzərdə tutulmuş xüsusi texnika və ləvazimatların işlək vəziyyətdə saxlanması; şəxsi hərəkət vasitələrinin, məsələn, çəliyin, süni ayaqların, əlil arabalarının işlək vəziyyətdə saxlanması və təmiri; rabitə və istirahət vasitələrinin işlək vəziyyətdə saxlanması.

**d6505 Otaq və çöl bitkilərinə qulluq**

Otaq bitkilərinə və evdən kənarda bitən bitkilərə qulluq, məsələn, bitkilərin əkilməsi, suvarılması və tozlandırılması; bağçılıqla məşğul olma və şəxsi istifadə üçün yem bitkilərinin becərilməsi.

**d6506 Heyvanlara qulluq**

Ev heyvanlarına qulluq, məsələn, onların yedizdirilməsi, yerinin təmizlənməsi, qayğı göstərilməsi və əhliləşdirilməsi; ev heyvanlarının sağlamlığının qorunması.

**d6508 Ev əmlakına qayğı, digər dəqiqləşdirilmiş**

**d6509 Ev əmlakına qayğı, dəqiqləşdirilməmiş**

## d660 Başqalarına kömək göstərilməsi

Ailə üzvlərinə və başqa şəxslərə təhsildə, ünsiyyətdə, özünəxidmətdə, evin daxilində və ya xaricində hərəkət etməkdə kömək göstərilməsi; ailə üzvlərinin və başqa şəxslərin yaxşı əhval-ruhiyyəsinin qayğısına qalma.

*Daxil edilib: digər şəxsərə özünəxidmətdə, hərəkət zamanı, ünsiyyətdə və şəxsiyyətlərarası münasibətlərin qurulmasında, qidalanmada və sağlamlığın qorunmasında kömək göstərilməsi.*

*Çıxarılıb: ödənişli iş (d850)*

**d6600 Başqalarına özünəxidmətdə kömək göstərilməsi**

Özünəxidmətin həyata keçirilməsində ailə üzvlərinə və başqa şəxslərə kömək göstərilməsi, o cümlədən qidalanma, çimmə və geyinmə zamanı kömək; uşaqlara və xəstə ailə üzvlərinə, eləcə də elementar özünəxidmətdə çətinlik çəkən digər şəxslərə kömək göstərilməsi.

**d6601 Başqalarına hərəkət zamanı kömək göstərilməsi**

Ailə üzvlərinə və digər şəxslərə evdən kənarda, şəhərdə və şəhər ətrafında hərəkət etməkdə, məktəbə, işə, digər təyinat yerinə getməsinə və geri qayıtmasına kömək göstərilməsi.

**d6602 Başqalarına ünsiyyətdə kömək göstərilməsi**

Ailə üzvlərinə və digər şəxslərə ünsiyyətdə və şəxsiyyətlərarası münasibətlərdə, məsələn, söhbət, yazı yazma və ya mütaliə zamanı kömək göstərilməsi.

**d6603 Başqalarına şəxsiyyətlərarası münasibətlərin saxlanmasında kömək göstərilməsi**

Ailə üzvlərinə və digər şəxslərə şəxsiyyətlərarası münasibətlərin saxlanmasında, məsələn, münasibətlərin qurulmasında, qorunub saxlanmasında və dayandırılmasında kömək göstərilməsi.

**d6604 Başqalarına qida qəbulunda kömək göstərilməsi**

Ailə üzvlərinə və digər şəxslərə qidalanmada, məsələn, yemək hazırlanmasında və yeyilməsində kömək göstərilməsi.

**d6605 Başqalarına səhhətin qorunmasında kömək göstərilməsi**

Ailə üzvlərinə və digər şəxslərə rəsmi və qeyri-rəsmi tibbi xidmət göstərilməsində kömək edilməsi, məsələn, uşağın mütəmadi tibbi müayinədən keçməsinin və ya yaşlı qohumun tələb olunan tibbi vasitələr qəbul etməsinə kömək göstərilməsi.

**d6608 Başqalarına kömək göstərilməsi, digər dəqiqləşdirilmiş**

**d6609 Başqalarına kömək göstərilməsi, dəqiqləşdirilməmiş**

### d669 Ev əmlakina qayğı və başqalarına kömək, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş

### d698 Məişət həyatı, digər dəqiqləşdirilmiş

### d699 Məişət həyatı, dəqiqləşdirilməmiş

# BÖLMƏ 7. ŞƏXSİYYƏTLƏRARASI QARŞILIQLI ƏLAQƏLƏR VƏ MÜNASİBƏTLƏR

Bu bölmə, vəziyyətə müvafiq olaraq və sosial cəhətdən qəbul olunmuş formada insanlarla (tanış olmayan şəxslərlə, dostlarla, yaxınlarla, ailə üzvləri ilə və sevgililərlə) əsas və kompleks əlaqələrin tələblərinin yerinə yetirilməsinə həsr olunur.

## ŞƏXSİYYƏTLƏRARASI ÜMUMİ QARŞILIQLI ƏLAQƏLƏR (d710-d729)

### d710 Şəxsiyyətlərarası əsas qarşılıqlı əlaqələr

Vəziyyətə müvafiq olaraq və sosial cəhətdən qəbul olunmuş formada insanlarla qarşılıqlı əlaqələrin saxlanması, məsələn, zəruri hallarda diqqət və hörmət göstərilməsi, yaxud digərinin hisslərini cavablandırma.

*Daxil edilib: münasibətlərdə hörmət və səmimiyyət, münasibətlərin müsbət qarşılanması, münasibətlərdə dözümlülük nümayiş etdirilməsi; münasibətlərdə tənqid, münasibətlərdə eyhamlar; münasibətlərdə yol verilən fiziki əlaqə.*

**d7100 Münasibətlərdə hörmət və səmimiyyət**

Vəziyyətə müvafiq olaraq və sosial cəhətdən qəbul olunmuş formada diqqət və hörmət göstərilməsi, başqaları tərəfindən həmin münasibətlərin cavablandırılması.

**d7101 Münasibətlərin müsbət qarşılanması**

Vəziyyətə müvafiq olaraq və sosial cəhətdən qəbul olunmuş formada razılığın və minnətdarlığın ifadə olunması, başqaları tərəfindən həmin ifadənin cavablandırılması.

**d7102 Münasibətlərdə dözümlülük nümayiş etdirilməsi**

Vəziyyətə müvafiq olaraq və sosial cəhətdən qəbul olunmuş formada başqasının davranışının qəbul olunması və başqaları tərəfindən ifadə olunan dözümlülüyün cavablandırılması.

**d7103 Münasibətlərdə tənqid**

Vəziyyətə müvafiq olaraq və sosial cəhətdən qəbul olunmuş formada aşkar və ya gizli zidd fikrin və ya narazılığın irəli sürülməsi və başqaları tərəfindən tənqidin cavablandırılması.

**d7104 Münasibətlərdə eyhamlar**

Eyhamların və işarələrin bildirilməsi, eləcə də başqalarının qarşılıqlı sosial əlaqələr zamanı bildirdiyi eyhamların qəbul olunması.

**d7105 Münasibətlərdə fiziki əlaqə**

Vəziyyətə müvafiq olaraq və sosial cəhətdən qəbul olunmuş formada fiziki təmas və digər şəxslərlə münasibətdə bunun cavablandırılması.

**d7108 Şəxsiyyətlərarası əsas qarşılıqlı əlaqələr, digər dəqiqləşdirilmiş**

**d7109 Şəxsiyyətlərarası əsas qarşılıqlı əlaqələr, dəqiqləşdirilməmiş**

## d720 Şəxsiyyətlərarası mürəkkəb qarşılıqlı münasibətlər

Vəziyyətə müvafiq olaraq və sosial cəhətdən qəbul olunmuş formada insanlarla qarşılıqlı münasibətlərin saxlanması və idarə olunması, məsələn, emosiyalara və impulsiv ehtiraslara, fiziki və söz coşğunluğuna nəzarət; sosial qarşılıqlı münasibətlərdə müstəqillik; sosial norma və qaydalara müvafiq davranış.

*Daxil edilib: münasibətlərin formalaşdırılıması və kəsilməsi; qarşılıqlı münasibətlər zamanı davranışa nəzarət; sosial normalara müvafiq qarşılıqlı münasibətlər; məsafənin saxlanması.*

**d7200 Münasibətlərin formalaşdırılması**

Vəziyyətə müvafiq olaraq və sosial cəhətdən qəbul olunmuş formada qısa və ya uzun zaman müddətində digər insanlarla qarşılıqlı münasibətlərin başlanması və saxlanılması, məsələn, tanışlıq, dostluq və peşəkar münasibətlərin axtarılması və yaradılması, daimi, romantik və ya intim ola biləcək münasibətlərin yaranmasında təşəbbüskarlıq.

**d7201 Münasibətlərin kəsilməsi**

Vəziyyətə müvafiq olaraq və sosial cəhətdən qəbul olunmuş formada qarşılıqlı münasibətlərin kəsilməsi, məsələn, görüşün sonunda qısamüddətli münasibətlərin kəsilməsi, başqa şəhərə köçmə səbəbindən dostlarla uzunmüddətli münasibətlərin kəsilməsi və ya həmkarlarla, xidməti heyətlə münasibətlərin kəsilməsi, romantik və intim münasibətlərin kəsilməsi.

**d7202 Qarşılıqlı münasibətlər zamanı davranışın tənzimlənməsi**

Vəziyyətə müvafiq olaraq və sosial cəhətdən qəbul olunmuş formada başqa şəxslərlə qarşılıqlı münasibətlərdə emosiya və ehtirasların, fiziki və söz coşğunluğunun tənzimlənməsi.

**d7203 Sosial normalara müvafiq qarşılıqlı münasibətlər**

İnsanlarla qarşılıqlı münasibətlərdə sosial normalara cavab verən və özünün roluna, səviyyəsinə və digər sosial statusuna müvafiq olan müstəqil davranış.

**d7204 Məsafələrin saxlanması**

İnsanlarla özünün arasında, vəziyyətin, mühitin və mədəniyyətin yol verdiyi məsafənin dərk olunması və saxlanması.

**d7208 Şəxsiyyətlərarası mürəkkəb qarşılıqlı münasibətlər, digər dəqiqləşdirilmiş**

**d7209 Şəxsiyyətlərarası mürəkkəb qarşılıqlı münasibətlər, dəqiqləşdirilməmiş**

## d729 Şəxsiyyətlərarası ümumi qarşılıqlı münasibətlər, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş

## SƏCİYYƏVİ ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏTLƏR (d730-d779)

### d730 Tanış olmayan insanlarla münasibətlər

Tanış olmayan insanlarla müəyyən məqsəd daşıyan müvəqqəti əlaqə və münasibətlər, məsələn, yolu xəbər alma və ya alış-veriş zamanı sorğu-sual.

### d740 Rəsmi münasibətlər

Rəsmi əsaslarla müəyyən münasibətlərin yaradılması və saxlanması, məsələn, işəgötürənlə, həmkarlarla və ya xidməti personalla münasibətlər.

*Daxil edilib: Hakimiyyətə və yüksək nüfuza malik insanlarla, tabeçilikdə olanlarla, səviyyəcə bərabər olan şəxslərlə münasibətlər.*

**d7400 Hakimiyyətə və yüksək nüfuza malik insanlarla münasibətlər**

Əlində hakimiyyət olan və ya daha yüksək sosial səviyyəyə malik insanlarla, məsələn, işəgötürənlə rəsmi əsasda müəyyən münasibətlərin yaradılması və saxlanması.

**d7401 Tabeçilikdə olan insanlarla münasibətlər**

Daha aşağı sosial səviyyəyə malik insanlarla, məsələn, işə götürülmüş işçi ilə və ya xidməti personalla rəsmi əsasda müəyyən münasibətlərin yaradılması və saxlanması.

**d7402 Səviyyəcə bərabər olan şəxslərlə münasibətlər**

Sosial səviyyəsi bərabər olan insanlarla rəsmi əsasda müəyyən münasibətlərin yaradılması və saxlanması.

**d7408 Rəsmi münasibətlər, digər dəqiqləşdirilmiş**

**d7409 Rəsmi münasibətlər, dəqiqləşdirilməmiş**

### d750 Qeyri-rəsmi sosial münasibətlər

Digər şəxslərlə münasibətlər, məsələn, eyni cəmiyyətdə və ya yaşayış yerində yaşayan insanlarla, əməkdaşlarla, tələbələrlə, dostlarla, eyni sosial səviyyəyə və ya peşəyə malik şəxslərlə təsadüfi münasibətlər.

*Daxil edilib: Dostlarla, həmvətənlərlə, tanışlarla, qonşularla, bərabər səviyyəli şəxslərlə qeyri-rəsmi münasibətlər.*

**d7500 Dostlarla qeyri-rəsmi münasibətlər**

Qarşılıqlı hörmətlə və ümumi maraqlarla xarakterizə olunan dostluq münasibətlərinin yaradılması və saxlanması.

**d7501 Həmvətənlərlə qeyri-rəsmi münasibətlər**

Qonşuluqda və ya eyni ərazidə yaşayan şəxslərlə qeyri-rəsmi münasibətlərin yaradılması və saxlanması.

**d7502 Tanışlarla qeyri-rəsmi münasibətlər**

Dost olmayan tanış şəxslərlə qeyri-rəsmi münasibətlərin yaradılması və saxlanması.

**d7503 Qonşularla qeyri-rəsmi münasibətlər**

Şəxsi və ya ictimai idarə altında olan eyni binada və ya eyni yaşayış yerində yaşayan şəxslərlə müxtəlif səbəblərdən və ya müxtəlif məqsədlərlə qeyri-rəsmi münasibətlərin yaradılması və saxlanması.

**d7504 Müxtəlif şəxslərlə qeyri-rəsmi münasibətlər**

Eyniyaşlı, yaxud eyni maraqlara malik şəxslərlə qeyri-rəsmi münasibətlərin yaradılması və saxlanması.

**d7508 Qeyri-rəsmi sosial münasibətlər, digər dəqiqləşdirilmiş**

**d7509 Qeyri-rəsmi sosial münasibətlər, dəqiqləşdirilməmiş**

## d760 Ailə münasibətləri

Ən yaxın və genişləndirilmiş ailə mühiti ilə, tərbiyəedici və ögey ailə ilə ailə və qohumluq münasibətlərinin yaradılması və saxlanması, eləcə də daha uzaq qohumluq münasibətlərinin, məsələn, əminəvələri, dayınəvələri, xalanəvələri və ya bibinəvələri ilə, qəyyumlarla qohumluq münasibətlərinin saxlanılması.

*Daxil edilib: Valideyn-övlad və övlad-valideyn münasibətləri, ailədəki övladlar arasında münasibətlər, uzaq qohumlarla münasibətlər.*

**d7600 Valideyn-övlad münasibətləri**

Doğma və ögey valideyn qismində övladlarla münasibətlərin yaradılması və saxlanması, məsələn, övlaq olduqda ona valideyn münasibətinin bəslənməsi, övladlığa götürülmüş uşaqla valideyn münasibətlərinin yaradılması və saxlanması, doğma və ya ögey övlada fiziki, əqli və emosional yardımın təmin edilməsi.

**d7601 Övlad-valideyn münasibətləri**

Övladın öz valideynləri ilə münasibətlərinin, məsələn, öz valideynlərinə itaət edən balaca uşağın və ya öz yaşlı valideynlərinə qayğı göstərən böyük övladın münasibətlərinin yaradılması və saxlanması.

**d7602 Ailədəki övladlar arasında münasibətlər**

Anadan olarkən, övladlığa götürülərkən və ya valideynləri nigaha daxil olarkən valideynlərdən birinin və ya hər ikisinin onların hər ikisinin valideyni olduğu övladlar arasında bacı-qardaş münasibətlərinin yaradılması və saxlanması.

**d7603 Uzaq qohumlarla münasibətlər**

Uzaq qohumlarla, məsələn, əmiuşaqları, dayıuşaqları, xalauşaqları və ya bibiuşaqları ilə, eləcə də əmilərlə və dayılarla, xalalarla və bibilərlə, nənələrlə və babalarla münasibətlərin yaradılması və saxlanması.

**d7608 Ailə münasibətləri, digər dəqiqləşdirilmiş**

**d7609 Ailə münasibətləri, dəqiqləşdirilməmiş**

### d770 İntim münasibətlər

Ərlə arvad, iki sevgili və ya seksual tərəfdaşlar arasında yaxın və ya romantik münasibətlərin yaradılması və saxlanması.

*Daxil edilib: romantik, nigah və seksual münasibətlər*

**d7700 Romantik münasibətlər**

Potensial surətdə uzunmüddətli intim münasibətlərə gətirib çıxaran emosional və fiziki ehtiraslara əsaslanan münasibətlərin yaradılması və saxlanması.

**d7701 Nigah münasibətləri**

Digər bir şəxslə qanuni yolla rəsmiləşdirilmiş intim münasibətlərin yaradılması və saxlanması, məsələn, qanuni nigaha daxil olaraq ər-arvad olmaqla, o cümlədən mülki nigah əsasında yaranan münasibətlər.

**d7702 Seksual münasibətlər**

Ərlə (arvadla) və ya digər tərəfdaşla seksual xarakterli münasibətlərin yaradılması və saxlanması.

**d7708 İntim münasibətlər, digər dəqiqləşdirilmiş münasibətlər**

**d7709 İntim münasibətlər, dəqiqləşdirilməmiş münasibətlər**

### d779 Şəxsiyyətlərarasi səciyyəvi münasibətlər, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş

### d798 Şəxsiyyətlərarası qarşılıqlı əlaqələr və münasibətlər, digər dəqiqləşdirilmiş

### d799 Şəxsiyyətlərarası qarşılıqlı əlaqələr və münasibətlər, dəqiqləşdirilməmiş

## BÖLMƏ 8. HƏYATIN ƏSAS SAHƏLƏRİ

Bu bölmə iş, məşğulluq, qarşılıqlı iqtisadi münasibətlər və təhsilalma prosesində tələb olunan vəzifə və əməliyyatların icrasına və həyata keçirilməsinə həsr olunur.

### TƏHSİL (d810-d839)

### d810 Qeyri-rəsmi təhsil

Evdə və ya rəsmi statusu olmayan hər hansı başqa bir yerdə biliklərin əldə olunması, məsələn, valideynlərdən və ya ailə üzvlərindən sənət öyrənilməsi və vərdişlərə yiyələnmə, yaxud evdə biliklərin əldə olunması.

### d815 Məktəbəqədər təhsil

Uşağın məcburi məktəb təhsili şəraitinə hazırlanması və öyrədilməsi üçün nəzərdə tutulmuş ibtidai səviyyəli proqram üzrə biliklərin əldə olunması, məsələn, gündəlik tapşırıqların yerinə yetirilməsi və ya məktəbə ibtidai hazırlıq məşğələləri ilə əlaqədar vərdişlərə yiyələnmə.

### d820 Məktəb təhsili

Məktəbə getmək imkanının əldə olunması, məktəbin bütün tələblərinin, öz hüquq və vəzifələrinin yerinə yetirilməsi, tədris kursu üzrə materialın və fənnlərin öyrənilməsi, ibtidai və ya orta təhsil proqramlarının tədris planının yerinə yetirliməsi, o cümlədən mütəmadi olaraq məktəbə gəlmə, digər şagirdlərlə (tələbələrlə) birlikdə çalışma, müəllimlərin göstərişlərinin dərk olunması, tədris prosesinin təşkili, qarşıya qoyulmuş vəzifələrin və layihələrin icrasının başa çatdırılması, digər tədris mərhələsinə keçid.

### d825 Peşə biliklərinin əldə olunması

Hər hansı peşədə və ya ixtisas üzrə işləməyə hazırlıq planının və texniki-peşə tədrisi proqramının bütün tələblərinin yerinə yetirilməsi.

### d830 Ali təhsil

Universitetlərdə, akademiyalarda və digər ali təhsil müəssisələrində ali məktəb proqramının, eləcə də elmi dərəcənin, diplomun, şəhadətnamənin və digər vəsiqələrin əldə olunması üçün tədris planının bütün tələblərinin yerinə yetirilməsi, məsələn, universitetdə bakalavr və ya magistr dərəcəsi üzrə tədris kursunun başa vurulması, tibb akademiyasında və ya digər ali təhsil müəssisəsində təhsilin başa vurulması.

### d839 Təhsilin digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş formaları

## İŞ VƏ MƏŞĞULLUQ (d840-d859)

### d840 Şagirdlik (peşə fəaliyyətinə hazırlıq)

Peşə hazırlığı və ixtisası üzrə şərtlərin və tələblərin yerinə yetirilməsi, məsələn, usta şagirdinin, müqavilə əsasında internaturada təhsil alan stajorun, istehsalatdakı şagirdlərin öhdəliklərinin yerinə yetirilməsi.

*Çıxarılıb: peşə təhsili (d825)*

### d845 İş tapma, əmək münasibətlərinin yerinə yetirilməsi və dayandırılması

İşin axtarılması, tapılması və seçilməsi, işə qəbul olunma və şərtlərin qəbul edilməsi, öhdəliklərin yerinə yetirilməsi və irəliləyişlər, müvafiq qayda ilə işdən azad olunma.

*Daxil edilib: işin axtarılması; sənədlərin və ya anket məlumatlarının hazırlanması; sahibkarla əlaqə və müsahibəyə hazırlıq; iş yerinin qorunub saxlanması; öz peşəkar keyfiyyətlərinin qiymətləndirilməsi; elan vermə; işin dayandırılması.*

**d8450 İşin axtarılması**

İstehsal, peşə və ya digər məşğulluq formasında işin tapılması və seçilməsi, işə qəbul olunmaq üçün tələb olunan vəzifələrin icrası, iş yerinin tapılması və işə qəbul olunarkən müsahibədə iştirak.

**d8451 Əmək öhdəliklərinin icrası**

İstehsal, peşə və ya digər məşğulluq formasındakı öhdəliklərə müvafiq olan işlə əlaqədar vəzifələrin icrası, vəzifənin üyksəlməsi və digər irəliləyiş formaları.

**d8452 Əmək münasibətlərinin dayandırılması**

Müvafiq surətdə işin dayandırılması və ya iş yerini tərk etmə.

**d8458 İş tapma, əmək münasibətlərinin yerinə yetirilməsi və dayandırılması, digər dəqiqləşdirilmiş**

**d8459 İş tapma, əmək münasibətlərinin yerinə yetirilməsi və dayandırılması, dəqiqləşdirilməmiş**

## d850 Ödənişli iş

Tam və ya qismən məşğulluğa malik muzdlu işçi, yaxud fərdi əmək fəaliyyəti ilə məşğul olan şəxs qismində, müəyyən ödəniş müqabilində vəzifədən, ixtisasdan, peşə fəaliyyətindən və digər məşğulluq formalarından irəli gələn bütün şərtlərin yerinə yetirilməsi, məsələn, işin axtarılması və tapılması, işin icrası, işə lazımi və ya tələb olunan vaxtda gəlmə, başqalarının işinə nəzarət, digərləri tərəfindən nəzarət, qarşıya qoyulmuş vəzifələrin müstəqil surətdə və ya qrup şəklində icra olunması.

*Daxil edilib: fərdi əmək fəaliyyəti, tam və ya qismən məşğulluq*

**d8500 Fərdi əmək fəaliyyəti**

Başqaları ilə bağlanmış müqavilə əsasında və ya fərdi surətdə, rəsmi əmək münasibətləri olmadan, pul mükafatı müqabilində istənilən işin icrası, məsələn, mövsümi kənd təsərrüfatı işlərinin, ştatdankənar jurnalist və ya məsləhətçi vəzifəsinin, qısamüddətli müqavilədə nəzərdə tutulmuş işlərin, rəssamlıq və ya sənətkarlıq işlərinin, mağaza sahibi vəzifəsinin icrası və ya öz işinin idarə olunması.

*Çıxarılıb: tam və ya qismən məşğulluq (d8501, d8502)*

**d8501 Qismən əmək məşğulluğu**

Muzdlu işçi qismində qismən əmək məşğulluğu əsasında ödəniş müqabilində bütün iş aspektlərinin icrası, məsələn, işin axtarılması və tapılması, işin icrası, işə lazımi və ya tələb olunan vaxtda gəlmə, başqalarının işinə nəzarət, digərləri tərəfindən nəzarət, qarşıya qoyulmuş vəzifələrin müstəqil surətdə və ya qrup şəklində icra olunması.

**d8502 Tam əmək məşğulluğu**

Muzdlu işçi qismində qismən əmək məşğulluğu əsasında ödəniş müqabilində bütün iş aspektlərinin icrası, məsələn, işin axtarılması və tapılması, işin icrası, işə lazımi və ya tələb olunan vaxtda gəlmə, başqalarının işinə nəzarət, digərləri tərəfindən nəzarət, qarşıya qoyulmuş vəzifələrin müstəqil surətdə və ya qrup şəklində icra olunması.

**d8508 Ödənişli işin digər dəqiqləşdirilmiş formaları**

**d8509 Ödənişli işin dəqiqləşdirilməmiş formaları**

## d855 Ödənişsiz iş

Tam və ya qismən məşğulluğa malik, ödəniş nəzərdə tutulmayan istənilən işin icrası, o cümlədən, işin təşkili və tələblərin yerinə yetirilməsi, işə lazımi və ya tələb olunan vaxtda gəlmə, başqalarının işinə nəzarət, digərləri tərəfindən nəzarət, qarşıya qoyulmuş vəzifələrin müstəqil surətdə və ya qrup şəklində icra olunması, məsələn, könüllü iş, xeyriyyəçilik fəaliyyəti ilə məşğulluq, könüllü əsaslarla hər hansı cəmiyyətdə və ya dini icmada çalışma, evin həyətində könüllü iş.

*Çıxarılıb: Fəsil 6. Məişət həyatı*

## d859 İşin və məşğulluğun digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş formaları

## İQTİSADİ HƏYAT (d860-d879)

### d860 Əsas iqtisadi münasibətlər

Sadə iqtisadi münasibətlərin istənilən formaları ilə məşğulluq, məsələn, ərzaq almaq üçün puldan istifadə, mal və xidmətlərin mübadiləsi və satışı; pul əmanəti.

### d865 Mürəkkəb iqtisadi münasibətlər

Mürəkkəb iqtisadi münasibətlərin istənilən formaları ilə məşğulluq, o cümlədən kapital və mülkiyyət mübadiləsi, gəlirin yaradılması və iqtisadi mənfəətin əldə edilməsi, məsələn, öz işini və ya fabrikini açma, avadanlıq əldə etmə, bankda hesab açma, əmtəə ticarəti.

### d870 İqtisadi müstəqillik

Cari və gələcək ehtiyacların ödənilməsi üçün iqtisadi təminata zəmanət verməli olan şəxsi və ya ictimai mənbələrdən əldə edilən iqtisadi resurslardan istifadə.

*Daxil edilib: şəxsi iqtisadi resurslar və ictimai-iqtisadi fondlar*

**d8700 Şəxsi iqtisadi resurslar**

Cari və gələcək ehtiyacların ödənilməsi üçün iqtisadi müstəqilliyə zəmanət verməli olan şəxsi və ya özəl mənbələrdən əldə edilən iqtisadi resurslardan istifadə.

**d8701 İctimai-iqtisadi resurslar**

Cari və gələcək ehtiyacların ödənilməsi üçün iqtisadi müstəqilliyə zəmanət verməli olan ictimai mənbələrdən əldə edilən iqtisadi resurslardan istifadə.

**d8708 İqtisadi müstəqillik, digər dəqiqləşdirilmiş**

**d8709 İqtisadi müstəqillik, dəqiqləşdirilməmiş**

### d879 İqtisadi həyat, digər dəqiqləşdirilmiş və dəqiqləşdirilməmiş

### d898 Həyatın əsas sahələri, digər dəqiqləşdirilmiş

### d899 Həyatın əsas sahələri, dəqiqləşdirilməmiş

# BÖLMƏ 9. CƏMİYYƏTDƏ HƏYAT, İCTİMAİ VƏ MÜLKİ HƏYAT

Bu bölmə, ailədən kənarda mütəşəkkil ictimai həyatla məşğul olmaq, ayrı-ayrı icmaların, bütünlüklə cəmiyyətin həyatına və mülki həyat sahələrinə daxil olmaq üçün tələb edilən əməliyyatlara və vəzifələrə həsr olunur.

### d910 Cəmiyyətdə həyat

Cəmiyyətlərin sosial həyatının bütün aspektlərinə, məsələn, xeyriyyə təşkilatlarının, klubların və ya peşəkar ictimai təşkilatların fəaliyyətinə daxil olma.

*Daxil edilib: qeyri-rəsmi birliklər, rəsmi assosiasiyalar; mərasimlər*

*Çıxarılıb: ödənişsiz iş (d855); istirahət və asudə vaxt (d920); din və dini təcrübə (d930); siyasi həyat və vətəndaşlıq (d950).*

**d9100 Qeyri-rəsmi birliklər**

Eyni maraqlara malik insanlar tərəfindən təşkil olunmuş ictimai və ya yerli birliklərə, məsələn, yerli ictimai klublara və ya etnik qruplara daxil olma.

**d9101 Rəsmi assosiasiyalar**

Ciddi rəsmi əlamətlər üzrə yaradılmış peşəkar və ya digər ictimai birliklərə, məsələn, vəkillər, həkimlər və ya ali məktəb müəllimləri assosiasiyasına daxil olma.

**d9102 Mərasimlər**

Qeyri-dini ayinlərin və sosial mərasimlərin, məsələn, nigah və ya dəfn mərasimlərinin keçirilməsinə cəlb olunma.

**d9108 Cəmiyyətdə həyatın digər dəqiqləşdirilmiş formaları**

**d9109 Cəmiyyətdə həyatın dəqiqləşdirilməmiş formaları**

## d920 İstirahət və asudə vaxt

İstənilən növ oyunların, istirahət və və asudə vaxtın, məsələn, rəsmi və ya qeyri-rəsmi şəkildə təşkil olunmuş oyunların və idman yarışlarının, eləcə də sağlamlıq, istirahət və əyləncə proqramlarının keçirilməsinə cəlb olunma; rəssamlıq qalereyalarına, muzeylərə, kino və teatrlara gəlmə; əl işlərinin hazırlanmasına və hobbilərə, zövq mütaliəsinə, musiqi alətlərində ifaya, ekskursiyalara, turizm və səyahətlərə cəlb olunma.

*Daxil edilib: oyunlar, idman yarışları, incəsənət və mədəniyyət, sənətkarlıq, hobbi, qeyri-rəsmi ünsiyyət.*

*Çıxarılıb: minik heyvanlarını sürmə (d480); ödənişli və ödənişsiz iş (d850 və d855); din və dini təcrübə (d930); siyasi həyat və vətəndaşlıq (d950).*

**d9200 Oyunlar**

Qaydalar çərçivəsində aparılan və ya dəqiq qaydaları olmayan oyunlara, qeyri-mütəşəkkil oyunlara və təbiət qoynunda istirahətə, məsələn, şahmat və ya kart oyununa, uşaqlarla oyunlara cəlb olunma.

**d9201 İdman yarışları**

Yarış səciyyəli qeyri-rəsmi və ya rəsmən təşkil olunmuş idman oyunlarına, məsələn, kegelban, gimnastika və ya butbol yarışlarına təkbaşına və ya komanda daxilində cəlb olunma.

**d9202 Incəsənət və mədəniyyət**

İncəsənətlə və ya mədəni həyatla məşğul olma, məsələn, rəssamlıq qalereyalarına, muzeylərə, kino və teatrlara gəlmə; tamaşalarda oynama, bədii ədəbiyyat oxuma və ya musiqi alətlərində ifa etmə.

**d9203 Əl işləri**

Kustar üsulla məmulatların hazırlanması, məsələn, gil qabın qayrılması və ya toxuma.

**d9204 Hobbi**

Asudə vaxtın marka, qəpik və ya antikvar əşyalar kolleksiyası toplamaq kimi əyləncə növləri ilə keçirilməsi.

**d9205 Qeyri-rəsmi ünsiyyət**

Qeyri-rəsmi görüşlərə və digər ünsiyyət formalarına cəlb olunma, məsələn, dostlara və ya qohumlara baş çəkmə, ictimai yerlərdə qeyri-rəsmi görüşlər.

**d9208 İstirahət və asudə vaxtın keçirilməsi, digər dəqiqləşdirilmiş**

**d9209 İstirahət və asudə vaxtın keçirilməsi, dəqiqləşdirilməmiş**

## d930 Din və dini təcrübə

Özünü reallaşdırmaq, dini dəyərlərin mənasının axtarılması, ilahi qüvvənin tanınmasında digər şəxslərlə birləşmək məqsədi ilə dini ayinlərə cəlb olunma, məsələn, məscidə, kilsəyə, ehrama və ya sinaqoqa getmə; dualar və dini mahnılar, dini tamaşalar.

*Daxil edilib: ənənəvi din və dini təcrübə*

**d9300 Ənənəvi din**

Ənənəvi dini mərasimlərə, ayinlərə və hadisələrə cəlb olunma.

**d9301 Dini təcrübə**

Kilsə təcrübəsindən kənarda dini mərasimlərə cəlb olunmaş

**d9308 Din və dini təcrübə, digər dəqiqləşdirilmiş**

**d9309 Din və dini təcrübə, dəqiqləşdirilməmiş**

## d940 İnsan hüquqları

Birləşmiş Millətlər Təşkilatının "İnsan hüquqları Bəyannaməsi" (1948) və "Həyat fəaliyyəti məhdud olan insanlar üçün bərabər imkanların təmin olunmasının standart qaydaları" kimi sırf humanistlik prinsiplərindən irəli gələn və milli və beynəlxalq səviyyələrdə tanınmış hüquqlardan istifadəı olunmasından zövq alınması; özünümüəyənləşdirmə və muxtariyyət hüququ; öz taleyini həll etmə hüququ.

*Daxil edilib: siyasi həyat və vətəndaşlıq (d950).*

## d950 Siyasi həyat və vətəndaşlıq

Cəmiyyətin sosial və siyasi həyatına cəlb olunma və idarəetmə, vətəndaşın hüquqi statusundan istifadə, bununla əlaqədar hüquqların, imtiyazların və öhdəliklərin əldə olunması və istifadə edilməsi, məsələn, seçmək və seçilmək hüququ, siyasi təşkilatlara daxil olmaq hüququ; vətəndaşlıqla əlaqədar olan hüquq və azadlıqlardan (məsələn, söz azadlığı hüququndan, təşkilat azadlığı hüququndan, vicdan azadlığı hüququndan, əsassız axtarışdan və həbsdən qorunma hüququndan, müdafiə, məhkəmə və digər qanuni hüquqlardan, ayrı-seçkilikdən müdafiə hüququndan və s.) istifadə; vətəndaşın hüquqi vəziyyətindən istifadə.

*Çıxarılıb: insan hüquqları (d940)*

## d998 Cəmiyyətdə həyatın, ictimai və mülki həyatın digər dəqiqləşdirilmiş formaları

## d999 Cəmiyyətdə həyatın, ictimai və mülki həyatın dəqiqləşdirilməmiş formaları

# ƏTRAF MÜHİT AMİLLƏRİ

## BÖLMƏ 1. MƏHSUL VƏ TEXNOLOGİYALAR

Bu bölmə insan tərəfindən yığılmış, yaradılmış, istehsal edilmiş və ya hazırlanmış fərdi əhatə edən təbii və ya süni yaradılmış məhsula və ya məmulatlar sisteminə, avadanlığa və texnologiyalara aiddir. İSO 9999 köməkçi vasitələrinin təsnifatı onları "xüsusi istehsal edilmiş və münasib istənilən məmulatlar: alətlər, avadanlıq və ya həyat fəaliyyəti məhdud olan insanlar tərəfindən istifadə olunan texniki sistemlər, həyat fəaliyyəti məhdudiyyətlərini aradan qaldıran, bərpa edən, onlara nəzarət edən, yüngülləşdirən və ya neytrallaşdıran" kimi müəyyən edir. Müəyyən olunub ki, istənilən məmulatlar və ya texnologiyalar köməkçi ola bilər (bax: ISO 9999: həyat fəaliyyətində məhdudiyyətlər olan insanlar üçün texniki yardım – təsnifat (ikinci versiya); ISO/TC 173/SC 2; ISO/DIS 9999). Lakin ətraf amillərin bu təsnifatı üçün köməkçi məmulatlar və texnologiyalar həyat fəaliyyətində məhdudiyyətlər olan insanların fəaliyyətinin yaxşılaşdırılmasına uyğunlaşdırılmış və ya xüsusi olaraq bunun üçün hazırlanmış istənilən məmulatlar, alətlər, avadanlıq və texnologiyalar kimi daha dar mənada müəyyən olunur.

### e110 Şəxsi istifadə üçün məhsullar və ya maddələr

İnsanlar tərəfindən daxilə qəbul üçün yığılmış, hazırlanmış və ya istehsal edilmiş təbii və ya insan tərəfindən süni yaradılmış məhsullar və ya maddələr

*Daxil edilib: məhsullar və dərman maddələri*

**e1100 Ərzaq**

İstənilən təbii və ya insan tərəfindən süni yaradılmış qida məhsullarına və müxtəlif konsistensiyalı içkilərə, otlara və mikroelementlərə, vitaminlərə və digər yem əlavələrinə aid məhsullar və ya maddələr.

**e1101 Dərman madələri**

Tibbi məqsədlərlə yığılmış, emal edilimiş və ya istehsal edilmiş istənilən təbii və ya insan tərəfindən süni yolla yaradılmış maddələr, məsələn, allopatik və naturopatik dərmanlar

**e1108 Şəxsi istifadə üçün məhsullar və ya maddələr, digər dəqiqləşdirilmiş maddələr**

**e1109 Şəxsi istifadə üçün məhsullar və ya maddələr: dəqiqləşdirilməmiş**

### e115 Gündəlik şəxsi istifadə üçün məmulatlar və texnologiyalar

İnsanlar tərəfindən gündəlik istifadə olunan avadanlıq, məmulatlar və texnologiyalar, onların onlardan istifadə edən fərdin daxilində, bədənində və ya yanında yerləşən uyğunlaşdırılmış və ya xüsusi hazırlanmış növləri də daxil olmaqla.

*Daxil edilib: şəxsi istifadə üçün əsas və köməkçi məmulatlar və texnologiyalar*

**e1150 Gündəlik şəxsi istifadə üçün əsas məmulatlar və texnologiyalar**

İnsanlar tərəfindən gündəlik istifadə olunan avadanlıq, məmulatlar və texnologiya, məsələn: uyğunlaşdırılmamış və ya xüsusi olaraq hazırlanmamış geyim, tekstil, mebel, məişət cihazları, təmizləyici vasitələr və alətlər.

## e115 Gündəlik şəxsi istifadə üçün məmulatlar və texnologiyalar

İnsanlar tərəfindən gündəlik istifadə olunan avadanlıq, məmulatlar və texnologiyalar, onlardan istifadə edən şəxsin daxilində, bədənində və yanında olan uyğunlaşdırılmış və ya xüsusi hazırlanmış növləri daxil olmaqla.

*Daxil edilib: Şəxsi istifadə üçün əsas və köməkçi məmulatlar və texnologiyalar*

**e1150 Gündəlik şəxsi istifadə üçün əsas məmulatlar və texnologiyalar**

İnsanlar tərəfindən gündəlik istifadə olunan avadanlıq, məmulatlar və texnologiyalar, məsələn: uyğunlaşdırılmamış və xüsusi hazırlanmamış geyim, tekstil, mebel, məişət cihazları, təmizləyici vasitələr və alətlər.

**e1151 Gündəlik şəxsi istifadə üçün köməkçi məmulatlar və texnologiyalar**

İnsanlara gündəlik yardım edən uyğunlaşdırılmış və ya xüsusi hazırlanmış avadanlıq, məmulatlar və texnologiyalar, məsələn, protez və ortopedik qurğular, neytrostimulyatorlar (bağırsağın, sidik kisəsinin funksiyalarına, nəfəsə, ürək ritminə nəzarət edən həyati əhəmiyyətli funksional stimulyatorlar); evdə daxili məkana fərdi nəzarətin asanlaşdırılması üçün nəzərdə tutulmuş ətraf mühitə nəzarət vasitələri (skanerlər, distansion idarəetmə sistemləri, səsli idarəetmə sistemləri, taymerlər).

**e1158 Şəxsi gündəlik istifadə üçün məmulatlar və texnologiyalar, digər dəqiqləşdirilmiş**

**e1159 Şəxsi gündəlik istifadə üçün məmulatlar və texnologiyalar, dəqiqləşdirilməmiş**

## e120 Binanın daxilində və kənarda şəxsi yerdəyişmə və daşınma üçün məmulatlar və texnologiyalar

Tikili daxilində və kənarında hərəkət və yerdəyişmə üçün insanlar tərəfindən gündəlik istifadə olunan avadanlıq, məmulatlar və texnologiyalar, onlardan istifadə edən fərdin daxilində, bədənində və ya yanında olan uyğunlaşdırılmış və ya xüsusi hazırlanmış növləri daxil olmaqla.

*Daxil edilib: Binanın daxilində və kənarda şəxsi yerdəyişmə və daşınma üçün əsas və köməkçi məmulatlar və texnologiyalar*

**e1200 Binanın daxilində və kənarda şəxsi yerdəyişmə və daşınma üçün əsas məmulatlar və texnologiyalar**

Tikililərin daxilində və kənarda hərəkət və yerdəyişmə üçün insanlar tərəfindən istifadə olunan avadanlıq, məmulatlar və texnologiyalar, məsələn, insanların quruda, suda və havada daşınması üçün uyğunlaşdırılmamış və ya xüsusi hazırlanmamış motorlu və motorsuz nəqliyyat (avtobuslar, avtomobillər, furqonlar, digər motorlu və ya at-araba nəqliyyatı).

**e1201 Binanın daxilində və kənarda şəxsi yerdəyişmə və daşınma üçün köməkçi məmulatlar və texnologiyalar**

İnsanlara tikili daxilində və kənarda hərəkət və yerdəyişmə zamanı kömək üçün istifadə olunan uyğunlaşdırılmış və xüsusi hazırlanmış avadanlıq, məmulatlar və texnologiyalar, məsələn, yerimə üçün qurğu, xüsusi avtomobillər və furqonlar, uyğunlaşdırılmış nəqliyyat, gəzən kreslo, velosiped, yerdəyişmə qurğuları.

**e1208 Binanın daxilində və kənarda şəxsi yerdəyişmə və daşınma üçün məmulatlar və texnologiyalar, digər dəqiqləşdirilmiş**

**e1209 Binanın daxilində və kənarda şəxsi yerdəyişmə və daşınma üçün məmulatlar və texnologiyalar, dəqiqləşdirilməmiş**

## e125 Kommunikasiya vasitələri və texnologiyaları

İnsanlar tərəfindən onların fəaliyyətində informasiya mübadiləsi və informasiya ədldə edilməsiüçün istifadə olunan avadanlıq, məmulatlar və texnologiyalar, onlardan istifadə edən fərdin daxilində, bədənində və ya yanında olan uyğunlaşdırılmış və ya xüsusi hazırlanmış növləri daxil olmaqla.

*Daxil edilib: Əsas və köməkçi kommunikasiya vasitələri və texnologiyaları*

**e1250 Əsas kommunikasiya vasitələri və texnologiyaları**

İnsanlar tərəfindən informasiya mübadiləsi və əldə olunması üçün istifadə olunan avadanlıq, məmulatlar və texnologiyalar, məsələn: uyğunlaşdırılmamış və ya xüsusi hazırlanmamış eşitmə və görmə qurğuları, səsyazma qurğuları və qəbuledicilər, televiziya və radio avadanlığı, telefon əlaqəsi qurğuları, səs və şəkil ötürmə sistemləri

**e1251 Köməkçi kommunikasiya vasitələri və texnologiyaları**

İnsanlar tərəfindən informasiya mübadiləsi və əldə olunmasına yardım edən uyğunlaşdırılmış və ya xüsusi hazırlanmış avadanlıq, məmulatlar və texnologiyaların növləri, məsələn: xüsusi videoqurğular, elektrooptik qurğular, xüsusi çap qurğuları, rəsm çəkmək və ya yazmaq üçün qurğular, siqnal sistemləri və xüsusi proqram və aparat kompüter təchizatı, koxlear implantatlar, eşitmə aparatları, FM-audio-məşqçi, səs protezləri, eynək və kontakt linzalar.

**e1258 Kommunikasiya vasitələri və texnologiyaları, digər dəqiqləşdirilmiş**

**e1259 Kommunikasiya vasitələri və texnologiyaları, dəqiqləşdirilməmiş**

## e130 Təlim üçün məmulatlar və texnologiyalar

Bilik, ixtisas və ya bacarıq əldə edilməsi üçün istifadə olunan avadanlıq, məmulatlar, proseslər, metodlar və texnologiyalar, onların uyğunlaşdırılmış və ya xüsusi hazırlanmış növləri daxil olmaqla.

*Daxil edilib: Təlim üçün əsas və köməkçi məmulatlar və texnologiyalar*

**e1300 Təlim üçün əsas məmulatlar və texnologiyalar**

İstənilən səviyyədə bilik, ixtisas və ya bacarıq əldə edilməsi üçün istifadə olunan avadanlıq, məmulatlar, proseslər, metodlar və texnologiyalar, məsələn: uyğunlaşdırılmamış və xüsusi olaraq hazırlanmamış kitablar, dərslik, təlim oyuncaqları, kompüterin aparat vasitələri, proqram təchizatı.

**e1301 Təlim üçün köməkçi məmulatlar və texnologiyalar**

Bilik, ixtisas və ya bacarıq əldə edilməsi üçün istifadə olunan uyğunlaşdırılmış və ya xüsusi hazırlanmış avadanlıq, məmulatlar, proseslər, metodlar və texnologiyalar, məsələn, xüsusi kompüter texnologiyaları.

**e1308 Təlim üçün məmulatlar və texnologiyalar, digər dəqiqləşdirilmiş**

**e1309 Təlim üçün məmulatlar və texnologiyalar, dəqiqləşdirilməmiş**

## e135 Əmək və məşğulluq məmulatları və texnologiyaları

Biznesdə, xidmətdə və sənaye sektorunda əməyin yüngülləşdirilməsi üçün istifadə olunan avadanlıq, məmulatlar və texnologiyalar.

*Daxil edilib: Əsas və köməkçi əmək və məşğulluq məmulatları və texnologiyaları*

**e1350 Əmək və məşğulluq üçün əsas məmulatlar və texnologiyalar**

Biznesdə, xidmətdə və sənaye sektorunda əməyin yüngülləşdirilməsi üçün istifadə olunan avadanlıq, məmulatlar və texnologiyalar, məsələn: uyğunlaşdırılmamış və ya xüsusi olaraq hazırlanmamış alətlər, mexanizmlər və ofis texnikası.

**e1351 Əmək və məşğulluq üçün köməkçi məmulatlar və texnologiyalar**

Biznesdə, xidmətdə və istehsalat sektorunda müəyyən vəzifələrin həyata keçirilməsinin asanlaşdırılması üçün istifadə olunan uyğunlaşdırılmış və xüsusi hazırlanmış avadanlıq, məmulatlar və texnologiyalar, məsələn: xüsusi düzəldilmiş stollar, partalar və təchiz edilmiş kabinetlər; giriş və çıxış qapısının distansion idarə edilməsi; ətraf mühitə nəzarət üçün kompüterlər, aksessuarlar, proqram təchizatı və işlə bağlı tapşırıqların yerinə yetirilməsinin asanlaşdırılması və işgüzar mühitə nəzarət üçün nəzərdə tutulmuş vasitələr (məsələn, skanerlər, distansion idarəetmə sistemləri, səsli idarəetmə sistemləri, taymerlər).

**e1358 Əmək və məşğulluq üçün məmulatlar və texnologiyalar, digər dəqiqləşdirilmiş**

**e1359 Əmək və məşğulluq üçün məmulatlar və texnologiyalar, dəqiqləşdirilməmiş**

## e140 Asudə vaxtın mədəni təşkili, istirahət və idman üçün məmulatlar və texnologiyalar

Mədəni, əyləncəvi və idman tədbirlərinin keçirilməsi və keyfiyyətinin yüksəldilməsi üçün istifadə olunan avadanlıq, məmulatlar və texnologiyalar, onların uyğunlaşdırılmış və xüsusi hazırlanmış növləri daxil olmaqla.

*Daxil edilib: Asudə vaxtın mədəni təşkili, istirahət və idman üçün əsas və köməkçi məmulatlar və texnologiyalar*

**e1400 Asudə vaxtın mədəni təşkili, istirahət və idman üçün əsas məmulatlar və texnologiyalar**

Mədəni, əyləncəvi və idman tədbirlərinin keçirilməsi və keyfiyyətinin yüksəldilməsi üçün istifadə olunan avadanlıq, məmulatlar və texnologiyalar, məsələn: uyğunlaşdırılmamış və xüsusi olaraq hazırlanmamış oyuncaqlar, xizəklər, tennis topları və musiqi alətləri.

**e1401 Asudə vaxtın mədəni təşkili, istirahət və idman üçün köməkçi məmulatlar və texnologiyalar**

Mədəni, əyləncəvi və idman tədbirlərinin keçirilməsi və keyfiyyətinin yüksəldilməsi üçün istifadə olunan uyğunlaşdırılmış və xüsusi hazırlanmış avadanlıq, məmulatlar və texnologiyalar, məsələn, idman üçün uyğunlaşdırılmış xüsusi hərəkət vasitələri, musiqi və digər yaradıcı məşğuliyyətlərə uyğunlaşma vasitələri.

**e1408 Asudə vaxtın mədəni təşkili, istirahət və idman üçün məmulatlar və texnologiyalar, digər dəqiqləşdirilmiş**

**e1409 Asudə vaxtın mədəni təşkili, istirahət və idman üçün məmulatlar və texnologiyalar, dəqiqləşdirilməmiş**

## e145 Dini və mənəvi təcrübə üçün məmulatlar və texnologiyalar

Mənəvi mədəniyyət və ya din kontekstində simvolik işarə ilə istifadə olunan məlumatlar və texnologiyalar, nadir obyektlər və kütləvi istehsal məmulatları, uyğunlaşdırılmış və xüsusi hazırlanmış növləri daxil olmaqla.

*Daxil edilib: dini və mənəvi təcrübə üçün əsas və köməkçi məmulatlar və texnologiyalar*

**e1450 Dini və mənəvi təcrübə üçün əsas məmulatlar və texnologiyalar**

Mənəvi mədəniyyət və ya din kontekstində simvolik işarə ilə istifadə olunan məlumatlar və texnologiyalar, nadir obyektlər və kütləvi istehsal məmulatları, məsələn: uyğunlaşdırılmamış və xüsusi hazırlanmamış dini yerlər, "may ağacı", pariklər, maskalar, xaçlar, yaddaş işarələri, kult həsirləri, kiçik xalçalar.

**e1451 Dini və mənəvi təcrübə üçün köməkçi məmulatlar və texnologiyalar**

Mənəvi mədəniyyət və din kontekstində simvolik işarə ilə istifadə olunan uyğunlaşdırılmış və xüsusi hazırlanmış məmulatlar, məsələn: dini kitablar, Braylya dilində fal kartları, məbədə girişdə tərpənən kürsülərin təkərləri üçün xüsusi qurğular.

**e1458 Dini və mənəvi təcrübə üçün məmulatlar və texnologiyalar, digər dəqiqləşdirilmiş**

**e1459 Dini və mənəvi təcrübə üçün məmulatlar və texnologiyalar, dəqiqləşdirilməmiş**

## e150 İctimai istifadə üçün binaların layihələşdirilməsi, tikintisi və quraşdırılması dizaynı, xarakteri

İctimai istifadə üçün planlaşdırılmış, layihələşdirilmiş və həyata keçirilmiş daxili və xarici mühit məhsulları və quraşdırma texnologiyaları, onların uyğunlaşdırılmış və xüsusi hazırlanmış növləri daxil olmaqla.

*Daxil edilib: Giriş və çıxışların, daxili rahatlıqların və göstəricilərin layihələşdirilməsi, tikintisi və quraşdırılması dizaynı, xarakteri*

**e1500 İctimai istifadə üçün binaların giriş və çıxışlarının layihələşdirilməsi, tikintisi və quraşdırılması dizaynı, xarakteri**

İctimai istifadə üçün nəzərdə tutulmuş, layihələşdirilmiş və həyata keçirilmiş tikililərdə giriş və çıxışın quraşdırılması məhsulları və texnologiyaları, məsələn, ictimai binalarda giriş və çıxışların layihələşdirilməsi və tikilməsi, iş yerləri, ictimai binalar, daşınan və daimi panduslar, qapıların açılması gücləndiriciləri, qapı dəstələrinin səviyyəsi, qapı kandarının hündürlüyü də daxil olmaqla.

**e1501 İctimai istifadə üçün binalarda daxili rahatlıqlara çıxışın layihələşdirilməsi, tikintisi və qurulması dizaynı, xarakteri**

İctimai istifadə üçün layihələşdirilmiş, tikilmiş və həyata keçirilmiş tikililərin daxili rahatlıqlarının təchizatı məhsulları və texnologiyaları, məsələn: santexnika, telefon, danışıq qurğuları, lift və ya qaldırıcı, eskalator, termostat (temperaturun tənzimlənməsi üçün), auditoriya və ya stadionda sərbəst açıq yer.

**e1502 İctimai istifadə üçün binalarda yol, istiqamət göstəricilərinin və coğrafi mövqe işarələrinin layihələşdirilməsi, tikintisi və quraşdırılması dizaynı, xarakteri**

İnsanlara binaların daxilində və ətrafında istiqamətlənməyə, getmək istədikləri yeri müəyyən etməyə kömək məqsədilə ictimai istifadə üçün layihələşdirilmiş, tikilmiş və həyata keçirilmiş daxili və xarici təchizat məhsulları və texnologiyaları, məsələn: Braylya dilində işarələr, göstəricilər, dəhlizin uzunluğu, döşəmənin səthini, ən yaxında olan telefonu göstərən lövhəciklər, göstəricilər və digər sorğu formaları.

**e1508 İctimai istifadə üçün binaların layihələşdirilməsi, tikilməsi və quraşdırılması dizaynı, xarakteri, digər dəqiqləşdirilmiş**

**e1509 İctimai istifadə üçün binaların layihələşdirilməsi, tikilməsi və quraşdırılması dizaynı, xarakteri, dəqiqləşdirilməmiş**

## e155 Şəxsi istifadə üçün binaların layihələşdirilməsi, tikintisi və quraşdırılması dizaynı, xarakteri

Şəxsi istifadə üçün planlaşdırılmış, layihələşdirilimiş və icra edilmiş daxili və xarici ətraf mühit təchizatı məhsulları və texnologiyaları, onların uyğunlaşdırılmış və xüsusi hazırlanmış növləri daxil olmaqla.

*Daxil edilib: Giriş və çıxışların, daxili rahatlıqların və göstəricilərin layihələşdirilməsi, tikintisi və quraşdırılması məhsulları və texnologiyaları*

**e1550 Şəxsi istifadə üçün binaların giriş və çıxışlarının layihələşdirilməsi, tikintisi və quraşdırılması dizaynı, xarakteri**

Şəxsi istifadə üçün nəzərdə tutulmuş, layihələşdirilmiş və icra edilmiş tikililərdə giriş və çıxışların təchizatı məhsulları və texnologiyaları, məsələn: şəxsi istifadə binalarında giriş və çıxışların layihələşdirilməsi və tikintisi, daşınan və daimi panduslar, qapıların açılması gücləndiriciləri, qapı dəstələrinin səviyyəsi, qapı kandarının hündürlüyü.

**e1551 Şəxsi istifadə üçün binalarda daxili rahatlıqlara çıxışın layihələşdirilməsi, tikintisi və quraşdırılması dizaynı, xarakteri**

Layihələşdirilmiş, tikilmiş və icra edilmiş şəxsi istifadə binalarının daxili rahatlıqlarının təchizatı məhsulları və texnologiyaları, məsələn, santexnika, telefon, danışıq qurğuları, şəxsi evlərdə liftlər, döşəmə örtüyü, mətbəx və mətbəx avadanlığı, elektron nəzarət vasitələri.

**e1552 Şəxsi istifadə binalarından istiqamət, hərəkət yolları və olduğu yeri müəyyən etmə göstəricilərinin layihələşdirilməsi, tikintisi və quraşdırılması dizaynı, xarakteri**

İnsanlara binaların daxilində və ətrafında istiqamətlənməyə, getmək istədikləri yeri müəyyən etməyə kömək məqsədilə ictimai istifadə üçün layihələşdirilmiş, tikilmiş və yerinə yetirilmiş daxili və xarici təchizat məhsulları və texnologiyaları, məsələn: Braylya dilində işarələr, göstəricilər, dəhlizin uzunluğu, döşəmənin səthini, ən yaxında olan telefonu göstərən lövhəciklər, göstəricilər və digər sorğu formaları.

**e1558 Şəxsi istifadə binalarının layihələşdirilməsi, tikintisi və quraşdırılması dizaynı, xarakteri, digər dəqiqləşdirilmiş**

**e1559 Şəxsi istifadə binalarının layihələşdirilməsi, tikintisi və quraşdırılması dizaynı, xarakteri, dəqiqləşdirilməmiş**

## e160 Torpaqdan istifadə məhsulları və texnologiyaları

Fərdin ətraf mühitini dəyişən, torpaqdan istifadə siyasəti, yerin təchizatının layihələşdirilməsi, planlaşdırılması və inkişaf etdirilməsi ilə müəyyən edilən torpaq resurslarından istifadə məhsulları və texnologiyaları, onların uyğunlaşdırılmış və xüsusi hazırlanmış növləri daxil olmaqla.

*Daxil edilib: Kənd ərazilərində, şəhərkənarı, şəhər ərazilərində, parklarda, qoruqlarda torpaqdan istifadə qaydalarına uyğun olaraq təşkil edilmiş torpaqdan istifadə məhsulları və texnologiyaları*

**e1600 Kənd yerlərinin quraşdırılması üçün məhsullar və texnologiyalar**

Kənd yerinin torpaqdan istifadə siyasətinə, kənd yerinin quraşdırılmasının layihələşdirilməsi, planlaşdırılması və inkişafına uyğun olaraq fərdin ətraf mühitini dəyişən torpaq resurslarından istifadə məhsulları və texnologiyaları, məsələn, xutorlar, yollar və işarə şalbanları.

**e1601 Şəhərkənarı yerin quraşdırılması üçün məhsullar və texnologiyalar**

Şəhərkənarı yerin torpaqdan istifadə siyasəti, şəhərkənarı yerin layihələşdirilməsi, planlaşdırılması və inkişafına uyğun olaraq fərdin ətraf mühitini dəyişən torpaq resurslarından istifadə məhsulları və texnologiyaları, məsələn, səkilər, yollar, göstəricilər və küçə işıqlandırılması.

**e1602 Şəhər yerinin quraşdırılması üçün məhsullar və texnologiyalar**

Şəhər yerinin torpaqdan istifadə siyasətinə, şəhər yerinin quraşdırılmasının layihələşdirilməsi, planlaşdırılması və inkişafına uyğun olaraq fərdin ətraf mühitini dəyişən torpaq resurslarından istifadə məhsulları və texnologiyaları, məsələn, səkilər, panduslar və küçə işıqlandırılması.

**e1603 Parkların, qoruqların və yabanı yaşayış yerlərinin quraşdırılması məhsulları və texnologiyaları**

Parkların, qoruqların, vəhşi təbiətin torpaqdan istifadə siyasətinə, yerin quraşdırılmasının layihələşdirilməsi, planlaşdırılması və inkişafına uyğun olaraq fərdin ətraf mühitini dəyişən torpaq resurslarından istifadə məhsulalrı və texnologiyaları, məsələn, parklarda işarələr və vəhşi cığırlar.

**e1608 Torpaqdan istifadə məhsulları və texnologiyaları, digər dəqiqləşdirilmiş**

**e1609 Torpaqdan istifadə məhsulları və texnologiyaları, dəqiqləşdirilməmiş**

## e165 Mülkiyyət və kapital

İqtisadi münasibətlər məhsulları və ya obyektləri: fərdin malik olduğu və ya istifadə etmək hüququ olan pul, əmtəə, mülkiyyət və digər sərvətlər.

*Daxil edilib: maddi və qeyri-maddi mülkiyyət, maliyyə aktivləri*

**e1650 Maliyyə aktivləri**

Kapital, əmək və ya xidmət mübadiləsində aralıq hissə kimi çıxış edən obyektlər, məsələn, pul və digər maliyyə xidmətləri.

**e1651 Maddi mülkiyyət və əmtəə**

Məhsullar və ya obyektlər, məsələn: kapital, əmək və ya xidmət mübadiləsində aralıq hissə kimi çıxış edən daşınmaz əmlak, torpaq, geyim, ərzaq və texnika.

**e1652 Qeyri-maddi mülkiyyət**

Kapital, əmək və ya xidmət mübadiləsində aralıq hissə kimi çıxış edən intellektual mülkiyyət məhsulları, bilik və bacarıqlar.

**e1658 Mülkiyyət və kapital, digər dəqiqləşdirilmiş**

**e1659 Mülkiyyət və kapital, dəqiqləşdirilməmişi**

## e198 Məhsullar və texnologiyalar, digər dəqiqləşdirilmiş

## e199 Məhsullar və texnologiyalar, dəqiqləşdirilməmiş

# BÖLMƏ 2. TƏBİİ MÜHİT VƏ ƏTRAF MÜHİTİN İNSAN TƏRƏFİNDƏN HƏYATA KEÇİRİLMİŞ DƏYİŞİKLİKLƏRİ

Bu bölməyə təbii və fiziki mühitin canlı və cansız elementləri və ətraf mühitin insan tərəfindən dəyişdirilmiş tərkib hissələri haqqında, həmçinin bu ətraf mühitdə insan qruplarının xarakteristikası haqqında məlumatlar daxildir.

## e210 Fiziki coğrafiya

Quru və su landşaftının xüsusiyyətləri

*Daxil edilib: Oroqrafiya (relyef, onun keyfiyyət və kəmiyyət səciyyələri, dəniz səviyyəsindən yüksəkliyi daxil olamaqla) və hidroqrafiyadan (su obyektləri, məsələn, göllər, çaylar, dənizlər) ibarət olan coğrafiyanın xüsusiyyətləri*

**e2100 Quru landşaftı**

Quru relyefinin xüsusiyyətləri, məsələn, dağlar, təpələr, dərələr və düzənliklər.

**e2101 Su landşaftı**

Su obyektlərinin xüsusiyyətləri, məsələn, göllər, dambalar, çaylar və arxlar.

**e2108 Fiziki coğrafiya elementləri, digər dəqiqləşdirilmiş**

**e2109 Fiziki coğrafiya elementləri, dəqiqləşdirilməmiş**

## e215 Əhali

Bu ətraf mühitdə yaşayan, ətraf mühitə uyğunlaşma üsulu eyni olan insanlar qrupları.

*Daxil edilib: demoqrafik dəyişikliklər və əhalinin sıxlığı*

**e2150 Demoqrafik dəyişikliklər**

İnsan qruplarında (məsələn, fərdlərin ümumi sayında və tərkibində) doğum, ölüm, əhalinin yaşlanması və miqrasiya ilə əlaqədar rast gəlinən dəyişikliklər.

**e2151 Əhalinin sıxlığı**

Torpaq sahəsi vahidinə görə insanların sayı, əhalinin yüksək və ya aşağı sıxlığı kimi xarakteristikalar daxil olmaqla.

**e2158 Əhalinin xarakteristikaları, digər dəqiqləşdirilmiş**

**e2159 Əhalinin xarakteristikaları, dəqiqləşdirilməmiş**

## e220 Flora və fauna

Bitki və heyvanlar.

*Çıxarılıb: ev heyvanları (e350); əhali (e215)*

**e2200 Bitkilər**

Fotosintez qabiliyyəti olan və bitkilər aləminə aid, xloroplast, sellülozdan hüceyrə divarı olması və hərəkət etmək imkanının olmaması səciyyəvi olan eukaritlərdən – çoxhüceyrəli orqanizmlərdən istənilən biri, məsələn, ağaclar, güllər, kollar və üzüm lozası.

**e2201 Heyvanlar**

Heyvanlar aləminin bitkilərdən müəyyən səciyyəvi xarakteristikaları (məsələn, hərəkət etmə bacarığı, fotosintez olmaması, stimullara əhəmiyyətli ifadə edilmiş şəkildə cavabla) fərqlənən, müəyyən boy və xarici görünüşlə məhdudlaşmış çoxhüceyrəli orqanizmləri, məsələn, vəhşi və ya ev heyvanları, sürünənlər, quşlar, balıqlar və məməlilər.

*Çıxarılıb: mülkiyyət və kapital (e165); ev heyvanları (e350)*

**e2208 Flora və fauna, digər dəqiqləşdirilmiş**

**e2209 Flora və fauna, dəqiqləşdirilməmiş**

## e225 İqlim

Meteoroloji xarakteristikalar və hadisələr, hava.

*Daxil edilib: temperatur, rütubətlilik, atmosfer təzyiqi, yağıntılar, külək, fəsil dəyişiklikləri*

**e2250 Temperatur**

İsti və soyuq dərəcəsi, məsələn, yüsək və ya aşağı temperatur, normal və ya həddən artıq temperatur.

**e2251 Rütubətlilik**

Hava rütubətliyinin səviyyəsi, məsələn, yüksək və ya aşağı rütubətlilik.

**e2252 Atmosfer təzyiqi**

Ətraf atmosferdə havanın təzyiqi, məsələn, dəniz səviyyəsindən yüksəkliklə və ya meteoşəraitlə bağlı təzyiq.

**e2253 Yağıntılar**

Yağıntılar düşməsi, məsələn, yağış, şeh, qar, yağış, sulu qar və dolu.

**e2254 Külək**

Havanın çox və ya az sürətlə təbii hərəkəti, məsələn, briz, tufan və küləyin şiddəti.

**e2255 Fəsil dəyişiklikləri**

İlin vaxtlarının təbii, müntəzəm və proqnozlaşdırılan dəyişikliyi: yay, payız, qış, yaz.

**e2258 İqlim, digər dəqiqləşdirilmiş**

**e2259 İqlim, dəqiqləşdirilməmiş**

## e230 Təbii hadisələr

Coğrafi və atmosfer dəyişiklikləri ilə əlaqədar, fərdin fiziki mühitinin dağılmasına səbəb olan, müntəzəm və qeyri-müntəzəm rast gəlinən hadisələr, məsələn, zəlzələ və tornado, burulğan, tayfun, sel, meşə yangını və fırtına kimi təhlükəli və ya dağıdıcı təbii hadisələr.

## e235 Təbiətdə insan tərəfindən edilmiş dəyişikliklər

Təbii mühitdə insanların yaratdığı, onların gündəlik həyatında xoşagəlməz dəyişikliklərə səbə ola biləcək pozuntular və ya xoşagəlməz dəyişikliklər, məsələn, münaqişələr və müharibələrlə əlaqədar hadisələr və vəziyyətlər, yəni, insanların köçürülməsi, sosial infrastrukturun, evlərin dağılması, torpağın, suyun və ya havanın çirklənməsi (zəhərli ləkələr).

## e240 İşıq

Günəş işığı və ya süni işıq kimi əşyaları görünən edən (şam, yağ və ya kerosin lampaları, alov və elektrik) və qıcıqlandıra və ya ətraf mühit haqqında gərəkli informasiya ilə təmin edə biləcək elektromaqnit şüası.

*Daxil edilib: işığın keyfiyyəti, işığın intensivliyi, rəng təzadı*

**e2400 İşılığın intensivliyi**

Təbii (günəş) və ya süni işıq mənbəyindən buraxılan enerjinin səviyyəsi və ya miqdarı.

**e2401 İşığın keyfiyyəti**

Ətrafın rəng təzadını təmin edən işığın dünya haqqında gərəkli müşahidə informasiyası almağa imkan verən (məsələn, pilləkən və ya qapı olması haqqında müşahidə informasiyası) və ya əksinə, qıcıqlandıran (çox sayda görmə obyektləri olduqda) xarakteri.

**e2408 İşıq, digər dəqiqləşdirilmiş**

**e2409 İşıq, dəqiqləşdirilməmiş**

## e245 Vaxtla əlaqədar dəyişikliklər

Təbii müntəzəm və ya qabaqcadan proqnozlaşdırılan vaxt dəyişiklikləri.

*Daxil edilib: dövrlər – gündüz/gecə və ay dövrləri*

**e2450 Gündüz/gecə dövrləri**

Gündüz və gecənin təbii müntəzəm və əvvəlcədən proqnozlaşdırılan əvəzlənməsi, yəni, gündüz, gecə, dan yerinin sökülməsi və alaqaranlıq.

**e2451 Ay dövrləri**

Ayın yerə nisbətdə vəziyyətinin təbbi müntəzəm və əvvəlcədən proqnozlaşdırılan dəyişiklikləri.

**e2458 Vaxtla əlaqədar dəyişikliklər, digər dəqiqləşdirilmiş**

**e2459 Vaxtla əlaqədar dəyişikliklər, dəqiqləşdirilməmiş**

## e250 Səs

Qıcıqlandıra və ya ətraf mühit haqqında gərəkli informasiya ilə təmin edə biləcək istənilən səviyyəli, tembrli və ya tonallıqlı taqqıltı, cingilti, gurultu, vıyıltı, ağı və ya uğultular kimi eşidilə bilən təzahürlər.

*Daxil edilib: səsin intensivliyi və keyfiyyəti*

**e2500 Səsin intensivliyi**

Səs təzahürlərinin enerji miqdarı ilə müəyyən edilən səviyyəsi və ya gücü, enerji yüksək səviyyəli olduqda uca səs kimi, aşağı səviyyəli olduqda isə asta səs kimi qəbul olunur.

**e2501 Səsin keyfiyyəti**

Səsin səs dalğasının uzunluğu və xarakteristikası ilə müəyyən edilən və tembr və ton kimi qəbul edilən xarakteri, məsələn, ətraf mühit haqqında gərəkli informasiya ilə təmin edə (məsələn, miyoldayan pişiyə qarşı hürən itin səsi) və ya qıcıqlandıra (məsələn, birrəngli səs-küy) biləcək iti və ya melodik səs.

**e2508 Səs, digər dəqiqləşdirilmiş**

**e2509 Səs, dəqiqləşdirilməmiş**

## e255 Titrəyiş

Obyekt və ya fərdin fiziki təsirlə əlaqədar müntəzəm və ya qeyri-müntəzəm titrəyişli hərəkətləri, məsələn, titrəmə, əsmə, əşyaların, binaların və ya insanların kiçik və ya böyük texniki avadanlıq, təyyarə və partlayışla əlaqədar cəld fasiləli hərəkətləri.

*Çıxarılıb: zəlzələ ilə əlaqədar yerin titrəyişi kimi təbii hadisələr (e230)*

## e260 Havanın keyfiyyəti

Atmosferin (binanın ətrafında) və ya qapalı yerlərdə (binanın daxilində) havanın qıcıqlandıra və ya ətraf mühit haqqında gərəkli informasiya ilə təmin edə biləcək xarakteristikaları.

*Daxil edilib: binalarda və kənarda havanın keyfiyyəti*

**e2600 Binalarda havanın keyfiyyəti**

Binaların daxilində və ya qapalı məkanlarda havanın iy, his, rütubətlilik, kondisiyalaşdırma (havanın keyfiyyətli parametrləri ilə idarə olunan) və ya kondisiyalaşdırmanın olmaması ilə müəyyən edilən, ətraf mühit haqqında gərəkli informasiya verə (məsələn, qaz sızması iyi) və ya qıcıqlandlra (məsələn, hədsiz parfüm iyi) biləcək xarakteristikası.

**e2601 Binadan kənarda havanın keyfiyyəti**

Binalardan və ya qapalı məkanlardan kənarda havanın iy, his, rütubətlilik, ozon səviyyəsi və atmosferin digər xüsusiyyətləri ilə müəyyən olunan, mühit haqqında gərəkli informasiya ilə təmin edə (məsələn, yağış iyi) və ya qıcıqlandıra (məsələn, xoşagəlməz iy) biləcək xarakteristikası.

**e2608 Havanın keyfiyyəti, digər dəqiqləşdirilmiş**

**e2609 Havanın keyfiyyəti, dəqiqlşdirilməmiş**

## e298 Təbii mühit və ətraf mühitin insan tərəfindən həyata keçirilmiş dəyişiklikləri, digər dəqiqləşdirilmiş

## e299 Təbii mühit və ətraf mühitin insan tərəfindən həyata keçirilmiş dəyişiklikləri, dəqiqləşdirilməmiş

# BÖLMƏ 3. DƏSTƏK VƏ QARŞILIQLI ƏLAQƏLƏR

Bu bölmə öz evində, iş yerində, məktəbdə, oyunlarda və ya gündəlik fəaliyyətin digər aspektlərində başqa insanlarla qarşılıqlı münasibətlərdə praktik fiziki və ya emosional dəstək, qayğı, müdafiə və yardımı təmin edən insanlar və heyvanlar haqqında məlumatlardan ibarətdir. Bu bölmə dəstəyi təmin edən insan və insanların münasibətlərinə aid deyil. Təsvir edilən ətraf mühit amilləri fərdlər və ya insanlar deyil, onların fiziki və emosional dəstəyidir.

### e310 Ailə və ən yaxın qohumlar

Doğum, nigah və ya digər münasibətlərlə əlaqəli, mədəni mühitdə yaxın qohumlar kimi qəbul edilmiş fərdlər, məsələn, ər-arvad, partnyorlar, valideynlər, doğma qardaşlar və bacılar, uşaqlar, qəyyumlar, ögey valideynlər, nənələr və babalar.

*Çıxarılıb: uzaq qohumlar (e315); qulluq və kömək həyata keçirən personal (e340)*

### e315 Uzaq qohumlar

Ailə və ya nigah və ya digər münasibətlərlə əlaqəli, mədəni mühitdə yaxın olmayan qohumluq kimi qəbul edilmiş fərdlər, məsələn, xalalar, bibilər, dayılar, əmilər, qardaş oğlu, bacı oğlu.

*Çıxarılıb: ailələr və ən yaxın qohumlar (e310)*

### e320 Dostlar

Yaxın və davamlı münasibətləri tam etibar və qarşılıqlı yardımla səciyyələndirilən fərdlər.

### e325 Tanışlar, yaşıdlar, həmkarlar, qonşular və cəmiyyət üzvləri

İş, təhsil, istirahət hallarında və ya həyatın digər aspektlərində bir-biri ilə tanış, vəziyyətcə bərabər, həmkar, qonşu və cəmiyyət üzvü olan fərdlər və yaş, cins, din, etnik mənsubluq kimi demoqrafik xüsusiyyətləri eyni olan və ya ümumi maraqları olan şəxslər.

*Çıxarılıb: assosiasiya və təşkilatların xidmətləri (e5550)*

### e330 Səlahiyyətli və nüfuzlu şəxslər

Başqaları haqqında qərarların qəbulunda cavabdeh olan fərdlər və cəmiyyətdəki sosial, iqtisadi, mədəni və ya dini vəziyyətlərinə əsaslanmış sosial təsir və ya səlahiyyəti olan şəxslər, məsələn, müəllimlər, işə götürənlər, nəzarət həyata keçirən şəxslər, dini liderlər, onların müavinləri, qəyyumlar və etibarlı şəxslər.

### e335 Tabelilər

Gündəlik həyat üsulu işdə, məktəbdə və ya digər vəziyyətlərdə səlahiyyət verilmiş və nüfuzlu şəxslər tərəfindən təsirə məruz qalan fərdlər, məsələn, tələbələr, işçilər və dini qrupun sıravi üzvləri.

*Çıxarılıb: ailə və ən yaxın qohumlar (e310)*

### e340 Qulluq və yardım həyata keçirən personal

Başqa insanlara gündəlik fəaliyyətində və işin yerinə yetirilməsində, təhsildə dəstək göstərmək məqsədilə onları zəruri xidmətlərlə təmin edən; fəaliyyəti ictimai, şəxsi fondlar vasitəsilə və ya könüllü şəkildə həyata keçirilən fərdlər, məsələn, ev işləri üçün xüsusi şərait yaradan şəxslər, şəxsi köməkçilər, nəqliyyatda köməkçilər və digər dəstəyi həyata keçirən şəxslər, ödəmə üçün yardım həyata keçirən şəxslər, dayələr və bilavasitə yardım və qulluqla məşğul olan digərləri.

*Çıxarılıb: ailə və ən yaxın qohumlar (e310); uzaq qohumlar (e315); dostlar (e320); ümumi və sosial yardım xidmətləri (e5750); professional tibb işçiləri (e355)*

### e345 Kənar şəxslər

Fərdlə tanış olmayan və ya onunla hər-hansı münasibət və əlaqələri olmayan və ya qurulmayan şəxslər, fərdlə tanış olmayan, amma onunla hər-hansı həyat vəziyyətini bölüşən şəxslər daxil olmaqla, məsələn, müəllimləri, əməkdaşları və ya sosial işçiləri müvəqqəti əvəz edən şəxslər.

### e350 Ev heyvanları

Fiziki, emosional və ya psixoloji dəstəyi təmin edən heyvanlar, məsələn, mənzildə saxlanan ev heyvanları (itlər, pişiklər, quşlar, balıqlar və s.), kənd təsərrüfatı heyvanları və əhilləşdirilmiş mal-qara, şəxsi yerdəyişmə və daşıma üçün heyvanlar.

*Çıxarılıb: heyvanlar (e2201); mülkiyyət və kapital (e165)*

### e355 Professional tibb işçiləri

Səhiyyə sistemində tibbi xidməti təmin edən bütün şəxslər, məsələn, həkimlər, tibb bacıları, fizioterapevtlər, profpatoloqlar, loqopedlər, surdoloqlar, ortoped-travmatoloqlar və ya tibbi-sosial işçilər.

*Çıxarılıb: digər profesional sahələrin işçiləri (e360)*

### e360 Digər profesional sahələrin işçiləri

Qeyri-səhiyyə sistemində xidmət təmin edən bütün şəxslər, məsələn: vəkillər, müəllimlər, memarlar, layihəçilər və ya istənilən digər professionallar.

*Çıxarılıb: professional tibb işçiləri (e355)*

### e398 Dəstək və qarşılıqlı əlaqələr, digər dəqiqləşdirilmiş

### e399 Dəstək və qarşılıqlı əlaqələr, dəqiqləşdirilməmiş

## BÖLMƏ 4. MÜNASİBƏTLƏR

Bu bölmə adətlərin, qaydaların, ideologiyaların, dəyərlərin, normaların, dinin və digər əqidələrin mühüm nəticəsi olan münasibətlərə aiddir. Bu münasibətlər şəxsiyyətlərarası və cəmiyyətdə münasibətlərdən siyasi, iqtisadi və hüquqi münasibətlərə qədər istənilən münasibət səviyyələrində fərdi davranışa və sosial həyata təsir edir. Məsələn, digər fərdin insani ləyaqətinə fərdi və ya ictimai münasibət, insanın şəxsiyyət kimi dəyərləri, bu münasibətlərin müsbət və rəğbətlə və ya mənfi və ayrıseçkilik şəklində təzahürü (məsələn, damğalamaq, qəlibə salmaq, ikinci dərəcələ şəxs kimi baxmaq və ya etinasızlıq göstərmək). İnsanların münasibətləri müəyyən vəziyyətdə və ya halda kiməsə qarşı münasibətlər kimi təsnif edilib. Fərdi münasibətlər ətraf mühit amillərinin 3-cü bölməsində dəstək və qarşılıqlı əlaqələrə aid siyahıdakı kimi bölünüb. Dəyərlər və əqidələr münasibətlərdən ayrı şifrələnmir, belə ki, münasibətlər onları müəyyən edir.

### e410 Ailənin və ən yaxın qohumların fərdi münasibətləri

Ailədə yaxın qohumların şəxsiyyətə və digər məsələlərə aid (məsələn, sosial, siyasi və iqtisadi məsələlər), fərdin davranışına və hərəkətlərinə təsir edən ümumi və ya spesifik fikirləri və nəzər nöqtələri.

### e415 Uzaq qohumların fərdi münasibətləri

Uzaq qohumların şəxsiyyətə və digər məsələlərə aid (məsələn, sosial, siyasi və iqtisadi məsələlər), fərdin davranışına və hərəkətlərinə təsir edən ümumi və ya spesifik fikirləri və nəzər nöqtələri.

### e420 Dostların fərdi münasibətləri

Dostların şəxsiyyətə və digər məsələlərə aid (məsələn, sosial, siyasi və iqtisadi məsələlər), fərdin davranışına və hərəkətlərinə təsir edən ümumi və ya spesifik fikirləri və nəzər nöqtələri.

### e425 Tanışların, yaşıdların, həmkarların, qonşuların və cəmiyyət üzvlərinin fərdi münasibətləri

Tanışların, yaşıdların, həmkarların, qonşuların və cəmiyyət üzvlərinin şəxsiyyətə və digər məsələlərə aid (məsələn, sosial, siyasi və iqtisadi məsələlər), fərdin davranışına və hərəkətlərinə təsir edən ümumi və ya spesifik fikirləri və nəzər nöqtələri.

### e430 Səlahiyyəti və nüfuzu olan şəxslərin fərdi münasibətləri

Səlahiyyəti və nüfuzu olan şəxslərin şəxsiyyətə və digər məsələlərə aid (məsələn, sosial, siyasi və iqtisadi məsələlər), fərdin davranışına və hərəkətlərinə təsir edən ümumi və ya spesifik fikirləri və nəzər nöqtələri.

**e435 Tabelilərin fərdi münasibətləri**

Tabelilərin şəxsiyyətə və digər məsələlərə aid (məsələn, sosial, siyasi və iqtisadi məsələlər), fərdin davranışına və hərəkətlərinə təsir edən ümumi və ya spesifik fikirləri və nəzər nöqtələri.

**e440 Qulluq və yardım həyata keçirən personalın fərdi münasibətləri**

Qulluq və yardım həyata keçirən personalın şəxsiyyətə və digər məsələlərə aid (məsələn, sosial, siyasi və iqtisadi məsələlər), fərdin davranışına və hərəkətlərinə təsir edən ümumi və ya spesifik fikirləri və nəzər nöqtələri.

**e445 Kənar şəxslərin fərdi münasibətləri**

Kənar şəxslərin şəxsiyyətə və digər məsələlərə aid (məsələn, sosial, siyasi və iqtisadi məsələlər), fərdin davranışına və hərəkətlərinə təsir edən ümumi və ya spesifik fikirləri və nəzər nöqtələri.

**e450 Professional tibb işçilərinin fərdi münasibətləri**

Professional tibb işçilərini şəxsiyyətə və digər məsələlərə aid (məsələn, sosial, siyasi və iqtisadi məsələlər), fərdin davranışına və hərəkətlərinə təsir edən ümumi və ya spesifik fikirlər və nəzər nöqtələri.

**e455 Sağlamlıqla bağlı sahələrin professional işçilərinin fərdi münasibətləri**

Sağlamlıqla bağlı sahələrin professional işçilərinin şəxsiyyətə və digər məsələlərə aid (məsələn, sosial, siyasi və iqtisadi məsələlər), fərdin davranışına və hərəkətlərinə təsir edən ümumi və ya spesifik fikirlər və nəzər nöqtələri.

**e460 İctimai münasibətlər**

Eyni mədəniyyətə, cəmiyyətə, submədəniyyətə və ya hər-hansı digər sosial qrupa mənsub insanlar üçün ümumi olan digər fərdlərə və ya sosial, siyasi və iqtisadi məsələlərə aid, fərdin davranışına və hərəkətlərinə təsir edən ümumi və ya spesifik fikirlər və nəzər nöqtələri.

**e465 Sosial normalar, metodlar və ideologiyalar**

Sosial kontekstdən yaranan və ictimai və fərdi metod və davranışlara aid olan və ya onları formalaşdıran adətlər, metodlar, qaydalar və mücərrəd dəyərlər və normativ etiqadlar sistemləri (məsələn, ideologiya, normativ ümumbəşər təsəvvürü və əxlaq fəlsəfəsi), yəni sosial əxlaq və dini davranış normaları və ya etiketləri; dini doktrinalar və onların müəyyən etdiyi norma və metodlar; ayinlərdə və ya ictimai yığıncaqlarda davranış normaları.

**e498 Münasibətlər, digər dəqiqləşdirilmiş**

**e499 Münasibətlər, dəqiqləşdirilməmiş**

# BÖLMƏ 5. XİDMƏTLƏR, İNZİBATİ SİSTEMLƏR, SİYASƏT

Bu bölmə aşağıdakılara aiddir: 1. Xidmət təklif edən xidmət orqanlarına, həyatın müxtəlif sahələrində fərdin ehtiyaclarının ödənməsi üçün yaradılmış proqramlara və fəaliyyətə (bu xidmətlərlə təmin edən şəxslər daxil olmaqla). Xidmətlər ictimai, xüsusi və könüllü xarakter daşıya bilər və yerli səviyyədə, müəyyən ictimaiyyət səviyyəsində, regional, respublika, dövlət, milli və ya beynəlxalq səviyyələrdə sahibkarlar, assosiasiyalar, təşkilatlar, agentliklər və ya hökumət tərəfindən təşkil edilə bilər. Bu xidmətlərin təklif etdiyi məhsul ümumi, uyğunlaşdırılmış və ya xüsusi hazırlanmış ola bilər. 2. İnzibati nəzarət və təşkilat mexanizmlərindən ibarət yerli, regional, milli, beynəlxalq hakimiyyət və ya digər qəbul edilmiş hakimiyyət tərəfindən müəyyən edilən inzibati sistemlərə. Bu inzibati sistemlər xidmət təklif edən xidmət orqanlarının, həyatın müxtəlif sahələrində yaradılmış proqram və fəaliyyətin təşkili, onlara nəzarət və onların monitorinqi üçün nəzərdə tutulub. 3. Yerli, regional, milli, beynəlxalq hakimiyyət və ya digər qəbul edilmiş hakimiyyət tərəfindən müəyyən edilmiş qaydalar, təlimatlar, standartlar daxil olan siyasətə. Siyasətə əsasən fəaliyyət həyata keçirilir və xidmət təklif edən xidmət orqanlarının, həyatın müxtəlif sahələrində yaradılmış proqram və fəaliyyətin təşkili, onlara nəzarət və onların monitorinqi sistemləri tənzimlənir.

**e510 İstehlak mallarının istehsalı üzrə xidmətlər, inzibati sistemlər və siyasət**

İnsanlar tərəfindən istehlak edilən və ya istifadə edilən mal və məmulatların istehsalını təşkil və təmin edən xidmətlər, inzibati sistemlər və siyasət.

**e5100 İstehlak mallarının istehsalı üzrə xidmətlər**

İstehlak mallarının, məsələn, yerdəyişmə, rabitə, təhsil, nəql, əmək və məşğulluq, ev təsərrüfatı üçün istifadə olunan məmulatların və texnologiyaların yığımı, yaradılması, işlənib hazırlanması və istehsalı üçün xidmətlər və proqramlar, bu xidmətləri təmin edən insanlar da daxil olmaqla.

*Çıxarılıb: təhsil və tərbiyə üzrə xidmətlər (e5850); rabitə xidmətləri (e5350); bölmə 1: Məhsullar və texnologiyalar*

**e5101 İstehlak mallarının istehsalı üzrə inzibati sistemlər**

İnzibati nəzarət və monitorinq mexanizmləri, məsələn, standartları müəyyən edən regional, milli və ya beynəlxalq təşkilatlar (yəni Beynəlxalq Standartlar Təşkilatı) və istehlak mal və məmulatlarının yığımına, yaradılmasına, işlənib hazırlanmasına və istehsalına nəzarət edən istehlakçılar təşkilatları.

**e5102 İstehlak mallarının istehsalı üzrə siyasət**

İstehlak mal və məmulatlarının seçimi, yaradılması, işlənib hazırlanması və istehsalı qanunvericiliyi, təlimatları və standartları, məsələn, standartları müəyyən edən siyasət.

**e5108 İstehlak mallarının istehsalı üzrə xidmətlər, inzibati sistemlər və siyasət, digər dəqiqləşdirilmiş**

**e5109 İstehlak mallarının istehsalı üzrə xidmətlər, inzibati sistemlər və siyasət, dəqiqləşdirilməmiş**

**e515 Memarlıq və inşaat xidmətləri, inzibati sistemləri və siyasəti**

İctimai və şəxsi binaların layihələşdirilməsi və tikintisi üzrə xidmətlər, inzibati sistemlər və siyasət.

*Çıxarılıb: ərazilərin saxlanması üzrə xidmətlər, inzibati sistemlər və siyasət (e520)*

**e5150 Memarlıq və inşaat xidmətləri**

Yaşayış, kommersiya, sənaye və ictimai binaların layihələşdirilməsi, tikintisi və saxlanması xidmətləri və proqramları, məsələn, binaların qurulması, layihələşdirmə, inşaat məcəllələri, təlimatların və standartların prinsiplərinin reallaşması, bu xidmətləri təmin edən şəxslər daxil olmaqla.

**e5151 Memarlıq və inşaat inzibati sistemləri**

Yaşayış, kommersiya, sənaye və ictimai binaların layihələşdirilməsi, tikintisi və saxlanmasına nəzarət edən inzibati nəzarət və monitorinq mexanizmləri, məsələn, tikinti məcəllələrini və standartlarını, yanğından mühafizə və digər təhlükəsizlik standartlarını tətbiq edən və onların yerinə yetirilməsinə nəzarət edən sistemlər.

**e5152 Memarlıq və inşaat siyasəti**

Yaşayış, kommersiya, sənaye və ictimai binaların planlaşdırılması, layihələşdirilməsi, tikintisi və xidməti qanunvericiliyi, təlimatları və standartları, məsələn, tikinti məcəllələri və standartları, yanğından mühafizə və digər təhlükəsizlik standartları.

**e5158 Memarlıq və inşaat xidmətləri, inzibati sistemləri və siyasəti, digər dəqiqləşdirilmiş**

**e5159 Memarlıq və inşaat xidmətləri, inzibati sistemləri və siyasəti, dəqiqləşdirilməmiş**

## e520 Ərazilərin saxlanması üzrə xidmətlər, inzibati sistemlər və siyasət

Kənd, şəhərkənarı və şəhər yerlərində ictimai ərazilərin (məsələn, parkların, meşələrin, sahilin, bataqlıqların) və xüsusi ərazilərin planlaşdırılması və saxlanması üzrə xidmətlər, inzibati sistemlər və siyasət.

*Çıxarılıb: Memarlıq və inşaat xidmətləri, inzibati sistemləri və siyasəti (e515)*

**e5200 Ərazilərin saxlanması üzrə xidmətlər**

Şəhər, şəhərkənarı, kənd yerlərində, istirahət yerlərində və qoruqlarda, insanların yığışdığı yerlərdə (meydançalar, açıq ticarət meydanları, bazarlar), piyada və velosiped nəqliyyat marşrutlarında qayda-qanunun planlaşdırılmasını, yaradılmasını və qorunub saxlanmasını həyata keçirən xidmətlər və proqramlar, bu xidmətlərlə təmin edən şəxslər daxil olmaqla.

*Çıxarılıb: İctimai (e150) və xüsusi (e155) istifadə üçün layihələşdirmə, tikinti və quraşdırılma dizaynı, xarakteri; torpaqdan istifadə məhsulları və texnologiyaları (e160)*

**e5201 Ərazilərin saxlanması inzibati sistemləri**

Kənd yeri, şəhərkənarı, şəhər, parklar və qoruqlar daxil olmaqla, ərazilərin, planlaşdırılması, layihələşdirilməsi, inkişaf etdirilməsi və xidmət göstərilməsinə nəzarət edən inzibati nəzarət və monitorinq mexanizmləri, məsələn, təbiətin və mədəni dəyərlərin saxlanması üzrə regional və ya milli planlaşdırma, məcəllələr, siyasəti həyata keçirən və buna nəzarət edən sistemlər.

**e5202 Ərazilərin saxlanması üzrə siyasət**

Kənd yerləri, şəhərkənarı, şəhər, parklar və qoruqlar da daxil olmaqla, açıq ərazilərin planlaşdırılmasını, layihələşdirilməsini, inkişafını və xidməti tənzimləyən qanunvericilik, təlimatlar və standartlar, məsələn: təbiətin və mədəni dəyərlərin qorunması üzrə yerli, regional və ya milli planmaşdırma aktları, məcəllələri, siyasəti.

**e5208 Ərazilərin saxlanması üzrə xidmətlər, inzibati sistemlər və siyasət, digər dəqiqləşdirilmiş**

**e5209 Ərazilərin saxlanması üzrə xidmətlər, inzibati sistemlər və siyasət, dəqiqləşdirilməmiş**

## e525 Mənzil xidmətləri, inzibati sistemləri və siyasəti

İnsanları sığınacaq, mənzil və ya yaşayış yeri ilə təmin edən xidmətlər, inzibati sistemlər və siyasət.

**e5250 Mənzil xidmətləri**

Mənzillərdə və ya yerlərdə insanların yerləşdirilməsinə, qayda-qanunun təmin edilməsinə və saxlanmasına nəzarət edən xidmətlər və proqramlar, məsələn, daşınmaz əmlak agentlikləri və mənzil xidmətləri, bu xidmətlərlə təmin edən şəxslər daxil olmaqla.

**e5251 Mənzil inzibati sistemləri**

İnsanların yerləşdirilməsinə və yaşamasına nəzarət edən inzibati nəzarət və monitorinq mexanizmləri, məsələn, mənzil siyasətini həyata keçirən və ona nəzarət edən inzibati sistemlər.

**e5252 Mənzil siyasəti**

İnsanların yerləşdirilməsini və yaşamasını tənzimləyən qanunvericilik, təlimatlar və standartlar, məsələn, mənzil və ya məskunlaşma yerinin yararlılığını müəyyən edən qanunvericilik və siyasət; hökumətin mənzilin inkişafında və saxlanmasında iştirakına aid siyasət; mənzil sahəsinin harada və necə inkişaf etməli olduğuna aid siyasət.

**e5258 Mənzil xidmətləri, inzibati sistemləri və siyasəti, digər dəqiqləşdirilmiş**

**e5259 Mənzil xidmətləri, inzibati sistemləri və siyasəti, dəqiqləşdirilməmiş**

## e530 Kommunal təsərrüfat xidmətləri, inzibati sistemləri və siyasəti

Əhalini su, yanacaq, elektrik, sanitar xidmətlər, ictimai nəqliyyat və digər əsas xidmətlərlə təmin edən kommunal təsərrüfat müəssisələrinin xidmətləri, inzibati sistemləri və siyasəti.

*Çıxarılıb: vətəndaşların müdafiəsi xidmətləri, inzibati sistemləri və siyasəti (e545)*

**e5300 Kommunal təsərrüfat xidmətləri**

Yaşayış və kommersiya binalarında əhalini zəruri enerji (yanacaq və elektrik), sanitar-texniki xidmətlər, su və digər əsas xidmətlərlə (məsələn, təcili təmir xidmətləri) təchiz edən xidmətlər və proqramlar, bu xidmətlərlə təmin edən şəxslər daxil olmaqla.

**e5301 Kommunal təsərrüfat inzibati sistemləri**

Sanitar normalarına və təhlükəsizliyə və istehlakçı maraqlarına riayət olunması kimi kommunal xidmətlər göstərilməsi şərtlərinə nəzarət edən inzibati sistem və monitorinq mexanizmləri.

**e5302 Kommunal təsərrüfat siyasəti**

Kommunal xidmətlər göstərilməsi şərtlərini tənzimləyən qanunvericilik, təlimatlar və standartlar, məsələn, sanitar normalara və su və yanacaqla təchizat;n təhlükəsizliyinə, cəmiyyətdə sanitar qaydalara, defisit və ya təbii fəlakətlər halında digər zəruri xidmətlər və təchizatlar qaydalarına riayət etmə.

**e5308 Kommunal təsərrüfat xidmətləri, inzibati sistemləri və siyasəti, digər dəqiqləşdirilmiş**

**e5309 Kommunal təsərrüfat xidmətləri, inzibati sistemləri və siyasəti, dəqiqləşdirilməmiş**

## e535 Rabitə xidmətləri, inzibati sistemləri və siyasəti

İnformasiya ötürülməsi və informasiya mübadiləsi üçün xidmətlər, inzibati sistemlər və siyasət.

**e5350 Rabitə xidmətləri**

İnformasiyanın müxtəlif metodlarla, məsələn, telefon və faks əlaqəsi, yerüstü və aviapoçt, elektron poçt və digər kompüter rabitə texnologiyaları ilə (məsələn, telefon, teletayp, teletekst, internet) ötürülməsini təmin edən xidmətlər və proqramlar, bu xidmətlərlə təmin edən şəxslər daxil olmaqla.

*Çıxarılıb: informasiya vasitələri xidmətləri (e5600)*

**e5351 Rabitə inzibati sistemləri**

İnformasiyanın telefon, faks, yerüstü və aviapoçt, elektron poçt və kompüter rabitə texnologiyaları da daxil olmaqla, müxtəlif metodlarla ötürülməsini tənzimləyən telekommunikasiya rabitəsi orqanları və bu kimi nzibati nəzarət və monitorinq mexanizmləri.

**e5352 Rabitə siyasəti**

Telefon, faks, yerüstü və aviapoçt, elektron poçt və kompüter rabitə texnologiyaları da daxil olmaqla, müxtəlif metodlarla ötürülməsini tənzimləyən qanunvericilik, təlimatlar və standartlar, məsələn, rabitə xidmətlərinə çıxış icazəsi, poçt ünvanına aid tələblər və radiorabitə ilə təmin etmə standartları.

**e5358 Rabitə xidmətləri, inzibati sistemləri və siyasəti, digər dəqiqləşdirilmiş**

**e5359 Rabitə xidmətləri, inzibati sistemləri və siyasəti, dəqiqləşdirilməmiş**

## e540 Nəqliyyat xidmətləri, inzibati sistemləri və siyasəti

İnsanların və ya malların bir yerdən başqa yerə hərəkəti və ya yerdəyişməsini təmin edən xidmətlər, inzibati sistemlər və siyasət.

**e5400 Nəqliyyat xidmətləri**

İnsanların və ya malların avtomobil yolu, dəmir yolu, digər quru, hava və ya su nəqliyyatı, ictimai və ya xüsusi nəqliyyat vasitəsilə hərəkətini təmin edən xidmətlər və proqramlar, bu xidmətlərlə təmin edən şəxslər daxil olmaqla.

*Çıxarılıb: Gündəlik şəxsi istifadə üçün məmulatlar və texnologiyalar (e115)*

**e5401 Nəqliyyat inzibati sistemləri**

İnsanların və ya malların avtomobil yolu, dəmir yolu, digər quru, hava və ya su nəqliyyatı vasitəsilə hərəkətini tənzimləyən inzibati nəzarət və monitorinq mexanizmləri, məsələn, mövcud nəqliyyat vasitələrinin yararlılığını müəyyən edən, müxtəlif növ nəqliyyatdan istifadə ilə bağlı sanitar normaları və təhlükəsizlik tələblərini həyata keçirən və onlara nəzarət edən sistemlər.

*Çıxarılıb: Yol hadisələrində zərərçəkmişlərə sığorta vasitəsilə kompensasiya ödənməsi sistemləri (e570)*

**e5402 Nəqliyyat siyasəti**

İnsanların və ya malların avtomobil yolu, dəmir yolu, digər quru, hava və ya su nəqliyyatı vasitəsilə hərəkətini tənzimləyən qanunvericilik, təlimatlar və standartlar, məsələn, nəqliyyat aktları və siyasəti, ictimai nəqliyyatla təmin etmə və əlverişlilik normaları.

**e5408 Nəqliyyat xidmətləri, inzibati sistemləri və siyasəti, digər dəqiqləşdirilmiş**

**e5409 Nəqliyyat xidmətləri, inzibati sistemləri və siyasəti, dəqiqləşdirilməmiş**

## e545 Vətəndaşların müdafiəsi xidmətləri, inzibati sistemləri və siyasəti

İnsanların və mülkiyyətin müdafiəsi üçün nəzərdə tutulmuş xidmətlər, inzibati sistemlər və siyasət.

*Çıxarılıb: kommunal təsərrüfat xidmətləri, inzibati sistemləri və siyasəti (e530)*

**e5450 Vətəndaşların müdafiəsi xidmətləri**

Cəmiyyət tərəfindən təşkil edilmiş və insanların və mülkiyyətin mühafizəsi üçün nəzərdə tutulmuş xidmətlər və proqramlar, məsələn, yanğın xidməti, milis xidməti, təxirəsalınmaz və təcili yardım, bu xidmətlərlə təmin edən şəxslər daxil olmaqla.

**e5451 Vətəndaşların müdafiəsi inzibati sistemləri**

İnsanların və mülkiyyətin müdafiəsini tənzimləyən inzibati nəzarət və monitorinq mexanizmləri, məsələn, milis, yanğın, təxirəsalınmaz və təcili yardım xidmətləri ilə təminatı təşkil edən sistemlər.

**e5452 Vətəndaşların müdafiəsi siyasəti**

İnsanların və mülkiyyətin müdafiəsini tənzimləyən qanunvericilik, təlimatlar və standartlar, məsələn, milis, yanğın, təxirəsalınmaz və təcili yardım xidmətləri ilə təminat siyasəti.

**e5458 Vətəndaşların müdafiəsi xidmətləri, inzibati sistemləri və siyasəti, digər dəqiqləşdirilmiş**

**e5459 Vətəndaşların müdafiəsi xidmətləri, inzibati sistemləri və siyasəti, dəqiqləşdirilməmiş**

## e550 Ədliyyə xidmətləri, inzibati sistemləri və siyasəti

Ölkənin hüquq sisteminə aid xidmətlər, inzibati sistemlər və siyasət

**e5500 Ədliyyə xidmətləri**

Dövlətin qanunverici hakimiyyətinin qanuna əsasən təmin edilməsi üçün nəzərdə tutulmuş xidmətlər və proqramlar, məsələn, məhkəmələr, tribunallar və mülki və cinayət işlərinin qaydaya salınması və tənzimlənməsi, müvəkkillərin, notarius xidmətlərinin, vasitəçi, arbitraj xidmətlərinin və islahedici və ya cinayət cəzalarının verilməsi üçün digər orqanlar, bu xidmətlərlə təmin edən şəxslər daxil olmaqla.

**e5501 Ədliyyə inzibati sistemləri**

Ədliyyə orqanlarının işini tənzimləyən inzibati nəzarət və monitorinq mexanizmləri, məsələn, rəsmi qaydaların (qanunların, qaydaların, adətlərin, dini qaydaların, beynəlxalq qanunvericiliyin və sazişlərin) tətbiqini həyata keçirən və buna nəzarət edən sistemlər.

**e5502 Ədliyyə siyasəti**

Ədliyyə orqanlarının işini tənzimləyən qanunvericilik, təlimatlar və standartlar, məsələn, qanunlar, adətlər, dini qaydalar, beynəlxalq qanunvericilik və sazişlər.

**e5508 Ədliyyə xidmətləri, inzibati sistemləri və siyasəti, digər dəqiqləşdirilmiş**

**e5509 Ədliyyə xidmətləri, inzibati sistemləri və siyasəti, dəqiqləşdirilməmiş**

## e555 Assosiasiya və təşkilatlar xidmətləri, inzibati sistemləri və siyasəti

Ümumi qeyri-kommersiya maraqları ilə birləşmiş, çox vaxt üzvlüklə bağlı insanlar qrupuna aid xidmətlər, inzibati sistemlər və siyasət.

**e5550 Assosiasiya və təşkilatlar xidmətləri**

Xidmət göstərilməsi şərtinin cəmiyyətə üzvlük ola biləcəyi ümumi qeyri-kommersiya maraqları ilə birləşən insanlar tərəfindən təmin edilmiş xidmətlər və proqramlar, məsələn, əyləncə və asudə vaxtın keçirilməsi, idman, mədəni istirahət, dini və qarşılıqlı yardım təşkil edən assosiasiyalar və təşkilatlar.

**e5551 Assosiasiya və təşkilatlar inzibati sistemləri**

Ümumi qeyri-kommersiya maraqları ilə birləşmiş insanların münasibətlərini və fəaliyyətini, assosiasiya və təşkilatların, məsələn, qarşılıqlı yardım təşkilatları, mədəni və dini assosiasiyaların və qeyri-kommersiya təşkilatlarının yaradılması və mövcudluğunu tənzimləyən inzibati nəzarət və monitorinq mexanizmləri.

**e5552 Assosiasiya və təşkilatlar siyasəti**

Ümumi qeyri-kommersiya maraqları ilə birləşmiş insanların münasibətlərini və fəaliyyətini tənzimləyən qanunvericilik, təlimatlar və standartlar, yəni assosiasiya və təşkilatların yaradılması və fəaliyyəti siyasəti, qarşılıqlı yardım təşkilatları, mədəni və dini assosiasiyalar, qeyri-kommersiya təşkilatlarının siyasəti daxil olmaqla.

**e5558 Assosiasiya və təşkilatlar xidmətləri, inzibati sistemləri və siyasəti, digər dəqiqləşdirilmiş**

**e5559 Assosiasiya və təşkilatlar xidmətləri, inzibati sistemləri və siyasəti, dəqiqləşdirilməmiş**

## e560 Kütləvi informasiya vasitələri xidmətləri, inzibati sistemləri və siyasəti

Radio, televiziya, qəzet və internet xidmətləri ilə kütləvi təminat xidmətləri, inzibati sistemləri və siyasəti.

**e5600 Kütləvi informasiya vasitələri xidmətləri**

Kütləvi informasiya ilə təmin etmə üçün nəzərdə tutulmuş xidmətlər və proqramlar, məsələn, radio, televiziya, subtitr xidmətləri, mətbuat agentlikləri, qəzetlər, Braylya dilində informasiya ilə təmin edən xidmətlər və kompüter kütləvi informasiyası (beynəlxalq informasiya şəbəkəsi, internet), bu xidmətlərlə təmin edən şəxslər daxil olmaqla.

*Çıxarılıb: rabitə xidmətləri (e5350)*

**e5601 Kütləvi informasiya vasitələri inzibati sistemləri**

İnsanların geniş dairəsinin xəbərlər və informasiya ilə təmin edilməsini tənzimləyən inzibati nəzarət və monitorinq mexanizmləri, məsələn, kütləvi informasiyanın radio, televiziya, mətbuat agentliyi, qəzetlər və kompüter şəbəkəsi (beybəlxalq informasiya şəbəkəsi, internet) vasitəsilə saxlanmasını, paylanmasını, yayılmasını, çıxış və metodlarını tənzimləyən standartlar.

*Daxil edilib: Televiziya, qəzetlərin çıxması və Braylya dilində digər nəşriyyatlara, teletekst şəkilli radioproqramlara subtitrlərin təmin edilməsi tələbi.*

*Çıxarılıb: İnzibati rabitə sistemləri (e5351)*

**e5602 Kütləvi informasiya vasitələri siyasəti**

Geniş ictimaiyyətin xəbərlər və informasiya ilə təmin edilməsini tənzimləyən qanunvericilik, təlimatlar və standartlar, məsələn, kütləvi informasiyanın radio, televiziya, mətbuat agentliyi, qəzetlər və kompüter şəbəkəsi (beybəlxalq informasiya şəbəkəsi,

internet) vasitəsilə saxlanmasını, paylanmasını, yayılmasını, çıxış və metodlarını tənzimləyən standartlar.

*Çıxarılıb: Rabitə siyasəti (e5352)*

**e5608 Kütləvi informasiya vasitələri xidmətləri, inzibati sistemləri və siyasəti, digər dəqiqləşdirilmiş**

**e5609 Kütləvi informasiya vasitələri xidmətləri, inzibati sistemləri və siyasəti, dəqiqləşdirilməmiş**

## e565 İqtisadi xidmətlər, inzibati sistemlər və siyasət

Bütün mal və xidmətlərin istehsalı, paylanması, istehlakı və istifadəsi sistemi ilə əlaqədar xidmətlər, inzibati sistemlər və siyasət.

*Çıxarılıb: sosial müdafiə xidmətləri, inzibati sistemləri və siyasəti (e570)*

**e5650 İqtisadi xidmətlər**

Mal və xidmətlərin ümumi istehsalı, paylanması, istehlakı və istifadəsi üçün xidmətlər və proqramlar, bu xidmətlərlə təmin edən şəxslər, yəni, özəl kommersiya sektoru - firmalar, korporasiyalar, özəl müəssisələr daxil olmaqla; ictimai sektor, ictimai, kommersiya təşkilatları və müəssisələri daxil olmaqla, məsələn, kooperativlər və korporasiyalar; maliyyə təşkilatları, məsələn, banklar və sığorta şirkətləri, bu xidmətlərlə təmin edən şəxslər daxil olmaqla.

*Çıxarılıb: kommunal təsərrüfar xidmətləri (e5300); əmək və məşğulluq xidmətləri (e5900)*

**e5651 İqtisadi inzibati sistemlər**

Mal və xidmətlərin istehsalı, paylanması, istehlakı və istifadəsini tənzimləyən inzibati nəzarət və monitorinq mexanizmləri, məsələn, iqtisadi siyasətin həyata keçirilməsi və ona nəzarət üçün sistemlər.

*Çıxarılıb: kommunal təsərrüfat inzibati sistemləri (e5301); əmək və məşğulluq inzibati sistemləri (e5901)*

**e5652 İqtisadi siyasət**

Mal və xidmətlərin istehsalı, paylanması, istehlakı və istifadəsini tənzimləyən qanunvericilik, təlimatlar və standartlar, məsələn, hökumət tərəfindən qəbul edilmiş və həyata keçirilən iqtisadi doktrina.

*Çıxarılıb: kommunal təsərrüfat siyasəti (e5302); əmək və məşğulluq siyasəti (e5902)*

**e5658 İqtisadi xidmətlər, inzibati sistemlər və siyasət, digər dəqiqləşdirilmiş**

**e5659 İqtisadi xidmətlər, inzibati sistemlər və siyasət, dəqiqləşdirilməmiş**

## e570 Sosial sığorta xidmətləri, inzibati sistemləri və siyasəti

Yaşına, aşağı gəlirinə, işsizliyə, sağlamlıq vəziyyətinə və ya həyat fəaliyyətinin məhdud olmasına görə sosial yardıma ehtiyacı olan insanlara maddi yardımın təmin edilməsi üçün nəzərdə tutulmuş xidmətlər, inzibati sistemlər və siyasət; bu dəstək ümumi vergidən və ya fondlardan maliyyələşdirilir.

*Çıxarılıb: iqtisadi xidmətlər, inzibati sistemlər və siyasət (e565)*

**e5700 Sosial sığorta xidmətləri**

Yaşına, aşağı gəlirinə, işsizliyə, sağlamlıq vəziyyətinə və ya həyat fəaliyyətinin məhdud olmasına görə cəmiyyətin yardımına ehtiyacı olan insanların ümumi vergidən və ya

fondlardan maliyyələşən pul vəsaiti ilə təmin edilməsi üçün nəzərdə tutulmuş xidmətlər və proqramlar, məsələn, ehtiyac dərəcəsini, sosial yardım (sığorta və yoxsulluq və ya digər səbəblərdən kompensasiya sistemi ilə əlaqədar olmayan), sosial sığorta (bədbəxt hadisələrdən və işsizlikdən sığorta) və təqaüd təminatını, o cümlədən, həyat fəaliyyəti məhdudiyyətləri ilə əlaqədar təqaüd təminatını müəyyən edən xidmətlər, bu xidmətlərlə təmin edən şəxslər daxil olmaqla.

*Çıxarılıb: səhiyyə xidmətləri (e5800)*

**e5701 Sosial sığorta inzibati sistemləri**

Yaşına, aşağı gəlirinə, işsizliyə, sağlamlıq vəziyyətinə və ya həyat fəaliyyətinin məhdud olmasına görə cəmiyyətin yardımına ehtiyacı olan insanlara maddi dəstəyi təmin edən proqram və qaydaları təmin edən inzibati nəzarət və monitorinq mexanizmləri, məsələn, qaydaların tətbiq edilməsini, sosial yardım, dəstək, işsizlik, həyat fəaliyyəti məhdudiyyətlərinə görə sosial sığorta ödəmələri və bununla əlaqədar təqaüd və imtiyazların tənzimlənməsini həyata keçirən sistemlər.

**e5702 Sosial sığorta siyasəti**

Yaşına, aşağı gəlirinə, işsizliyə, sağlamlıq vəziyyətinə və ya həyat fəaliyyətinin məhdud olmasına görə cəmiyyətin yardımına ehtiyacı olan insanlara maddi dəstəyi təmin edən proqram və qaydaları tənzimləyən qanunvericilik, təlimatlar və standartlar, məsələn, işsizlik, həyat fəaliyyəti məhdudiyyətlərinə görə sosial yardım, dəstək, sosial sığorta ödəmələri və bununla əlaqədar təqaüd və imtiyazlar haqqında qanunvericilik və tənzimlənmə.

**e5708 Sosial sığorta xidmətləri, inzibati sistemləri və siyasəti, digər dəqiqləşdirilmiş**

**e5709 Sosial sığorta xidmətləri, inzibati sistemləri və siyasəyi, dəqiqləşdirilməmiş**

## e575 Ümumi sosial dəstək xidmətləri, inzibati sistemləri və siyasəti

Alış-veriş həyata keçirilməsi, ev təsərrüfatının aparılması, nəqliyyat vasitələrindən istifadə, özünə və başqalarına qayğı kimi cəmiyyətdə tam fəaliyyət üçün zəruri olan sahələrdə yardıma ehtiyacı olan insanlara dəstəyin təmin edilməsinə yönəlmiş xidmətlər, inzibati sistemlər və siyasət.

*Çıxarılıb: qulluq və yardım həyata keçirən personal (e340); sosial müdafiə xidmətləri, inzibati sistemləri və siyasəti (e570); səhiyyə xidmətləri, inzibati sistemləri və siyasəti (e580)*

**e5750 Ümumi sosial dəstək xidmətləri**

Yaşına, aşağı gəlirinə, işsizliyə, sağlamlıq vəziyyətinə və ya həyat fəaliyyətinin məhdud olmasına görə alış-veriş həyata keçirilməsi, ev təsərrüfatının aparılması, nəqliyyat vasitələrindən istifadə, özünə və başqalarına qayğı kimi cəmiyyətdə tam fəaliyyət üçün zəruri olan sahələrdə yardıma ehtiyacı olan insanlara dəstəyin təmin edilməsinə yönəlmiş xidmətlər və proqramlar.

**e5751 Ümumi sosial dəstək inzibati sistemləri**

Yaşına, aşağı gəlirinə, işsizliyə, sağlamlıq vəziyyətinə və ya həyat fəaliyyətinin məhdud olmasına görə alış-veriş həyata keçirilməsi, ev təsərrüfatının aparılması, nəqliyyat vasitələrindən istifadə, özünə və başqalarına qayğı kimi cəmiyyətdə tam fəaliyyət üçün zəruri olan sahələrdə yardıma ehtiyacı olan insanlara sosial dəstək göstərilməsini təmin edən proqram və qaydaları tənzimləyən inzibati nəzarət və monitorinq mexanizmləri.

**e5752 Ümumi sosial dəstək siyasəti**

Yaşına, aşağı gəlirinə, işsizliyə, sağlamlıq vəziyyətinə və ya həyat fəaliyyətinin məhdud olmasına görə yardıma ehtiyacı olan insanların sosial yardımla təmin edilməsini

tənzimləyən qanunvericilik, təlimatlar və standartlar, sosial dəstək göstərilməsi qanunvericiliyi və qaydaların tənzimlənməsi daxil olmaqla.

**e5758 Ümumi sosial dəstək xidmətləri, inzibati sistemləri və siyasəti, digər dəqiqləşdirilmiş**

**e5759 Ümumi sosial dəstək xidmətləri, inzibati sistemləri və siyasəti, dəqiqləşdirilməmiş**

## e580 Səhiyyə xidmətləri, inzibati sistemləri və siyasəti

Xəstəliklərin qarşısının alınması və müalicəsi, tibbi reabilitasiya ilə təmin etmə və sağlam həyat tərzinin təbliği üçün xidmətlər, inzibati sistemlər və siyasət.

*Çıxarılıb: ümumi sosial dəstək xidmətləri, inzibati sistemləri və siyasəti (e575)*

**e5800 Səhiyyə xidmətləri**

Fərdin fiziki, ruhi və sosial əmin-amanlığının təmin edilməsi üçün nəzərdə tutulmuş yerli, regional, federal və ya milli səviyyəli xidmətlər və proqramlar, məsələn: sağlamlığın mühafizəsi və xəstəliklərin profilaktikası, ilkin tibbi yardım, təxirəsalınmaz yardım xidmətləri, reabilitasiya və uzun müddət ərzində yardım göstərilməsi xidmətləri; ictimai və ya xüsusi mənbələrdən maliyyələşən, qısamüddətli, uzunmüddətli, vaxtaşırı və ya bir dəfəlik əsaslarla müxtəlif şəraitlərdə, yəni ictimai, ev, məktəb və istehsalat tibb müəssisələrində, ümumi və xüsusi xəstəxanalarda, klinikalarda, yaşayış yeri üzrə və federal poliklinikalarda işləyən xidmətlər, bu xidmətlərlə təmin edən şəxslər daxil olmaqla.

**e5801 İnzibati səhiyyə sistemləri**

Fərdin müxtəlif şəraitlərdə, yəni ictimai, xüsusi, məktəb və sənaye tibb müəssisələrində, ümumi və xüsusi xəstəxanalarda, klinikalarda, polinklinikalarda fiziki, ruhi və sosial əmin-amanlığının təmin edilməsini tənzimləyən inzibati nəzarət və monitorinq mexanizmləri, məsələn, təlimatları və standartları həyata keçirən, xidmətlərin əsaslılığının köməkçi qurğular, köməkçi texnologiya və ya digər uyğunlaşdırılmış avadanlıqla təmin edilməsini müəyyən edən sistemlər və səhiyyənin əlverişliyini, nadirliyini, sürətlə hərəkət etmə qabiliyyətini, ictimaiyyət tərəfindən maliyyələşdirilməsini və əhatə genişliyi kimi xüsusiyyətlərini müəyyən edən qanunverici aktlar.

**e5802 Səhiyyə siyasəti**

Fərdin müxtəlif şəraitlərdə, yəni ictimai, xüsusi, məktəb və sənaye tibb müəssisələrində, ümumi və xüsusi xəstəxanalarda, klinikalarda, polinklinikalarda fiziki, ruhi və sosial əmin-amanlığının təmin edilməsini tənzimləyən qanunvericilik, təlimatlar və standartlar, məsələn, xidmətlərin əsaslılığının köməkçi qurğular, köməkçi texnologiya və ya digər uyğunlaşdırılmış avadanlıqla təmin edilməsini müəyyən edən siyasət və standartlar və səhiyyənin əlverişliyini, nadirliyini, sürətlə hərəkət etmə qabiliyyətini, ictimaiyyət tərəfindən maliyyələşdirilməsini və əhatə genişliyi kimi xüsusiyyətlərini müəyyən edən qanunverici aktlar.

**e5808 Səhiyyə xidmətləri, inzibati sistemləri və siyasəti, digər dəqiqləşdirilmiş**

**e5809 Səhiyyə xidmətləri, inzibati sistemləri və siyasəti, dəqiqləşdirilməmiş**

## e585 Təhsil və təlim xidmətləri, inzibati sistemləri və siyasəti

Bilik, təcrübə və professional-texniki və ya bədii bacarıqların əldə edilməsi və təkmilləşdirilməsi üçün xidmətlər, inzibati sistemlər və siyasət. YUNESKO Beynəlxalq Standart Təhsil Təsnifatına bax (İSCED).

**e5850 Təlim və təhsil xidmətləri**

Təhsil və biliklərin, təcrübə və professional-texniki və ya bədii bacarıqların əldə edilməsi, inkişafı və təkmilləşdirilməsini təmin edən xidmətlər və proqramlar, yəni müxtəlif təhsil səviyyələrini (məsələn, məktəbəqədər, ibtidai, orta məktəb və sonrakı təhsil, professional proqramlar, treninq və bacarıq əldə olunması üçün proqramlar, istehsalatda təhsil və təhsilin davamı) təmin edən xidmətlər, bu xidmətləri təmin edən şəxslər daxil olmaqla.

**e5851 İnzibati təhsil və təlim sistemləri**

Təhsil proqramının əlverişliliyini tənzimləyən inzibati nəzarət və monitorinq mexanizmləri, məsələn, ictimai və ya özəl təhsilin və xüsusi proqramların qəbul edilməsini müəyyən edən siyasət və standartların reallaşması sistemləri; yerli, regional və ya milli təhsil idarəetmələri və ya məktəb proqramı, sinfin ölçüsü, regionda məktəblərin sayı, ödəmə və subsidiyalar, xüsusi proqramlar və əlavə məşğələlər kimi təhsil sistemi məsələlərini tənzimləyən digər rəhbər orqanlar.

**e5852 Təhsil və təlim siyasəti**

Təhsil proqramının əlverişliliyini tənzimləyən qanunvericilik, təlimatlar və standartlar, məsələn, ictimai və ya özəl təhsilin və xüsusi proqramların qəbul edilməsini müəyyən edən və yerli, regional və ya milli təhsil idarəetmələrinin və ya məktəb proqramı, sinfin ölçüsü, regionda məktəblərin sayı, ödəniş və subsidiyalar, xüsusi proqramlar və əlavə məşğələlər kimi təhsil sistemi məsələlərini tənzimləyən digər rəhbər orqanların strukturunu müəyyən edən siyasət və standartlar.

**e5858 Təhsil və təlim xidmətləri, inzibati sistemləri və siyasəti, digər dəqiqləşdirilmiş**

**e5859 Təhsil və təlim xidmətləri, inzibati sistemləri və siyasəti, dəqiqləşdirilməmiş**

## e590 Əmək və məşğulluq xidmətləri, inzibati sistemləri və siyasəti

İşsizlərə və başqa iş axtaran şəslərə müvafiq iş axtarılması üçün nəzərdə tutulmuş və ya xidmət üzrə irəliləyiş axtaran fərdlərə dəstək həyata keçirən xidmətlər, inzibati sistemlər və siyasət.

*Çıxarılıb: iqtisadi xidmətlər, sistemlər və siyasət (e565)*

**e5900 Əmək və məşğulluq xidmətləri**

İşsiz, başqa iş axtaran insanlara müvafiq işin axtarılması üçün nəzərdə tutulmuş və ya artıq işləyən fərdlərə dəstək həyata keçirən yerli, regional və ya milli qanunvericilik səviyyəsində və ya xüsusi təşkilatlar tərəfindən təmin edilmiş xidmətlər və proqramlar, məsələn, məşğulluq və yenidənhazırlama, işə göndərmə, köçürülmə və işdən çıxarılma, professional-texniki nəzarət, işləyənlərin sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi üzrə xidmətlər və iş şəraitinə (məsələn, erqonomik şərait, insan resursları və personalı idarəermə ilə, əmək münasibətləri sahəsində xidmətlərlə, professional assosiasiya xidmətləri ilə təmin etmə) nəzarət edən xidmətlər, bu xidmətlərlə təmin edən şəxslər daxil olmaqla.

**e5901 Əmək və məşğulluq inzibati sistemləri**

İş yerlərinin bölünməsini və mükafat üçün iş formalarını tənzimləyən inzibati nəzarət və monitorinq mexanizmləri, məsələn, iş yerlərinin, iş yerlərində təhlükəsizliyin yaradılması, işə qəbul və iş yerlərinin rəqabətədavamlılığı üçün, o cümlədən, həmkarlar ittifaqları ilə bağlı standartlar və normalar, əmək standartları və qanunları.

**e5902 Əmək və məşğulluq siyasəti**

İş yerlərinin paylanmasını və mükafat üçün digər iş formalarını tənzimləyən qanunvericilik, təlimatlar və standartlar, məsələn, iş yerlərinin, iş yerlərində təhlükəsizliyin yaradılması, işə qəbul və iş yerlərinin rəqabətədavamlılığı üçün, o cümlədən, həmkarlar ittifaqları ilə bağlı standartlar və normalar, əmək standartları və qanunları.

**e5908 Xidmətlər, inzibati sistemlər və əmək və məşğulluq siyasəti, digər dəqiqləşdirilmiş**

**e5909 Xidmətlər, inzibati sistemlər və əmək və məşğulluq siyasəti, dəqiqləşdirilməmiş**

## e595 Siyasi qurumlar, sistemlər və siyasət

Səsvermə, seçkilər və ölkədə, regionda və birlikdə, həmçinin beynəlxalq təşkilatlarda idarəetmə ilə bağlı qurumlar, sistemlər və siyasət.

**e5950 Siyasi qurumlar**

Strukturlar və yerli, regional və milli hökumətlərin, beynəlxalq təşkilatların və bu strukturlara seçilmiş və ya təyin edilmiş şəxslərin fəaliyyəti, məsələn, Birləşmiş Millətlər Təşkilatı, Avropa İttifaqı, hökumət, regional hakimiyyət, yerli orqanlar, ənənəvi liderlər.

**e5951 Siyasi sistemlər**

Cəmiyyətin siyasi və iqtisadi hakimiyyətini təşkil edən hakimiyyətin icraedici və qanunverici qolları, konstitusiya və ya siyasi təşkilat doktrinası: müəssisələr, hakimiyyətin icraedici və qanunverici qollarının strukturları, ordu kimi digər səlahiyyət verilən hüquqi orqanlar və bu kimi strukturlar və onlarla əlaqəli mexanizmlər.

**e5952 Siyasi təşkilat**

Siyasi həyatı tənzimləyən siyasi sitemlər tərəfindən formalaşdırılan və həyata keçirilən qanunlar və siyasət, məsələn, seçki kampaniyalarının idarə edilməsi siyasəti, siyasi partiyaların qeydiyyatı və səsvermələr, beynəlxalq siyasi təşkilatlarda üzvlük; sazişlər, siyasi qanunvericilik və təlimatlar daxil olmaqla.

**e5958 Siyasi qurumlar, sistemlər və siyasət, digər dəqiqləşdirilmiş**

**e5959 Siyasi qurumlar, sistemlər və siyasət, dəqiqləşdirilməmiş**

## e598 Xidmətlər, sistemlər və siyasət, digər dəqiqləşdirilmiş

## e599 Xidmətlər, sistemlər və siyasət, dəqiqləşdiriməmişlər

# Əlavə 1

## TAKSONOMİK VƏ TERMİNOLOJİ MƏSƏLƏLƏR

FBT təsnifatı aşağıda göstərilən standart taksonomik prinsiplərə uyğun iyerarxiya sxemi üzrə təşkil edilmişdir:

- Orqanizmin tərkibi funksiyaları və strukturları, fəallıq və iştirak, həmçinin ətraf mühitin amilləri, bir-birindən asılı olmadan təsnif edilmişdir. Bir tərkib hissənin terminləri digərində təkrar olunmur;
- Kateqoriyalar hər bir tərkib hissənin hüdudunda «şaxələnmiş ağac» tipi üzrə elə yerləşdirilib ki, ən aşağı səviyyəli kateqoriyalar onlara aid olduğu daha yüksək səviyyəli kateqoriyaların əlamətlərini daşısınlar;
- Kateqoriyalar bir-birini təkrar etməməlidir, yəni eyni əlamətli kateqoriyalar bir səviyyədə yerləşdirilməyib. Lakin bu heç də o demək deyil ki, individin fəaliyyətinin təsvir edilməsi üçün bir kateqoriyadan artıq kateqoriya istifadə olunmur; zərurət yarananda bu cür təcrübəyə yol verilir və hətta alqışlanır.

## 1. FBT kateqoriyaları terminləri

Terminlər - dilçilik ifadələrində söz və ya ifadə kimi müəyyən konsepsiyaların işarələridir. Qarışıqlıq yaradan terminlərin əksəriyyəti gündəlik danışıqda və yazıda adi mənada istifadə olunur. Məsələn, «pozuntu», «həyat fəaliyyətinin məhdudlaşdırılması» və «sosial çatışmazlıq» adi hallarda bir-biri ilə əvəz olunur, hərçənd PBT-nin 1980-ci il variantında bu terminlərə müəyyən mənalar verən təriflər göstərilmişdir. Yenidən baxılma prosesi ərzində «sosial çatışmazlıq» termini təsnifatdan çıxarılmış, «həyat fəaliyyətinin məhdudlaşdırılması» termini isə hər üç səviyyədə, yəni orqanizm, individ və cəmiyyət səviyyəsində istifadə olunmaq üçün ümumiləşdirilmişdir. Lakin müvafiq terminlərin seçimi zamanı hər hansısa bir əsas konsepsiyanın birmənalı şərh edilməsi üçün aydınlıq və dəqiqlik tələb olunur. Bu xüsusilə ona görə vacibdir ki, FBT, bir təsnifat kimi, bir çox dillərə tərcümə ediləcək. Konsepsiyaların ümumi anlayışından başqa, mahiyyətini istənilən dildə dəqiq əks etdirə bilən terminologiyanın qəbul olunması da mühüm məsələdir. Bir çox alternativ mövcud ola bilər, lakin onların həll olunması dəqiqlik, qəbul oluna bilmə və istifadə üçün ümumi yararlığa əsaslanmalıdır. Ümid edilir ki, FBT həm yararlı, həm də aydın olacaq.

Aşağıda FBT-də istifadə olunan bəzi terminlər göstərilir:

**Rifah** – insan həyatının domenlərinin (o cümlədən fiziki, mənəvi və sosial aspektləri daxil etməklə) universallığına işarə edən ümumi termindir. Bu termindən «yaxşı həyat» demək istəyəndə istifadə edirlər. Sağlamlıq domenləri insan həyatının ümumi universallığını təşkil edən domenlər toplusudur. Bu münasibətlər aşağıdakı rifahı əks edən diaqramda göstərilib:

**Şəkil 1. Rifahın universallığı**




**Sağlamlıq və sağlamlıq domenlərinin göstəriciləri.** Sağlamlıq göstəricisi - bu FBT sağlamlıq domenləri həddində fəaliyyəti səviyyəsidir. Sağlamlıq domenləri «sağlamlıq» anlayışı çərçivəsində şərh olunan həyat sahələrinə işarə edir. Həmin sahələr sağlamlıq amilləri nəzərə alınan zaman əvvəlcədən sağlamlıq amilləri ilə şərtləşdirilmiş kimi müəyyən edilə bilər. FBT sağlamlıq və domenləri və sağlamlıqla bağlı olan domenlər arasında qəti hədd müəyyən etmir. Sağlamlıq ünsurları və sağlamlıqla bağlı olan ünsurlar haqqında müxtəlif konseptual təsəvvürlərlə əlaqədar olan və FBT domenlərində əks oluna bilən keçid (boz) zonası ola bilər.

**Sağlamlıqla bağlı olan göstəricilər və domenlər.** Sağlamlıqla bağlı olan göstərici sağlamlıqla bağlı olan domenin həmin FBT çərçivəsində fəaliyyət səviyyəsidir. Sağlamlıqla bağlı olan domenlər sağlamlığın dəyişilməsi ilə mühüm əlaqəsi olan, birbaşa və ya ilkin olaraq sağlamlıq amilləri ilə deyil, daha çox rifaha səbəb olan digər amillərlə müəyyən edilən fəaliyyət sahələridir. FBT-da yalınz sağlamlıqla bağlı olan rifah domenləri təsvir olunub.

**Sağlamlığın dəyişilməsi** – xəsətəlik (kəskin və ya xroniki), pozuntu, zədə və ya travma üçün müəyyən edilmiş ümumi termindir. Sağlamlığın dəyşilməsi həmçinin digər, yəni hamiləlik, qojalma, stress, anadangəlmə anomaliya və genetik meyl kimi hallar da nəzərdə tuta bilər. Sağlamlığın dəyişilməsi PBT-da 10 kimi kodlaşdırılır.

**Fəaliyyət** – orqanizmin funksiyaları və strukturu, fəallıq və iştirak üçün ümumi termindir. O, individ (sağlamlığında dəyişikliklər olan) və onun kontekst amilləri (ətraf mühit amilləri və şəxsiyyət amilləri) arasında olan qarşılıqlı təsirlərin pozitiv aspektlərinə işarə edir.

**Həyat fəaliyyətinin məhdudlaşdırılması** – pozuntuların, fəallığın və iştirak etmək imkanının məhdudlaşdırılması üçün ümumi termindir. O, individ (sağlamlığında dəyişikliklər olan) və onun kontekst amilləri (ətraf mühit amilləri və şəxsiyyət amilləri) arasında olan qarşılıqlı təsirlərin neqativ aspektlərinə işarə edir.

**Orqanizmin funksiyaları** – orqanizmin sistemlərinin fizioloji funksiyalarıdır (ruhi funksiyalar daxil olmaqla). «Orqanizm» termini insan orqanizminə bir bütövlük kimi yanaşır. Nəticə etibarı

ilə, o, beyni daxil edir. Beləlkilə, əqli (və ya ruhi) funksiyalar orqanizm funksiyaları kateqoriyasına aiddir. Bu funksiyaların standartı insanlar üçün statistik norma olmalıdır.

**Orqanizmin strukturları** – orqanizm sistemlərinə uyğun olaraq təsnif edilmiş, orqanlar, ətraflar və onların komponentləri kimi, orqanizmin struktur və ya anatomik hissələri. Bu funksiyaların standartı insanlar üçün statistik norma olmalıdır.

**Pozuntu** – bədən strukturunun və ya fizioloji funksiyanın normasının itirilməsi və ya ondan kənara çıxmadır.

Fizioloji funksiyalar əqli funksiyaları da daxil edir. Hazırkı halda «kənara çıxma» terminindən ümumi qəbul olunmuş statistik nomalardan (standart norma qismində qəbul olunmuş orta populyasiya kəmiyyətindən kənara çıxma kimi) mühüm kənara çıxmanı əks etdirmək üçün istifadə olunur və o, yalnız bu mənada istifadə olunmalıdır.

**Fəallıq** – vəzifənin və ya hərəkətin individ tərəfindən yerinə yetirilməsidir. O, fəaliyyətin fərdi tərəfini əks edir.

**Fəallığın məhdudlaşdırılması**[1] – individin fəallığın həyata keçirilməsində çəkə biləcək çətinliklərdir. Fəallığın məhdudlaşdırılması fəallığın yerinə yetirilməsi zamanı istər formaya görə, istərsə də kəmiyyətə görə keyfiyyət və ya saya görə kiçik kənara çıxmadan böyük kənara çıxmaya qədər dəyişilə bilər (insanlarla nisbətdə sağlamlığı dəyişilmədən).

**İştirak**[2]**-** individin gündəlik həyat hadisələrinə cəlb olunmasıdır. İştirak etmə imkanının məhdud olub-olmaması mövcudluğu individin bu mədəniyyətdə və ya cəmiyyətdə məhdudiyyətsiz həyat fəaliyyətini sürərkən iştirakı ilə müqayisə olunarkən müəyyən edilir.

**Kontekst amilləri** – individin bütün həyat şəraitlərini, xüsusilə də FBT-da sağlamlıq göstəricilərinin təsnifatı fonu, bütövlükdə təsvir edən amillərdir. Kontekst amilləri iki tərkib hissədən ibarətdir: ətraf mühit amilləri və şəxsiyyət amilləri.

**Ətraf mühit amilləri** – FBT-nin tərkib hissəsidir və individin həyat şəraitini formalaşdıran və bununla onun fəaliyyətinə təsir göstərən ətraf (və ya xarici) mühitin bütün aspektlərinə aiddir. Ətraf mühit amilləri təbiəti və onun xüsusiyyətlərini, insan tərəfindən yaradılan fiziki aləmi, müxtəlif əlaqədə və rollarda olan digər insanları, münasibətləri və dəyərləri, sosial sistemi və xidmətləri, siyasəti, nomaları və qanunları daxil edir.

**Şəxsiyyət amilləri** – individin atributları olan yaş, cins, sosial vəziyyət, həyat təcrübəsi və s. kimi kontekst amillərdir. Bu amillər hal-hazırda FBT-da təsnif edilmir, lakin təsnifatla iş zamanı istifadəçilər tərəfindən istifadə oluna bilərlər.

---

[1] PBT-ın 1980-ci il variantında «fəallığın məhdudlaşdırılması» termini «həyat fəaliyyətinin məhdudlaşdırılması» termini əvəz edir
19 PBT-ın 1980-ci il variantında istifadə olunan «sosial çatışmazlıq» terminini «iştirak etmə imkanının məhdudlaşdırılması» termini əvəz edir

**Yüngülləşdirici amillər** – öz mövcudluğu və ya yoxluğu ilə fəaliyyəti yaxşılaşdıran və həyat fəaliyyətinin məhdudlaşdırılmalarını azaldan insanın ətraf mühitində olan amillərdir. Onlara ətraf mühitin əvverişli olması, zəruri köməkçi texnologiyaların yararlı olması, fəaliyyətin məhdudlaşdırılması faktına insanların müsbət münasibəti, sağlamlığında fəaliyyətinin məhdudlaşdırılmasına səbəb olan dəyişikliklər olan bütün insanların həyatın hər bir sahəsinə cəlb olunmasının artımına yönəldilmiş xidmətlər, sistemlər və siyasət kimi aspektlər şamil olunur. Müəyyən amilin, məsələn ləkənin və ya mənfi münasibətin yoxluğu da yüngülləşdirici amil ola bilər. Yüngülləşdirici amillər pozuntular nəticəsində iştirak etmənin məhdudlaşmasının və ya individin potensial qabiliyyətin azalmasına baxmayaraq, individin özünü təsdiqləmə nəticəsində fəallığın məhdudlaşmasının yaranmasının qarşısını ala bilərlər.

**Maneələr** – öz mövcudluğu və ya yoxluğu ilə fəaliyyəti məhdudlaşdıran və həyat fəaliyyətinin məhdudlaşdırılmasına gətirib çıxaran insanın ətraf mühitindəki amillərdir. Onlara ətraf mühitin əvverişli olmaması, zəruri köməkçi texnologiyaların yararlı olmaması, fəaliyyətin məhdudlaşdırılması faktına insanların neqativ münasibəti, sağlamlığında dəyişikliklər olan bütün insanların həyatın hər bir sahəsinə cəlb olunmasına mane olan və ya mövcud olmayan xidmətlər, sistemlər və siyasət kimi aspektlər şamil olunur.

**Potensial qabiliyyət (kapasitet)** – insan fəallıq və hazırki məqamda iştirak etmə siyahısında gətirilən hər hansısa bir domen zamanı əldə edə biləcək maksimal dərəcədə mümkün olan fəaliyyət səviyyəsini (müəyyənedici qismində) qeyd edən parametrdir. Potensial qabiliyyət ətraf mühitin tipik və standart şəraitlərində ölçülür və beləliklə, ətraf mühitin müəyyən şəraitində individin qabiliyyətlərini əks edir. Ətraf mühitin tipik və ya standart şəraitlərinin səciyyəvi xüsusiyyətləri ətraf mühitin amillərində kodlaşdırıla bilər.

**Özünü təsdiqləmə** – real ətraf mühitdə individin nə etdiyini (müəyyənedici qismində) təsvir edən parametrdir və beləliklə, gündəlik həyat hadisələrinə cəlb olunma aspektini aşkar edir. Real ətraf mühitin səciyyəvi xüsusiyyətləri ətraf mühit amillərindən istifadə olunmaqla kodlaşdırılır.

**Şəkil 2. FBT-nin quruluşu**



## 2. FBT bir təsnifat kimi

FBT-nin təsnifatını anlamaq üçün onun strukturunu anlamaq vacibdir. O, aşağıda və şəkil 2-də göstərilmiş terminlərdə əks olunub.

***Təsnifat*** – o, FBT-nin tam strukturudur. Hal hazırkı iyerarxiyada bu, ən ali termindir.

***Təsnifat hissələri:*** - bu, onun iki əsas yarımfəsildir.

- 1-ci hissə funksionallıq və həyat fəaliyyətində məhdudiyyətləri əhatə edir
- 2-ci hissə konstekst amilləri əhatə edir

***Tərkib hissələri:*** bu, təsnifatın hər iki hissəsinin iki əsas yarımfəslidir.

1-ci hissənin tərkib hissələri:

- Orqanizmin Funksiyaları və Strukturları
- Fəallıq və İştirak

2-ci hissənin tərkib hissələri:

- Ətraf mühit amilləri
- Şəxsiyyət amilləri (FBT-da təsnifləşdirilmir)

***Parametrlər*** müvafiq təyinedicilərin kodları vasitəsilə müəyyən olunur.

1-ci hissə üçün dörd və 2-ci hissə üçün bir parametr mövcuddur.

1-ci hissənin parametrləri:

- Orqanizmin funksiyalarının dəyişməsi
- Orqanizmin strukturlarının dəyişməsi
- Potensial qabiliyyət
- Reallaşdırma

2-ci hissənin parametri:

- Yüngülləşmə amilləri yaxud ətraf mühitin amillərində maneələr

***Domen*** – bu, praktiki olaraq, əlaqəli fizioloji funksiyaların, anatomik strukturların, fəaliyyətlərin, həyat vəzifələri və sahələrin əhəmiyyət kəsb edən toplusudur. Domenlər müxtəlif bölmələri və hər bir tərkib hissəsinin bloklarını formalaşdırır.

***Kateqoriyalar*** – bu, hər hansı tərkib hissəsinin, yəni təsnifat vahidlərin domenlərinin daxilində siniflər və yarımsiniflərdir.

***Səviyyələr*** kateqoriyaların detallaşdırılmasının (yəni domen və kateqoriyaların detallaşdırılması dərəcəsi) qeyd edilməsi üçün iyerarxik qaydanı təmin edir. Birinci səviyyə bütöv ikinci səviyyəni və s. daxil edir.

## 3. FBT kateqoriyalarının təyini

Təriflər – kateqoriyada qeyd olunmuş (yəni keyfiyyətlər, xassələr yaxud da münasibətlər) konsepsiyanın əhəmiyyət kəsb edən amillərinin gətirilməsi tezisidir. Tərif terminlərlə qeyd olunmuş hadisələrin yaxud da əşyaların mahiyyətini müəyyən edir və praktiki olaraq, onunla əlaqəli olan əşya və hadisələrin digərlərdən fərqlərinə işarə edir.

FBT kateqoriyaları üçün təriflərin xülasə edilməsi zamanı daxil etmələr və çıxmalarla olan istifadədə olan təriflərin aşağıdakı ideal xüsusiyyətləri nəzərə alınmışdır:

- Təriflər mənaya və məntiqi ardıcıllığa malik olmalıdır
- Kateqoriya konsepsiyasının eyniləşdirilməsi zamanı onlar nadir olmalıdır
- Onlar konsepsiyanın əhəmiyyət kəsb edən amillərinə, yəni həm onun nəyə aid olması (hansı obyektlərə yaxud hadisələrə aiddir), həm də nədən ibarət (konsepsiyaya aid olan) olması kimi amillərdən malik olmalıdır.
- Onlar dəqiq, birmənalı və tam olaraq terminin mənasını əhatə etməlidir
- Praktiki istifadə üçün (məsələn, ağırlıq, davamiyyət, nisbi rütubət və mümkün assosiyasiyaların terminlərində) yararlı terminlərdə ifadə olunmalıdır
- Onlar təkrarlanmanı istisna etməlidir, yəni termin özü və yaxud onun sinonimi tərifdə olmamalı və onlar ilk dəfə olaraq hər hansı digər yerdə göstərilmiş termini təkrar istifadə etməməlidir
- Harda bu, münasibdirsə, onlar mümkün etioloji və qarşılıqlı əlaqəyə girən amillərə müraciət etməlidir
- Onlar daha yüksək səviyyəli (məsələn, üçüncü səviyyənin termini məxsus olduğu ikinci səviyyə kateqoriyalarının ümumi xüsusiyyətlərini daxil etməlidir) terminlərin atributlarına uyğun olmalıdır
- Aşağıda yerləşən səviyyələrin (məsələn, ikinci səviyyə terminlərinin xassələri ona aid olan üçüncü səviyyənin terminlərinə qarşı durmur)
- Onlar bədii və yaxud da metaforik deyil, praktiki olmalıdır.
- Onlar təcrübəyə əsaslanmış bəlli və əlavə məlumatlara əsasən yoxlama və hesablama üçün sadə olan tezisləri təsdiqləməlidir
- Onlar, nə qədər bu mümkündürsə, yersiz mənfi məna olmadan bitərəf terminlərdə əks olmalıdır

- Onlar qısa və mümkün dərəcədə xüsusi terminologiyanın istifadəsindən uzaqlaşmalıdır (istisna orqanizm strukturlarına və funksiyalarına aid olan bəzi terminlərdən ibarətdir)
- Zaman keçdikcə meydana gələn fərqlər və mədəniyyətlər variasiyalarını əhatə edən sinonim və misalları ifadə edən həmin tərifin ibarət olduğu konkretləşdirilmiş siyahı ilə müşayiət olmalıdır
- Onlar istifadəçiyə terminlərin oxşar mənalarına görə anlaşılmazlıqlardan qaçmaq üçün imkan yaradan istisnalar siyahısı ilə müşayiət olmalıdır

## 4. Terminologiyaya dair əlavə qeydlər

Hər hansı təsnifat əsasında olan terminologiya təsnif edilən hallar və təsnif etmənin özünün strukturu arasında fundamental fərqi göstərir. Ümumi planda bu dünyanı təsvir etmək üçün istifadə etdiyimiz ətraf mühit və terminlər arasında fərqi dərk etmək vacibdir. Məsələn, əgər «tərkib hissə» və «kateqoriya» terminlərinin mənası təsnifata aiddirsə, onda «ölçən» yaxud da «domen» terminlərinin mənası faktiki dünyanın hadisələrinə aid ola bilərdi.

Eyni zamanda bu terminlər arasında oxşarlıq var, yəni onlar eyni mənaya malikdir və ola bilsin ki, istifadəçilərin geniş dairəsi həmin terminlərdən istifadə edə bilər. Daha yüksək xüsusi tələbatlar olduqda, məsələn, verilənlər bazasının və araşdırma modelləşdirmənin yaradılması üçün istifadəçilərə konseptual model və təsnif etmə strukturu elementlərinin terminoloji cəhətdən aydın şəkildə eyniləşdirilməsi xüsusən vacibdir. Hər nə isə, bu cür yanaşma ilə təmin olunan dəqiqlik və təmizlik oxşayır ki, FBT-ın faydasını azalda bilən abstraksiya dərəcəsilə ödənilmiş qiymətə dəyməz, yaxud da ki, bu təsnifatın potensial istifadəçilər diapazonunu məhdudlaşdırmaq daha vacibdir.

# Əlavə 2

## FBT KODLAŞDIRMASI ÜZRƏ MƏSLƏHƏTLƏR

FBT sağlamlıq və sağlamlıqla bağlı müxtəlif göstəricilərin kodlaşdırılması üçün nəzərdə tutulmuşdur.[20] Kodlaşdırma üzrə Qayda və məsləhətlərin öyrənilməsinə başlamazdan əvvəl istifadəçilərə FBT girişi ilə tanış olmaq məsələhət görülür. Bundan əlavə, istifadəçilərə ÜST və onunla əməkdaşlıq edən mərkəzlər sistemi üzrə təsnifatdan istifadə etmə təlim kursunu keçmək məsləhət görülür.

İstifadə zamanı nəzərdə tutulmalı təsnifat xüsusiyyətləri aşağıda verilmişdir.

### 1. Təşkil və struktur

***Təsnifat hissələri***

FBT iki hissədən ibartədir.

1-ci hissə növbəti tərikb hissələrlə təsivr edilmişdir:

- orqanizmin funksiyaları və orqanizmin strukturları
- aktivlik və iştirak.

2-ci hissə növbəti tərikb hissələrlə təsivr edilmişdir:

- Ətraf mühit amilləri
- Şəxsi amillər (hal-hazırda FBT-da təsnif edilməyib) .

Bu tərkib hissələr hər bir kodlu işarə üçün hərfi artırmalara malikdir:

- ***b*** orqanizmin funksiyaları üçün;
- ***s*** orqanizmin strukturları üçün;
- ***d*** aktivlik və iştirak üçün;
- ***e*** ətraf mühit amillər üçün.

***d*** artırması aktivlik və iştirak tərkib hissələri çərçivəsindəki domenləri bildirir. İstifadəçinin istəyinə görə, ***d*** artırması aktivlik və iştirak tərkib hissələrinə müvaifq olaraq ***a*** və ***p*** ilə əvəz edilə bilər.

[20] Burada xəstəlik kodlaşdırılmır. Bunun üçün Xəstəliklərin və sağlamlıqla bağlı problemlərin beynəlxalq statistik təsnifatının 10-cu baxılışı (XBT-10) nəzərdə tutulub ki, xəstəliklər və sağlamlıqla bağlı digər problemlər üzrə ölüm və xəstələnmə göstəricilərinin qeydiyyatını, təhlilini, şərhini və müqayisəsini aparmağa imkan verir. İstifadəçilərə məsləhət görülür ki, FBT-nı XBT-10 ilə birgə istifadə etsinlər (bax: Giriş – təsnifatlar arası uyğunluğa aid hissə, səh....).

b, s, d və e hərfləri bölmənin (bir rəqəm) sıra nömrəsi ilə başlanan say kodu ilə müşaiyət olunur, sonra ikinci səviyyə (iki rəqəm), ardından üçüncü və dördüncü[21] (hər birinə bir rəqəm olmaqla) səviyyələr əmələ gəlir.

Məsələn, orqanizmin funksiyalarının təsnifi növbəti kodalara malikdir:

| | | |
|---|---|---|
| b2 | duyğu funksiyaları və ağrı | (birinci səviyyənin işarəsi) |
| b210 | görmə funksiyaları | (ikinci səviyyənin işarəsi) |
| b2102 | görmə keyfiyyəti | (üçüncü səviyyənin işarəsi) |
| b21022 | kontrast həssaslıq | (dördüncü səviyyənin işarəsi) |

İstifadəçinin tələbatlarından asılı olaraq, hər bir səviyyədə uyğun kodların istənilən rəqəmi istifadə edilə bilər. Fərdin vəziyyətinin təsviri üçün hər bir səviyyədə bir koddan daha artıq koddan istifadə etmək məqsədəuyğun ola bilər. Kodlar müstəqil və qarşılıqlı əlaqəli ola bilər.

FBT-da insan sağlamlığının göstəriciləri təsnifat tərkibinə aid olan bir çox domenlərin kodları ilə verilə bilər.

Bölmələr səviyyəsində mövcud kodların maksimal sayı 34 ola bilər (məsələn, orqanizmin funksiyalarının – 8 kodu, orqanizmin strukturlarının – 8 kodu, reallaşdırma – 9 kod, potensial qabiliyyət – 9 kod), ikinci səviyyədə – 362. Üçüncü və dördüncü səviyyələrdə təsnifatın tam versiyasını təsvir edən 1424 kod mümkündür. Real həyatda FBT-dən istifadə zamanı detallaşdırılmanın ikinci səviyyəsinə (3 rəqəm) qədər vəziyyətin adekvat qiymətləndirilməsi üçün 3-dən 18-ə qədər kodlardan istifadə etmək lazım gələcək. Adətən daha ətraflı 4 səviyyəli versiya xüsusi tədqiqatlar üçün nəzərdə tululmuşdur (məsələn, heriatriya və ya psixiatriyada reabilitasiyanın effektivliyinin tədqiqində). İki səviyyəli təsnifat isə geniş tədqiqatlarda və müalicənin səmərəliyinin qiymətləndirilməsində istifadə edilə bilər.

Domenlər hadisənin qeydiyyat nöqtəsi olan hazırki ana (yəni görülənin təsbit edilməsi anına) uyğun olaraq kodlaşdırılmalıdır. Lakin prosesin zaman ərzində inkişafı trayektoriyasının təsvir edilməsi üçün və öz mahiyyəti etibarı ilə zaman daxilində dəfələrlə kodlaşdırmadan istifadə edilməsi mümkündür. Onda istifadəçilər öz kodlaşdırma üsullarını və istifadə edilən zaman çərçivələrini bir-birinə uyğunlaşdırmalıdırlar.

***Bölmələr***

Hər bir təsnifat tərkibi – ümumi kateqoriya və spesifik mənalara malik bölmələrdən və domen başlıqlarından ibarətdir.

Məsələn orqanizmin funksiyalarına aid edilən Bölmə 1-də bütün əqli funksiyalar təsvir edilmşidir.

[21] Yalnız orqanizmin funksiyalarının və strukturlarının təsnifatı dörd səviyyəli detallaşdırmadan ibarətdir.

***Bloklar***

Bölmələr bloklara bölünür. Məsələn, Fəallıq və iştirak təsnifatının 3-cü bölməsi olan - ünsiyyət üç blokdan ibarətdir: ünsiyyət zamanı məlumatların dərk olunması (d310-d329), ünsiyyət – məlumatların tərtib olunması və şərh edilməsi (d330-d349), rabitə vasitələrindən və ünsiyyət texnikalarından istifadə etməklə söhbət və ünsiyyət (d350-d369). Bloklar rahatlıq üçün ayırılmışlar və onlar tərkib hissəsi deyil və adi halda kodlaşdırma məqsədi üçün istifadə edilməməlidir.

***Kateqoriyalar***

Hər bir bölmə çərçivəsində ayrıca iki, üç, dörd –səviyyəli kateqoriyalar vardır. Onlar müvaifq kod seçməyə köməklik edən qısa təyinlərə, müvafiq daxil edilmələrə və çıxarılmalara malikdir.

***Təriflər***

FBT yerli və ya jarqon təriflərin əksinə olaraq, sağlamlıq kateqoriyalarına və sağlamlıqla bağlı kateqoriyalara praktiki təriflər verir. Bu təriflər hər bir domenin əhəmiyyətli atributlarını təsvir edir (məsələn, keyfiyyət, xüsusiyyət, qarşılıqlı əlaqə) və hər bir kateqoriyaya nəyin daxil olması və ya çıxarılması haqqında informasiyanı əks etdirir. Təriflər həmçinin geniş tədqiqatlarda və sorğularda tətbiq edilməsi üçün və ya alternativ olaraq, qiymətləndirmə vasitələrinin nətcələrinin FBT terminləri ilə kodlaşdırılması üçün istifadə edilə biləcək reper qiymətləndirmə nöqtələrinə malikdir. Məsələn, görmə itiliyinin funksiyaları uzaqda və yaxında monokulyar və binokulyar görmə itiliyi terminlərində müəyyən edilmişdir ki, buna əsasən görmə itiliyinin pozulması mövcud olmayan, əhəmiyyətsiz, sadə, orta ifadə edilmiş və ya tam formada kodlaşdırıla bilər.

***Daxil edilib terminləri***

Qoşulma terminləri kateqoriyaların təyinlərindən sonra təqdim edilir. Onlar kateqoriyaınn məzmunu ilə tanışlığı təmin etmir və müəfəssəl deyildir.

İkinci səviyyənin daxil edilməsi onun altında olan üçüncü səviyyənin bütün daxil edilmələri özündə cəmləşdirir.

***Çıxarılıb terminləri***

Çıxarılma terminləri digər terminlərlə oxşarlıq səbəbindən kodlaşdırma üçün çətinlik törədə bilərdi. Məsələn, «fizioloji göndərişlər» kateqoriyası «Bədən hissələrinə qulluq» kateqoriyasına daxildir. Onları öz aralarında fərqləndirmək üçün, «fizioloji göndərişlər» d520 «bədən hissələrinə qulluq» kateqoriyasından çıxarılmış və d530.

***Digər dəqiqləşdirilmiş***

Hər bir müəyyən üçüncü və ya dördüncü səviyyələrin qruplarının sonunda «digər dəqiqləşdirmələr» kimi işarə edilmiş (son – 8 rəqəmi üzrə eyniləşdirilən) kaktqoriyalar

mövcuddur. Kodlaşdırma zamanı onlar istənilən dtgər kateqoriyalarda qeyd edilməyən inkişaf aspektlərini nəzərə almaq imkanı yaradır. «Digər dəqiqləşdirmə» kateqoriyasının seçimi halında, istifadəçi əlavə olaraq nəyi nəzərdə tutduğunu dəqiqləşdirməlidir.

***Dəqiqləşdirilməmiş***

Hər bir müəyyən üçüngü və ya dördüncü dərəcələrin qruplarının sonunda hər fəsilin (bölmənin) sonunda son kateqoriyalar «dəqiqləşdirilməyən» kimi müəyyən edilmşidir, bu da kodlaşdırma zamanı müəyyən qrup çərçivəsinə uyğun gələn funksiyaları nəzərdə tutmaq imkanı verir, imkan olmadıqda isə informasiyanın kifayət qədər olmaması ilə əlaqədar olaraq onlar hər-hansı bir daha müəyyən edilmiş kateqoriyalara adi edilir. Hazırki kod hər-hansı bir əlavə informasiya olamdan («digər dəqiqləşdirmə» və «dəqiqləşdirməyənlər» kateqoriyalar üçün bloklar birləşdirilmişdir, onlar həmişə son – 9 rəqəmi ilə eyniləşdirilir) yuxarıda yerləşən ikiknci və üçüncü dərəcələrin terminlərinin malik olduğu mahiyyətə malikdir.

***Təyinedicilər***

FBT kodları sağlamlıq və ya problem ifadəsi səviyyəsini ifadə edən bir və ya daha çox təyinedicilərin istifadəsini tələb edir. Təyinedicilər bölücü nöqətədənq sonra bir, iki və ya daha çox rəqəm sayı ilə krodlaşdırılır. İstəinlən kod növün tətbiq edilməsi heç olmasa bir və ya daha çox təyinedicinin istifadəsini tələb edir. Təyinedicilər olmadan kodlaşdırmanın mənası yoxdur (bu halda ÜST kodların doldurulmamasının xxx.00 problemlərin olmaması kimi şərh edir).

Orqanizm funksiyası və strukturu üçün birinci təyinedici, aktivlik və iştirak (fəaliyyət) üçün realizasiya və potenisal qabiliyyət üçün birinci təyinedicilər və ətraf mühit amili üçün birinci təyinedici problem dərəcəsini ona tərkib dərəcə ilə təsvir edir.

Bütün tərikblər vahid bir şkalanın köməyi ilə ölçülür.

Tərkibdən asılı olaraq problemlərin mövcüdluğu – imkanların pozulmasını, məhdudulaşdırılmasını, və ya məhdudlaşdırma və maneəni bildirir. Müvafiq təsnifat domeninə aşağıda mötərizədə göstərilən uyğun təyinedici sözlər seçilməlidir (xxx işarəsi ikinci dərəcə domeni kodunun əvəzinə durur):

| | |
|---|---|
| xxx. 0 YOX problem (heç bir, mövcud deyil, əhəmiyyətsiz…) | 0-4% |
| xxx. 1 ASAN problemlər (əhəmiyyətsiz, zəif…) | 5 -24% |
| xxx. 2 MÜLAYİM problem (orta,əhəmiyyətlt...) | 25-49% |
| xxx. 3 AĞIR problemlər (yüksək, intensiv…) | 50-95% |
| xxx. 4 MÜTLƏQ problemlər (tam ...) | 96-100% |
| xxx. 8 müəyyən edilməmişdir | |
| xxx. 9 tətbiq edilməmişdir | |

Faiz mənaların geniş diapazonu - ətraf mühitin baryeri və ya pozuntular və məhdulaşdırmalar dərəcəsinin, amillərin miqdar (kəmiyyət) ölçüləri üçün ayrılmış qiymət metodikası və ya digər standartlara aid edildiyi hallar üçün verilmişdir. Məsələn, «problemlərin olmaması» və ya «Mütləq problemlər» müəyyən edildiyi hallarda, səhfə yalnız 5 % hüdudlarında yol verilir.

«Mülayim problemlər» adətən müvəqqəti xarakteristikaların yarısını təşkil edir və ya mütləq çətinliklər şkalasının yarısına çatır. Müxtəlif domenlərdə müəyyən edilən faiz qiyməti (məna, əhəmiyyət), ümumi populyasiya standartları ilə müqayisədə persentildə təqdim edilməlidir. Bü miqdar (kəmiyyət) işarələrinin təyin edilməsi unifikasiya edilməli (vahid şəklə salınmalı), qiymət metodikalarını tədqiqatın gedişində işləyib hazırlmalıdır.

«Ətraf mühit amilləri» tərkibi halında birinci təyinedici ətraf mühit amiliərinin və ya asanlaşdırma (yüngülləşdirmə) amillərinin pozitiv təsirinin ölçülərinin ifadə edilməsi üçün istifadə edilə bilər.

Sanlaşdırma (yüngülləşdirmə) amillərinin təsvir edilməsi (ifadə edilməsi) həmin 0-4 şkalası istifadə edilə bilər, lakin onda onluq kəsri müsbət (+) işarəsi ilə əvəz edilir; məsələn, e110+2. Ətraf mühit amilləri aşağıdakı kimi kodlaşdırıla bilər:

a) hər bir tərkibə münasibətdə ayrı;

b) tam şəkildə, ayrı tərkiblə əlaqədə olmadan (fəsil 3 baz).

Birinci variant daha çox üstünlük verilir, çünki təsiri və əlamətləri daha dəqiq eyniləşdirir.

***Əlavə təyinedicilər***

Müxtəlif istifadəçilərə hər bir punktun kodlaşdırılması zamanı digər növ informasiyanın əlavə edilməsi zəruri və faydalı olardı. Sonradan göstərilən kimi, bir çox potensial münasib əlavə təyinedicilər mövcuddur.

***Pozitiv aspektlərin kodlaşdırılması***

İstifadəçinin mülahizəsinə görə fəaliyytəin müsbət aspektlərini əhatə edən kodlaşdırma üçün şkalalar işlənib hazırlana bilər:



# 2. ƏSAS KODLAŞDIRMA QAYDALARI

Təsnifat tətbiqi və informasiyaınnı dəqiq istifadəsi üçün növbəti qaydalara riayət etmək lazımdır.

### *FƏRDİ PROFİLİN YARADILMASI ÜÇNÜ KODLARIN MƏCMUSUNUN SEÇİMİ*

FBT sağlamlıq göstəricilərini və sağlamlıqla bağlı götəriciləri təsnif edir və ona görə insan fəaliyytəinin proiflini daha yüksək səviyyədə təsvir edən bir sıra kodların tətbiq edilməsini tələb edir.

FBT – sağlamlığın spesifik dəyişikliklərinin bir kodla təsnif edildiyi IDC-10 kimi «hadisələrin təsnifatı» deyildir. Çünki insan fəaliyyəti orqanizm, individ (fərd) və sosial dərəcədə (səviyyəsində) dəyişə bilməz, istifadəçi həmişə təsnifatın bütün tərkibini, məhz isə: orqanizm funksiyası və strukturunu, ətraf mühitin amillərini, fəallıq və iştirak amillərini nəzərə almalıdır. Halbuki hər halda bütün kodların istifadə edildiyni gözləməyin mənası yoxdur. Şəratidən aslılı olaraq istifadəçi hazırki sağlamlıq durumunu təsvir etmək məsqsədi ilə daha əhəmiyyətli kodlar seçəcəkdir.

### *TƏLƏB OLUNUN İNFORMASİYANIN KODLAŞDIRILMASI*

İnformasiya həmişə sağlamlığın dəyişikliyi kontekstində kodlaşdırılır. Halbuki, koddan istifadə etmək üçün, sağlamlıq dəyişikliyi və fəaliyyət və təbii həyat fəaliytəinin kodlaşrılımış aspekləri arasındakı əlaqəni izləmək vacib deyil. FBT sağlamlıq təsnifi rolunda çıxış edir və ona görə sağlamlığın hər-hansı bir dəyişikliyin olmasını ehtimal edir. Ona görə individin nə etmək istədiyi və yaxud etmədiyi haqqındakı informasiya sağlamlıq dəyişikliyi ilə bağlı olan fəaliyyət problemi ilə əlaqəli deyil və ona görə kodlaşdırılma tələb etmir. Məsələn, əgən hər hansı bir insan qonşuları ilə sağlamlıqla bağlı olmayan səbəblərə görə yeni münasibətlər başlamaq arzusunda deyilsə, onda münasibətlər inkişafı üzrə hərəkətləri daxil edən d720 kateqoriyasın istifadə etmək məsləht deyil. Və əksinə, əgər insanın qərarı sağlamlığındakı hər-hansı bir dəyişikliklə bağlıdırsa, onda (məsələn, depresiya), onda bu kod istifadə edilməlidir.

İnsanın harasa və yaxud nəyə sə cəlb edilməsini və yaxud fəaliyyat dərəcəsindən məmnunluğunu təsvir edən informasiya hal-hazırda FBT- dakodlaşdırılmır. Sonrakı tədqiqtaların nəticəsində isə həmin bu kateqoriyanı kodlaşdıra biləcək əlavə təyinedicilər yarana bilər.

Yalnız təsbit edilmiş müvəqqəti çərçivələrə adid edilən insan fəaliyytəinin aspektləri kodlaşdırılmalıdır. Əvvəl gələn hadisələrə aid olanların carilərərlə heç bir əlaqəsi olmadığından qeyd edilməməlidirlər.

### *AŞKAR İNFORMASİYANIN KODLAŞDIRILMASI*

Kodlaşdırma zamanı istifadəçi orqanizm funksiyasının pozulması, fəallıq məhduduluğu və ya iştirak (fəaliyyət) imkanı məhduduluğu ilə qarşılıqlı əlaqələrə aid olan rəylər irəli sürməməlidir. Məsələn, əgər insanın hərəkətində məhdudluq müşaiytə edilirsə, onda insanın hərəkət funksiyasında pozulma olduğu nəticəsinə gəlmək doğru deyil. Analoji olaraq, hərəkətdə potensial

qabiliyyətin və realizasiyanın zəifləməsi bir birindən asılı olmayaraq toplanmalıdır. Bəzi hallarda məsələn, əqli funksiyaların tədqiq edilməsində olduğu kimi ikinci dərəcəli müşahidələr tələb olunur, çünki orqanizmn bu funksiyaları bilvasitə qeydiyyata düşmək imkanına malik deyil.

***SPESİFİK İFNORMASİYANIN KODLAŞDIRILMASI***

Sağlamlıq göstəriciləri və sağlamlıqla bağlı göstəriciləri daha münasib FBT kateqoriyasının köməyi ilə müfəssəl (təfsilatı ilə) qeyd edilməlidir.

Məsələn, gecə korluğu olan insanlar üçün daha uyğun  kd –b21020- iışq həssaslığı. Laikn, əgər hər-hansı bir səbəb üzündən bu detallaşdırma dərəcəsi tətbiq edilə bilmirsə, onda iyerarxiya üzrə müvafiq «köklü» koddan istifadə etmək mümkündür ( bu halda b2102 – görmə keyfiyyəti, b12 - görmə funksiyası, və yaxud b2 – sensor funksiya və ağrı).

Müvaifq kodu daha tez və asan şəkildə eyiləşdirmək üçün, FBT – Brouzer –dən istifadə etmək məsləhət görülür. Alternatvi olaraq hərfi indeks də istifadə oluna bilər.

## 3. ƏTRAF MÜHİT AMİLLƏRİNİN TƏRKİBİNİN KODLAŞDIRMA ÜSULU

Ətraf mühit amillərinin kodlaşdırılması üçün aşağıda göstərilən 3 (üç) üsul müvafiqdir:

1 üsul

Ətraf mühit amilləri funksiya kodu, orqanimz strukturu və fəaliyyət aktivliyi ilə əlaqədən kənar kodlaşdırılır.

Orqanizm funksiyaları ________________________

Orqanizm strukturları ________________________

Fəallıq və iştirak (inkişaf) ________________________

Ətraf mühit ________________________

2 üsul

Ətraf mühit amilləri hər bir tərkib üçün kodlaşdırılır:

Orqanizm funksiyaları _____________ E kod _____

Orqanizm strukturları _____________ E kod _____

Fəallıq və iştirak (inkişaf) _____________ E kod _____

3 üsul

Ətraf mühit amilləri «fəalıq və iştirak» tərkibinin hər bir punktu üzrə «potensial qabiliyyət» və «reallaşma» təyinediciləri üçün kodlaşdırılır.

Realizasiya təyinedicisi __________________ E kod _____

Potensial qabiliyyət təyinedicisi ___________ E kod _____

# 4. AYRI-AYRI TƏRKİBLƏR ÜÇÜN KODLAŞDIRMA QAYDALARI
## 4.1. Orqanizm funksiyasının kodlaşdılıması

Təyinlər

Orqanizm funksiyaları – orqanizm sisteminin fizioloji funksiyarıdır (psixiki funksiyalar da daxil olmaqla). Pozulmalar – funksiya və ya strukturda yaranan əhəmiyyətli dərəcədə geridə qalma və ya itki (zərər) kimi problemlərdir.

Orqanimz funksiyaları təyinedicilərinin istifadəsi

Orqanimz funksiylaraı – pozulmanın dərəcəsi və böyüklüyünu təyin müəyyən edən bir təyinedici ilə kodlaşdırılır. Pozuma halı bunlardır: itki və olmama; zəifləmə (azalma); əlavə və artıqlıq; geridə qalma.

insan funksiyasının (Gemiparezlə) pozulması bədənin bir təraifnin əzələ qüvvəsi - b7302 kodu ilə təsvir edilə billər:

pozulmannı ifadəsi
(birinci təyinedici)

b7202. __

Funksiya pozusı hallarının qeydiyyata alınma halında ümumi təyinedici kütləsini istifadə edərək onu ifadə etmək olar. Məsələn:

B7302.1 ASAN bədənin bir tərəfinin əzələ qüvvəsinin ASAN pozulması (5-24% qədər)

B7302.2 MÜLAYİM bədənin bir tərəfinin əzələ qüvvəsinin MÜLAYİM pozulması (25-49% qədər)

B7202.3 AĞIR bədənin bir tərfiənin əzələ qüvvəsinin AĞIR pozulması (50-95% qədər)

B7302.4 MÜTLƏQ bədənin bir tərfiənin əzələ qüvvəsinin MÜTLƏQ pozulması (96-100% qədər)

Funksiya pozulmalarının olmamasını (müəyyən edilmiş dərəcə üzrə) «0» indeksi ilə işarə edirlər. Məsələn:

B7302.0 YOXDUR bədənin bir tərfiənin əzələ qüvvəsinipnozulması YOXDUR

Əgər mövcüd informasiya funksiya pozulmalarının ifadəsini müəyyən etmək üçnü kifayət deyilsə, onda «8» indeksi istifadə edilməlidir. Məsələn, əgər insan sağlamlığı qeydində sorakı detallaşma olmadan insanda bədənin sağ tərəfinin zəifliyi haqqında deyilmişsə, onda növbəti kod istifadə edilə bilər:

B7302.8 bədənin bir tərfiənin əzələ qüvvəsinin pozulması müəyyən edilməmişdir

Spesifik kodun tətbiq edlmə imkanı olmadığı hallar yarana bilər. Məsələn, kod b650 –qadınlar üçün menstrual funksiyalar onun müəyyən yş həddinə çatdıqda münasib deyildir (və yaxud ondan sonra pre-menarx və ya menopauzda). Bu hallar üçün «9» indeksi nəzərdə tutulmuşdur.

B650.9 Menstrual funksiyalar münasib deyildir

Orqanizm funksiyası strukturunun uyğunluğu

Orqanizm strukturunun və orqanizm funksiyası təsnifatı bir birinə paralel yaradılmışdır. Orqanizm funksiyası kodu istifadə edildiyi zaman, istifadəçiyə hazırki halda müvafiq rqanizm strukturunun kodunun münaisb olub-olmamasını yoxlamaq lazımdır.

Məslən, orqanizm funksiysı əss insan hisslərini daxil edir, məsələn b210-b229 – Görmə və onunla bağlı funksiyalar, onlarnı struktur korrellyatları isə s210-230 – Göz və ona aid olan stukrturlar.

Pozulmalar arasında qarşıqılı əlaqə

Pozulmalar digər pozulmalara səbəb ola bilər: məsələn, əzələ qüvvəsinin pozulması səbəbindən həm də hərəkət funksiyaları pozula bilər. Ürək funksiyasının pozulması daxili nəfəs funksiyasına təsir göstərə bilər; qavrma isə təfəkkür funksiyasına toxuna bilər.

Orqanizm funksiyalarınnı pozulmasının eyniləşdirilməsi

Bilavasitə müşahidə olunmayan pozulmalar üçün (məsələn, əqli funksiyalar) istifadçi onların mövcudluğu və onların hərəkətinə nəzarət haqqında rəy çıxara bilər. Məslən, kliniki pratkikada yaddaş (xatirə) standartlaşdırılmış testlərin vasitəsi ilə qiymətlənidirilə bilər. Halbuki onlar əqli funksiyaları «görmək» imkanı vermir, laikn onların əsasında yaddaşın əqli funksiyalarının pozulmasını ehtimal etmək olar.

## 4.2 ORQANİZM STRUKTURUNUN KODLAŞDIRILMASI

Təyin

Orqanizm srukturu – əl-ayaq və onlarnı komponentləri, orqanlar kim anatomik orqanizm hissəssidir. Pozulmalar – funksiya və ya strukturda yaranan əhəmiyyətli dərəcədə geridə qalma və ya itki (zərər) kimi problemlərdir.

Təyinedicilərin orqanizm strukturunun kodlaşdırılması üçün istifadə edilməsi

Orqanizm sturkturları üç təyinedicilər vasitəsi iəl kodlaşdırılır. Birinci təyinedici pozulmaların dərəcəsini və ağırlığını (yüksəkliyini) ifadə edir, ikinci təyinedici dəyişikliyin xarakterinə işarə etmək üçnü istifad edilir, üçüncü təyinedici isə pozulmanın lokalizasiyasını ifadə edir.




Təqdim edlən sxemdə cədvəl 1 göstərilən üç təyinedici istifadə edilir.

**Cədvəl 1. Orqanizm strukturları üçün təyinedici tədricilliyi (sırası)**

| **Birinici təyinedici**<br>**Pozulmaların ifadəsi** | **İkinci təyinedici**<br>**Pozulmannı xarakteri** | **Üçüncü təyinedici**<br>**(ehtimal edilən)**<br>**Pozulmannı lokalizasiyası** |
|---|---|---|
| 0 YOXDUR pozulmalar yoxdur<br>1 ASAN pozulmalar<br>2 MÜLAYİM pozulmalar<br>3 AĞIR pozulmalar<br>4 MÜTLƏQ pozulmlar<br>8 müəyyən edilməmişdir<br>9 tətbiq edilməmişdir | 0 sturktur dəyişikliyi yoxdur<br>1 tam olmama<br>2 hissəli olmama<br>3 əlavə hissə<br>4 abberant geridə qalma<br>5 bütövlüyün pozulması<br>6 mövqenin dyişilməsi<br>7 strukturun keyfiyyə dəyişikliyi<br>8 müəyyən edilməmişdir<br>9 tətbiq edilməmişdir | 0 bir bölgədən çox<br>1 sağdan<br>2 soldan<br>3 hər iki tərəfdən<br>4 öndən<br>5 arxadan<br>6 proksimal<br>7 distal<br>8 müəyyən edilməmişdir<br>9 tətbiq edilməmişdir |

## 4.2. Aktivlik və iştirak (inkişaf) kodlaşdrılması

Təyinlər

Aktivlik (fəallıq, çalışqanlıq) – individ ətərfindən vəzifənin və ya hərəkətin həyata keçirilməsidir. İştirak – individin həyat hadisəsinə cəlb edilməsidir. Aktivliyn Məhdudluğu – aktivliyin həyata keçirilməsində individin keçirdiyi çətinliklərdir. İştirak imkanın məhduduluğu – individin həyat hadisələrinə cəb edildiyi zaman keçirə biləcəyi problemdir.

Aktivliyin və iştirakın təsnifi domenlərin bir siyahısı ilə təqidm edilmişdir.

Poetensial qabiliyyət və reallaşdırma təyinedicilərinin istifadə edilməsi

Aktivlik və iştirak iki təyinedicilərlə koalşdırılır: bölüşdürücü nöqtədən sonra birinci mövqeni tutan reallaşdırma təyinediciləri və bölüşdürücü nöqtədən sonra ikinci mövqei tutan potensial qabiliyyət təyinediciləri ilə.

Kateqoriyanı eyniləşdirən kod «aktivlik və iştirak» siyahısında və iki təyinedicilər arzu edlən informasiya paneli təşkil edirlər.

Reallaşdırma təyinedicisi (birinici təyinedici)

Kənar köməkçi olmadan potensial qabiliyət təyinedicisi (ikinci təyinedici)

S 45300 __ __ __

Reallaşdırma təyinedicisi individin onu əhatə edən ətraf mühitin çərçivəsində nə etdiyini təyin edir. Çünki real ətraf mühit sosial kontekstdə araşdırılır, reallaşdırma «həyat mövqesinə cəlb edilmə» və insanın aktual şəraitdə yaşadığı «həyat təcrübəsi» kimi başa düşülür. Bu kontekst – ətraf mühit amillərinin istifadəsi zaman kodalşıdırılan ətraf mühitin amillərini, yəni büiün fiziki, sosial mühit aspektlərini və münasibətlər dünyasını daxil edir.

Potensial qabiliyyət təyinedicisi individin hər-hansı bir məsələnin və ya hadisənin öhdəsindən gəlmə qabiliyyətini müəyyən edir. Bu parametr individin hazırki domendə və hal-hazırda əldə edə biləcəyi mümkün fəaliy ətin son dərəcəsinin ifadə edilməsi üçün nəzərdə tutulmuşdur. İndividin qabiliyyətinin qiymətləndirilməsi üçün, onun qabiliyytəinə müxtəlif mühitin qeyri-mənalı təsirini neytrallaşdırmaq üçün «standart» ətraf mühitə (əhatəyə) malik olmaq lazımdır.

Belə standart əhatəyə aşağıdakılar adi edilir:

a) daxilinədə adətən potensial qabiliyyətin testləşdirilməsi baş verən aktual dairə; b) mümkün olmayan hallarda, belə əhatə eyni təsir göstərən əhatə ola bilər. Belə əhatə «tipik» və ya «standart» əhatə adlana bilər. Beləiklə, potensial qabiliyyətindividin müəyyən şəraitdə üzə çıxan qabiliyyətini müəyyən edir. Bu müəyyən şəraitlər müxtəlif ölkə və insanlar üçün bir-birindən seçilməməlidir, bu da benəlxalq müqayisələrir aparılmasına imkan yaradır. Tipik və standart ətraf mühit (əhatə) şəraitinin xarakteristikasının dəqiqləşdirilməsi və artırılması üçün təsnifatda təqdim edlən ətraf mühit amilləri tərkiğinin istifadəsi zamanı kodlaşdırıla bilər. Potensial qabiliyyət və reallaşdırma arasında fərq real və tipik ətraf mühit amillərin təsirinin müxtəlifliyini əks edir və bununla individin reallaşdırılmasının tam təzahürünün məqsədi ilə ətraf mühtitin dəyişikliklərinin istiqamətini işarələndirir.

Potensial qabiliyyətinin təyinedicisi – individ qabiliyyətinin köməkçi vasitələrlə və ya kənar köməyin vasitəsi ilə gülənmədiyi uçotu ilə istifadə edilir. Bu zaman reallaşdırma təyinedicisi köməkçi vasitələrin mövcud olan əv olmayan aktual ətraf mühit amillərindən irəli gəlir.

Asanlaşdırıcı (yüngülləşdirici) amilərin və ya baryerinxarakteri ətraf mühit amiləlrinin təsnifatının istifadəsi ilə təsvir edəl bilr.

Qeyrimütləq təyinedicilər

Üçüncü və dördüncü (qeyrimütləq) təyinedicilər istifadəçiləri potensial qabiliyyətin kənar köməyin uçotu ilə, reaalaşmanı isə kənar köməkçi uçotu olmadan kodlaşdırılma imkanı ilə təmin edir.

Reallaşdırma təyinedicisi
(birinci təyinedici)

Kənar kömək olmadan potensial
qabiliyyət təyinedicisi
(ikinci təyinedici)

Kənar köməklə potensial qabiyyət
təyinedicsi
(üçüncü təyinedici)

Realaşdırmannı kənar köməksiz
Təyinedicsi
(dördüncü təyinedici)

D4500
İnformasiya paneli Qeyrimütləq

Beşinci rəqəmin mövqeyi gələcəkdə mövcud ola bəiləcək isifadçılər üçün qorunub saxlanıla bilər. Məsələn, cəlb etmə və ya subyekti məmunluq təyinedicisi.

Reallaşdırma təyinedicisi
(birinci təyinedici)

Kənar kömək olmadan potensial
qabiliyyət təyinedicisi
(ikinci təyinedici)

Kənar köməklə potensial qabiyyət
təyinedicsi
(üçüncü təyinedici)

Realaşdırmannı kənar köməksiz
Təyinedicsi (dördüncü təyinedici)

Əlavə təyinedici
(beşinci təyinedici)

D4500
İnformasiya panel Qeyrimütləq

Potensial qabiliyyət təyinedicisi kimi, realaşdırma təyinedicilərı də gələcəkdə köməkçi vasitələrin uçotu ilə və ya uçotu olmadan növbəti şkalaya uyğun oalraq istifadə edilə bilər.

Reallaşdırma təyinedicisi
(birinci təyinedici)




D4500
İnformasiya Qeyrimütləq
panel

Potensial qabiliyyət təyinedicisi kimi, reallaşdıroma təyinedicisi kimi də sonradan köməkçi vasitələrin uçotu ilə və ya onsuz, və yaxud növbəti şkalaya uyğun olaraq xəxsi köməklə istifadə edilə bilər. (xxx işarəsi ikinci dərəcə domeninin əvəzinə durur):

xxx. 0 YOXDUR çətinlik YOXDUR
xxx. 1 ASAN çətinliklər
xxx. 2. MÜLAYİM çətinliklər
xxx. 3 AĞIR çətinliklər
xxx. 4. MÜTLƏQ çətinliklər
xxx. 8 müəyyən edilməmişdir
xxx. 9 tətbiq edilməsmişdir

Reaalaşdırma təyinedicisini nə vaxt tətbiq etməli və yaxud potensial qabiliyyətin təyinedicisi

İstənilən təyinedici hər bir kateqoriya üçün istifadə edlə billər. Laikn kodlaşdırılmış informasiya hər bir halda müxtəlif olur. Hər iki təyinedicilər istifadə edildikdə, nəticə onlarnı ikisinində birləşməsi olur, yəni:
D4500. 2 _
D4500.21
D4500. _ 1.

Təyinedicilərin birinin istifadəsi halında doldurulmayan yer 8 və ya 9 indeksləri ilə doldurula bilməz. Onu boş saxlamaq lazımdır, çünki hər ikisi ikinci təyinedicinin olduğunu ehtimal edən qiymət raqına malikdir.

## DİGƏR TƏYİNEDİCİLƏRİN TƏTBİQ EDİLMƏSİ MİSALLARI

D4500 qısa məsafəyə yerimə

Reallaşdırmannı təiyn (müəyyən edilməsi) edilməsi üçün bu domen insanın real mühitdə müxtəlif şəraitlərdə, əl ağacının köməyi və dtgər köməkçi vasitələri ilə 1 (bir) kilometr məsafəsinə piyada hərəkət etməsinə aid edilir.

Məslən, istehsalda ayağını itirmiş və o vaxtdan əl ağacından istifadə edən insanın reallaşması «Yeriş» kateqoriyasında çətinləşdirilmişdir, çünki ətraf səkilər çox hündür və sürüşkən səthə malik olur, bu da aşağıdakı kimi kodlaşdırılır:

D4500.2 __qısa məsafələrə insanın yerişində reallaşma imkanının mülayim məhdudiyyətləri

Potensial qabiliyyətin müəyyən edilməsi üçün bu domen kənar kömək olmadan piyada hərəkət etmək qabiliyyətinə aid edilir. Ətraf mühitin müxtəlif amillərinin dəyişkən təsirini tarazlamaq üçün, qabiliyyət (bacarıq) standartlaşdırılmış dairədə (əhatə dairəsi) qiymətləndirilə bilər. Belə mühit (əhatə dairəsi) aşağıdakılar ola bilər: a) adətən potensial qabiliyyətin testləşdirilməsi baş verən aktual mühit; b) mümkün olduğu hallarda, belə mühiti eyni təsir göstərən mühit hesab etmək olar.
Məsələn, yuxarıda qeyd edilən insanın standart mühitdə əl ağacınnı köməyi olamdan həqiqi yerimə bacaoığı, (bir yastı və sürüşkən olmayan yer) çox məhdud olacaqdır. Ona görə individin potensial bacarıqğı növbəti cür kodlaşdırılacaqdır:

D4500 __3. Qısa distansiyalara yeriş zamanı potensial bacarığın ağır məhdudluğu

Realizasiya və ya potensial bacarıq təyinedicilərinin istifadəsində real və standart ətraf mühit şəraitlərini dəqiqləşdirməyə can atan istfiadəçilər, ətraf mühit amillərinin təsnifini istifadə etməlidir (baz yuxarıda fəsil 3, ətraf mühit amillərinin üçüncü kodlaşdırma üsulu).

4.4. ƏTRAF MÜHİT AMİLƏLRİNİN KODLAŞDIRILMASI

TƏYİNLƏR

Ətraf ümhit amilləri fiziki və sosial şərait, münasibətlər dairəsi və insanların yaşdıqları və vaxtlarını keçirdikləri qurğuları yaradır.

Ətraf mamillərin istifadəsi

Ətraf mühit amilləri – təsnifatın 2 hissəsinin tərkibidir (kontestk amilləri). Ətraf mühit amilləri hər bir fəaliyyət və kodlaşdırma tərkibi üçün ayrı-ayrılıqda baxılmalı və yuxarıda fəsil3 əks etdirilən üç üsullardan birinə müvafiq olaraq kodlaşdırılır.

Ətraf mühit amilləri haqqında söhbət edlən insan mövqeyindən kodlaşdırılmalıdır. Məslən, səki bordyursuz arabadan istifadə edən, eyni zamanda kor insan üçün bayer kimi individ üçün asanlaşdırıcı amil kimi kodlaşdırıla bilər.

---

Bəzi hallarda müxtəlif ətraf mühit amilləri kasıblıq, inkişaf, kənd və ya şəhər şəraiti və yaxud ictimai kapital kimi ümumi terminlərdə təsvir edələ bilər. Bu ümumləşdirilmiş terminlər təsnifatda öz əksini tapmamışdır. Lakin istifadəçi onların arasında ayrı-ayrı amilləri seçməli və kodlaşdırmalıdır. Bir daha qeyd etmək lazımdır Ki, ətraf mühit amillərinin siyahısını yuxarıda qeyd edilən mümumiləşdirici terminlərin əks etdirilməsi üçün istifadə edildiyi zaman nə qədər aydın və staiil olacağını müəyyənləşdirmək üçün gələcəkdədəbir daha tədqiqtaların aparılması ətləb olunacaqdır.

BİRİNCİ TƏYİNEDİCİ

Ətraf mühit amillərinin dərəcəsini bildirən neqativ və pozitiv şkalalı təyinedici asannlaşdırıcı və yaxud baryer kimi. Aşağıda göstərildiyi kimi bölmə nöqtəsi baryerlərə işarə edir, onun (+) işarəsinə əvəz edilməsi isə asanlaşdırıcı amillərə işarə edir (amil sahəsi).

| | |
|---|---|
| xxx. 0 YOXDUR baryer YOXDUR | xxx. 0 YOXDUR baryer YOXDUR |
| xxx. 1 ƏHƏMİYYƏTSİZ baryerlər | xxx. 1 ƏHƏMİYYƏTSİZ amillər sahəsi |
| xxx. 2 MÜLAYİM baryerlər | xxx. 2 MÜLAYİM amillər sahəsi |
| xxx. 3 İFADƏ EDİLMİŞ baryerlər | xxx. 3 İFADƏ EDİLMİŞ amillər sahəsi |
| xxx. 4 MÜTLƏQ baryerlər | xxx. 4 MÜTLƏQ amillər sahəsi |
| xxx. 8 müəyyən edilməyən baryer | xxx. 8 müəyyən edilməyən amillər sahəsi |
| xxx. 9 münasib deyil | xxx. 9 münasib deyil |

# Əlavə 3

## Fəallıq və iştirak etmə nomenklaturasından istifadə variantları

«Fəallıq və iştirak» terminlərin tərkib hissəsi müxtəlif fəaliyyətlərin və həyat dairələrinin işarə olunması üçün domenlərin bitərəf siyahısından ibarətdir. Hər bir domen bir-bir ümumi səviyyələrdən başlayaraq detallaşdırılmış səviyyələrə qədər bir-bir düzülmüş müxtəlif səviyyələr kateqoriyalarından ibarətdir (məsələn, 4-cü bölüm domeni – *Mobillik* (Hərəkətlilik, dəyişkənlik) d450 *Yerimə* və onun daxilində daha detallaşdırılmış bənddən, d4500 *Qısa məsafələrə yerimə* kimi kateqoriyalardan ibarətdir). Fəallıq və iştirak etmə domenlərin nomenklaturası həm individ səviyyəsində, həm də cəmiyyət səviyyəsində kodlaşdırılması mümkün olan fəaliyyətin tam dairəsini əhatə edir.

Girişdə qeyd olunduğu kimi, «fəallıq» və «iştirak etmək» kimi spesifik anlayışları işarə etmək üçün bu siyahı müxtəlif yolla istifadə oluna bilər. FBT-da bu anlayışlar aşağıdakı şəkildə müəyyən olunub:

Sağlamlıq kontekstində:

**Fəallıq** – individ tərəfindən hərəkət və vəzifələrinin yerinə yetirilməsidir.

**İştirak** – individin gündəlik həyat hadisələrinə cəlb olunmasıdır.

Sadalanan domenlər terminlərində (A) fəallıq və (P) iştirak etmə arasında münasibətlərin strukturlaşdırılması üçün dörd alternativ üsul var.

**(1) Fəallıq domenləri və iştirak domenləri topluları bir-biri ilə uyğun gəlmir (üst-üstə düşmür)**

Kateqoriyaların müəyyən olunmuş toplusu yalnız fəallıq, yəni invidin yerinə yetirdiyi vəzifələr və hərəkətlər kimi, digər topluisə – yalnız iştirak, yəni individin gündəlik həyat hadisələrinə cəlb olunması kimi koqdlaşdırılır. Bu səbəbdən, iki toplu bir-birinə münasibətdə istisna təşkil edir.

Bu variantda həm fəallıq kateqoriyaları, həm iştirak kateqoriyaları toplularının məzmunu istifadəçi tərəfindən müəyyən olunur. Kateqoriyalardan hər birisi hər hansı bir digərinin deyil, məhz ya fəallıq bəndi, ya da iştirak bəndi olur. Məsələn, domenləri aşağıdakı şəkildə bölmək olar:

| | | | |
|---|---|---|---|
| a1 | Öyrətmə və biliklərin tətbiqi | | |
| a2 | Ümumi vəzifələr və tələblər | | |
| a3 | Ünsiyyət | | |
| a4 | Sürətlə hərəkət etmə qabiliyyəti | | |
| | | p5 | Özünəxidmət |
| | | p6 | Məişət həyatı |
| | | p7 | Şəxsiyyətlərarası qarşılıqlı əlaqə |
| | | p8 | Həyatın əsas sahələri |
| | | p9 | Cəmiyyətlərdə həyat, ictimai və mülki həyat |

Bu strukturun kodlaşdırılması

*kateqoriyanın* **a** *kodu.* $\mathbf{q}_p$ $\mathbf{q}_c$ (**fəallıq** bəndi hesab edilən kateqoriya)

*kateqoriyanın* **p** *kodu.* $\mathbf{q}_p$ $\mathbf{q}_c$ (**iştirak** bəndi hesab edilən kateqoriya)

Burada $\mathbf{q}_p$ = özünü təsdiqləmə təyinedicisi və $\mathbf{q}_c$ = potensial qabiliyyət təyinedicisidir. Təsdiqləmə təyinedicisi istifadə olunduqda, kateqoriya özünün fəallıq və ya iştirak bəndi kimi işarə olunmasından asılı olmayaraq, o, özünü təsdiqləmə parametrinin terminlərində təfsir edilir; potensial qabiliyyət təyinedicisi istifadə olunduqda, kateqoriyanın fəallıq və ya iştirak bəndi kimi işarəsə olunmasından asılı olmayaraq kateqoriya potensial qabiliyyət terminlərində təfsir edilir.

Beləliklə, 1 saylı variant hər hansı təkrar və ya səhv olmadan tam məlumat panellə təmin edir.

**(2) Fəallıq domenləri toplusu və iştirak domenləri toplusu arasında cüzi təsadüf:**

Bu alternativdə kateqoriyaların bir hissəsi eyni zamanda fəallıq və iştirak kimi şərh edilə bilər, yəni eyni kateqoriya individ (individin yerinə yetirdiyi vəzifə və ya hərəkət kimi) və cəmiyyət (gündəlik həyat hadisələrinə cəlb olunma) mövqeyindən təsvir edilə bilər.

Məsələn:

| | | | |
|---|---|---|---|
| a1 | Biliklərin əldə edilməsi və tətbiqi | | |
| a2 | Ümumi vəzifələr və tələblər | | |
| a3 | Ünsiyyət | p3 | Ünsiyyət |
| a4 | Hərəkət etmə qabiliyyəti | p4 | Hərəkət etmə qabiliyyəti |
| a5 | Özünəxidmət | p5 | Özünəxidmət |
| a6 | Məişət həyatı | p6 | Məişət həyatı |
| | | p7 | Şəxsiyyətlərarası qarşılıqlı əlaqələr |
| | | p8 | Həyatın əsas sahələri |
| | | p9 | Cəmiyyətdə həyat, ictimai və mülki həyat |

*Hazırkı strukturun kodlaşdırılması*

Bu halda kateqoriyaların kodlaşdırılmasında məhdudiyyətlər var.

Üst-üstə düşən kateqoriyalar eyni təyinediciyə nisbətdə müxtəlif məna daşıya bilməz (həm birinci özünü təsdiqləmə təyinedicisi, həm də ikinci potensial qabiliyyət təyinedicisi üçün), məsələn:

| | | |
|---|---|---|
| a *kateqoriyası.* 1_ | və ya | a *kateqoriyası.* _1 |
| p *kateqoriyası.* 1_ | | p *kateqoriyası.* _2 |

Bu seçimi edən istifadəçi güman edir ki, kodlar əgər onlar iştirakda deyil, məhz fəallıqda və əksinə kodlaşdırılıbsa, üst-üstə düşən kateqoriyalarda müxtəlif məna daşıya bilər. Lakin məlumat panelinə müvafiq təyinedici sütunu üçün bir kod daxil edilməlidir.

**(3) Domenlərdə təsadüfi hallar mövcud olduqda və ya olmadıqda detallaşdırılmış fəallıq kateqoriyaları və geniş iştirak kateqoriyaları**

Müəyyən fəallıq və iştirak kateqoriyaları təriflərinin itsifadəsinə dair digər yanaşma domen daxilində iştirakı daha ümumi və geniş anlayışlara gətirib çıxarır (məsələn, bölmə başlıqları kimi birinci səviyyə kateqoriyaları) və daha detallaşdırılmış (ətraflı şərh olunmuş) kateqoriyaları fəallığa aid edir (məsələn, üçüncü və ya dördüncü səviyyəli kateqoriyaları). Bu yanaşma bəzi və ya bütün domenlərdə kateqoriyaları geniş və ya dar mənadan asılı olaraq bölür. İstifadəçi bəzi domenləri tamamilə (bütün detallaşma səviyyələrində) fəallığa və ya iştiraka aid edilən domenləri kimi hesaba ala bilər.

Məsələn, d4550 Sürünmə fəallıq kimi, halbuki d455 Yerimədən fərqlənən üsullarla hərəkət etmə kimi qiymətləndirilə bilər.

Bu üsulun iki mövcud tətbiqi yolu mövcuddur: a) kateqoriyaların üst-üstə düşməsi müşahidə olunmur, yəni bənd fəallığa aid olursa, bu iştirak deyil; b) üst-üstə düşmə müşahidə oluna bilər, ona görə ki, bəzi istifadəçilər bütün siyahını fəallıq kimi, yalnız geniş mənaya malik olan başlıqları isə iştirak kimi, istifadə edə bilər.

*Hazırkı strukturun kodlaşdırılması*

Variant 1 və ya variant 2-yə oxşar.

**(4) Bütün domenlərin həm fəallıq həm də iştirak üçün istifadəsi, domenlərin tam üst-üstə düşməsi**

Bu variantda fəallıq və iştirak etmə siyahısının hər domeni həm fəallıq, həm də iştirak kimi qiymətləndirilə bilər. Hər kateqoriya şəxsi fəaliyyət (fəallıq) və ictimai fəaliyyət (iştirak) kimi izah edilə bilər.

Məsələn, d 330 *Nitq* həm fəallıq, həm də iştirak kimi nəzərə alına bilər. Səs tellərini itirmiş insana köməkçi olan qurğu vasitəsilə danışa bilər. *Potensial qabiliyyət və **özünü təsdiqləmə*** təyinedicilərin istifadəsi zamanı əldə olunmuş fikirlərə müvafiq olaraq bu şəxs aşağıdakı çətinliklərdən əziyyət çəkir:

> *Birinci təyinedici*
> Özünü təsdiqetmə prosesində orta çətinliklər
> (ehtimal ki, stress və ya digər insanların münasibəti
> kimi kontekst faktorları səbəbindən). → 2
>
> *İkinci təyinedici*
> Köməkçi qurğu olamadan potensial qabiliyyətin
> çox aşağı düşməsi → 3

*Üçüncü təyinedici*
Köməkçi qurğu vasitəsilə birgə potensial qabiliyyətin
cüzi aşağı düşməsi → 1

FBT məlumat panelinə müvafiq olaraq, bu şəxsin vəziyyəti aşağıdakı şəkildə kodlaşdırılır:

d330.231

(4) varianta müvafiq olaraq aşağıdakı kodlaşdırılma da istifadə oluna bilər:

a330.241
p330.2

4 saylı variantda özünü təsdiqləmə təyinedicisi və potensial qabiliyyət təyinedicisi istifadə olunduqda FBT-nin məlumat panelinin bir özəyində yerləşdirməsi üçün iki göstərici mövcuddur: biri fəallıq üçün, o biri isə iştirak üçün. Bu göstəricilər eyni mənanı ifadə edirsə, onda ziddiyyətlər deyil, həddən artıq çoxluq müşahidə edilir. Lakin eyni məna ifadə etməyən göstəriciləri müşahidə etdikdə, rəsmi ÜST kodlaşdırılması üslubu mövcud olduğundan istifadəçilər məlumat panelinin kodlaşdırılması üçün həlletmə alqoritmini işləyib hazırlamalıdırlar:

$q_p$ $q_c$ kateqoriyası d

Bu çoxluğun aradan qaldırılmasının mümkün üsulları arasında potensial qabiliyyət təyinedicisi fəallıq kimi, özünü təsdiqləmə təyinedicisi isə iştirak kimi nəzərə alına bilər.

Digər imkan «gündəlik həyat hadisələrinə cəlb edilmə»ni əhatə edəcək iştirak üçün əlavə təyinedicilərin işlənib hazırlanmasından ibarətdir.

Gözlənilir ki, FBT istifadə olunduqca və empirik məlumat toplanıldıqça yuxarıda qeyd olunan variantlardan hansının təsnifat istifadəçiləri üçün daha üstün olması bəlli olacaq. Empirik tədqiqatlar «fəallıq» və «iştirak» anlayışların istifadəsinə daha çox aydınlıq gətirəcək. Bu anlayışların müxtəlif şərtlərdə, müxtəlif ölkələrdə və müxtəlif məqsədlər üçün necə istifadə olunması haqqında məlumat bu sxemin sonrakı yenidən baxılması üçün ümumiləşdirilə bilər.

# Əlavə 4

## Misallar

Aşağıda FBT konsepsiyalarının müxtəlif şəraitlərdə tətbiqini əkas etdirən misallar verilib. Onlar istifadəçilərin təsnifatın və onun parametrlərinin əsas konsepsiyalarının istifadə üsullarını və təyinatını anlaması üçün kömək etmək məqsədilə nəzərədə tutulub. Əlavə məlumatı təlimatlardan (dərsliklərdən) və ÜST kurslarından əldə etmək olar.

**Potensial qabiliyyətin məhdudiyyətinə və özünü təsdiqləmə problemlərinə gətirib çıxarmayan pozulma:**

Uşaq dırnaqsız anadan olub. Bu anadangəlmə anomaliya strukturun (quruluşun) pozulmasından irəli gəlir və uşağın əlinin funksiyasına və yaxud uşağın bu əllə nəsə edə bilmək qabiliyyətinə heç bir təsir göstərmir; beləliklə, uşağın potensial qabiliyyəti aşağı düşmür. Analoji olaraq, özünün cəmiyyətdə yerini tapmaq problemləri olmaya bilər – məsələn, başqa uşaqlarla oynadığı zaman əgər onu acıqlandırmırlarsa və yaxud bu anomaliya səbəbindən oyundan xaric etmirlərsə. Ona görə də, uşaqda potensial qabiliyyətin aşağı düşməsi halı və yaxud özünün reallaşdırılması problemləri müşahidə olunmur.

**Potensial qabiliyyətin aşağı düşməsinə gətirib çıxarmayan, lakin özünü təsdiqləmə problemlərini əmələ gətirən pozuntular:**

Diabet xəstəliyindən əziyyət çəkən uşaqda funksiya pozuntuları mövcuddur: mədəaltı vəzin insulin ifrazetmə funksiyası adekvat deyil. Diabet medikamentoz üsulla, xüsusilə də insulin vasitəsilə nəzarət edilə bilər. Orqanizmin funksiyaları (insulinin səviyyəsi) idarə olunduğu zaman pozuntularla əlaqədar olan potensial qabiliyyətin aşağı düşməsi müşahidə olunmur. Lakin diabetli uşaq şəkərin istifadəsindən məhdudlaşdırılmağa məcbur olduğu üçün, çox guman ki, yoldaşları və yaxud tanışları ilə birlikdə qida qəbul etdiyi zaman cəmiyyətdə özünün reallaşdırılması problemləri ilə üzləşə bilər. Uyğun olan qidanın azlığı əngəl yaradacaq. Buna görə, əgər uşağın müvafiq məhsullarla təmin olunmasına zəmanət verən addımlar atılmasa, potensial qabiliyyətin məhdudiyyətləri olmadığına baxmayaraq uşağın onu əhatə edən real mühitdə cəmiyyətin həyatına cəlb olunması aşağı düşəcək.

Digər bir misal – hal-əhvalı ilə əlaqədar başqa şikayətlər olmadıqda üzündə vitiliqo olan individ. Bu kosmetik problem potensial qabiliyyətin aşağı düşməsinə səbəb olmur. Lakin individ vitiliqo səhvən cüzam kimi qiymətləndirilə bilən və bu səbəbdən yoluxucu xəstəlik hesab edilən yerdə yaşaya bilər. Buna görə də, individi həqiqətən əhatə edən ətraf mühitdə bu neqativ münasibət şəxsiyyətlərarası qarşılıqlı fəaliyyətdə əhəmiyyətli özünü təsdiqləmə problemlərinə gətirib çıxardan maneələr yaradacaq.

**Potensial qabiliyyətin aşağı düşməsinə gətirib çıxardan, şəraitdən asılı olaraq reallaşdırılma problemləri ilə müşayiət edilən və edilməyən pozuntular:**

Əqli inkişafdan mühüm dərəcədə geri qalma əqli bir pozuntudur. O, müxtəlif kateqoriyalarda individin potensial qabiliyyətinin müəyyən dərəcədə aşağı düşməsinə səbəb ola bilər. Lakin, ətraf mühitin faktorları həyatın müxtəlif domenlərində individin özünün reallaşdırılma dolğunluğuna təsir edə bilər. Məsələn, bu cür əqli pozuntusu olan uşaq ümumi populyasiya üçün çox da yüksək tələbləri olmayan ətraf mühitdə kiçik sıxıntı keçirə bilərdi, harada ki, uşaqdan sadə, təkrar olunan məsələlərin həyata keçirməsi tələb olunur. Belə bir ətraf mühitdə, müxtəlif həyat şəraitlərində uşaq özünü yaxşı reallaşdırır.

Rəqabətin və yüksək təlabatlar ətraf mühitində böyüyən belə bir uşaq isə əvvəlki uşaqla müqayisədə həyat müxtəlif vəziyyətlərində özünün reallaşdırılmasında daha çoxlu sayda problemlərlə üzləşə bilərdi.

Bu misal nəzərə alınmalı iki aspektə diqqət yetirir. Birinci aspekt – real mühitə uyğun olmalı individin fəaliyyəti müqayisə edilən populyasiya norması və yaxud standartdır. İkinci aspekt - ətraf mühit faktorlarının mövcud olması və yaxud olmamasıdır ki, bu da fəaliyyətə yüngülləşdirici və yaxud ləngidici təsir göstərə bilər.

**Potensial qabiliyyətin aşağı düşməsinə gətirib çıxartmayan, lakin reallaşdırılma problemlərini əmələ gətirən əvvəl baş vermiş pozuntu:**

Kəskin psixozdan sonra müalicə olunmuş, lakin ruhi xəstə damğasını almış individ insanların onların ətrafında mövcud olan neqativ münasibətlərə görə məşğulluq domenlərində və yaxud şəxsiyyətlərarası qarşılıqlı əlaqələrin reallaşdırılmasında problemlərlə üzləşə bilər. Bu səbəbdən onun məşğulluq prosesinə və ictimai həyata cəlb olunması ləngiyir.

**Oxşar reallaşdırılma problemlərin meydana gəlməsinə gətirib çıxaran potensial qabiliyyətin fərqlənən pozuntuları və zəifləmələri:**

İndivid (kvadriplegiya) (məsələn, əl klaviaturası ilə təchiz olunmuş kompüterdən istifadə) iş şəratləri ilə üyğunlaşmayan aşkar pozuntular səbəbindən işə qəbul edilməyə bilər. İş yeri xüsusən individin özünü reallaşdırılmasını yüngülləşdirmək üçün uyğunlaşdırılmayıb (məsələn, əl klaviaturasını əvəz etməyə imkan verən səsin təyin edilməsi proqram təminatı).

Cüzi ifadə olunmuş kvadriplegiya ilə başqa bir individ işlə bağlı vəzifələrin yerinə yetirilməsi üçün potensial qabiliyyətin sahibi ola bilər, lakin işlə təmin ola bilməz, çünki məhdudlaşdırılmış həyat fəaliyyəti olan şəxslərin işə qəbul faizi (kvotası) artıq üstələnib.

Çarxlı kreslodan istifadə etməklə düzələn (əlilliyi aradan götürülən) - fəallıq məhdudiyyəti olan, tələb olunan işin yerinə yetirilməsi üçün qabiliyyətinə malik olan, lakin iş yerin çarxlı kreslo üzərində hərəkət etmək üçün əlverişli olmadığından üçüncü individ işə qəbul edilə bilməz.

Nəhayət, çarxlı kreslodan istifadə edən individ işə qəbul edilə bilər, işin yerinə yetirilməsi və verilən şəraitdə onun öhdəsindən gəlmək üçün potensial 279 qabiliyyətə malikdir. Buna baxmayaraq, bu individ kolleqaları ilə şəxsiyyətlər arası qarşılıqlı fəaliyyət domenlərində özünü təsdiqetmə problemləri ilə qarşılaşa bilər, çünki iş fasiləsi zamanı istirahət yerlərinə daxil ola bilmir. Hal-hazırdakı vəziyyətdə iş yerində özünü cəmiyyətdə özünü təsdiq edə bilmək problemin bu cür daxil olunmaya şərait yaratmaqla qarşısını almaq olar.

Hər dörd individ sağlamlıqda baş verən dəyişikliklərlə və yaxud pozuntularla əlaqədə olan ətraf mühitin müxtəlif faktorları səbəbindən əmək məşğulluğu domenində özünü təsdiq etmə problemlərlə qarşılaşırlar. Birinci individ üçün iş yerinin uyğun olmaması və bəlkə də, mənfi münasibət kimi ətraf mühitin maneələri mövcuddur. İkinci individ həyat fəaliyyəti məhdudlaşdırılmış şəxslərin əmək fəaliyyətinə mənfi münasibətlə qarşılaşır. Üçüncü şəxs insan tərəfindən yaradılan ətraf mühitin əlverişli olmaması faktı ilə üzləşir, və sonuncu şəxs həyat fəaliyyətin ümumiyyətlə məhdudlaşdırılmasına qarşı neqativ münasibətlə rastlaşır.

**Potensial qabiliyyəti aşağı salmadan özünü təsdiqləmədə aşkar problemlər yarada biləcək şübhəli pozuntular:**

İndivid QİÇS xəstəliyindən əziyyət çəkən xəstələrlə işləmişdi. Bu individ sağlamdır, lakin vaxtaşırı HİV-yoluxma müayinəsindən keçməlidir. Onun potensial qabiliyyəti məhdud deyil. Buna baxmayaraq onu tanıyan insanlar onun virusla yoluxmuş olduğunu ehtimal edərək qorxur və buna görə ondan qaçırlar. Bu, sosial qarşılıqlı əlaqələr sahəsində, cəmiyyətdə, ictimai, mülki həyatda insanın özünü təsdiqləməsi prosesində mühüm problemlərin meydana gəlməsinə səbəb olur. Onun onu əhatə edən insanlar arasında müəyyən olunmuş qaydalar və mənfi münasibətlər səbəbindən onun cəlb olunması məhduddur.

**Hal-hazırda FBT-da təsnif edilməmiş, lakin özünü təsdiqləmə ilə bağlı problemləri ortaya çıxaran pozuntular:**

Qadının anası süd vəzisində olan xərçəngdən vəfat etmişdir. Bu qadın 45 yaşında könüllü olaraq skrininq (ekran) müayinəsindən keçmişdir və burada onun süd vəzisində xərçəngə genetik meyllilik aşkara çıxarılmışdı. Orqanizmin funksiyasında, strukturunda, potensial qabiliyyətində problemlərin olmamasına baxmayaraq, sığorta şirkəti onun süd vəzisindəki xərçəng riskinin yuksək olmasına görə onu sığortalamaqdan imtina edi. Sığorta şirkətinin siyasətinə görə domendə öz sağlamlığının qayğısına qalmasına cəlb olunması məhdudlaşdırılmışdır.

## *Əlavə misallar*

10 yaşlı oğlan «kəkələmə» diaqnozu ilə loqopedə göndərilmişdir. Müayinə zamanı dil dolaşması, inter- və intra-verbal tezləşmə, nitq ritmində problemlər (pozuntu) aşkar olunmuşdu. Məktəbdə də həmçinin ucadan oxuyarkən və danışıq zamanı problemlər müəyyən olunmuşdu (potensial qabiliyyətin enməsi). Qrup halda diskussiyalarda müzakirələr üçün heç bir təşəbbüs göstərmir, baxmayaraq o, bunu istəyirdi (domendə özünü təsdiqləmə problemi: «Çox sayda insanlarla

söhbət»). İctimai mühitdə qəbul olunmuş normalara və söhbətlərin aparılması praktikasına görə bu oğlanın söhbətə cəlb edilməsi məhduddur.

40 yaşlı qadın boyun nahiyəsindən aldığı travmadan dörd ay sonra boynunda olan ağrılardan, güclü baş ağrılardan, başgicəllənmədən, əzələ qüvəsinin zəifləməsindən və narahatlıqdan (pozuntusundan) şikayət edir. Onun gəzmək, yemək hazırlamaq, ev işləri ilə məşğul olmaq, kompüterdə işləmək və maşın idarə etmək qabiliyyəti məhdudlaşmışdır (potensial qabiliyyətin enməsi). Həkim məsləhətindən sonra birgə qərara alınmışdır ki, problemlər azalmayınca (yəni əmək məşğulliyəti domendə özünü təsdiqləmə problemləri) o, tam iş rejimi olan əvvəlki iş yerinə qayıtmaq məsələsi ilə bağlı gözləsin. Əgər məşğulluq siyasəti ona aman verərək onu faktiki olaraq əhatə edən ətraf mühitdə iş saatlarını dəyişmək və ona evdə işləməyə imkan verirsə, onda onun məşğulluq sahəsinə cəlb olunması yaxşılaşacaq.

# Əlavə 5

## FBT və məhdudlaşdırılmış həyat fəaliyyəti ilə olan şəxslər

FBT-yə yenidən baxılma prosesi məhdudlaşdırılmış həyat fəaliyyəti ilə olan şəxsləri və onların təşkilatlarını bu fəaliyyətdə iştirak etməyə cəlb etməklə ən əvvəldən çox qazanıb. Xüsusilə, FBT-də əks edildiyi kimi, yenidən baxılma prosesi Əlillərin Beynəlxalq Təşkilatı tərəfindən zənginləşdirilmişdir.

ÜST fəaliyyət və həyat fəaliyyətinin məhdudlaşdırılması təsnifatına yenidən baxılma prosesində məhdudlaşdırılmış həyat fəaliyyəti ilə olan şəxslərin və onların təşkilatlarının tam qiymətli iştirak etməsinin mühümlüyünü etiraf edir. Təsnifat kimi FBT bir çox elmi, kliniki, idarə etmə sahələrində və sosial siyasətdə həyat fəaliyyətinin məhdudlaşdırılmalarının həm tədqiqi, həm də qiymətləndirilməsi üçün əsas olacaq. Mühüm məsələlərdən biri odur ki, FBT məhdudlaşdırılmış həyat fəaliyyəti ilə olan şəxslərin mənafeyinə toxunmaq vasitəsi kimi istifadə olunmasın (Əlavə 6-nın etik tövsiyyələrinə bax).

O cümlədən, ÜST etiraf edir ki, ən yaxşı niyyətlərə baxmayaraq, təsnifatda istifadə edilən terminlər ləkə və ya damğa kimi qiymətləndirilə bilər. Bu şübhələrə görə və ingilis dilində eyni zamanda alçaldıcı məna daşımasına görə «sosial çatışmazlıq» terminini leksikondan tamamilə çıxarmağa və tərkib hissənin adı kimi «həyat fəaliyyətinin məhdudlaşdırırlması» terminindən istifadə etməməyə, bu termini yalnız ümumiləşdirici termin kimi istifadə etməyə qərara alınmışdır.

